ZAUR ƏLİYEV

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

Dərs vəsaiti

DEUTSCHE STIFTUNG FÜR INTERNATIONALE RECHTLICHE ZUSAMMENARBEIT E.V.

ALMANİYA BEYNƏLXALQ HÜQUQ ƏMƏKDAŞLIĞI FONDU

giz BMZ

Federal Ministry for Economic Cooperation and Development

AHİM
AZƏRBAYCAN HÜQUQ İSLAHATLARI MƏRKƏZİ
AZERBAIJAN LAW REFORM CENTRE

**ZAUR ƏLİYEV**

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

**Dərs vəsaiti**

*Azərbaycan Respublikası Təhsil Nazirinin 17 dekabr 2010-cu il tarixli 1647 saylı əmri ilə ali məktəblər üçün dərs vəsaiti kimi təsdiq edilmişdir*

***Justitia regnorum fundamentum***
***Ədalət mühakiməsi – dövlətin əsasıdır***

**Bakı – 2012**

**Elmi məsləhətçilər:**

**E.T.Süleymanova -** Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), professor;
**R.M.Valeyev -** Rusiya Federasiyasının əməkdar hüquqşünası, Kazan Federal Universitetinin Beynəlxalq hüquq və Avropa hüququ kafedrasının professoru, hüquq elmləri doktoru;
**L.H.Hüseynov -** İşgəncənin qarşısının alınması üzrə Avropa Komitəsinin sədri, hüquq elmləri doktoru, professor

**Rəyçilər:**

**Ə.İ.Əliyev -** Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq elmləri doktoru, professor;
**R.F.Məmmədov -** Bakı Dövlət Universitetinin Beynəlxalq ümumi hüquq kafedrasının müdiri, hüquq elmləri doktoru, professor;
**V.Ə.İbayev -** Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi, hüquq üzrə fəlsəfə doktoru

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 11 iyun 2009-cu il tarixli 142 saylı əmri ilə Bakı Dövlət Universiteti nəzdində 12.00.10 - «Beynəlxalq hüquq» ixtisası üzrə hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təşkil edilmiş Dissertasiya Şurasının 5 dekabr 2009-cu il tarixli 09 saylı, Bakı Dövlət Universiteti «Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» fakültəsi Elmi Şurasının 30 iyun 2010-cu il tarixli 06 saylı və Azərbaycan Respublikası Təhsil Nazirliyi Elmi-Metodik Şurası «Dövlət və hüquq» bölməsinin 13 dekabr 2010-cu il tarixli 18 saylı iclaslarının qərarları ilə dərs vəsaiti kimi çapa tövsiyə edilmişdir.

**Zaur Əliyev. Avropa İnsan Hüquqları Məhkəməsi. Dərs vəsaiti**.
Bakı, «AZSEA» nəşriyyatı, 2012, 232 səh.

Z $\frac{390010200 - 10}{093 - 2012}$

**ISBN 978-9952-8072-8-8**

Dərs vəsaitində Avropa İnsan Hüquqları Məhkəməsinin təşkili və fəaliyyətinin bir sıra nəzəri və praktik aspektləri işıqlandırılmışdır. Əsas diqqət Avropa İnsan Hüquqları Məhkəməsinin beynəlxalq hüquqi statusu, predmet, ərazi, şəxslərə, zamana görə yurisdiksiyası, həmçinin məsləhət rəyləri verməklə bağlı yurisdiksiyası, Avropa Məhkəməsinə müraciət edilməsi qaydası, şikayətlərə baxılma mexanizmi, Avropa Məhkəməsinin qərarları, onların hüquqi qüvvəsi və icrası, həmçinin qərarların milli hüquqa təsiri və bununla bağlı bir sıra digər məsələlərin şərhinə yönəldilmişdir. Eyni zamanda Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasının digər beynəlxalq hüquq müdafiə mexanizmlərinin yurisdiksiyaları ilə müqayisəli təhlili verilmişdir.
Kitab hakimlər, vəkillər, insan hüquqları müdafiəçiləri, elmi işçilər, habelə hüquqşünaslıq və beynəlxalq hüquq ixtisasları üzrə təhsil alan tələbələr üçün nəzərdə tutulmuşdur.

**© Əliyev Z.H., 2012.**

**ЗАУР АЛИЕВ**

# ЕВРОПЕЙСКИЙ СУД ПО ПРАВАМ ЧЕЛОВЕКА

**Учебное пособие**

**Баку – 2012**

**Научные консультанты:**

**Э.Т.Сулейманова** – Уполномоченный по правам человека (Омбудсман) Азербайджанской Республики, профессор;

**Р.М.Валеев** – Заслуженный юрист Российской Федерации, профессор кафедры международного права и Европейского права Казанского Федерального Университета, доктор юридических наук;

**Л.Г.Гусейнов** – Председатель Европейского Комитета по предупреждению пыток, доктор юридических наук, профессор

**Рецензенты:**

**А.И.Алиев** – декан юридического факультета Бакинского Государственного Университета, доктор юридических наук, профессор;

**Р.Ф.Мамедов** – заведующий кафедрой международного публичного права Бакинского Государственного Университета, доктор юридических наук, профессор;

**В.А.Ибаев** – судья Верховного Суда Азербайджанской Республики, доктор философии по юридическим наукам

Книга рекомендована к печати в качестве учебного пособия решениями заседаний № 9 от 5 декабря 2009 года Диссертационного Совета при Бакинском Государственном Университете по присуждению ученой степени кандидата юридических наук по специальности 12.00.10 – «Международное право», созданного приказом № 142 от 11 июня 2009 года Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики, а также № 6 от 30 июня 2010 года Ученого совета факультета международных отношений и международного права Бакинского Государственного Университета и № 18 от 13 декабря 2010 г. отделения «Государство и право» Научно-методического совета Министерства образования Азербайджанской Республики.

**Заур Алиев. Европейский Суд по правам человека. Учебное пособие**.
Баку, издательство «AZSEA», 2012, 232 стр.

$Z\,\frac{390010200 - 10}{093 - 2012}$

**ISBN 978-9952-8072-8-8**

В учебном пособии рассматриваются некоторые теоретические и практические аспекты организации и деятельности Европейского Суда по правам человека. Основное внимание уделено вопросам международно-правового статуса, предметной, территориальной, персональной и временной юрисдикции Европейского Суда, а также юрисдикции Суда по вынесению консультативных заключений. Освещены порядок обращения в Суд и механизм рассмотрения им жалоб. Исследованы вопросы о правовой природе и исполнении постановлений Европейского Суда по правам человека, влиянии этих постановлений на национальное право и др. В книге также проведен сравнительный анализ юрисдикций Европейского Суда и других международных правозащитных механизмов.
Книга рассчитана на судей, адвокатов, правозащитников, научных работников, а также студентов, обучающихся по специальностям «Правоведение» и «Международное право».

**© Алиев З.Г., 2012.**

**ZAUR ALIYEV**

# EUROPEAN COURT OF HUMAN RIGHTS

**Textbook**

**Baku – 2012**

**Academic advisers:**

**E.T.Suleymanova** – Commissioner for Human Rights (Ombudsman) of the Republic of Azerbaijan, Professor;

**R.M.Valeyev** – Honoured lawyer of the Russian Federation, Professor of International Law and European Law Department, Kazan Federal University, Doctor of legal sciences;

**L.H.Huseynov** – President of the European Committee for the Prevention of Torture (CPT), Doctor of legal sciences, Professor

**Reviewers:**

**A.I.Aliyev** – Dean of the Law Faculty, Baku State University, Doctor of legal sciences, Professor;

**R.F.Mammadov** – Chief of International public law department, Baku State University, Doctor of legal sciences, Professor;

**V.A.Ibayev** – Judge of the Supreme Court of the Republic of Azerbaijan, PhD

This book has been recommended for publication as a textbook by decision of 5 December 2009 of the Dissertation Council for appointing to the degree of PhD in the field of International Law set up at Baku State University pursuant to Order № 142 of 11 June 2009 of the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan, and by decision № 06 of 30 June 2010 of the Scientific Council of the International Relations and International Law faculty of Baku State University, as well as by decision № 18 of 13 December 2010 of the Section for State and Law of the Scientific-Methodic Council of the Ministry of Education of the Republic of Azerbaijan.

**Zaur Aliyev. European Court of Human Rights. Textbook**.
Baku, «AZSEA» edition, 2012, 232 pages.

Z $\frac{390010200 - 10}{093 - 2012}$ **ISBN 978-9952-8072-8-8**

The textbook deals with theoretical and practical aspects of the organisation and functioning of the European Court of Human Rights. Priority is attached to the international legal status of the Court, and the ratione materiae, ratione personae, ratione loci and ratione temporis jurisdictions of the Court, as well as the Court's advisory jurisdiction. The author also analyses such issues as the procedure for lodging applications with the Court, the examination procedure before the Court, the legal nature of judgments of the Court, the problem of execution of such judgments, their impact on the national law, etc. The jurisdiction of the European Court of Human Rights and that of other international human rights institutions are comparatively studied.
The textbook is intended for judges, defence lawyers, human rights activists, researchers, as well as for Law and International Law students.

**© Aliyev Z.H., 2012.**



**Əliyev Zaur Hümbət oğlu** - 29 yanvar 1980-ci ildə Azərbaycan Respublikasının Bərdə şəhərində anadan olmuşdur.

1996-cı ildə Bakı şəhəri 132 saylı orta məktəbi, 2000-ci ildə Bakı Dövlət Universiteti, «Beynəlxalq münasibətlər və beynəlxalq hüquq» fakültəsinin «Beynəlxalq hüquq» ixtisası üzrə bakalavr pilləsini, 2002-ci ildə həmin fakültənin magistratura pilləsini fərqlənmə diplomu ilə bitirmişdir. 2005-ci ildə həmin universitetin "Beynəlxalq hüquq" ixtisası üzrə qiyabi aspiranturasına qəbul olmuş, 2009-cu ildə aspiranturanı bitirmiş və «Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası» mövzusunda dissertasiya işi müdafiə etmişdir. Dissertasiya işinə dair bir sıra xarici ölkələrin ali təhsil müəssisələrindən (ABŞ-ın Pensilvaniya Universiteti, Rusiya Federasiyası Xarici İşlər Nazirliyinin Diplomatik Akademiyası, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutu, Rusiya Xalqlar Dostluğu Universiteti, Kazan Dövlət Universiteti, Saratov Dövlət Universiteti, Kemerovo Dövlət Universiteti və s.) müsbət rəylər daxil olmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının 1 iyun 2011-ci il tarixli qərarı ilə hüquq üzrə fəlsəfə doktoru elmi dərəcəsi almışdır.

2003-2005-ci illərdə Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi həqiqi hərbi xidmətdə olmuşdur.

Beynəlxalq hüququn və insan hüquqlarının aktual problemlərinə həsr olunan məqalələri mütəmadi olaraq ölkədaxili və beynəlxalq elmi jurnallarda (Moskva Beynəlxalq Hüquq Jurnalı, Rusiya Beynəlxalq Hüquq İllik Məcmuəsi, Avrasiya Hüquq Jurnalı və s.) çap olunur. Xarici ölkələrdə Avropa İnsan Hüquqları Məhkəməsinin fəaliyyətinə dair çap olunan bir sıra məqalələri Strasburqda Avropa İnsan Hüquqları Məhkəməsinin kitabxanasında saxlanılır.

Beynəlxalq hüquq və insan hüquqlarına dair 50-dək elmi əsərin (dərsliklər, dərs vəsaitləri, məqalələr və s.) müəllifi, həmçinin 2011-ci ildə Moskvada çap olunmuş "İnsan hüquqlarının beynəlxalq və dövlətdaxili müdafiəsi" adlı dərsliyin (Международная и внутригосударственная защита прав человека. Учебник. Москва, Статут, 2011. - 830 с.) həmmüəlliflərindən biridir.

Müxtəlif ölkələrdə beynəlxalq hüquq və insan hüquqlarının müasir problemlərinə həsr edilmiş 40-dək beynəlxalq forum və konfranslarda məruzə ilə çıxış etməklə iştirak etmişdir.

Bakı Dövlət Universitetinin Hüquq fakültəsində bakalavr və magistratura səviyyələrində "İnsan hüquqları" fənnini tədris edir.

2002-ci ildən Rusiya Beynəlxalq Hüquq Assosiasiyasının üzvüdür.

4 iyul 2008-ci ildə beynəlxalq hüquq və insan hüquqlarının inkişafı və təbliğində səmərəli fəaliyyətinə, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında elmi əlaqələrin inkişafında xidmətlərinə görə Rusiya Elmlər Akademiyası və Rusiya Beynəlxalq Hüquq Assosiasiyası tərəfindən fəxri fərmanla təltif edilmişdir.

Hal-hazırda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatında şöbə müdiri vəzifəsində çalışır.

**Kitab Almaniya Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu (IRZ) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə maliyyə, Azərbaycan Hüquq İslahatları Mərkəzinin (AHİM) təşkilati dəstəyi ilə nəşr olunub.**

DEUTSCHE STIFTUNG FÜR INTERNATIONALE RECHTLICHE ZUSAMMENARBEIT E.V.
ALMANİYA BEYNƏLXALQ HÜQUQ ƏMƏKDAŞLIĞI FONDU

**Almaniya Beynəlxalq Hüquq Əməkdaşlığı Fondu (IRZ)**
**Azərbaycan nümayəndəliyi**
C.Cabbarlı 44, Caspian Plaza II, 12-ci mərtəbə
AZ1065 Bakı, Azərbaycan
Tel./Faks: (+99412) 497 35 06
Mob.: (+99450) 349 11 79
E-poçt: r.huseynli@gmail.com
Web.: www.irz-stiftung.de

**Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ)**
**"Cənubi Qafqazda hüquq və məhkəmə islahatlarının dəstəklənməsi" proqramı**
Gənclər Meydanı 1,
AZ 1005, Bakı Azərbaycan
Tel. ( +994 12) 497 15 88
Faks. ( +994 12) 497 49 63
Mob. ( +994 50) 343 11 54
E-poçt: shakir.safarbekov@giz.de
Web.: www.giz.de

AHİM
AZƏRBAYCAN HÜQUQ İSLAHATLARI MƏRKƏZİ
AZERBAIJAN LAW REFORM CENTRE

**Azərbaycan Hüquq İslahatları Mərkəzi (AHİM)**
Bakı, Füzuli küçəsi 49,
"SKS" Plaza, 8-ci mərtəbə
AZ 1014, Bakı Azərbaycan
Tel/Faks: (+994 12) 492 28 83
(+994 12) 492 03 57
(+994 12) 447 42 71
E-poçt: info@lawreform.az
Web: www.lawreform.az

# MÜNDƏRİCAT

**Ön söz (J.-P. Kosta, Avropa İnsan Hüquqları Məhkəməsinin sədri – 19.01.2007-03.11.2011)**....................17

**Ön söz (Ç.Əsgərov, Avropa İnsan Hüquqları Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi)**..............21

**Giriş** ....................23

**I Fəsil. Avropa İnsan Hüquqları Məhkəməsi - insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanı kimi**

1.1. Avropa İnsan Hüquqları Məhkəməsinin beynəlxalq hüquqi statusu ......27

1.2. Avropa İnsan Hüquqları Məhkəməsi və digər beynəlxalq hüquq müdafiə mexanizmləri: müqayisəli təhlil ....................38

**II Fəsil. Avropa İnsan Hüquqları Məhkəməsinin şikayətlərə baxılması və məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası**

2.1. Avropa İnsan Hüquqları Məhkəməsinin predmet yurisdiksiyası (ratione materiae) ....................67

2.2. Avropa İnsan Hüquqları Məhkəməsinin şəxslərə görə yurisdiksiyası (ratione personae) ....................73

2.3. Avropa İnsan Hüquqları Məhkəməsinin zamana görə yurisdiksiyası (ratione temporis)....................80

2.4. Avropa İnsan Hüquqları Məhkəməsinin ərazi yurisdiksiyası (ratione loci)....................85

2.5. Avropa İnsan Hüquqları Məhkəməsinin məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası....................90

2.6. Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası və milli hüquq ....................93

**III Fəsil. Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasının həyata keçirilməsi mexanizmi**

3.1. Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edilməsi qaydası ....106

3.2. Avropa İnsan Hüquqları Məhkəməsində şikayətlərə baxılması mexanizmi ....................115

3.3. Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları....................134

**Nəticə** ........................................................................................162

**Əlavə** ........................................................................................180

**İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya və onun 1, 4, 6 , 7, 12 və 13 saylı Protokolları** ........................199

**Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının siyahısı** ........................................................................217

**Ədəbiyyat siyahısı**........................................................................220

## СОДЕРЖАНИЕ

**Предисловие (Ж.-П. Коста, председатель Европейского Суда по правам человека - 19.01.2007-03.11.2011)** ......................................................17

**Предисловие (Ч.Аскеров, полномочный представитель Азербайджанской Республики при Европейском Суде по правам человека)** ........21

**Введение** ..................................................................................... 23

**Глава I. Европейский Суд по правам человека – специализированный международный судебный орган в области защиты прав человека**

1.1. Международно-правовой статус Европейского Суда по правам человека ........................................................................27

1.2. Европейский Суд по правам человека и другие международные правозащитные механизмы: сравнительный анализ .....................38

**Глава II. Юрисдикция Европейского Суда по правам человека по рассмотрению жалоб и по вынесению консультативных заключений**

2.1. Предметная юрисдикция Европейского Суда по правам человека (ratione materiae) .............................................67

2.2. Персональная юрисдикция Европейского Суда по правам человека (ratione personae) .............................................73

2.3. Временнáя юрисдикция Европейского Суда по правам человека (ratione temporis) .............................................80

2.4. Территориальная юрисдикция Европейского Суда по правам человека (ratione loci) ....................................................85

2.5. Юрисдикция Европейского Суда по правам человека по вынесению консультативных заключений ................................90

2.6. Юрисдикция Европейского Суда по правам человека и национальное право ......................................................................93

**Глава III. Механизм осуществления юрисдикции Европейского Суда**

**по правам человека**
3.1. Порядок обращения в Европейский Суд по правам человека ....106
3.2. Механизм рассмотрения жалоб в Европейском Суде по правам человека ....115
3.3. Решения Европейского Суда по правам человека ....134

**Заключение** ....162

**Приложение** ....180

**Конвенция о защите прав и основных свобод человека и Протоколы № 1, 4, 6, 7, 12 и 13 к ней** ....199

**Список решений Европейского Суда по правам человека относительно Азербайджана** ....217

**Список литературы** ....220

# CONTENTS

**Preface (J.-P. Costa, President of the European Court of Human Rights – 19.01.2007-03.11.2011)** ....................................................17

**Preface (C. Asgarov, Agent of the Republic of Azerbaijan before the European Court of Human Rights)** ..........................................21

**Introduction** ....................................................................................20

**I Chapter. The European Court of Human Rights as a specialized international judicial body in the field of the protection of human rights**

1.1. The international legal status of the European Court of Human Rights.....................................................................................27

1.2. The European Court of Human Rights and other international human rights institutions: a comparative analysis ................................38

**II Chapter. Contentious and advisory jurisdiction of the European Court of Human Rights**

2.1. *Ratione materiae* jurisdiction of the European Court of Human Rights.....................................................................................67

2.2. *Ratione personae* jurisdiction of the European Court of Human Rights.....................................................................................73

2.3. *Ratione temporis* jurisdiction of the European Court of Human Rights.....................................................................................80

2.4. *Ratione loci* jurisdiction of the European Court of Human Rights.....................................................................................85

2.5. Advisory jurisdiction of the European Court of Human Rights ............90

2.6. Jurisdiction of the European Court of Human Rights and national law ..........................................................................................93

**III Chapter. The mechanism for exercise of jurisdiction of the European Court of Human Rights**

3.1. The procedure for lodging applications with the European Court of Human Rights ..................................................................106

3.2. The procedure before the European Court of Human Rights...............115

3.3. Judgments of the European Court of Human Rights ...........................134

**Conclusions** ........................................................................................162

**Appendix**: ....................................................................................................180

**Text of the European Convention on Human Rights and Protocols 1, 4, 6, 7, 12 and 13 thereto**..........................................................199

**List of judgments of the European Court of Human Rights regarding Azerbaijan** ........................................................................217

**Bibliography**.........................................................................................220

## PREFACE

I am very happy to make a short contribution to this doctoral thesis that has as its subject the European Court of Human Rights.

The author has chosen to examine the key institutional and jurisdictional features of the Court. These are weighty matters that deserve - and repay - deep and detailed analysis. As an international judicial institution the Court is a creation of treaty law, having been established by the 1950 European Convention on Human Rights, and reformed through several protocols to the Convention, most recently by Protocol No. 14. Alongside these formal changes, the Court has evolved in what may be called an "organic" fashion. It has, through interpreting the text of the Convention, derived important powers and competences. These include the power to indicate binding interim measures to States, and, in the context of the pilot-judgment procedure, the power to indicate to States the steps to be taken in response to a finding of a systemic violation of Convention right. The Court has often affirmed that the Convention is a living instrument; the same can be said of the Court itself.

In creating the Court, the authors of the Convention gave it real but delimited powers. The author considers the principal limits to the Court's jurisdiction, i.e. ratione materiae, personae, temporis and loci. These are far from being merely technical issues. On the contrary, they form the boundaries beyond which the Court has no competence to go, and for this reason give rise to intense legal argument between the parties in some cases brought before the Court. The great sensitivity of States to this issue has been reflected in the recent Interlaken Declaration on the Future of the European Court of Human Rights (at paragraph 9).

Through his analysis of the procedure and functioning of the Court, and the impact of its judgments on national law, the author provides valuable guidance to Azeri legal professionals on the substance and requirements of European Human Rights law.

While the number of Azeri cases decided by the Court since Azerbaijan ratified the Convention on 15 April 2002 is still quite low, familiarity with the leading judgments of the Court, irrespective of the respondent State, is vital to acting

in conformity with human rights. This point has been repeatedly made by the Court and the Council of Europe.

Through the present study, Zaur Aliyev has made a learned response to that call and I commend him for it.



**Jean-Paul Costa**

**President of the European Court of Human Rights (19.01.2007-03.11.2011), Professor**

**Strasbourg, December 2010**

## ÖN SÖZ

Mən, Avropa İnsan Hüquqları Məhkəməsinə həsr olunmuş bu tədqiqat işinə kiçik də olsa töhfə verdiyimə görə çox məmnunam. Bu işdə müəllif Avropa Məhkəməsinin təşkili və yurisdiksiyasının əsas aspektlərini tədqiq etməyi qarşısına məqsəd qoymuşdur. Bu məsələlər olduqca aktualdır, ona görə də dərin və müfəssəl araşdırma tələb edir. Beynəlxalq məhkəmə orqanı kimi Avropa Məhkəməsi beynəlxalq müqavilə əsasında – 1950-ci il Avropa İnsan Hüquqları Konvensiyasına uyğun olaraq təsis edilmiş və ən sonuncusu 14 nömrəli Protokol olmaqla, Konvensiyaya əlavə edilmiş bir neçə protokol vasitəsilə islahatlara məruz qalmışdır. Bu formal dəyişikliklərlə yanaşı, Məhkəmə habelə – belə demək olarsa – «üzvi» surətdə inkişaf etmişdir. Konvensiyanın mətnini təfsir etməklə Məhkəmə vacib səlahiyyətlər əldə etmişdir. Bu səlahiyyətlərə dövlətlər üçün hüquqi cəhətdən məcburi xarakterli müvəqqəti tədbirlər müəyyən etmək və pilot qərarlar proseduru çərçivəsində Konvensiyada təsbit olunmuş hüquqların sistematik pozulması hallarının aşkarlanmasına cavab olaraq dövlətlərin həyata keçirməli olduqları tədbirləri müəyyən etmək daxildir. Məhkəmə dəfələrlə qeyd etmişdir ki, Konvensiya canlı sənəddir; eyni şeyi Məhkəmənin özü haqqında da demək olar.

Məhkəməni təsis edərkən Konvensiyanın müəllifləri ona real, lakin məhdudlaşdırılmış səlahiyyətlər vermişlər. Müəllif Məhkəmənin yurisdiksiyasının əsas hədlərini, yəni ratione materiae, personae, temporis və loci yurisdiksiyalarını təhlil edir. Bunlar heç də sadəcə texniki məsələlər deyildir. Əksinə, bunlar Məhkəmənin hüdudlarında kənara çıxa bilmədiyi sərhədlərdir və bu səbəbdən Məhkəmədə baxılan bir sıra işlərdə tərəflər arasında gərgin hüquqi mübahisələrin ortaya çıxmasına əsas yaradır. Dövlətlərin bu məsələyə olduqca həssas münasibəti bu yaxınlarda qəbul olunmuş «Avropa İnsan Hüquqları Məhkəməsinin gələcəyinə dair İnterlaken Bəyannaməsi»ndə (9-cu bənd) öz əksini tapmışdır.

Məhkəmənin iş qaydasını və fəaliyyətini, habelə onun qərarlarının milli hüquqa təsirini təhlil etməklə müəllif Avropa insan hüquqları hüququnun məzmunu və tələblərinə dair Azərbaycan hüquqşünaslarına dəyərli vəsait təqdim etmişdir. 2002-ci il aprelin 15-də Azərbaycan Konvensiyanı ratifikasiya etdiyi vaxtdan bəri Azərbaycana qarşı Məhkəmənin baxdığı işlərin sayı hələ xeyli az

olsa da, hansı dövlətə qarşı çıxarılmasından asılı olmayaraq Məhkəmənin aparıcı qərarları ilə tanışlıq insan hüquqlarına uyğun fəaliyyət göstərmək üçün prinsipial əhəmiyyətə malikdir. Bu məqam Avropa Məhkəməsi və Avropa Şurası tərəfindən dəfələrlə qeyd edilmişdir. Zaur Əliyevin bir tədqiqatçı kimi bu əsəri vasitəsilə həmin çağırışa cavabını mən tərifə layiq hesab edirəm.



**Jan-Pol Kosta**

**Avropa İnsan Hüquqları Məhkəməsinin sədri**
**(19.01.2007-03.11.2011),**
**Professor**

**Strasburq, dekabr 2010**

## ÖN SÖZ

XX əsrdə bəşəriyyətin əldə etdiyi ən böyük nailiyyətlərdən biri də əsas insan hüquq və azadlıqlarının beynəlxalq səviyyədə tanınması və insan hüquqlarına hörmət prinsipinin beynəlxalq hüququn ümumtanınmış prinsipinə çevrilməsi oldu. Lakin bu hüquqların yalnız bəyan edilməsi kifayət deyildi. İnsan hüquqlarının tam şəkildə bərqərar olması üçün effektiv mexanizmlərin mövcudluğu da zəruridir. Belə effektiv mexanizmlərdən biri də Avropa İnsan Hüquqları Konvensiyası əsasında təsis edilən regional beynəlxalq hüquq müdafiə mexanizmi - Avropa İnsan Hüquqları Məhkəməsidir. Azərbaycan Respublikasının Avropa Məhkəməsinin yurisdiksiyasını tanıması, eyni zamanda Azərbaycanın bu məhkəmə orqanında tərəf kimi iştirak etməsi Avropa Məhkəməsinin fəaliyyətinin hüquqi əsaslarının, xüsusilə də onun yurisdiksiyasının araşdırılmasını zəruri edir.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş İnsan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planında Avropa Məhkəməsinin presedent hüququnun məhkəmə təcrübəsində nəzərə alınması məqsədilə mütəmadi olaraq tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Məhz yuxarıda qeyd olunanlar baxımından Zaur Əliyevin bu tədqiqat işi öz aktuallığı ilə diqqəti cəlb edir. Belə ki, Azərbaycanın yurisdiksiyası altında olan şəxslərdən Avropa Məhkəməsinə şikayətlərin daxil olması, Məhkəmənin qərarlarının milli hüquqa təsiri, bir sözlə Azərbaycan-Avropa Məhkəməsi əlaqələrinin genişlənməsi tədqiqat əsərinin əhəmiyyətini şərtləndirən amillərdir.

Avropa Məhkəməsinin müxtəlif növ yurisdiksiyasını ətraflı tədqiq edən müəllif haqlı olaraq belə bir nəticəyə gəlir ki, Məhkəmənin zamana və məkana görə yurisdiksiyası baxımından işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur. Dediklərini əsaslandırmaq üçün müəllif Məhkəmənin presedent hüququna müraciət etmişdir.

Tədqiqat işinin üstün cəhətlərindən biri də ondan ibarətdir ki, müəllif Avropa Məhkəməsinin qərarlarının Avropa Şurasının üzv dövlətlərinin milli hüququna təsirini konkret misallarla göstərməklə, Azərbaycan qanunvericiliyinin Avropa İnsan Hüquqları Konvensiyasına uyğunlaşdırılması istiqamətində konkret təkliflərlə çıxış edir.

Təqdirəlayiq haldır ki, ilk dəfə olaraq Avropa İnsan Hüquqları Məhkəməsinin insan hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanı kimi beynəlxalq hüquqi statusu, onun digər beynəlxalq hüquq müdafiə

mexanizmləri ilə müqayisəli təhlili, şikayətlərə baxılması və məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası, Avropa Məhkəməsində şikayətlərə baxılması mexanizmi, Məhkəmənin qərarlarının hüquqi qüvvəsi və icrası və bununla bağlı bir sıra digər məsələlər ətraflı şəkildə təhlil edilmişdir.

Avropa Məhkəməsinin çıxardığı qərarların Azərbaycanda necə icra olunması, onlardan hüquq sistemimizdə hansı qaydada istifadə olunması ilə bağlı müəllifin apardığı araşdırmalar böyük maraq kəsb edir və bu təklif və tövsiyələr müvafiq dövlət orqanları, o cümlədən məhkəmələr tərəfindən nəzərə alınmalıdır.

Bu dərs vəsaitinin çap olunması Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramının insan hüquqları ilə bağlı dərs vəsaitlərinin hazırlanması və nəşrini nəzərdə tutan 4.6-cı bəndinin səmərəli icrası baxımından olduqca önəmlidir.

Xüsusilə də, onun Avropa İnsan Hüquqları Konvensiyasının Azərbaycana münasibətdə qüvvəyə minməsinin 10-cu ildönümünün qeyd olunduğu bir vaxtda işıq üzü görməsi təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

Avropa Məhkəməsi üzrə bələdçi olan bu dərs vəsaiti Azərbaycan hüquq ictimaiyyəti üçün dəyərli töhfədir.

**Çingiz Əsgərov**

**Avropa İnsan Hüquqları Məhkəməsi yanında**
**Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi**

# GİRİŞ

Azərbaycan Respublikasının 2001-ci ilin yanvarından Avropa Şurasının üzvü olması hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin sürətlənməsi, milli qanunvericiliyin Avropa Şurasının tələblərinə və Avropa hüquq standartlarına uyğunlaşdırılması, demokratik təsisatların, institusional mexanizmlərin yaranması, insan hüquq və azadlıqlarının səmərəli təmin edilməsi sisteminin formalaşması üçün real zəmin yaratmış oldu.

Avropa Şurası əsasən Avropa məkanında insan hüquqlarının müdafiəsini təmin edən təşkilat kimi tanınır. Şuranın hər bir üzvü hüququn ümumi prinsiplərindən və beynəlxalq hüququn fundamental prinsiplərindən olan və bir sıra beynəlxalq sənədlərdə, o cümlədən Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsində, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində öz əksini tapmış əsas insan hüquq və azadlıqlarına hörmət edilməsi prinsipini rəhbər tutmalıdır.

Azərbaycan Respublikası Avropa Şurasının üzvü olmaqla öz üzərinə bir sıra öhdəliklər götürmüşdür. Bu öhdəliklərdən biri də bir il ərzində İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (Avropa İnsan Hüquqları Konvensiyasının) və onun 1, 4, 6 və 7 saylı Protokollarının ratifikasiya edilməsi idi. Azərbaycanın öz üzərinə götürdüyü bu öhdəlik vaxtında yerinə yetirildi. Belə ki, qeyd olunan Konvensiya və onun 1, 4, 6 və 7 saylı Protokolları 25 dekabr 2001-ci il tarixdə Milli Məclis tərəfindən müvafiq bəyanatlar və qeyd şərtlərlə ratifikasiya olunmuşdur. Avropa İnsan Hüquqları Konvensiyasına dair Azərbaycan Respublikasının bəyanatında deyilir: «Azərbaycan Respublikası bəyan edir ki, o, Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində Konvensiyanın müddəalarının yerinə yetirilməsinə işğal olunmuş ərazilər azad olunana qədər təminat vermək iqtidarında deyildir».

Avropa İnsan Hüquqları Konvensiyasının 59-cu maddəsinə əsasən, Konvensiya onu sonradan ratifikasiya edən dövlətlər üçün, onların öz təsdiqnamələrini saxlanılmağa verdikləri tarixdən qüvvəyə minir. Avropa İnsan Hüquqları Konvensiyası və onun ratifikasiya edilmiş Protokolları Azərbaycana münasibətdə 15 aprel 2002-ci il tarixdən, yəni ratifikasiya haqqında sənədin depozitariyə verildiyi gündən qüvvəyə minmişdir. Konvensiyanın dövlətə münasibətdə qüvvəyə minmə tarixinin olduqca mühüm hüquqi əhəmiyyəti vardır. Belə ki, məhz bu tarixdən müvafiq dövlətin yurisdiksiyası altında olan şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə (Avropa Məhkəməsi yaxud Məhkəmə adlandırılacaq) müraciət etmək hüququ yaranır. Azərbaycanın yurisdiksiyası altında olan şəxslərin (vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, əcnəbilər, hüquqi şəxslər və digərləri) Avropa

Məhkəməsinə müraciət hüququ məhz 15 aprel 2002-ci il tarixdən, yəni Konvensiyanın Azərbaycana münasibətdə qüvvəyə mindiyi tarixdən yaranır. Burada bir məqama da diqqət yetirmək zəruridir ki, əgər pozulmuş hüquq Konvensiyaya dair hər hansı Protokolda nəzərdə tutulubsa Məhkəməyə müraciət etmək hüququ həmin Protokolun, barəsində şikayət verilən dövlətə münasibətdə qüvvəyə minməsi tarixindən başlanır.

Avropa İnsan Hüquqları Konvensiyası - təyinatı insan hüquqlarının müdafiəsini təmin etməkdən ibarət olan regional beynəlxalq müqavilədir. Bu Konvensiyanı insan hüquqlarına dair beynəlxalq sənədlər içərisində ən effektiv sənəd kimi dəyərləndirmək olar. Buna səbəb onun əsasında yaradılan və fəaliyyət göstərən səmərəli hüquq müdafiə mexanizmidir. Bu, Konvensiyanın 19-cu maddəsi əsasında təsis edilən və daimi əsasda fəaliyyət göstərən Avropa İnsan Hüquqları Məhkəməsidir. Məhkəmə, iştirakçı-dövlətlərin Konvensiya və əlavə Protokollarla öz üzərlərinə götürdükləri öhdəliklərə riayəti təmin etmək məqsədilə yaradılmışdır. Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasında və ona əlavə Protokollarda təsbit olunmuş əsas insan hüquq və azadlıqlarının pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxan və fərdin bilavasitə beynəlxalq məhkəməyə müraciətini təmin edən ilk ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanıdır. Avropa İnsan Hüquqları Konvensiyasının 46-cı maddəsinə əsasən, Avropa Məhkəməsinin qərarları məcburi xarakter daşıyır. Müvafiq olaraq Məhkəmənin Azərbaycana münasibətdə qərarları dövlət orqanları, o cümlədən məhkəmələr üçün də məcburidir (22, 22). Dövlətlər qərarın icrası ilə bağlı konkret tədbirlərlə yanaşı gələcəkdə analoji pozuntuların qarşısını almaq üçün ümumi xarakterli tədbirlər də həyata keçirməlidirlər (61, 166).

Azərbaycan Respublikasının Avropa Şurasının üzvü olması, Avropa İnsan Hüquqları Konvensiyasını və onun müvafiq Protokollarını ratifikasiya etməsi Konvensiyada və ya əlavə Protokollarda təsbit olunmuş hüquqların pozulduğu halda və dövlətdaxili səviyyədə pozulmuş hüquqların bərpasına nail oluna bilinmədiyi hallarda vətəndaşların və dövlətin yurisdiksiyası altında olan digər şəxslərin Avropa Məhkəməsinə müraciət etməsinə imkan verir. Həmçinin, Ermənistandan deportasiya olunmuş və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində bir çox hüquqları pozulmuş, əsasən də Konvensiyaya əlavə 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə əlaqədar minlərlə soydaşımız işğalçı Ermənistana qarşı bu dövlətin də Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmasını nəzərə alaraq Avropa Məhkəməsinə müraciət etmək imkanı əldə etmişlər. “Çırağov və digərləri Ermənistana qarşı” işi buna misaldır.

Bununla əlaqədar qeyd etmək yerinə düşərdi ki, Azərbaycanın işğal edilmiş əraziləri üzərində faktiki nəzarəti həyata keçirdiyindən həmin ərazidə insan hüquq

və azadlıqlarının pozulmasına görə məhz Ermənistan Respublikası məsuliyyət daşıyır.

Beləliklə, oxucuların diqqətinə təqdim olunan tədqiqatın aktuallığını şərtləndirən amilləri aşağıdakı kimi təsnifləşdirmək olar:

- Avropa Şurasının üzvü olan və Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiya etmiş Azərbaycan Respublikasının Avropa Məhkəməsinin yurisdiksiyasını tanıması nəticəsində Azərbaycan dövlətinin yurisdiksiyası altında olan hər bir şəxsin (o cümlədən də hüquqi şəxslərin) Konvensiyada və Azərbaycan tərəfindən ratifikasiya edilmiş əlavə Protokollarda təsbit edilmiş hüquq və azadlıqların pozulduğu halda müvafiq şərtlərə əməl etdikdən sonra Avropa Məhkəməsinə müraciət etmə hüququnun yaranması ilə əlaqədar bu Məhkəmə orqanının fəaliyyətinin aktuallıq kəsb etməsi;

- Avropa Məhkəməsinin yurisdiksiyasının (xüsusilə də zamana görə yurisdiksiyasının) tədqiq edilməsinin Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində Ermənistandan deportasiya edilmiş, həmçinin torpaqların işğalı ilə bağlı məcburi köçkünə çevrilmiş şəxslərin onlara münasibətdə Avropa İnsan Hüquqları Konvensiyasının bir sıra müddəalarının, xüsusilə də 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə bağlı Avropa Məhkəməsinə müraciət edilməsi baxımından əhəmiyyəti;

- Azərbaycana qarşı Avropa Məhkəməsi onlarla qərar çıxarmışdır. Yəni Azərbaycan Avropa Məhkəməsində artıq bir neçə dəfə tərəf kimi iştirak etmiş və etməkdədir. Hal-hazırda bir neçə iş kommunikasiya mərhələsindədir. Hər il Azərbaycandan Avropa Məhkəməsinə yüzlərlə şikayət daxil olur. Yəni Azərbaycan-Avropa Məhkəməsi münasibətləri getdikcə genişlənir. Bu baxımdan da Avropa Məhkəməsinin fəaliyyətinin araşdırılması xüsusi aktuallıq və əhəmiyyət kəsb edir;

- Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 19 yanvar 2006-cı il tarixli Fərmanında, Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planı»nda, həmçinin «Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli qərarında məhkəmələrə tövsiyə edilir ki, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarını və Avropa Məhkəməsinin presedentlərini nəzərə

alsınlar. Bütün bunlar Avropa Məhkəməsinin fəaliyyətinin, xüsusilə də onun yurisdiksiyasının tədqiq edilməsini zəruri edir. Bu deyilənlər də tədqiqat işinin aktuallığını şərtləndirir;

- Avropa Məhkəməsinin qərarlarının milli qanunvericiliyin inkişafına, onun təkmilləşdirilməsinə mühüm təsiri vardır. Bəzi hallarda Məhkəmənin qərarları yeni qanunvericilik aktlarının qəbuluna, cari qanunvericiliyə müəyyən əlavə və dəyişikliklərin edilməsinə, həmçinin milli məhkəmə praktikasının təkmilləşdirilməsinə səbəb olur.

Nəhayət, ötən il Azərbaycanın Avropa Şurasına üzv qəbul olunmasının 10 illiyi qeyd olunmuş, bu il isə Avropa İnsan Hüquqları Konvensiyasının Azərbaycana münasibətdə qüvvəyə minməsinin 10-cu ildönümüdür.

Avropa İnsan Hüquqları Məhkəməsinin tədqiqinə həsr olunan bu əsərin oxucuların diqqətinə məhz yuxarıda qeyd olunan əlamətdar tarixi hadisələr, xüsusilə də Avropa İnsan Hüquqları Konvensiyasının Azərbaycana münasibətdə qüvvəyə minməsinin 10 illiyinin qeyd edildiyi dövrdə təqdim edilməsi onun əhəmiyyətini bir qədər də artırmış olur.

Müəllif bu kitaba ön sözləri yazan Avropa İnsan Hüquqları Məhkəməsinin sədri (19.01.2007-03.11.2011), professor J.-P. Kostaya və Avropa İnsan Hüquqları Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi Ç.Əsgərova, həmçinin dəyərli elmi məsləhətlərinə görə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) professor E.Süleymanovaya, hüquq elmləri doktoru, professor R.Valeyevə, hüquq elmləri doktoru, professor L.Hüseynova, hüquq elmləri doktoru, professor Ə.Əliyevə, hüquq elmləri doktoru, professor R.Məmmədova, hüquq üzrə fəlsəfə doktoru V.İbayevə dərin təşəkkürünü bildirir.

# I F Ə S İ L

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ - İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ SAHƏSİNDƏ İXTİSASLAŞDIRILMIŞ BEYNƏLXALQ MƏHKƏMƏ ORQANI KİMİ

## 1.1. Avropa İnsan Hüquqları Məhkəməsinin beynəlxalq hüquqi statusu

XX əsrin II yarısında, əsasən də II Dünya müharibəsindən sonra demokratik rejimli bir çox ölkələrdə, xüsusilə də Avropa dövlətlərində insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsi sahəsində bir sıra mühüm addımlar atıldı (138, 1). İlk növbədə müharibənin və faşizmin ağır nəticələrindən sonra tam şəkildə aydın oldu ki, insan hüquqlarının müdafiəsi sahəsində yalnız dövlətdaxili mexanizmlər yetərli deyildir (65, 7).

İnsan hüquqlarının universal səviyyədə müdafiəsi ideyası ilk dəfə olaraq BMT Nizamnaməsində öz əksini tapmışdır. Nizamnamədə «irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsi və həvəsləndirilməsi» BMT-nin əsas məqsədlərindən biri kimi bəyan edilir (1-ci maddə). Nizamnamənin 55-ci maddəsinə əsasən, dövlətlər irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hamılıqla hörmət edilməsinə və riayət edilməsinə dəstək verirlər. Təşkilatın bütün üzvləri öz üzərlərinə öhdəlik götürürlər ki, 55-ci maddədə göstərilmiş məqsədlərə nail olmaq üçün Təşkilatla əməkdaşlıqda birgə və müstəqil hərəkət etsinlər (56-cı maddə) (19, 173).

Lakin qeyd etmək lazımdır ki, BMT Nizamnaməsində insan hüquqları və əsas azadlıqları sadalanmır. Bir növ bu boşluğu doldurmaq üçün 10 dekabr 1948-ci ildə BMT Baş Assambleyasının 217 (III) saylı qətnaməsi ilə Ümumdünya İnsan Hüquqları Bəyannaməsi qəbul edildi. 30 maddədən ibarət olan bu sənəddə bir sıra vətəndaş və siyasi hüquqlar, həmçinin iqtisadi, sosial və mədəni hüquqlar təsbit olunmuşdur.

Artıq qeyd etdiyimiz kimi, II Dünya müharibəsindən sonra Qərbi Avropa dövlətləri öz gələcəklərini iqtisadi və siyasi inteqrasiyada görürdülər. Təsadüfi deyildir ki, müharibədən sonra müasir həyatın müxtəlif sahələrində əməkdaşlığı inkişaf etdirməyə yönələn beynəlxalq təşkilatların regional sistemi ilk əvvəl Qərbi Avropada yaranmışdır (57, 20).

Avropa regionunda ən qocaman beynəlxalq təşkilat Avropa Şurasıdır. Bəzən bu təşkilatın yaranmasını İngiltərə hərbi kabinetinin başçısı Uinston Çerçilin 1942-ci ilin oktyabr ayında verdiyi bəyanatla əlaqələndirirlər. Bəyanatda deyilirdi: «Mən millətlər arasında sədləri əhəmiyyətli dərəcədə aradan qaldıran, maneəsiz hərəkət üçün imkan yaradacaq Avropa Birləşmiş Ştatlarının yaradılmasını gözləyirəm» (28, 8). U.Çerçil tərəfindən irəli sürülmüş bu ideyalar Avropada geniş əks-səda doğurdu. 1949-cu ilin yanvarında Avropanın birləşdirilməsi üzrə Beynəlxalq Komitənin iclasında «Avropa Şurası» adlı regional təşkilatın yaradılması qərara alındı. 1949-cu il may ayının 5-də Belçika, Danimarka, Fransa, İrlandiya, İtaliya, Lüksemburq, Niderland, Norveç, İsveç və Böyük Britaniyanın xarici işlər nazirləri Avropa Şurasının Nizamnaməsini imzaladılar. Nizamnamə 3 avqust 1949-cu ildə qüvvəyə mindi.

12 iyul 1949-cu ildə Avropa Şurasının Nazirlər Komitəsinə Avropa İnsan Hüquqları Konvensiyasının və Avropa Məhkəməsinin Statutunun layihələri təqdim edildi. Lakin buna baxmayaraq, Komitənin 9 avqust 1949-cu il tarixdə keçirilən birinci sessiyasında yeddi səs lehinə, dörd əleyhinə və bir səs bitərəf olmaqla «İnsan hüquqlarının və əsas azadlıqların müəyyən edilməsi, müdafiəsi və inkişafı» adlı bəndin Şuranın Məşvərətçi Assambleyasının birinci yığıncağının gündəliyindən çıxarılması qərara alındı. Fransa, Norveç və İsveçdən olan nümayəndələr gündəliyə insan hüquqları ilə bağlı bəndin daxil edilməsinin əleyhinə çıxırdılar və bunu onunla əsaslandırırdılar ki, Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbulu zamanı bu məsələ BMT-də ətraflı müzakirə olunub və bunun yenidən gündəmə qayıtmasına ehtiyac yoxdur. Lakin Nazirlər Komitəsinin qərarına baxmayaraq, Məşvərətçi Assambleyanın bir çox nümayəndələri Avropa üçün insan hüquqlarına dair konvensiyanın hazırlanmasına böyük maraq göstərirdilər. Bəzi nümayəndələr Avropada insan hüquqları sahəsində görülən işin, bu sahədə BMT çərçivəsində görülən işi təkrarlayacağı haqqında fikirləri qətiyyətlə inkar edirdilər. Onlar fikirlərini belə əsaslandırırdılar: «İnsan hüquqları ilə bağlı məsələnin BMT-də uzun müddət müzakirə olunmasına baxmayaraq, bu sahədə dəqiq bir mexanizm hələ də hazırlanmayıb. Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin zəif cəhəti onun hüquqi baxımdan qeyri-məcburi olmasıdır. İnsan hüquqları ilə bağlı məsələnin Avropa müstəvisində müzakirəsi isə, BMT-dən fərqli olaraq, hüquqi cəhətdən məcburi olan bir sənədin hazırlanmasına imkan verir» (65, 23). 12 avqust 1949-cu ildə Nazirlər Komitəsi insan hüquqları ilə bağlı məsələnin Məşvərətçi Assambleyanın gündəliyinə daxil edilməsinə razılıq verdi. 13 avqust 1949-cu ildə Assambleyanın müzakirəsinə aşağıdakı bəndin daxil edilməsi təklif edildi: «Assambleya Şuranın üzvlərinə Nizamnamənin I maddəsində təsbit edilmiş məqsədlərə nail olmaq üçün tövsiyə edir ki, əsas insan hüquq və

azadlıqlarına hörmət edilməsinin təmini üçün kollektiv məsuliyyət prinsipini tanısınlar və bunun üçün müvafiq konvensiya qəbul edib öz üzərlərinə aşağıdakı öhdəlikləri götürsünlər:

a) konvensiyanın imzalanmasına qədər müvafiq dövlətlərdə mövcud olan və konstitusiya və digər normativ-hüquqi aktlarla təmin edilən əsas insan hüquq və azadlıqlarının toxunulmazlığına təminat verilməsi;

b) konvensiyanın müddəalarına əməl edilməsini təmin etmək üçün Avropa İnsan Hüquqları Komissiyasının və Avropa İnsan Hüquqları Məhkəməsinin yaradılması» (65, 23). Beləliklə, uzun müzakirələrdən sonra Avropa İnsan Hüquqları Konvensiyasının layihəsinin Məşvərətçi Assambleyanın hüquq komitəsinə göndərilməsi qərara alındı. Sonradan, həmin gün (19 avqust, 1949-cu il) «Avropa İnsan Hüquqları Konvensiyasının pozitiv hüququn tərkib hissəsinə çevrildiyi gün» kimi dəyərləndirildi (172, 3). 27 avqust 1949-cu ildə hüquq komitəsi yekdilliklə müəyyən etdi ki, «baxmayaraq ki, hər bir dövlətin öz ərazi hüdudlarında insan hüquqlarının müdafiəsi ilə bağlı müvafiq normalar müəyyən etmək hüququ vardır, lakin bu hüquqların kollektiv təminatı imkan verir ki, bu normalar və onların tətbiqi sivil millətlər tərəfindən tanınmış hüququn ümumi prinsiplərinə müvafiq olsun». Hüquq komitəsi tərəfindən təklif edilən konvensiya layihəsində on iki əsas insan hüquq və azadlıqları sadalanırdı, həmçinin insan hüquqları üzrə Avropa Komissiyasının və Məhkəməsinin yaradılması, ayrı-ayrı şəxslərin və dövlətlərin şikayət ərizəsi ilə Komissiyaya müraciət etmək hüququ və Komissiyanın və ayrı-ayrı dövlətlərin işi Məhkəməyə verə bilməsi nəzərdə tutulurdu. Lakin Komissiyanın və Məhkəmənin yaradılması təklifi hamı tərəfindən dəstəklənmədi. 6 sentyabr 1949-cu ildə Fransa və Böyük Britaniyadan olan nümayəndələr hüquq komitəsinin Məhkəmənin yaradılması haqqında tövsiyəsini rədd etmək təklifi ilə çıxış etdilər. Onlar əsasən ayrı-ayrı şəxslərə müvafiq dövlətə qarşı şikayət ərizəsi ilə çıxış etmək hüququnun verilməsinin əleyhinə çıxırdılar və bunun dövlətlərin suverenliyinin alçaldılmasına gətirib çıxaracağını bildirirdilər. Lakin, bununla bərabər bir çox nümayəndələr, Məhkəmənin yaradılmasının vacibliyini vurğulayırdılar. İki günlük gərgin müzakirələrdən sonra, 8 sentyabr 1949-cu ildə Fransa və Böyük Britaniyadan olan nümayəndələr tərəfindən irəli sürülən, Məhkəmənin yaradılmasını istisna edən Konvensiyaya düzəliş rədd edildi. Elə həmin gün Məşvərətçi Assambleya 64 səs lehinə, 1 əleyhinə, 21 səs bitərəf olmaqla hüquq komitəsinin məruzəsini bəyəndi, ona bir sıra düzəlişlər edildi, Məhkəmənin və Komissiyanın yaradılması, həmçinin ayrı-ayrı şəxslərin şikayət ərizəsi ilə çıxış etmək hüququnun möhkəmləndirilməsi tövsiyə olundu. Sonra Assambleya tərəfindən təsdiq edilmiş Konvensiya layihəsi Nazirlər Komitəsinə verildi. 1 aprel 1950-ci ildə Nazirlər Komitəsi, üzv-dövlətlərin Hökumətlərinin yüksək vəzifəli

şəxslərinin konfransının çağırılmasını qərara aldı. Konfrans 8-17 iyun 1950-ci il tarixində keçirildi. Məhkəmənin yaradılması ilə bağlı konfrans iştirakçılarının məruzəsində deyilirdi ki, yeddi dövlət (Böyük Britaniya, Niderland, Türkiyə, Yunanıstan, Danimarka, Norveç və İsveç) onun əleyhinə, dörd dövlət isə (Belçika, İrlandiya, İtaliya və Fransa) - lehinə çıxış edirlər. İsveç fakültativ məhkəmənin yaradılması ideyası ilə çıxış etdi və onun bu kompromis təklifini səkkiz dövlət dəstəklədi, əleyhinə isə iki dövlət çıxdı. Doqquz dövlət Komissiyaya fərdi şikayət hüququnu dəstəklədilər, üç dövlət isə bu barədə öz xüsusi mövqeyini bildirdi.

Konvensiyada əsas insan hüquq və azadlıqlarının siyahısı haqqında məsələ razılaşdırıldı, lakin Məhkəmənin yaradılması və fərdi şikayət hüququ ətrafında mübahisələr davam edirdi. Bu məqamda Konvensiyanın layihəsi Nazirlər Komitəsinə qaytarıldı. 1950-ci ilin avqustunda Nazirlər Komitəsi həm Məhkəmənin yurisdiksiyasının, həm də fərdi şikayət prosedurunun fakültativ olmasını qərara aldı.

Beləliklə, 1950-ci il noyabrın 4-də Romada Avropa Şurası üzvləri tərəfindən «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Konvensiya qəbul olundu və 1953-cü il sentyabrın 3-də Avropa Şurası üzvü olan 8 dövlət (Danimarka, İrlandiya, İslandiya, Lüksemburq, Norveç, Böyük Britaniya, Almaniya və İsveç) tərəfindən ratifikasiya olunduqdan sonra qüvvəyə mindi.

Konvensiyanın preambulasında qeyd olunduğu kimi, onun iştirakçıları öz qarşılarına, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində sadalanan «bəzi hüquqların» həyata keçirilməsində «ilkin addımlar» atmağı məqsəd qoymuşlar. Həqiqətən də, Konvensiyada Ümumdünya İnsan Hüquqları Bəyannaməsində təsbit olunmuş əsas hüquq və azadlıqlardan yalnız bəziləri öz əksini tapmışdır. Lakin Konvensiyanın ən üstün cəhətlərindən biri ondan ibarətdir ki, o, yeni sənədlərlə tamamlanmaqla daim inkişafdadır. Konvensiya və onun əlavə Protokolları Avropa hüquq sisteminə demək olar ki, əksər vətəndaş və siyasi hüquqları daxil etmişlər (78, 88). Lakin Avropa İnsan Hüquqları Konvensiyasını dəyərləndirərkən yalnız orada müəyyən edilmiş hüquq və azadlıqlar deyil, həm də onların təminat mexanizmi nəzərə alınmalıdır. Bu barədə fransız alimi K.Vasak yazır: «Konvensiyanın dəyəri, orada sadalanan hüquq və azadlıqlarda deyil, onun mexanizmindədir. Bəşər tarixində ilk dəfədir ki, dövlətdənkənar beynəlxalq mexanizm fəaliyyət göstərir və bu mexanizm bütün bəşəriyyətin ümumi dəyərlərini əks etdirir» (185, 673). Digər alimlərin fikrincə də, «bu mexanizm unikal və real olmaqla daim inkişafdadır» (175, 36-37).

Avropa Məhkəməsinin fəaliyyəti məhz Avropa İnsan Hüquqları Konvensiyasına əsaslanır. Konvensiya Məhkəmə üçün bir növ «əsas qanundur» (138, 67). Avropa Şurası çərçivəsində qəbul edilmiş bir çox konvensiyalar sırasında yalnız

Avropa İnsan Hüquqları Konvensiyası məhkəmə müdafiəsi ilə təminatlandırılmış və məhz bu səbəbdən bu Konvensiyanı insan hüquqlarına dair sənədlər içərisində ən effektiv sənəd kimi dəyərləndirmək olar. Avropa İnsan Hüquqları Konvensiyasını Avropa Şurasının ən mühüm nailiyyəti adlandırmaq olar. Avropa Şurasının rəsmi dilləri ingilis və fransız dilləri olduğu üçün Konvensiya bu iki dildə qəbul olunmuşdur və hər iki mətni bərabər autentikdir.

Konvensiyanın əksər maddələri Məhkəmənin təşkili və fəaliyyətinə həsr edilmişdir.

Konvensiyanın gətirdiyi yenilik ondan ibarət idi ki, o, ilk dəfə olaraq fərdlərin beynəlxalq məhkəmə orqanına müraciətini nəzərdə tuturdu. Konvensiyanın qəbul edilməsinə qədər fərdlərin hüquqlarının məhkəmə qaydasında müdafiəsi yalnız müvafiq dövlətlərin müstəsna hüququ idi. Konvensiya qüvvəyə minəndən sonra isə, onun müddəalarına müvafiq olaraq, bu hüquqların müdafiəsi ixtisaslaşdırılmış beynəlxalq məhkəmə tərəfindən də mümkün oldu. Məhz buna görə də, Konvensiyanı öz əhəmiyyətinə görə analoqu olmayan beynəlxalq müqavilə adlandırmaq olar. Şəxsin öz hökumətindən beynəlxalq məhkəmə orqanına şikayət ərizəsi ilə müraciət etmə hüququnu Avropa Məhkəməsinin keçmiş hakimi C.Fitsmoris «inqilabi anlayış» adlandırmışdır (69, 91-102).

Beləliklə, Avropa İnsan Hüquqları Konvensiyasının qəbul edilməsi fərdin beynəlxalq hüququn *sui generis* subyektinə çevrilməsində mühüm mərhələ oldu.

Artıq qeyd etdiyimiz kimi, Konvensiya əsasında yaradılmış beynəlxalq ədalət mühakiməsi mexanizmi kompromis əsasında meydana gəlmişdir. Kompromisin mahiyyəti ondan ibarət idi ki, iştirakçı - dövlətlər Konvensiyanı ratifikasiya etdikdən sonra, həmin dövlətin yurisdiksiyası altında olan şəxslər avtomatik olaraq Avropa Komissiyasına müraciət etmək hüququ əldə etmirdilər. Bunun üçün müvafiq dövlətin belə bir hüququ tanıması haqqında xüsusi bəyanatı tələb olunurdu (əvvəlki redaktədə olan, yəni 11 saylı Protokolun qüvvəyə minməsinə qədərki redaktə nəzərdə tutulur, Konvensiyanın 25-ci maddəsi). 1950-ci ildə Konvensiyanı qəbul edən dövlətlərdən, Niderland 1960-cı ildə, Böyük Britaniya 1966-cı ildə, İtaliya 1973-cü ildə, Fransa isə 1981-ci ildə fərdi şikayət hüququnu tanıdılar. Yuxarıda qeyd olunan maddədə, həmçinin, göstərilirdi ki, belə bir bəyanatı vermiş dövlətlər bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamağı öhdələrinə götürürlər.

Artıq qeyd etdik ki, Konvensiya əsasında mühüm nəzarət mexanizmi - Avropa İnsan Hüquqları Məhkəməsi yaradılmışdır. Məhkəmənin fəaliyyətini tarixi aspektdən şərti olaraq bir neçə mərhələyə ayırmaq olar:

Birinci mərhələni Məhkəmənin təşəkkülü dövrü adlandırmaq olar. Əvvəlcə qeyd etmək lazımdır ki, Məhkəmə, Konvensiyanın qəbul edilməsindən 9 il sonra,

qüvvəyə minməsindən isə 6 il sonra, yəni 1959-cu ildən fəaliyyətə başlamışdır. Bu, əsasən onunla izah olunur ki, iştirakçı-dövlətin Konvensiyanı ratifikasiya etməsi avtomatik olaraq Məhkəmənin yurisdiksiyasını da tanıması demək deyildi. Bu halda dövlətin xüsusi bəyanatı tələb olunurdu. Birinci mərhələ təqribən 1959-1970-ci illərin ortalarını əhatə edir. 1959-cu ildə Məhkəmə öz reqlamentini qəbul etdi və 1960-1961-ci illərdə ilk işə baxdı («Lawless v. Ireland»). Sonrakı dövrlərdə Məhkəmə daha on işə baxdı. («Wemhoff v. Germany», «Nuemeister v. Austria», «Stögmüller v. Austria», «Matrnetter v. Austria» və s.). Bu dövrdə əsasən, Məhkəmənin özünün hüquqi mövqeləri formalaşaraq müəyyənləşdi. Artıq 1962-ci ildə ikinci baxdığı işdə («De Bekker Belçikaya qarşı») Məhkəmə müəyyən etdi ki, o, dövlətlərin milli qanunvericiliyinə nəzarət həyata keçirmir. Beləliklə, birinci mərhələ Məhkəmənin təşəkkülü mərhələsi olmuşdur (138, 5-6).

İkinci mərhələ 70-ci illərin ortaları, 80-ci illərin sonlarını əhatə edir. Bu mərhələ Məhkəmənin baxdığı işlərin artdığı dövrdür. Bu dövrdə Məhkəmənin baxdığı işlərin sayı 200-ə çatdı. Artıq II mərhələnin ilk dövrlərində aydın oldu ki, Məhkəmə təcrübəsində əsas yeri fərdi şikayətlər tutur.

Bu dövrdə Avropa ictimaiyyəti arasında Məhkəməyə böyük rəğbət yarandı və Məhkəmənin reytinqi sürətlə artdı. Bu mərhələni şərti olaraq Məhkəmənin təkmilləşməsi dövrü adlandırmaq olar (138, 8).

Üçüncü mərhələ 1990-1998-ci ilin sonlarını əhatə edir. Bu mərhələnin əsas cəhəti ondan ibarətdir ki, Avropa Şurasının üzvləri və bununla əlaqədar olaraq Məhkəmənin baxdığı işlər də sürətlə artdı. SSRİ-nin süqutu nəticəsində Şuraya 17 yeni üzv qəbul olundu. 1990-1998-ci illərdə Məhkəmə 700-ə qədər qərar çıxardı. Bu dövrdə baxılan işlərin üçdə biri İtaliyanın payına düşür, sonra Fransa - 79 iş, Böyük Britaniya - 59, Avstriya - 54, Yunanıstan - 30, Türkiyə - 20 və s. (138, 9). Bu dövr təkcə Məhkəmənin baxdığı işlərin sürətlə artması ilə əlamətdar deyil. 1990-cı ildə qəbul edilən, fərdi şikayətçinin məhkəmə baxışının tam hüquqlu iştirakçısına çevrilməsini nəzərdə tutan, Konvensiyaya 9 saylı Protokol 1994-cü ildə qüvvəyə mindi. Protokol fərdin birbaşa Məhkəməyə müraciətini və şəxsən Məhkəmədə təmsil olunmasını nəzərdə tuturdu. Bu isə öz növbəsində reqlament qaydalarının dəyişməsinə gətirib çıxardı ki, bunun da nəticəsində iki reqlament yarandı. «A» saylı Reqlament 9 saylı Protokolu ratifikasiya etməyən dövlətlərə, «B» saylı Reqlament isə həmin Protokolu ratifikasiya etmiş dövlətlərə tətbiq edilirdi. «B» saylı Reqlament, həmçinin şikayət ərizəsinin qəbul olunub-olunmaması məsələsini həll edən, üç hakimdən ibarət komitələrin yaradılmasını da nəzərdə tuturdu. Lakin buna baxmayaraq, bu dövrdə də Məhkəmə tərəfindən baxılan işlər Avropa Komissiyasından keçmişdir (138, 10).

Avropa Komissiyası ilə Məhkəmənin vahid orqanda birləşdirilməsi ideyası

ilk dəfə olaraq 1985-ci ilin martında Vyanada keçirilmiş insan hüquqları üzrə Avropa konfransında irəli sürülmüşdür (65, 101). Artıq 1990-cı illərin əvvəllərindən tam şəkildə aydın oldu ki, Konvensiya əsasında yaradılmış məhkəmə sistemi təkmilləşdirilməlidir. Buna səbəb ərizə axınının sürətlə artması idi. Əgər Komissiyaya verilən şikayətlərin sayı 1981-ci ildə 404 idisə, 1993-cü ildə bu rəqəm 2037-yə çatdı. Bu proses, Avropa Şurasına yeni üzvlərin qəbul edilməsi ilə əlaqədar olaraq, artan templə davam edirdi. 1988-ci ilə qədər Məhkəməyə hər il təxminən 25-ə qədər iş verilirdisə, 1989-cu ildə bunların sayı - 31, 1990-cı ildə - 61, 1991-ci ildə - 93 təşkil etdi və bu proses də artan sürətlə davam edirdi (65, 121). Beləliklə, göründüyü kimi, Konvensiyanın təminat mexanizmində struktur dəyişikliklərinin aparılması və bu mexanizmin daha da təkmilləşdirilməsi qaçılmaz idi və bu da əsasən artıq qeyd edildiyi kimi, Avropa Şurasına yeni üzvlərin qəbul edilməsi ilə əlaqədar olaraq, ərizə axınının sürətlə artması ilə bağlı idi. Bunun üçün daha effektiv şəkildə işləyən və daimi əsasda fəaliyyət göstərən vahid orqanın yaradılması zəruri idi.

1992-ci ildə Avropa Şurası Parlament Assambleyası (AŞPA) Konvensiyanın məhkəmə sisteminin əsaslı dəyişikliyini nəzərdə tutan tövsiyə qəbul etdi. 1993-cü ilin oktyabrında isə Şura üzvlərinin dövlət və hökumət başçılarının Vyanada keçirilən sammitində bu barədə qərar qəbul edildi. Vyana Bəyannaməsində Komissiyanı və Məhkəməni əvəz edən və daimi əsasda fəaliyyət göstərən vahid Məhkəmənin yaradılmasının vacibliyi vurğulanırdı. 1993-cü ilin oktyabrın 8-9-da Vyanada keçirilən konfransda üzv-dövlətlərin dövlət və hökumət başçıları Nazirlər Komitəsinə tapşırdı ki, o, 1994-cü ilin mayında nazirlər səviyyəsində keçiriləcək görüşdə qəbul edilib və imzalanmağa təqdim olunması üçün, məhkəmə sistemində struktur dəyişikliklərini nəzərdə tutan Protokol layihəsini tam hazırlayıb başa çatdırsın.

Beləliklə, 11 may 1994-cü ildə, Konvensiyanın hüquq müdafiə mexanizmində əsaslı struktur dəyişiklikləri nəzərdə tutan 11 saylı Protokol Konvensiyanı imzalayan Avropa Şurası üzv dövlətlərinə imzalanmaq üçün açıq elan edildi. 11 saylı Protokol və buna müvafiq olaraq yeni redaktədə olan Konvensiya 1 noyabr 1998-ci ildə qüvvəyə mindi. Bununla da Məhkəmə özünün inkişaf tarixinin IV mərhələsinə qədəm qoymuş oldu. Bu Protokola əsasən Konvensiyanın II və IV bölmələrində əsaslı dəyişikliklər edilmiş, III bölmə isə ümumiyyətlə ixtisar edilmişdir. Hal-hazırda olan redaktədə Konvensiya Preambula, üç bölmə və 59 maddədən ibarətdir.

Birinci bölmə 2-18-ci maddələri əhatə etməklə «Hüquqlar və azadlıqlar» adlanır və bu bölmədə Konvensiya ilə təmin edilən əsas hüquq və azadlıqlar təsbit edilmişdir. İkinci bölmə 19-51-ci maddələri əhatə etməklə «Avropa İnsan

Hüquqları Məhkəməsi» adlanır və bu bölmədə Məhkəmənin təşkili və fəaliyyətini müəyyənləşdirən normalar və əsas prosedur qaydalar əks olunmuşdur. Üçüncü bölmə 52-59-cu maddələri əhatə etməklə «Sair müddəalar» adlanır və burada əsasən Konvensiyanın beynəlxalq-hüquqi statusu məsələləri əks olunmuşdur. Konvensiyaya əlavə Protokollardan danışarkən qeyd etmək lazımdır ki, 2, 3, 5, 8, 10, 11 saylı Protokollar prosedur məsələlərə həsr olunmuş və Konvensiyanın mətninə daxil edilmişdir. 1, 4, 6, 7, 12, 13 saylı Protokollar isə əlavə hüquq və azadlıqlar nəzərdə tutur. Konvensiyaya əlavə olaraq, mülkiyyətin müdafiəsi, təhsil hüququ, azad seçki hüququ kimi hüquqları əks etdirən 1 saylı Protokol (və ya Əlavə Protokol) 18 may 1954-cü ildə, borca görə azadlıqdan məhrum etmənin qadağan edilməsi, hərəkət etmək azadlığı, vətəndaşların məcburi çıxarılmasının qadağan edilməsi, əcnəbilərin kollektiv çıxarılmasının qadağan edilməsini nəzərdə tutan, Konvensiyada və ona dair 1 saylı Protokolda təsbit edilənlərdən başqa, bəzi hüquq və azadlıqların təmin olunması haqqında 4 saylı Protokol 2 may 1968-ci ildə, ölüm cəzasının ləğvinə dair 6 saylı Protokol 1 mart 1985-ci ildə, əcnəbilərin çıxarılmasına dair prosedur təminatlar, cinayət işlərinə dair hökmlərdən ikinci instansiyaya şikayət vermə hüququ, məhkəmə səhvinə görə kompensasiya hüququ, iki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ, ər-arvadın hüquq bərabərliyi kimi Konvensiyaya əlavə hüquq və azadlıqlar nəzərdə tutan 7 saylı Protokol 1 noyabr 1988-ci ildə, ayrı-seçkiliyin ümumi qadağan olunmasına dair 12 saylı Protokol 1 aprel 2005-ci ildə, istənilən halda ölüm cəzasının ləğvinə dair 13 saylı Protokol isə 1 iyul 2003-cü ildə qüvvəyə minmişdir.

13 may 2004-cü il tarixdə Konvensiyaya yeni bir Protokol – Konvensiyanın nəzarət sisteminə dəyişikliklər edilməsini nəzərdə tutan 14 saylı Protokol qəbul edilmişdir. Protokolda qeyd olunur ki, bu Protokolu imzalayan Avropa Şurası üzv-dövlətləri Avropa Məhkəməsinin və Nazirlər Komitəsinin iş yükünün artmaqda davam etməsi ilə əlaqədar nəzarət sisteminin uzun müddətə səmərəliliyini saxlamaq və daha da artırmaq məqsədilə Konvensiyanın müəyyən müddəalarında təxirəsalınmaz dəyişikliklər etmək ehtiyacını diqqətə alaraq və xüsusilə də, Məhkəmənin Avropada insan hüquqlarının qorunmasında mühüm rol oynamaqda davam etməsini təmin etməyə ehtiyacın olduğunu diqqətə alaraq bu barədə razılığa gəlmişlər. Protokola əsasən, Konvensiyanın 22-ci maddəsinin 2-ci bəndi və 24-cü maddəsi ləğv edilməli, 23, 25, 26, 27, 28, 29, 31, 32, 35-ci maddənin 3-cü bəndi, 38, 39, 46 və 59-cu maddələrinə isə müvafiq dəyişikliklər edilməlidir. Həmçinin, Konvensiyaya yeni 27-ci maddə və 36-cı maddənin sonuna yeni 3-cü bənd əlavə edilir. Protokola əsasən, hakimlər, Konvensiyanın 11 saylı Protokolunun qüvvəyə minməsinə qədərki redaksiyasında olduğu kimi 9 il müddətinə seçilirlər. Lakin əhəmiyyətli fərq ondan ibarətdir ki, yeni Protokola əsasən onlar təkrarən seçilə

bilməzlər. Protokolun gətirdiyi ən mühüm yenilik tək hakimli tərkibdir. Bu da Protokolun Preambulasında qeyd olunduğu kimi, Məhkəmənin iş yükünün artması ilə əlaqədardır. Protokola əsasən, Məhkəmə, ona verilmiş işlərə baxmaq üçün tək hakimli tərkib, üç hakimdən ibarət komitələr, yeddi hakimdən ibarət palatalar və on yeddi hakimdən ibarət Böyük Palata yaradır. Protokol Konvensiyanın bütün iştirakçı-dövlətləri tərəfindən ratifikasiya edildikdən sonra qüvvəyə minmişdir. Uzun müddət Konvensiyanın iştirakçı-dövlətlərindən yalnız Rusiya Federasiyasının bu Protokolu ratifikasiya etməməsi səbəbindən 2009-cu ilin 12 may tarixində Madriddə 14 saylı Protokolun qüvvəyə minməsinə qədər onu müvəqqəti əvəzləyəcək 14-bis saylı Protokol qəbul edilmişdir. Qeyd olunan Protokol həmin ilin 1 oktyabr tarixindən qüvvəyə minmişdir. 14-bis saylı Protokol əsas etibarilə özündə 14 saylı Protokolda öz əksini tapmış iki mühüm müddəanı ehtiva edirdi:

- Məhkəmənin səlahiyyəti xaricində olan şikayətlərdən imtina edilməsi ilə bağlı qərar tək hakim tərəfindən qəbul oluna bilər;
- üç hakimdən ibarət komitə həm şikayətin qəbul edilənliyi ilə bağlı, həm də mahiyyət üzrə qərarlar qəbul edə bilər.

Artıq qeyd olunduğu kimi, uzun müddət Rusiya Federasiyasının 14 saylı Protokolu ratifikasiya etməməsi səbəbindən Protokol qüvvəyə minmirdi. Artıq, adı çəkilən Protokol Rusiya tərəfindən ratifikasiya olunmuşdur. 2010-cu il fevralın 18-də ratifikasiya haqqında sənəd Rusiyanın ədliyyə naziri tərəfindən saxlanmaq üçün Avropa Şurasının Baş Katibinə təqdim olunmuşdur. 14 saylı Protokol 1 iyun 2010-cu il tarixdən qüvvəyə minmişdir. Bu Protokol qüvvəyə minəndən sonra 14-bis saylı Protokol öz qüvvəsini itirmişdir. 14 saylı Protokolun qüvvəyə minməsi ilə isə Məhkəmənin inkişaf dövrünün yeni-V mərhələsi başlamış oldu. 14 saylı Protokol Konvensiyanın mətninə daxil edilmiş və artıq Konvensiya 14 saylı Protokola uyğunlaşdırılmış redaksiyada qüvvədədir.

13 saylı Protokol Azərbaycan Respublikası tərəfindən imzalanmamışdır. 12 və 14 saylı Protokollar isə Azərbaycan Respublikası tərəfindən imzalanmış, 12 saylı Protokol hələ ratifikasiya edilməmiş, 14 saylı Protokol isə 4 aprel 2006-cı il tarixli qanunla ratifikasiya olunmuşdur.

Konvensiyanın hüquq müdafiə mexanizmindəki islahatları tam aydın şəkildə görmək üçün bu mexanizmin, 11 saylı Protokolun qüvvəyə minməsinə qədər olan təşkilati strukturuna diqqət yetirmək lazımdır. Konvensiyanın (11 saylı Protokolun qüvvəyə minməsinə qədər olan redaktəsində) 19-cu maddəsinə əsasən, Razılığa gələn Yüksək Tərəflərin bu Konvensiya ilə öz üzərlərinə götürdükləri öhdəliklərə riayəti təmin etmək məqsədilə Avropa İnsan Hüquqları Komissiyası və Avropa İnsan Hüquqları Məhkəməsi təsis edilmişdir.

Lakin bununla yanaşı, Konvensiyanın (11 saylı Protokolun qüvvəyə minməsinə qədər olan redaktəsində) 31-ci maddəsinin 2-ci bəndinə əsasən, Komissiyanın şikayət işi üzrə məruzəsi Nazirlər Komitəsinə göndərilirdi. Yalnız bundan sonra iş Komissiya tərəfindən Məhkəməyə verilə bilərdi. Konvensiyanın (11 saylı Protokolun qüvvəyə minməsinə qədər olan redaktəsində) 32-ci maddəsinə əsasən, əgər məruzənin Komitəyə təqdim edildiyi andan üç ay ərzində iş Məhkəməyə verilmirdisə, bu halda Komitə özü Konvensiyanın müddəalarının pozulub-pozulmadığı haqqında məsələni həll edirdi və bu barədə qərar çıxarırdı. Həmin maddəyə əsasən Komitənin bu barədə istənilən qərarı məcburi idi.

Göründüyü kimi, Konvensiya Komissiya və Məhkəmədən əlavə, daha bir orqanın - Nazirlər Komitəsinin də üzərinə müəyyən qədər ədalət mühakiməsinin həyata keçirilməsi vəzifəsini qoymuşdur. Siyasi orqan olan Nazirlər Komitəsinin üzərinə mühakimə xarakterli funksiyalar qoyulmuşdur. Bu isə ədalət mühakiməsinin prinsipləri ilə ziddiyyət təşkil edirdi. İslahat nəticəsində Nazirlər Komitəsi yuxarıda qeyd olunan səlahiyyətdən məhrum oldu. Bundan sonra Komitə yalnız Məhkəmənin qərarlarının icrasına nəzarət edir (Konvensiyanın 46-cı maddəsinin 2-ci bəndi).

Komissiyaya gəlincə isə, islahat nəticəsində Komissiya ləğv olundu və onun funksiyaları vahid orqan olan və daimi əsasda fəaliyyət göstərən Məhkəməyə verildi. Qeyd etmək lazımdır ki, islahatdan əvvəl Konvensiyanın müdafiə mexanizmində Komissiya əhəmiyyətli rol oynayırdı. Şikayət ərizəsinin qəbul olunub-olunmaması haqqında məsələni Komissiya həll edirdi, iş üzrə məruzə hazırlayırdı, bir sözlə, Komissiyanın fəaliyyəti şikayətin gələcək taleyinə mühüm təsir göstərirdi. 11 saylı Protokol qüvvəyə minəndən sonra isə, Komissiya ixtisar olundu və onun yuxarıda qeyd etdiyimiz funksiyaları yeni yaranan Məhkəməyə verildi. Konvensiyanın 19-cu maddəsinə əsasən, Razılığa gələn Yüksək Tərəflərin bu Konvensiya və onun Protokolları ilə öz üzərlərinə götürdükləri öhdəliklərə riayəti təmin etmək məqsədilə Avropa İnsan Hüquqları Məhkəməsi təsis edilir. O, daimi əsasda fəaliyyət göstərir.

Beləliklə, Konvensiyanın təminat mexanizmində aparılan islahat, əsasən Məhkəmənin ərizələrə baxmaq qabiliyyətinin artırılması və ərizələrə baxılma müddətinin azalması ilə əlaqədar olmuşdur. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, islahatın aparılmasının əleyhinə çıxış edənlər də var idi. Bəzi dövlətlər Komissiyanın ixtisar olunmasının əleyhinə çıxır və qeyd edirdilər ki, Komissiyanın ixtisar olunması yox, onun işinin effektivliyinin artırılması daha məqsədəuyğun olardı və bunu belə əsaslandırırdılar ki, işin Komissiyada öyrənilməsi, onunla hərtərəfli tanış olmağa imkan verir. Hətta Komissiyaya bəzi işlər üzrə hüquqi məcburi qərarlar çıxarmaq səlahiyyəti verilməsi təklifi ilə çıxış edənlər də

var idi. 1990-cı ildə Niderland və İsveç Hökumətləri Komissiyaya məcburi qərarlar çıxarmaq səlahiyyəti verməklə və buna müvafiq olaraq Məhkəmənin isə bəzi işlərə apellyasiya qaydasında baxılmasını nəzərdə tutan iki pilləli məhkəmə sisteminin yaradılması təklifi ilə çıxış etdilər. 11 saylı Protokolun əleyhinə, həmçinin Böyük Britaniya, İtaliya və Türkiyə çıxırdılar. Lakin islahat tərəfdarlarının fikrincə isə, ərizə axını nəticəsində Konvensiyanın təminat mexanizmində yaranan gərginliyin aradan qaldırılmasının ən optimal yolu Komissiya ilə Məhkəmənin vahid bir orqanda birləşdirilməsi nəticəsində daimi əsasda fəaliyyət göstərən vahid Məhkəmənin yaradılması idi. İslahat tərəfdarları qeyd edirdilər ki, vahid bir orqanın yaradılması təkrarlanmanı aradan qaldıracaq və bununla da, əsasən, işə baxılma müddəti 1,5-2 il azalacaq. Həmçinin, islahat nəticəsində, Nazirlər Komitəsinin fəaliyyəti ilə əlaqədar olaraq, işlərə baxılmasında siyasi element də aradan qalxacaqdır. İslahat nəticəsində, Məhkəmədə işlərə baxılma müddətinin altı ildən üç ilədək azalması haqqında verilən proqnozlar nəticəsində Avropa ictimaiyyəti də bunu dəstəkləyirdi.

Bəzi etirazlara və pessimist proqnozlara baxmayaraq, Konvensiyanın təminat sistemində aparılan islahat uğurla həyata keçirildi və bunu Məhkəmənin fəaliyyəti də sübut edir. Belə ki, 1998-ci il noyabrın 1-dən 1999-cu il noyabrın 1-dək Məhkəmə 3 mindən çox şikayət ərizəsi üzrə müvafiq qərarlar çıxarmışdır (şikayətin qəbuledilənliyi haqqında qərarlar və işin icraatdan çıxarılmasına dair qərarlar da daxil olmaqla). 2000-ci il ərzində isə, ümumi hesabla Məhkəmə 7 minə qədər qərar çıxarmışdır, bunlardan 652-si işin mahiyyəti üzrə qəti qərarlardır (138, 14).

Beləliklə, yuxarıda qeyd olunan rəqəmlər islahatın uğurla həyata keçdiyini, onun vacibliyini və əhəmiyyətini bir daha təsdiq edir.

14 saylı Protokolun qüvvəyə minməsi ilə Məhkəmədə işlərə baxılma müddəti bir qədər azalmışdır. Qeyd edək ki, hələ 14 saylı Protokol qüvvəyə minməmiş 14-bis saylı Protokolu ratifikasiya etmiş dövlətlərə (Danimarka, Gürcüstan və s.) münasibətdə bu Protokoldan irəli gələn yeni qaydalar tətbiq olunurdu. Yəni sözügedən Protokol hər bir dövlətə münasibətdə fərdi xarakter daşıyırdı.

Yeri gəlmişkən, hazırda Məhkəməyə daxil olan şikayətlərin əksəriyyəti əsasən Rusiya (2011-ci ildə - 40.225), Türkiyə (2011-ci ildə - 15.940), İtaliya (2011-ci ildə - 13.741), Rumıniya (12.286) və Ukraynaya (2011-ci ildə - 10.271) qarşı yönəlir.

## 1.2. Avropa İnsan Hüquqları Məhkəməsi və digər beynəlxalq hüquq müdafiə mexanizmləri: müqayisəli təhlil

### Avropa İnsan Hüquqları Məhkəməsi və BMT-nin beynəlxalq hüquq müdafiə mexanizmi

İnsan hüquqlarının müdafiəsinin beynəlxalq mexanizmləri sırasında BMT sistemində fəaliyyət göstərən mexanizmlər xüsusi yer tutur. Bu mexanizmlər əsas etibarilə universal müqavilə mexanizmləridir. İnsan hüquqları sahəsində mühüm beynəlxalq nəzarət orqanları olan bu mexanizmlər əsasən müvafiq beynəlxalq müqavilənin iştirakçı-dövlətlərinin həmin müqavilədə nəzərdə tutulmuş insan hüquqlarına dair normalarının milli səviyyədə implementasiyasını izləmək (yəni müəyyən mənada bu prosesə nəzarət etmək) yolu ilə dövlətlərin həmin beynəlxalq hüquqi aktlarda təsbit olunmuş insan hüquq və azadlıqlarının təmini sahəsində həyata keçirilən tədbirlərə dair dövri məruzələrinə baxır. Bu mexanizmlər eyni zamanda monitorinq funksiyalarını yerinə yetirdiyindən onları həmçinin monitorinq orqanları da adlandırmaq olar. Bundan əlavə bir sıra mexanizmlər (məsələn, insan hüquqları komitəsi, işgəncə əleyhinə komitə, irqi ayrı-seçkiliyin ləğvi üzrə komitə və digərləri) insan hüquqlarının pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxmaq səlahiyyətinə malikdir.

BMT-nin müqavilə mexanizmlərinə keçməzdən əvvəl qeyd etmək lazımdır ki, bu sahədə fəaliyyət göstərən qeyri-müqavilə mexanizmlərinin də rolu az deyildir.

Məlum olduğu kimi, insan hüquqlarına dair beynəlxalq hüquq normaları əsasən II Dünya müharibəsindən sonra formalaşmağa başlamışdır (51, 139).

1948-ci ildə Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi ilə insan hüquqları sahəsində geniş normayaradıcılıq prosesi başlandı.

Bəyannamə insan hüquqları sahəsində hüquqi cəhətdən ilk məcburi sənəd olmasa da, miqyasına və əhəmiyyətinə görə şübhəsiz ki, ən önəmli sənədlərdəndir. Məhz onun əsasında sonradan yüzlərlə beynəlxalq konvensiyalar qəbul edilmiş, əksər dövlətlər onun müddəalarını konstitusiyalarında təsbit etmişlər.

Preambuladan və 30 maddədən ibarət olan İnsan Hüquqları haqqında Ümumi Bəyannamə BMT Nizamnaməsinin iqtisadi, sosial, mədəni və ya humanitar xarakterli beynəlxalq problemlərin həll edilməsində və irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaq haqqındakı maddəsini bir növ inkişaf etdirmiş və konkretləş-

dirmişdir. Beynəlxalq hüquq tarixində ilk dəfə olaraq məhz bu Bəyannamədə hamı tərəfindən əməl olunması nəzərdə tutulan əsas insan hüquq və azadlıqları müəyyən edilmişdir.

Bəyannamədə təsbit edilmiş hüquqlar ümumbəşəri dəyərlərdir. Onlar hər kəsə hər hansı bir ayrı-seçkiliyə yol verilmədən mənsubdur.

Qeyd olunduğu kimi, Bəyannamə insan hüquqları sahəsində həm universal, həm də regional səviyyədə fundamental beynəlxalq hüquqi aktların qəbuluna təkan vermiş oldu.

Hal-hazırda BMT-nin demək olar ki, əksər əsas və köməkçi orqanları bilavasitə və ya dolayısı ilə insan hüquqlarının müdafiəsi məsələsi ilə məşğul olur. Bunların sırasında Baş Assambleya, Təhlükəsizlik Şurası və İqtisadi və Sosial Şura (EKOSOK) xüsusi yer tutur (80, 99).

BMT Nizamnaməsinin 1-ci maddəsinə əsasən, təşkilatın əsas məqsədlərindən biri irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarına hörmətin dəstəklənməsində və həvəsləndirilməsində beynəlxalq əməkdaşlığa nail olmaqdan ibarətdir. Baş Assambleya irqinə, cinsinə, dilinə və ya dini mənsubiyyətinə fərq qoyulmadan bütün insanların əsas hüquq və azadlıqlarının həyata keçirilməsinə yardım göstərmək məqsədilə tədqiqatlar təşkil edir və tövsiyələr verir.

Sülhün və təhlükəsizliyin qorunub saxlanmasına görə başlıca məsuliyyət Təhlükəsizlik Şurasının üzərindədir. Öz vəzifələrini icra edərkən Təhlükəsizlik Şurası BMT-nin məqsəd və prinsiplərinə uyğun olaraq hərəkət edir.

İnsan hüquqları sahəsində BMT sistemində xüsusi yerlərdən birini onun altı əsas orqanlarından biri olan EKOSOK tutur. Şura hər bir kəsin əsas hüquq və azadlıqlarına hörmət edilməsinə və riayət edilməsinə dəstək vermək üçün tövsiyələr verə bilər. Eyni zamanda EKOSOK-un daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, o, Baş Assambleyaya təqdim etmək üçün öz səlahiyyəti çərçivəsində olan məsələlərə aid konvensiya layihələri hazırlaya bilər. Nizamnaməyə əsasən EKOSOK insan hüquqlarına dəstək vermək üçün komissiyalar və habelə öz funksiyalarının icrası üçün tələb olunan digər bu cür komissiyalar təsis edir.

Eyni zamanda qeyd etmək lazımdır ki, BMT-nin orqanları, əsasən də Baş Assambleya və Təhlükəsizlik Şurası yalnız aşağıda qeyd olunan hallarda insan hüquqları məsələsini müzakirəyə çıxarır:

- insan hüquqlarının pozuntusu beynəlxalq sülh və təhlükəsizliyə təhlükə törədirsə;
- vəziyyət humanitar fəlakət həddinə çataraq beynəlxalq nizamasalmanı zəruri edirsə;
- insan hüquqlarının pozuntusu beynəlxalq cinayətdirsə;

- terror aktları mülki əhali arasında böyük itkilərə səbəb olursa;

- qeyri-beynəlxalq xarakterli daxili konfliktlər nəticəsində mülki əhalinin hüquqları kobud və sistematik şəkildə pozulursa və s. (80, 100-101).

Onilliklər boyu BMT-nin insan hüquqları sahəsində mərkəzi orqanlarından biri kimi İnsan Hüquqları Komissiyası çıxış edirdi. Komissiya 1946-cı ildə EKOSOK tərəfindən yaradılmışdır. İlk vaxtlar Komissiya 18 üzv dövlətdən ibarət idi, 90-cı illərin əvvəllərindən isə BMT-yə yeni üzv-dövlətlərin qəbulu ilə əlaqədar olaraq onun tərkibi genişləndirildi və üzvlərinin sayı 53-ə çatdırıldı (3 il müddətinə seçilməklə). Komissiya EKOSOK-a insan hüquqlarının müdafiəsi məsələləri ilə bağlı təkliflər, tövsiyələr və məruzələr təqdim etmək səlahiyyətinə malik idi.

İlkin olaraq komissiyanın qarşısında aşağıdakı vəzifələr dayanırdı:

- insan hüquqlarına dair fundamental beynəlxalq hüquqi aktların, ilk növbədə isə, «İnsan hüquqları haqqında Beynəlxalq Bill»in işlənib hazırlanması;

- ayrı-ayrı insan hüquqlarının (qadınların, uşaqların, milli azlıqların və s.) müdafiəsinə yönəlmiş beynəlxalq konvensiya və bəyannamələrin işlənib hazırlanması;

- müxtəlif əlamətlərə görə, əsasən də, irqinə, cinsinə, dilinə, dininə və ya digər əlamətlərinə görə ayrı-seçkiliyin ümumi qadağan edilməsinə dair təkliflərin işlənib hazırlanması;

- insan hüquqlarının müdafiəsinin digər aktual məsələlərinə dair təkliflərin işlənib hazırlanması.

Məlum olduğu kimi, Komissiya onun qarşısında qoyulan və yuxarıda qeyd olunan bütün vəzifələri demək olar ki, yerinə yetirdi və bununla da beynəlxalq insan hüquqları hüququnun inkişafına və insan hüquqları sahəsində beynəlxalq mexanizmlərin formalaşması və fəaliyyətinə böyük töhfələr vermiş oldu. Belə ki, İnsan hüquqlarına dair Beynəlxalq Bill (Ümumdünya İnsan Hüquqları Bəyannaməsi, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt, Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt və onun Fakültativ Protokolları) və bir sıra digər mühüm universal beynəlxalq müqavilələr (ümumi, xüsusi, ayrı-ayrı qrupların müdafiəsinə yönəlmiş, ayrı-seçkiliyin qarşısının alınmasına dair və s.) Komissiya tərəfindən işlənib hazırlandı.

Komissiyanın illik sessiyaları altı həftə ərzində İsveçrənin Cenevrə şəhərində çağırılırdı. Özünün illik sessiyalarında Komissiya bir sıra mühüm sənədlər, o cümlədən tematik qətnamələr qəbul edirdi. Bəzi hallarda isə (məsələn, insan hüquqlarının kobud pozulması və təcili müdaxilə tələb edilən və bu kimi digər hallarda) Komissiyanın xüsusi sessiyaları çağırılırdı. Fəaliyyəti dövrü ərzində Komissiya bu və ya digər ölkədə insan hüquqlarının kobud pozuntusu hallarına operativ reaksiya vermək məqsədilə bir sıra mühüm mexanizmlər təsis etmişdir.

Bunların sırasında tematik mexanizmlər, xüsusi məruzəçilər yaxud xüsusi prosedurlar, müxtəlif işçi qruplarının yaradılması önəmli yer tuturdu. BMT Baş Katibindən, İnsan Hüquqları üzrə Ali Komissardan, İnsan Hüquqları Şurasından mandat almış xüsusi məruzəçilər, insan hüquqları ilə bağlı vəziyyəti yerində araşdırmaq, monitorinq aparmaq məqsədilə bu və ya digər üzv dövlətə səfərlər edir, aidiyyəti dövlət qurumlarının, milli insan hüquqları təsisatlarının, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlər keçirir, daha sonra isə araşdırma ilə bağlı özünün hesabatını hazırlayır və BMT-nin müvafiq qurumuna təqdim edir.

İnsan hüquqları sahəsində bu və ya digər məsələ ilə əlaqədar olaraq BMT-nin xüsusi məruzəçiləri Azərbaycanda da olmuş və hesabatlar hazırlamışlar. Məsələn, BMT Baş Katibinin nümayəndəsi Frensis Denq 1998-ci il mayın 21-dən iyunun 1-dək, İnsan Hüquqları Komissiyasının xüsusi məruzəçisi Ser Naysel Rodli 2000-ci il mayın 7-dən 15-dək, BMT-nin İnsan Hüquqları Şurasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi Asma Cahangir 2006-cı il fevralın 26-dan martın 5-dək, BMT Baş Katibinin məcburi köçkünlərin insan hüquqları üzrə nümayəndəsi Valter Kalin 2007-ci il aprelin 2-dən 6-dək, İnsan Hüquqları Şurasının fikir və söz azadlığı üzrə xüsusi məruzəçisi Ambeyi Liqabo 2007-ci il aprelin 24-dən 27-dək və digərləri Azərbaycanda səfərdə olmuşlar.

1947-ci ildə təsis edilən və insan hüquqları sahəsində EKOSOK və İnsan Hüquqları Komissiyası tərəfindən onun qarşısında qoyulan vəzifələri (insan hüquqlarına dair aktual məsələlərə həsr olunmuş tədqiqatların aparılması, bununla bağlı müəyyən qətnamələrin qəbul edilməsi, Komissiyaya müəyyən təkliflərin verilməsi və s.) yerinə yetirən İnsan Hüquqlarına dəstək verilməsi və müdafiəsi üzrə Altkomissiyanın (və ya ədəbiyyatda bəzən Subkomissiya da adlandırılır) üzvləri xüsusi məruzəçilər qismində fəaliyyət göstərmişlər.

İnsan Hüquqları Komissiyasının tərkibində müstəqil ekspertlərin deyil, ayrı-ayrı dövlətlərin təmsilçiliyi bəzən onun işinə siyasi çalarlar qatmaqla maneçilik törədirdi. BMT-nin o vaxtkı Baş Katibi K.Annanın qeyd etdiyi kimi, bir sıra dövlətlər Komissiyaya, insan hüquqlarının müdafiəsi məqsədilə deyil, öz maraqlarını güdərək özlərini tənqiddən qorumaq məqsədilə üzv olmağa can atırlar.

Beləliklə, İnsan Hüquqları Komissiyası insan hüquqlarına dair bir çox beynəlxalq konvensiya, bəyannamə və digər sənəd layihələrini hazırlamaqla beynəlxalq insan hüquqları hüququnun məcəlləşdirilməsi və proqressiv inkişafına böyük töhfələr vermişdir. Lakin bir qədər əvvəldə qeyd edildiyi kimi, son dövrlər Komissiyanın fəaliyyəti o qədər də səmərəli olmamışdır. Bununla əlaqədar BMT- nin 60 illiyi ərəfəsində Baş Katib üzv-dövlətlərə müraciət edərək İnsan Hüquqları Komissiyasının əvəzinə BMT-nin əsas orqanlarından biri, yaxud Baş Assambleyanın köməkçi orqanı qismində İnsan Hüquqları Şurasının yaradılmasını təklif etdi.

Beləliklə, BMT Baş Assambleyasının 15 mart 2006-cı il tarixli 60/251 saylı «İnsan Hüquqları Şurası» adlı Qətnaməsi ilə İnsan Hüquqları Komissiyasının əvəzinə Baş Assambleyanın köməkçi orqanı qismində İnsan Hüquqları Şurası təsis edildi. Şura 47 üzv-dövlətdən ibarətdir. Şuraya seçkilərin ədalətli coğrafi bölgü prinsipi əsasında həyata keçirilməsini təmin etmək məqsədilə Şurada yerlər regional qruplar arasında aşağıdakı qaydada paylanmışdır:

Afrika dövlətləri qrupu - 13 yer; Asiya dövlətləri qrupu - 13 yer; Şərqi Avropa dövlətləri qrupu - 6 yer; Latın Amerikası və Karib hövzəsi dövlətləri qrupu - 8 yer; Qərbi Avropa və digər dövlətlər qrupu - 7 yer. Şuranın üzvləri 3 illik müddətə seçilirlər və yenidən seçilmək hüququna malik olurlar, lakin iki ardıcıl səlahiyyət müddətindən dərhal sonra yenidən seçilə bilməzlər. 9 may 2006-cı ildə BMT-nin Nyu-Yorkdakı mənzil qərargahında Baş Assambleyanın iclasında Şuraya ilk üzvlərin seçkiləri keçirildi. 47 yer uğrunda 63 dövlət mübarizə aparırdı. Seçkilər nəticəsində Azərbaycan Respublikası İnsan Hüquqları Şurasına 3 illik müddətə üzv seçildi. Bu müddət artıq başa çatmışdır. Qeyd etmək yerinə düşərdi ki, 2005-ci ildə 2006-2008-ci illər arasındakı dövr üçün BMT-nin İnsan Hüquqları Komissiyasına üzv seçilməsinə baxmayaraq Komissiyanın ixtisar olunması və Şura ilə əvəzlənməsi ilə əlaqədar olaraq Azərbaycanın Komissiyada fəaliyyət göstərmək imkanı olmamışdır.

Şuranın funksiyalarını aşağıdakı kimi təsnifləşdirmək olar:

- insan hüquqları sahəsində tədris-maarifləndirmə fəaliyyətinə, eləcə də, məsləhətçi xidmətlərin göstərilməsi, texniki köməyin göstərilməsi və maraqlı üzv-dövlətlərlə məsləhətləşməklə və onların razılığı ilə həyata keçirilərək potensialın yaradılması fəaliyyətinə yardım etmək;
- insan hüquqlarının bütün sahələri üzrə tematik məsələlərin müzakirə olunması üçün forum kimi çıxış etmək;
- beynəlxalq insan hüquqları hüququnun inkişafına dair Baş Assambleyaya tövsiyələr vermək;
- dövlətlər tərəfindən qəbul olunmuş insan hüquqları sahəsində öhdəliklərin yerinə yetirilməsi üzərində nəzarətin həyata keçirilməsinə yardımçı olmaq;
- obyektiv və doğru məlumatlar əsasında hər bir dövləti əhatə etməklə universal dövri icmal prosedurunu həyata keçirmək;
- dialoq və əməkdaşlıq vasitəsilə insan hüquqları pozuntularının qarşısının alınmasına yardım etmək və insan hüquqları sahəsində fövqəladə vəziyyətlərə reaksiya vermək;
- İnsan Hüquqları Komissiyasının İnsan Hüquqları üzrə Ali Komissarı idarəsinin işi ilə əlaqədar rolunu və öhdəliklərini öz üzərinə götürmək;
- insan hüquqlarının həvəsləndirilməsi və müdafiəsinə dair tövsiyələr

vermək;

- Baş Assambleyaya illik məruzələr təqdim etmək.

Şuranın gətirdiyi əsas yenilik Universal Dövri İcmal mexanizmidir. Bütün üzv-dövlətlər bu prosedurdan keçməlidir.

İcmal aşağıdakı məlumatlar əsasında həyata keçirilir:

1. müvafiq dövlətin milli məruzəsi;

2. İnsan Hüquqları üzrə Ali Komissar tərəfindən hazırlanan və özündə BMT-nin müqavilə qurumlarının, xüsusi prosedurların rəylərini əks etdirən xülasə;

3. qeyri-hökumət təşkilatları, milli insan hüquqları təsisatları tərəfindən təqdim olunan alternativ və əlavə məruzələr.

Şuraya qəbul olunarkən Azərbaycan öz üzərinə bir sıra öhdəliklər götürmüşdür və bu öhdəliklərdən biri də Universal Dövri İcmal mexanizmi ilə bağlı olmuşdur.

Qeyd olunan icmal ölkədə bütövlükdə insan hüquqlarının təmini sahəsində mövcud vəziyyəti əks etdirməlidir. Eyni zamanda İnsan Hüquqları Şurası tərəfindən yaradılan bu yeni mexanizm dövlətlərin insan hüquqları sahəsində götürdükləri öhdəliklərin yerinə yetirilməsinə nəzarət etməyə imkan verir.

İnsan Hüquqları Şurasının 2007-ci il 18 iyun tarixli 5/1 saylı qətnaməsinə uyğun olaraq İnsan Hüquqları Şurasının Universal Dövri İcmal üzrə 2009-cu ilin fevralın 2-dən 13-dək keçirilən dördüncü sessiyasında Azərbaycana dair İcmal nəzərdən keçirilmişdir (2009-cu il 4 fevral tarixində). 2009-cu il 6 fevralda keçirilmiş iclasda Şura tərəfindən yaradılan xüsusi İşçi qrupu Azərbaycana dair Hesabat qəbul etmişdir.

Hesabat iki hissədən ibarətdir: müzakirə prosesinin yekunu; nəticə və/və ya tövsiyələr.

Azərbaycana münasibətdə hesabatda 32 tövsiyə bildirilmişdir. Hesabata dair əlavə sənəddə, yəni tövsiyələrə Azərbaycan Respublikasının cavablarında 32 tövsiyədən 24-nə müsbət münasibət bildirilmiş, 2-si qəbul edilməmiş, 6-sı isə qismən qəbul edilmişdir.

2013-cü ildə Azərbaycan Respublikası tövsiyələrin icrası ilə bağlı məruzəni İnsan Hüquqları Şurasına təqdim etməlidir.

## BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı institutu

1967-ci ildə İnsan Hüquqları Komissiyası BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı vəzifəsinin təsis edilməsi məsələsinin Baş Assambleyanın gündəliyinə daxil edilməsi ilə bağlı EKOSOK-a müraciət etdi. Lakin Baş Assambleya özünün XXVIII sessiyasında İnsan Hüquqları Komissiyası ilə EKOSOK-un birgə

təklifini rədd edərək bu məsələnin hələ müzakirəyə hazır olmadığını bildirdi.

Uzun sürən müzakirələrdən sonra nəhayət 20 dekabr 1993-cü ildə özünün 48-ci sessiyasında Baş Assambleya BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarı vəzifəsinin təsis edilməsi haqqında 48/141 saylı qətnamə qəbul etdi.

Ali Komissar Baş Assambleya tərəfindən təsdiq edilməklə Baş Katib tərəfindən 4 il müddətinə (daha bir müddətə təyin edilə bilmək hüququ ilə) təyin edilir və o, Baş Katibin müavini statusunda fəaliyyət göstərir.

Baş Assambleya Ali Komissara geniş səlahiyyətlər verməsə də, bununla bərabər Komissar demək olar ki, BMT-nin insan hüquqları sahəsində fəaliyyətini əlaqələndirir. BMT-nin insan hüquqları sahəsində fəaliyyətinə əsas məsuliyyəti məhz Ali Komissar daşıyır. Komissarın əsas vəzifələri sırasında bütün insan hüquqlarının səmərəli həyata keçirilməsinə dəstək verilməsi; insan hüquqlarına hörmət məqsədilə beynəlxalq əməkdaşlığın təşviqi; BMT çərçivəsində insan hüquqları sahəsində fəaliyyətin əlaqələndirilməsi və həvəsləndirilməsi; insan hüquqları sahəsində yeni standartların işlənib hazırlanmasına yardımçı olunması; insan hüquqları sahəsində beynəlxalq müqavilələrin ratifikasiya olunmasına yardımçı olunması və s. Ali Komissar həmçinin insan hüquqlarının kobud pozuntusu hallarında tədbirlər görmək və preventiv fəaliyyət həyata keçirmək səlahiyyətlərinə də malikdir.

BMT-nin İnsan Hüquqları üzrə ilk Ali Komissarı qismində Xose Ayalu Lasso 5 aprel 1994-cü ildə fəaliyyətə başlamışdır. 28 iyul 2008-ci ildə Baş Assambleya Baş Katib Pan Gi Munun təqdimatı əsasında N.Pillayı (Cənubi Afrika) Ali Komissar qismində təsdiq etdi. O, 1 sentyabr 2008-ci ildən vəzifələrinin icrasına başlamışdır.

## İnsan hüquqlarının müdafiəsi üzrə BMT-nin müqavilə mexanizmləri

Əvvəldə qeyd edildiyi kimi, insan hüquqlarının beynəlxalq müdafiəsi sahəsində BMT-nin müqavilə qurumlarının əhəmiyyətli rolu vardır. Universal səviyyədə insan hüquqlarına dair beynəlxalq normaların implementasiyası üzərində beynəlxalq nəzarəti BMT-nin konvension orqanları (müqavilə qurumları) yerinə yetirir. Hal-hazırda bu qurumların sayı doqquzdur:

1. İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə;
2. İnsan hüquqları komitəsi;
3. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə komitə;
4. İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə;
5. İşgəncə əleyhinə komitə;

6. Uşaq hüquqları komitəsi;
7. Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə komitə;
8. Əlillərin hüquqları üzrə komitə;
9. Zorakı itkin düşmələrə qarşı komitə.

Bu qurumların hər biri müvafiq beynəlxalq müqavilə əsasında təsis edilib, yalnız İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitə eyniadlı Pakt əsasında deyil, EKOSOK-un qətnaməsi əsasında yaradılmışdır. İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktda komitənin yaradılması nəzərdə tutulmamışdır. Paktın 16-cı maddəsinə əsasən, iştirakçı-dövlətlər bu Pakta uyğun olaraq həyata keçirdikləri tədbirlər və bu Paktda təsbit olunmuş hüquqların təmini sahəsində əldə olunmuş nailiyyətlərə dair məruzələrini BMT Baş Katibinə təqdim edir; o isə öz növbəsində məruzələri baxılmaq üçün EKOSOK-a göndərir. Lakin 1987-ci ildən İqtisadi, sosial və mədəni hüquqlar üzrə komitənin fəaliyyətə başlaması ilə Paktda nəzərdə tutulan və yuxarıda qeyd olunan prosedur dəyişikliyə məruz qaldı.

İlk müqavilə qurumu - İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitə - 1970-ci ildə təsis edilmişdir (96, 339).

Lakin bundan əvvəl 1965-ci ildə üzv-dövlətlər EKOSOK-un qərarı ilə BMT Baş Katibinə bu və ya digər hüquqların həyata keçirilməsinə dair illik məruzələr təqdim edirdilər. Dövlətlərin məruzələrinə baxılması üçün dövri məruzələr üzrə xüsusi komitə fəaliyyət göstərirdi. BMT çərçivəsində qəbul olunan universal beynəlxalq müqavilələrin (insan hüquqlarına dair beynəlxalq paktlar, irqi ayrı – seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında konvensiya və s.) qüvvəyə minməsi ilə bundan əvvəl mövcud olan mexanizm yenisi ilə əvəz olundu.

Əsasında təsis edildiyi beynəlxalq-hüquqi aktda təsbit olunmuş insan hüquqlarına dair beynəlxalq hüquq normalarının implementasiyası üzərində beynəlxalq nəzarət həyata keçirən universal müqavilə qurumlarının əsas funksiyası iştirakçı dövlətlərin müvafiq konvensiya ilə üzərlərinə götürdükləri öhdəliklərin icrasına dair əvvəlcə ilkin, daha sonra isə dövri məruzələrinə baxmaq, bununla bağlı müvafiq dövlətə tövsiyələr bildirmək, həmçinin mandatından asılı olaraq fərdi və (və ya) dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir.

Qeyd edildiyi kimi müqavilə qurumları əsas etibarilə dövlətlərin məruzələrinə baxmaq və bununla bağlı onlara tövsiyələr vermək məqsədilə təsis edilmişlər. Məruzələrə baxarkən komitələr əsasən aşağıdakı məqamlara diqqət yetirirlər:

- müvafiq beynəlxalq aktda təsbit olunmuş hüquq və azadlıqların pozulduğu halda onların bərpası üçün səmərəli dövlətdaxili hüquq müdafiə mexanizmlərinin (məhkəmə, inzibati və digər) mövcudluğu;
- beynəlxalq səviyyədə tanınmış insan hüquqlarının milli hüquqda, ilk

növbədə əsas qanunda və digər qanunvericilik aktlarında təsbit olunması;

- insan hüquqlarına dair beynəlxalq aktların milli qanunvericiliyə münasibətdə hüquqi statusu, dövlətdaxili hüquqda normativ hüquqi aktların iyerarxiyasında onların yeri;

- dövlətin iştirakçısı olduğu insan hüquqlarına dair beynəlxalq hüquqi aktların milli səviyyədə birbaşa tətbiqi imkanları;

- insan hüquqları sahəsində milli nəzarət mexanizmlərinin mövcudluğu və fəaliyyəti;

- müvafiq dövlət tərəfindən konvension normaların implementasiyası sahəsində həyata keçirilən fəaliyyət, əldə olunan uğurlar, mövcud çətinliklər və s.

Komitələr tərəfindən dövlətlərin dövri məruzələrinə baxılmasının aşağıdakı məqsədlərini qeyd etmək olar:

1. Milli qanunvericiliyin təhlili, ayrı-ayrı qanunvericilik aktlarının beynəlxalq hüquq normalarına uyğunluğunun müəyyən edilməsi;

2. Dövlətlər tərəfindən insan hüquqlarının təmininə diqqətin artırılması, daim bu məsələnin nəzarət altında saxlanılmasının təmin edilməsi;

3. Dövlətlərə müvafiq beynəlxalq müqavilədən irəli gələn öhdəliklərin nə dərəcədə yerinə yetirilməsi ilə bağlı məlumat vermək imkanının yaradılması;

4. İnsan hüquqlarının təmini sahəsində ictimai nəzarətin gücləndirilməsinə və inkişafına nail olunması;

5. İnsan hüquqlarının təmini sahəsində dəqiq indikatorların müəyyən edilməsi;

6. Dövlətlərə insan hüquqlarının implementasiyası, pozulmuş hüquq və azadlıqların bərpası sahəsində mövcud olan nöqsan və çatışmazlıqların aşkarlanmasında yardımçı olunması;

7. Qarşılıqlı informasiya mübadiləsi və mövcud nöqsanların birgə səylərlə aradan qaldırılmasına nail olunması.

Komitələr tərəfindən bu və digər qrup insan hüquq və azadlıqlarının təmini, bu sahədə həyata keçirilən tədbirlər, ümumilikdə insan hüquqları sahəsində mövcud durumla bağlı dövri məruzələrə baxılması, bununla əlaqədar müvafiq tövsiyələrin qəbul edilməsi, müvafiq dövlətdə insan hüquqlarının inkişafı, hüquqi dövlət və vətəndaş cəmiyyətinin bərqərar olunması, milli qanunvericiliyin, hüquq tətbiqetmə praktikasının təkmilləşdirilməsi baxımından əhəmiyyətlidir. Lakin bununla yanaşı mövcud olan müəyyən çətinlikləri də qeyd etmək lazımdır.

Dövlətlərin dövri məruzələri vaxtında təqdim etməməsi, bir sıra hallarda illərlə yubatması, bəzən göstərilən məlumatların həqiqəti əks etdirməməsi, statistik göstəricilərin düzgün verilməməsi, bir sıra dövlətlərin müqavilə qurumlarının tövsiyələrinə laqeyd yanaşması, bu tövsiyələrə əməl etməməsi və nəhayət

tövsiyələrin həyata keçirilməsi üzrə effektiv nəzarət mexanizminin olmaması və bununla bağlı digər hallar müqavilə qurumlarının işində çətinliklər yaratmaqla yanaşı, bütövlükdə insan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsinin BMT sisteminin səmərəliliyini şübhə altına almış olur.

Fəaliyyətlərinin ilk illərində öhdəliklərin icrası ilə müvafiq məlumatların yalnız dövlətdən alınması ilə məhdudlaşdırılması bu qurumların səmərəli və obyektiv fəaliyyətinə olduqca böyük maneələr törədirdi. Lakin sonradan milli insan hüquqları təsisatlarının (ilk növbədə ombudsmanların), qeyri-hökumət təşkilatlarının müqavilə qurumlarına alternativ məruzələr təqdim etməsi və sessiyalarda iştirakı komitələr tərəfindən ölkədə insan hüquqları sahəsində vəziyyətin düzgün dəyərləndirilməsində əhəmiyyətli oldu.

İndi isə ayrı-ayrı komitələrin fəaliyyətinin əsasları və onların yurisdiksiyaları ilə Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası arasında oxşar və fərqli cəhətlərə nəzər salaq:

### 1. İrqi ayrı-seçkiliyin ləğvi üzrə Komitə

Bu Komitə ilk yaradılan müqavilə qurumu olub İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 1965-ci il Beynəlxalq Konvensiyasının əsasında 1970-ci ildə təsis edilmişdir. Komitə onun işində müstəqil, şəxsi qisimdə iştirak edən, öz dövlətlərini təmsil etməyən, yüksək əxlaqi keyfiyyətlərə malik, 4 il müddətinə seçilən 18 nəfər ekspertdən ibarətdir. Konvensiyanın 9-cu maddəsinə əsasən, iştirakçı-dövlətlər Baş Katibə bu Konvensiyanın müddəalarının implementasiyası ilə bağlı həyata keçirdikləri qanunvericilik, məhkəmə, inzibati və ya digər tədbirlər haqqında hesabat təqdim edirlər. İlkin hesabat Konvensiyanın dövlətə münasibətdə qüvvəyə minməsindən sonra bir il müddətində, daha sonra isə hər 4 ildən bir təqdim edilməlidir. Komitə həmçinin öz fəaliyyətinə dair Baş Assambleyaya illik hesabatlar təqdim edir. Konvensiyanın 11-ci maddəsinə uyğun olaraq, hər hansı iştirakçı dövlət digər iştirakçı dövlətin bu Konvensiyanın müddəalarına əməl etməməsi qənaətinə gələrsə, Komitəyə müraciət edə bilər. Dövlətlərarası və ya fərdi şikayət prosedurunu nəzərdə tutan digər universal beynəlxalq müqavilələrdən fərqli olaraq sözü gedən Konvensiya bir iştirakçı-dövlətin digərinə qarşı Komitəyə müraciətlə bağlı hər hansı bir xüsusi bəyanatın verilməsi və ya digər əlavə prosedur nəzərdə tutmur.

Dövlətlərarası şikayət prosedurundan fərqli olaraq fərdi şikayət proseduru fakültativ xarakter daşıyır. Belə ki, Konvensiyanın 14-cü maddəsinə əsasən, fərdi şikayət prosedurunun həyata keçirilməsi üçün dövlət, Komitənin onun yurisdiksiyası altında olan şəxslərdən və ya şəxslər qrupundan bu Konvensiyanın

pozuntusunun qurbanı olduğunu iddia edən məlumat ala bilər. Şikayət, yalnız 14-cü maddəyə müvafiq olaraq Komitənin müvafiq yurisdiksiyasını tanımaq barədə xüsusi bəyanat verən dövlətə qarşı verilə bilər.

Komitənin fəaliyyəti subsidiar xarakter daşıyır. Belə ki, 14-cü maddənin 2-ci bəndinə əsasən, Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanıyan hər bir dövlət öz yurisdiksiyası hüdudlarında Konvensiyada təsbit olunmuş hüquqlarından hər hansının pozulmasının qurbanı olduğunu və mümkün yerli hüquq müdafiə vasitələrinin tükəndiyini iddia edən ayrı-ayrı şəxslərdən, yaxud şəxslər qrupundan şikayət qəbul etmək və baxılmaq üçün səlahiyyətli orqan təsis edə və ya belə bir orqanın milli hüquq sistemi çərçivəsində mövcudluğunu göstərə bilər. Bu Konvensiya üzrə hüququ pozulmuş şəxs 14-cü maddənin 2-ci bəndinə müvafiq olaraq təsis edilmiş yaxud göstərilmiş orqanın fəaliyyətindən narazı qalarsa altı ay ərzində həmin məsələ ilə əlaqədar Komitəyə müraciət edə bilər. Şikayətçi yalnız bütün mümkün dövlətdaxili hüquq müdafiə vasitələrini keçdikdən sonra Komitəyə müraciət edə bilər. Əgər bu vasitələrin tətbiqi həddindən artıq yubanırsa bu halda şikayətçi belə dövlətdaxili vasitələri tükəndirmədən də Komitəyə müraciət edə bilər.

Azərbaycan Respublikası 1996-cı ildən haqqında bəhs olunan Konvensiyanın iştirakçısıdır. Eyni zamanda Azərbaycan 2001-ci ildən Konvensiyanın 14-cü maddəsinə uyğun olaraq Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanımışdır.

Azərbaycan Hökuməti tərəfindən İrqi ayrı-seçkiliyin ləğvi üzrə komitəyə birinci və ikinci dövri məruzələr 1998-ci ildə, üçüncü və dördüncü məruzələr 2004-cü ildə, beşinci və altıncı məruzələr isə 2008-ci ildə təqdim edilmişdir.

## 2. İnsan hüquqları Komitəsi

Bu Komitə Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 28-ci maddəsi əsasında 1976-cı ildə, yəni Pakt qüvvəyə mindiyi ildə təsis olunmuşdur. Komitə onun işində müstəqil surətdə iştirak edən, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan və 4 il müddətinə seçilən (yenidən seçilə bilmək hüququ ilə) 18 ekspertdən ibarətdir. Komitə hər il özünün üç həftə davam edən sessiyalarını keçirir. Dövlətlər Paktdan irəli gələn öhdəliklərin icrasına dair hər 5 ildən bir Baş Katib vasitəsilə Komitəyə dövri hesabat təqdim edirlər. Komitənin mühüm səlahiyyətlərindən biri dövlətlərarası işlərə baxmaqdan ibarətdir. Lakin bu prosedur könüllü xarakter daşıyır. Yəni Komitənin dövlətlərarası işlərə baxa bilməsi üçün iştirakçı dövlətlərin Paktın 41-ci maddəsinə əsasən xüsusi bəyanatı tələb olunur. Dövlətlərarası işlərə münasibətdə Komitənin rolu subsidiardır. Belə

ki, əgər 41-ci maddəyə uyğun olaraq Komitənin müvafiq səlahiyyətini tanımaq barədə bəyanatla çıxış edən hər hansı bir iştirakçı dövlət (və ya dövlətlər) belə bəyanat verən digər iştirakçı dövlətin Pakt üzrə öz üzərinə götürdüyü öhdəlikləri icra etməməsi qənaətinə gələrsə, bununla bağlı həmin dövlətə yazılı müraciət olunur. Əgər məsələ öz həllini tapmazsa yalnız bundan sonra iş Komitəyə təqdim oluna bilər. Əgər məsələnin Komitə tərəfindən həlli tərəfləri qane etməzsə bu halda onların razılığı ilə xüsusi razılaşdırıcı komissiya təyin edilə bilər. Qeyd etmək lazımdır ki, təcrübədə müəyyən siyasi maraqlar səbəbindən dövlətlərarası şikayət proseduru öz təsdiqini tapmamışdır.

Komitənin daha bir mühüm səlahiyyəti fərdi şikayətlərə baxmaqla bağlıdır. Dövlətlərarası şikayət prosedurundan fərqli olaraq fərdi şikayət proseduru kifayət qədər işlək və bir sıra hallarda səmərəli mexanizmdir. Pakta dair 16 dekabr 1966-cı il tarixli Fakültativ Protokola uyğun olaraq Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyası altında olan hər bir şəxs Paktda təsbit olunmuş hər hansı bir hüququnun (hüquqlarının) pozulduğu və pozulmuş hüququnun (hüquqlarının) bərpasına milli səviyyədə nail ola bilmədiyi halda Komitəyə müraciət edə bilər. Komitə yalnız Protokolun iştirakçısı olan dövlətə münasibətdə verilən şikayətlərə baxa bilər.

Komitə EKOSOK vasitəsilə Baş Assambleyaya özünün işi ilə bağlı illik hesabat təqdim edir.

Azərbaycan Respublikası 1992-ci ildən Paktın iştirakçısıdır. Azərbaycan Respublikası Komitənin dövlətlərarası şikayətlərlə bağlı səlahiyyətini tanımamışdır.

Azərbaycan Hökuməti tərəfindən İnsan Hüquqları Komitəsinə birinci dövri məruzə 1994-cü ildə, ikinci məruzə 1999-cu ildə, üçüncü isə 2007-ci ildə təqdim edilmişdir.

### 3. Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitə

Bu Komitə Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında 18 dekabr 1979-cu il Konvensiyası əsasında 1982-ci ildə təsis edilmişdir. Komitə 4 il müddətinə seçilən, öz dövlətlərini təmsil etməyən, yüksək mənəvi keyfiyyətlərə malik və qadın hüquqları sahəsində ixtisaslaşan 23 ekspertdən ibarətdir. Komitə hər 4 ildən bir iştirakçı dövlətlərin dövri hesabatlarına baxır. Hesabatda Konvensiyanın müddəalarının həyata keçirilməsi üzrə qanunvericilik, məhkəmə, inzibati və digər tədbirlər barədə dolğun məlumat verilməlidir. Komitə Baş Assambleyanın 1996-cı ildə qəbul etdiyi qətnaməyə uyğun olaraq 1997-ci ildən etibarən ildə hər biri 3 həftə davam etməklə 2 sessiya keçirir. Komitənin

mühüm səlahiyyəti ondan ibarətdir ki, o, 10 dekabr 1999-cu il tarixli Fakültativ Protokola əsasən fərdi şikayətlərə baxa bilər. Protokolun iştirakçısı olan dövlətin yurisdiksiyası altında olan istənilən fərd, fərdlər qrupu tərəfindən və ya onların adından Konvensiyanın müddəalarının pozulması ilə bağlı Komitəyə müraciət edilə bilər.

Komitə eyni zamanda qadın hüquqlarının səmərəli şəkildə təmini ilə bağlı ümumi tövsiyələr qəbul edir (məsələn, əlil qadınların hüquqları haqqında 18 saylı tövsiyə, nikahda qadınların bərabər hüquqları haqqında 21 saylı tövsiyə və s.) (95, 472-473).

Azərbaycan Respublikası 1995-ci ildən Konvensiyanın, 2001-ci ildən isə Fakültativ Protokolun iştirakçısıdır.

Azərbaycan Hökuməti tərəfindən Qadınlara qarşı ayrı-seçkiliyin ləğvi üzrə Komitəyə ilk məruzə 1996-cı ildə, ikinci və üçüncü məruzələr 2005-ci ildə, dördüncü məruzə isə 2008-ci ildə təqdim edilmişdir.

### 4. İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitə

Bu Komitə 1985-ci ildə EKOSOK-un Qətnaməsi əsasında onun köməkçi orqanı kimi təsis edilmiş və 1987-ci ildən fəaliyyətə başlamışdır.

İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda Komitənin yaradılması nəzərdə tutulmamışdır. Paktda nəzərdə tutulurdu ki, iştirakçı - dövlətlər Paktın implementasiyası ilə bağlı dövri məruzələri Baş Katibə təqdim edir, o isə öz növbəsində baxılmaq üçün EKOSOK-a göndərir. Komitə Paktın iştirakçı-dövlətlərinin təqdimatı ilə EKOSOK tərəfindən seçilən 18 müstəqil ekspertdən ibarətdir.

10 dekabr 2008-ci ildə BMT Baş Assambleyasının 63/117 saylı qətnaməsi ilə İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakta Fakültativ Protokol qəbul olunmuşdur. Protokol Komitəyə fərdi və dövlətlərarası şikayətlərə baxmaq səlahiyyəti verir. Fərdi və dövlətlərarası şikayət proseduru yalnız Paktın və Fakültativ Protokolun iştirakçısı olan dövlətlərə münasibətdə tətbiq oluna bilər. İştirakçı dövlətin yurisdiksiyası altında olan ayrı-ayrı şəxslər, şəxslər qrupu və ya onların adından digər tərəf Paktda təsbit olunmuş iqtisadi, sosial və ya mədəni hüquqların pozulması ilə bağlı Komitəyə müraciət edə bilər. Fərdi şikayət prosedurundan fərqli olaraq dövlətlərarası şikayət proseduru məcburi xarakter daşımır. Yəni, dövlətlərarası şikayət prosedurunun tanınması üçün dövlət xüsusi bəyanat verməlidir. Yalnız belə bəyanatla çıxış edən iştirakçı-dövlətə münasibətdə bu prosedur həyata keçirilə bilər. İştirakçı-dövlət istənilən vaxt bəyan edə bilər ki, o, Komitənin digər iştirakçı-dövlətlərdən Paktdan irəli gələn öhdəliklərə əməl

etməməsi ilə bağlı məlumat almaq səlahiyyətini tanıyır. Dövlətlərarası şikayət proseduru demək olar ki, İnsan hüquqları Komitəsi çərçivəsində həyata keçirilən prosedurla eynidir.

Qeyd olunan Protokol hələ qüvvəyə minməmişdir.

Azərbaycan Respublikası adı çəkilən Protokolu imzalamış, lakin hələ ratifikasiya etməmişdir.

Yuxarıda qeyd olunan səlahiyyətlərdən başqa Komitə həmçinin EKOSOK-a ümumi tövsiyələr təqdim edir. Məsələn, bunların sırasında ləyaqətli yaşayış hüququna dair 4 saylı, ahılların sosial-iqtisadi hüquqlarına dair 6 saylı, iqtisadi sanksiyaların tətbiqi problemi və onların sosial və iqtisadi hüquqlara təsirinə dair 8 saylı, İqtisadi, sosial və mədəni hüquqlar haqqında Paktın iştirakçı-dövlətlərin milli hüquq sistemlərində tətbiqinə dair 9 saylı, içməli suya olan hüquqa dair 15 saylı qətnamə və digərlərini göstərmək olar (95, 473).

Azərbaycan Respublikası 1992-ci ildən Paktın iştirakçısıdır. Azərbaycan Hökuməti tərəfindən İqtisadi, sosial və mədəni hüquqlar üzrə Komitəyə ilk dövri məruzə 1996-cı ildə, ikinci məruzə 2003-cü ildə, üçüncü məruzə 2009-cu ildə təqdim edilmişdir.

### 5. İşgəncə əleyhinə Komitə

Bu Komitə İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə 1984-cü il Konvensiyasının əsasında 1987-ci ildə təsis edilmişdir. 1988-ci ilin aprelində Komitə özünün ilk sessiyasını keçirmişdir. Komitə Konvensiyanın iştirakçı-dövlətləri tərəfindən 4 il müddətinə seçilən, yüksək əxlaqi keyfiyyətlərə malik, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan 10 müstəqil ekspertdən ibarətdir. Konvensiyanın 17-ci maddəsinin 2-ci bəndinə əsasən iştirakçı-dövlətlər Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın əsasında təsis edilmiş İnsan Hüquqları Komitəsinin üzvü olan və İşgəncə əleyhinə Komitədə işləmək arzusunu bildirən şəxslərin namizədliyini irəli sürməyin məqsədəmüvafiq olduğunu nəzərə alırlar. Komitənin əsas səlahiyyəti hər 4 ildən bir iştirakçı-dövlətlərin Konvensiya üzrə öz üzərlərinə götürdükləri öhdəliklərin icrası ilə bağlı dövri məruzələrinə, həmçinin fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. Komitənin daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, o, hər hansı bir iştirakçı-dövlətin ərazisində sistematik surətdə işgəncə tətbiq edildiyinə dair əsaslı məlumat alarsa, ilk olaraq, həmin dövlətə bu məlumatın araşdırılmasında əməkdaşlıq etməyi təklif edir və zəruri olarsa özünün bir və ya bir neçə üzvünü məxfi təhqiqat aparmaq və bununla bağlı Komitəyə təcili surətdə məruzə təqdim etmək, həmçinin müvafiq dövlətin razılığı olarsa, onun ərazisində

təhqiqat aparmaq üçün təyin edə bilər. Komitə dövlətlərin dövri məruzələri ilə bağlı ümumi xarakterli qeydlər etməklə yanaşı, təhqiqatın nəticələrini özünün qeyd və təklifləri ilə birgə müvafiq dövlətə göndərə bilər. Yuxarıda qeyd olunan təhqiqatla bağlı bütün prosedur məxfi xarakter daşıyır. Komitənin fərdi və dövlətlərarası şikayətlərə baxmaqla bağlı yurisdiksiyası fakültativ xarakter daşıyır. Yəni Konvensiyanın iştirakçısı olan dövlət heç də Komitənin fərdi və dövlətlərarası şikayətlərə baxmaqla bağlı səlahiyyətini avtomatik olaraq tanımır. Bunun üçün iştirakçı-dövlət tərəfindən xüsusi bəyanat verilməsi tələb olunur. Komitə tərəfindən fərdi və dövlətlərarası şikayətlərə baxılması proseduru demək olar ki, belə səlahiyyətlərə malik digər müqavilə qurumlarında olduğu kimidir.

Azərbaycan Respublikası 1996-cı ildən Konvensiyanın iştirakçısıdır. Azərbaycan hökuməti tərəfindən İşgəncə əleyhinə Komitəyə ilk məruzə 1998-ci ildə, ikinci məruzə 2001-ci ildə, üçüncü isə 2007-ci ildə təqdim edilmişdir.

Baş Assambleyanın 18 dekabr 2002-ci il tarixli 57/199 saylı qətnaməsi ilə qəbul edilmiş Fakültativ Protokol Komitənin səlahiyyətini genişləndirmiş və işgəncə əleyhinə həm beynəlxalq, həm də milli səviyyədə yeni mexanizmlərin yaradılmasını nəzərdə tutmuşdur. Belə ki, Protokol işgəncənin və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üçün azadlıqdan məhrum edilmiş şəxslərin saxlanıldığı yerlərə müstəqil beynəlxalq və milli orqanlar tərəfindən müntəzəm başçəkmələr sisteminin yaradılmasını nəzərdə tutur. Protokola əsasən, İşgəncə əleyhinə Komitənin tərkibində Protokolda göstərilən funksiyaları yerinə yetirəcək yeni bir qurum - İşgəncə və digər qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar və ya cəzanın qarşısının alınması üzrə Subkomitə yaradılır. Subkomitə öz fəaliyyətini BMT Nizamnaməsi çərçivəsində həyata keçirir və onun məqsəd və prinsiplərini, BMT-nin azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid normalarını, həmçinin konfidensiallıq, qərəzsizlik, qeyri-seçicilik, universallıq və obyektivlik prinsiplərini rəhbər tutur. Subkomitə yüksək əxlaqi keyfiyyətlərə malik və ədalət mühakiməsinin həyata keçirilməsi (əsasən də cinayət işləri üzrə) sahəsində, penitensiar sahədə və ya polis sistemində, yaxud da azadlıqdan məhrum edilmiş şəxslərlə rəftara aid digər sahələrdə təcrübəsi olan, 4 il müddətinə seçilən 25 müstəqil üzvdən ibarətdir. Protokolun iştirakçı-dövlətləri Subkomitənin üzvlərinin onların nəzarəti altında olan azadlıqdan məhrum edilmiş şəxslərin saxlandıqları yerlərə və saxlanılan şəxsin öz iradəsi ilə tərk etməsinə icazə verilməyən digər yerlərə (buraya həmçinin ruhi xəstələrin saxlandığı müəssisələr də daxildir) başçəkmələrinə lazımi şərait yaratmaq öhdəliyi götürmüşlər. Subkomitənin Protokolda qeyd olunmuş vəzifələrini yerinə yetirə bilməsi üçün iştirakçı-dövlətlər aşağıdakıları öz öhdələrinə götürürlər:

- Subkomitəni öz ərazisində qəbul etmək və saxlanma yerlərinə baş çəkməyə imkan vermək;

- İşgəncəyə məruz qalmamaq hüququnun müdafiəsinin gücləndirilməsi məqsədilə ehtiyacların və zəruri olan tədbirlərin qiymətləndirilməsi məqsədilə Subkomitə tərəfindən sorğu edilə bilən bütün aidiyyəti məlumatı təqdim etmək;

- Subkomitənin tövsiyələrini öyrənmək və onların mümkün tətbiqi ilə bağlı dialoq aparmaq.

Başçəkmələrin nəticəsi olaraq Subkomitə öz tövsiyə və iradlarını konfidensial qaydada iştirakçı dövlətə göndərir. Özünün fəaliyyəti haqqında illik hesabatı isə İşgəncə əleyhinə Komitəyə təqdim edir.

Fakültativ Protokolun gətirdiyi daha bir mühüm yenilik milli preventiv mexanizmlərlə bağlıdır.

Protokola əsasən, onun müvafiq dövlətə münasibətdə qüvvəyə minməsindən sonra bir ildən gec olmayaraq iştirakçı-dövlətlər milli səviyyədə işgəncənin qarşısının alınması məqsədilə müstəqil şəkildə fəaliyyət göstərəcək milli preventiv mexanizmin təsis edilməsi öhdəliyini götürürlər. İştirakçı-dövlətlər milli preventiv mexanizmlərə işgəncələrin qarşısının alınması ilə bağlı müvafiq qurumlara tövsiyələr verilməsi; qüvvədə olan qanunvericilik və qanun layihələrinə dair təkliflər verilməsi; azadlıqdan məhrum edilmiş şəxslərin sayı, onların saxlandıqları yerlər, onların rəftar və saxlanma şəraitinə dair istənilən məlumatın alınması, azadlıqdan məhrum edilmiş və ya azadlığı başqa cür məhdudlaşdırılmış şəxslərin saxlandığı və saxlana biləcəyi istənilən yerə sərbəst buraxılış imkanının olması, belə şəxslərlə fərdi söhbət aparmaq imkanının olması; Subkomitə ilə əlaqələr yaratmaq, ona məlumat ötürmək və üzvləri ilə görüşmək hüququnun olmasını təmin etməyi öz öhdələrinə götürürlər.

Milli preventiv mexanizm araşdırmaların nəticəsi olaraq müvafiq səlahiyyətli orqanlara tövsiyələr verir və illik məruzələrlə çıxış edir. Subkomitə işgəncə hallarının qarşısının alınması ilə bağlı tövsiyə və iradların konfidensial qaydada iştirakçı-dövlətlə yanaşı zərurət olduqda milli preventiv mexanizmə də göndərir. Milli preventiv mexanizmin təşkili qaydalarını, milli səviyyədə hansı orqanın bu funksiyanı yerinə yetirəcəyi ilə bağlı məsələni açıq qoyan Fakültativ Protokol bunu iştirakçı-dövlətlərin öz ixtiyarına buraxır. Dövlətlər ya yeni bir təsisat yarada, yaxud artıq mövcud olan hansısa bir qurum daxilində müstəqilliyi təmin olunmaqla bu mexanizmi təsis edə bilərlər.

Təcrübə göstərir ki, milli preventiv mexanizm funksiyalarını bir çox hallarda müstəqil fəaliyyət göstərən milli insan hüquqları təsisatları, əsasən də ombudsman təsisatları yerinə yetirir (məsələn, Çexiya, Polşa, Sloveniya, Serbiya, İsveç, Estoniya, Moldova; Sloveniya və Moldovada isə bu mexanizmə qeyri-hökumət

təşkilatları da cəlb edilmişlər).

Azərbaycan Respublikasının 2 dekabr 2008-ci il tarixli Qanunu ilə adı çəkilən Protokol Milli Məclis tərəfindən ratifikasiya edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 13 yanvar 2009-cu il tarixli Sərəncamına əsasən Fakültativ Protokolda nəzərdə tutulmuş milli preventiv mexanizm funksiyalarını yerinə yetirən təsisat qismində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) müəyyən edilmişdir.

### 6. Uşaq hüquqları Komitəsi

Bu Komitə Uşaq hüquqları haqqında 1989-cu il Konvensiyası əsasında 1990-cı ildə fəaliyyətə başlamışdır. Komitə 4 il müddətinə seçilən, uşaq hüquqları sahəsində səriştəyə malik, müstəqil qisimdə fəaliyyət göstərən 10 ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyəti iştirakçı-dövlətlərin uşaq hüquqlarının təmini ilə bağlı ölkədə vəziyyətə dair hər 5 ildən bir məruzələrə baxmaqdan ibarətdir. Komitə həmçinin Baş Assambleyaya Baş Katib tərəfindən onun adından uşaq hüquqları ilə bağlı bu və ya digər məsələyə dair təhqiqat aparmaq təklifi ilə müraciət edə bilər. Komitə həmçinin dövri məruzələrlə bağlı ümumi xarakterli tövsiyələr qəbul edir.

Azərbaycan Respublikası 1992-ci ildən Konvensiyanın iştirakçısıdır. Azərbaycan hökuməti tərəfindən Uşaq hüquqları Komitəsinə birinci məruzə 1995-ci ildə, ikinci məruzə 2004-cü ildə, üçüncü və dördüncü məruzələr isə 2009-cu ildə, Uşaq hüquqları haqqında Konvensiyanın uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair 2000-ci il tarixli Fakültativ Protokoluna dair məruzə 2008-ci ildə, Uşaq hüquqları haqqında Konvensiyanın Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair 25 may 2000-ci il tarixli Fakültativ Protokoluna dair məruzə 2008-ci ildə təqdim edilmişdir.

Qeyd etmək lazımdır ki, Baş Assambleyanın 54/263 saylı 25 may 2000-ci il tarixli qətnaməsi ilə Uşaq hüquqları haqqında Konvensiyaya iki Fakültativ Protokol qəbul edilmişdir - Uşaqların silahlı münaqişələrə cəlb edilməsinə dair Fakültativ Protokol və Uşaq alverinə, uşaq fahişəliyinə və uşaq pornoqrafiyasına dair Fakültativ Protokol. Hər iki Protokol iştirakçı-dövlətlər üçün hər beş ildən bir Uşaq hüquqları Komitəsinə dövri məruzələr təqdim etmək öhdəliyi nəzərdə tutur. Azərbaycan Respublikası tərəfindən 2 aprel 2002-ci il tarixli Qanunla hər iki Protokol ratifikasiya edilmişdir.

Uşaq hüquqları Komitəsi fərdi və ya dövlətlərarası şikayətlərə baxmaq səlahiyyətinə malik olmayan yeganə müqavilə qurumudur. Hesab edirik ki, uşaq hüquqlarının müdafiəsinə diqqətin getdikcə artdığı bir vaxtda Komitənin həm

fərdi, həm də dövlətlərarası şikayətlərə baxa bilməsi səlahiyyəti ilə təmin edilməsi (Uşaq hüquqları haqqında Konvensiyaya əlavə protokol qəbul edilməklə) uşaq hüquqlarının beynəlxalq səviyyədə müdafiəsi baxımından olduqca əhəmiyyətli addım olardı.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Uşaq hüquqları haqqında Konvensiyaya dair Fakültativ Protokol hazırlanmaqdadır və həmin Protokol komitəyə həm fərdi, həm də dövlətlərarası şikayətlərə baxmaq səlahiyyətinin verilməsini nəzərdə tutur. 2012-ci ilin fevralından qeyd olunan Protokol imzalanmaq üçün açıq elan edilmişdir.

### 7. Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitə

Komitə Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında 1990-cı il Konvensiyası əsasında 2004-cü ildə təsis olunmuş və elə həmin ilin martında Komitənin ilk sessiyası keçirilmişdir. Komitə 4 il müddətinə seçilən 14 müstəqil ekspertdən ibarətdir. Komitənin əsas səlahiyyətləri hər 5 ildən bir dövlətlərin təqdim etdikləri dövri məruzələrə və Konvensiyanın pozulması ilə bağlı fərdi və dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir.

Qeyd etmək lazımdır ki, istər fərdi, istərsə də dövlətlərarası şikayət proseduru könüllü xarakter daşıyır, yəni dövlət Konvensiyanın iştirakçısı olmaqla Komitənin bu səlahiyyətini avtomatik olaraq tanımır, bunun üçün müvafiq iştirakçı-dövlətin xüsusi bəyanatı tələb olunur.

Azərbaycan Respublikası 1998-ci ildən Konvensiyanın iştirakçısıdır. Azərbaycan Hökuməti tərəfindən Bütün əməkçi-miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi üzrə Komitəyə dövri məruzə 2007-ci ildə təqdim edilmişdir.

### 8. Əlillərin hüquqları üzrə Komitə

Komitə 2006-cı ilin dekabrında qəbul edilən və 2008-ci ilin mayında qüvvəyə minən Əlillərin hüquqları haqqında Konvensiya əsasında yaradılıb. 23 fevral 2009-cu il tarixdə Komitənin ilk sessiyası öz işinə başlamışdır. 4 il müddətinə seçilən və onun işində müstəqil surətdə iştirak edən 18 ekspertdən ibarət olan Komitənin əsas səlahiyyəti hər 4 ildən bir əlilliyi olan şəxslərin hüquqlarının səmərəli təmin edilməsi üzrə iştirakçı-dövlətlərin öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirmələri ilə bağlı dövri məruzələrə, həmçinin BMT Baş

Assambleyasının 61/106 saylı 13 dekabr 2006-cı il tarixli qətnaməsi ilə qəbul edilən Fakültativ Protokola əsasən fərdi şikayətlərə baxmaqdan ibarətdir. Protokolun iştirakçısı olan dövlət avtomatik olaraq Komitənin fərdi şikayətlərə baxmaq səlahiyyətini tanıyır. Komitənin daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, əgər o, Konvensiyada təsbit olunmuş hüquqların hər hansı iştirakçı-dövlət tərəfindən sistematik pozulduğuna dair məlumat alarsa, bu halda həmin məlumatın araşdırılması və ona dair qeydlərin təqdim olunması üçün həmin iştirakçı-dövlətə əməkdaşlıq təklif edir. Komitə həmçinin özünün bir və ya bir neçə üzvünü hüquq pozuntusu ilə bağlı təhqiqat aparmaq (müvafiq iştirakçı-dövlətin razılığı olduğu təqdirdə təhqiqat onun ərazisində aparıla bilər) və bununla bağlı Komitəyə təcili surətdə hesabat təqdim etməyi həvalə edə bilər. Lakin bu səlahiyyət məcburi xarakter daşımır. Protokolun iştirakçısı olan dövlət onu təsdiq edərkən Komitənin bu səlahiyyətini tanımadığını bəyan edə bilər.

Azərbaycan Respublikası 2008-ci ildən həm Konvensiyanın, həm də Fakültativ Protokolun iştirakçısıdır. Əlillərin hüquqları üzrə Komitəyə isə Azərbaycan tərəfindən ilk dövri məruzə 2011-ci ildə təqdim edilmişdir.

### 9. Zorakı itkin düşmələrə qarşı Komitə

Bu Komitə BMT-nin müqavilə qurumları sırasında ən son yaradılanıdır. Komitənin yaradılması BMT Baş Assambleyasının 61/177 saylı 20 dekabr 2006-cı il tarixli qətnaməsi ilə qəbul edilən Bütün şəxslərin zorakı itkin düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya ilə nəzərdə tutulmuşdur. Konvensiya 2010-cu il dekabrın 23-də qüvvəyə minmişdir. Komitə 2011-ci ilin noyabrından fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası 6 fevral 2007-ci ildə Konvensiyanı imzalamışdır.

Komitə 4 il müddətinə seçilən, insan hüquqları sahəsində tanınmış mütəxəssislər olan 10 müstəqil ekspertdən ibarətdir.

Konvensiya üzrə öhdəliklərin yerinə yetirilməsi ilə bağlı iştirakçı-dövlətlərin dövri məruzələrinə, fərdi və dövlətlərarası şikayətlərə baxmaq Komitənin əsas səlahiyyətləridir. Bundan əlavə Konvensiyanın 30-cu maddəsinə əsasən, zorakı itkin düşən şəxsin qohumları, qanuni nümayəndələri və ya onun vəkilləri təcili qaydada Komitəyə itkin düşən şəxsin axtarışı və onun yerinin müəyyən edilməsi xahişi ilə müraciət edə bilər. Fərdi və dövlətlərarası prosedur fakültativ xarakter daşıyır və iştirakçı-dövlətlərin Komitənin belə səlahiyyətinin tanınması ilə bağlı xüsusi bəyanatından asılıdır.

Azərbaycan Respublikası BMT-nin müqavilə qurumlarının fəaliyyətini tənzimləyən bütün konvensiyaların iştirakçısıdır. Bütün şəxslərin zorakı itkin

düşmələrdən müdafiəsi üzrə Beynəlxalq Konvensiya isə Azərbaycan Respublikası tərəfindən imzalanmış, lakin hələ ratifikasiya edilməmişdir. Həmin beynəlxalq müqavilələrə uyğun olaraq Azərbaycan Hökuməti müvafiq komitələrə dövri məruzələr təqdim edir, həmçinin Azərbaycan dövlətinin yurisdiksiyası altında olan hər bir şəxs müvafiq beynəlxalq müqavilədə təsbit olunmuş hüquqlarının pozulduğu halda və pozulmuş hüququn (hüquqların) bərpasına dövlətdaxili səviyyədə nail ola bilmədiyi halda BMT-nin müvafiq müqavilə qurumuna müraciət edə bilər. Yaxud insan hüquqlarının kollektiv təmini prinsipinə uyğun olaraq Azərbaycan dövləti özü də müvafiq konvensiyada nəzərdə tutulmuş şərtlər daxilində həmin konvensiyanın digər iştirakçı dövlətinə qarşı müvafiq komitəyə müraciət edə bilər.

Azərbaycan Respublikası dövlətlərarası şikayətlə BMT-nin hər hansı müqavilə qurumuna müraciət etməmişdir və Azərbaycana qarşı da belə şikayət olmamışdır. Azərbaycan Respublikasının yurisdiksiyası altında olan şəxslərdən müqavilə qurumlarına ünvanlanan müraciətlərin sayı da olduqca azdır. Fikrimizcə, buna səbəb həmin qurumların kifayət qədər səmərəli olmaması, həmçinin onların heç birinin hüquqi cəhətdən məcburi xarakterli qərarlar qəbul etmək səlahiyyətinin olmamasıdır. Ümumiyyətlə, BMT-nin hüquq müdafiə mexanizminin təkmilləşməyə ehtiyacı vardır. Demək olar ki, bir-birinin funksiyalarını təkrarlayan, dövlətlərə müvafiq hüquq pozuntusunun aradan qaldırılması üçün real təsir göstərmək imkanına malik olmayan yeni-yeni mexanizmlərin yaradılması, yeni konvensiyaların qəbulu vəziyyətdən çıxış yolu deyildir. Zənnimizcə, bir-birini təkrarlayan yeni konvensiyaların qəbul olunmağındansa mövcud mexanizmləri təkmilləşdirmək daha səmərəli olardı. Məlumdur ki, universal beynəlxalq müqavilələrdə, məsələn, Vətəndaş və siyasi hüquqlar haqqında və ya İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktlarda təsbit olunmuş hüquqları iştirakçı dövlətlər onların yurisdiksiyası altında olan hər kəsə heç bir ayrı-seçkiliyə yol vermədən təmin etməlidirlər. Bu baxımdan əlillərin hüquqları haqqında xüsusi bir konvensiyanın qəbul olunması fikrimizcə zəruri deyildi. Konvensiyanın müddəaları demək olar ki, ondan əvvəl qəbul olunmuş beynəlxalq-hüquqi aktların, xüsusilə də yuxarıda adını çəkdiyimiz Beynəlxalq Paktların müddəalarını təkrarlayır. Məsələn, Konvensiyanın 10-cu maddəsinə əsasən, iştirakçı-dövlətlər hər kəsin, o cümlədən əlillərin yaşamaq hüququnu təsdiq edirlər. 1966-cı ildə qəbul olunmuş Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt bu hüququ özündə ehtiva edir. Paktın 6-cı maddəsinə əsasən, yaşamaq hüququ hər bir şəxsin ayrılmaz hüququdur. Yəni bununla da iştirakçı-dövlətlər hər kəsin (o cümlədən də əlillərin) yaşamaq hüququnu təsdiq etmiş və bu hüququ təmin etmək öhdəliyini götürmüşlər. 40 ildən sonra bu müddəanın əlillərə münasibətdə təkrarlanması heç də BMT-nin insan hüquqlarının müdafiəsi mexanizmi sisteminin təkmilləşməsinə xidmət etmir.

Fikrimizcə, xüsusi yeni bir komitənin, əlillərin hüquqları üzrə komitənin yaradılmasına da ehtiyac yox idi. Çünki analoji funksiyanı yerinə yetirən İnsan Hüquqları Komitəsi fəaliyyət göstərir və Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda təsbit olunmuş hüquqların pozulduğu hallarda Pakta dair 19 dekabr 1966-cı il tarixli Fakültativ Protokolun iştirakçısı olduğu dövlətin yurisdiksiyası altında olan hər kəs (o cümlədən də əlillər) bu Komitəyə müraciət edə bilər. Beləliklə, İnsan hüquqları Komitəsi əlilliyi olan şəxslərin müraciətlərinə də baxırsa demək olar ki, bu Komitənin funksiyalarını təkrarlayan Əlillərin hüquqları üzrə Komitənin təsis edilməsi zənnimizcə zəruri deyildi. Bir-birinin funksiyalarını təkrarlayan mexanizmlərin təsis olunması əvəzinə mövcud müqavilə qurumlarının işini təkmilləşdirmək, məsələn, onlara hüquqi cəhətdən məcburi qərarlar qəbul etmək və ya buna oxşar digər səlahiyyətin verilməsi daha məqsədəmüvafiq olardı. Yaxud mövcud müqavilə mexanizmlərini birləşdirməklə onların bazasında qərarları hüquqi cəhətdən məcburi olan və aidiyyəti dövlətlər üçün yerinə yetirilməsi mütləq olan BMT çərçivəsində, lakin ondan asılı olmayaraq və müstəqil fəaliyyət göstərən Beynəlxalq İnsan Hüquqları Məhkəməsinin yaradılması daha münasib olardı. Bunun üçün isə müqavilə qurumlarını nəzərdə tutan əsas universal beynəlxalq müqavilələrin bazasında (onların əsas müddəalarını birləşdirməklə) əsasını İnsan Hüquqları Ümumi Bəyannaməsi təşkil edəcək və Beynəlxalq İnsan Hüquqları Məhkəməsinin yaradılmasını nəzərdə tutan Ümumdünya İnsan Hüquqları Konvensiyasının qəbul edilməsi zəruridir.

Yaxud, ayrı-seçkiliyə məruz qalmamaq hüququ pozulmuş qadın bununla bağlı yurisdiksiyası altında olduğu dövlətin müvafiq beynəlxalq müqaviləyə qoşulmasından asılı olaraq üç müqavilə qurumuna (yəni bu qurumlardan birini seçməklə) müraciət edə bilər: İnsan hüquqları Komitəsinə, Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəyə və ya İrqi ayrı - seçkiliyin ləğvi üzrə Komitəyə. Qeyd olunan qurumların bazasında geniş səlahiyyətlərə malik vahid bir orqanın təsis olunması pozulmuş insan hüquqlarının beynəlxalq səviyyədə səmərəli bərpası istiqamətində mühüm addım olardı.

Dövlətlərin dövri məruzələrinə gəlincə isə bu məruzələr üzrə ayrı-ayrı komitələrin müvafiq dövlətə münasibətdə verdiyi tövsiyələrin yerinə yetirilməsi üzərində BMT çərçivəsində monitorinq mexanizminin olmaması əksər hallarda bu tövsiyələrin yalnız kağız üzərində qalması ilə nəticələnir. Yeni yaradılan İnsan Hüquqları Şurası çərçivəsində həyata keçirilən Universal Dövri İcmal üzrə verilən tövsiyələrə müvafiq dövlət tərəfindən əməl edilib-edilməməsi üzərində effektiv nəzarət mexanizminin olmaması indidən sözü gedən mexanizmin də səmərəliliyinin şübhə altına alınmasına əsas verir. Düzdür, bir sıra hallarda dövlətlər komitələrin tövsiyələrinə ciddi yanaşır və zəruri tədbirlər görürlər (məsələn, milli

qanunvericiliyin təkmilləşdirilməsi, insan hüquqları sahəsində yeni institusional mexanizmlərin yaradılması, inzibati praktikanın təkmilləşdirilməsi və s.). Məsələn, Uşaq hüquqları üzrə Komitənin Azərbaycana münasibətdə tövsiyəsindən sonra Azərbaycan Respublikası İnsan Hüquqları üzrə Müvəkkili Aparatının nəzdində uşaq hüquqları mərkəzi yaradıldı. Yaxud Universal Dövri İcmal üzrə Azərbaycana verilən tövsiyələrdən sonra "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Lakin bütün bunlar BMT çərçivəsində müqavilə və qeyri-müqavilə mexanizmlərinin kifayət qədər səmərəli fəaliyyət göstərməsi üçün yetərli deyildir. Fikrimizcə, yuxarıda yaradılması təklif olunan Beynəlxalq İnsan Hüquqları Məhkəməsinin strukturunda dövlətlərin dövri məruzələrinə baxılması üçün xüsusi palata (və ya palatalar) yaradıla bilər. Bir sözlə, doqquz müqavilə qurumunun vahid, daimi əsasda fəaliyyət göstərəcək və hüquqi cəhətdən məcburi xarakterli qərarlar qəbul etmək səlahiyyətinə malik olacaq məhkəmə (kvazimƏhkəmə deyil, məhz beynəlxalq ixtisaslaşdırılmış məhkəmə) ilə əvəzlənməsi fərdin beynəlxalq hüquqla tanınmış hüquqlarının dövlətdən kənarda universal səviyyədə daha səmərəli müdafiəsinə şərait yaratmış olar.

Qeyd edildiyi kimi, komitələrin başlıca səlahiyyətlərindən biri fərdi və (və ya) dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. Dövlətlərin maraqları və bununla bağlı digər bir sıra səbəblər ucbatından dövlətlərarası şikayətlərə müqavilə qurumlarının praktikasında demək olar ki, rast gəlinmir. Məhz buna görə də fərdi şikayətlərlə bağlı prosedurun bəzi məqamlarına, həmçinin komitələrin və Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasının müqayisəli təhlilinə dair bəzi məsələlərə toxunaq.

İlk olaraq qeyd etmək lazımdır ki, hal-hazırda mövcud olan doqquz müqavilə qurumundan səkkizi fərdi şikayətlərə baxmaq səlahiyyətinə malikdir. Yalnız Uşaq hüquqları Komitəsinin belə bir səlahiyyəti yoxdur.

Fərdi şikayətlərə baxılması ilə bağlı prosedur bütün müvafiq komitələrdə demək olar ki, oxşar olduğundan bununla bağlı bir sıra ümumi cəhətləri qeyd etməyi zəruri hesab edirik.

Avropa Məhkəməsindən fərqli olaraq komitələrə müraciət etmək üçün müvafiq dövlətdaxili orqanın qəti qərarından sonra vaxt məhdudiyyəti yoxdur. Avropa İnsan Hüquqları Konvensiyasının 35-ci maddəsinə əsasən, Məhkəmə iş üzrə son qərarın çıxarıldığı tarixdən altı ay keçənədək işə baxa bilər. BMT müqavilələrində isə belə bir müddəa yoxdur. İstisna yalnız İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakta dair Fakültativ Protokol təşkil edir. Protokolun 3-cü maddəsinə əsasən şikayət Komitəyə bütün dövlətdaxili mexanizmlər tükəndikdən sonra bir il ərzində verilə bilər. Həmçinin BMT müqavilələrində komitələrə müra-

ciətin əsas şərtlərindən biri olaraq Avropa İnsan Hüquqları Konvensiyasında olduğu kimi bütün dövlətdaxili hüquq müdafiə mexanizmlərinin tükəndirilməsi göstərilir. Eyni zamanda bunun ardınca qeyd olunur ki, bu qayda belə vasitələrin tətbiqinin həddindən artıq ləngidilməsi halında tətbiq olunmur. Avropa İnsan Hüquqları Konvensiyasında belə bir müddəa olmasa da, məlumdur ki, Avropa Məhkəməsi bu qaydanı olduqca uğurla tətbiq edir. Yəni hər bir konkret halda dövlətdaxili vasitələrin tükənib tükənməməsini Məhkəmə özü müəyyən edir, yəni əgər şikayətçi sübut edə bilsə ki, onun müraciət etməli olduğu bu və ya digər milli mexanizm bu halda qeyri-səmərəlidir və bu orqana müraciət etməklə o heç bir pozitiv nəticə əldə etməyəcəkdi, belə olan halda Avropa Məhkəməsi işi icraata qəbul edə bilər.

Avropa Məhkəməsindən fərqli olaraq, komitələrə hüquq pozuntusu ilə bağlı üçüncü şəxslər də müraciət edə bilər. Məsələn, Əlillərin hüquqları haqqında Konvensiyaya dair Fakültativ Protokola əsasən, Əlillərin hüquqları üzrə Komitə Konvensiyanın müddəalarının müvafiq iştirakçı-dövlət tərəfindən pozulmasının qurbanı olduğunu iddia edən və onun yurisdiksiyası altında olan şəxslərdən və ya şəxslər qrupundan yaxud onların adından məlumatları qəbul etmək və baxmaq səlahiyyətinə malikdir. Avropa İnsan Hüquqları Konvensiyasının 34-cü maddəsinə əsasən, Məhkəmə istənilən fiziki şəxsdən, qeyri-hökumət təşkilatından və ya ayrı-ayrı şəxslər qrupundan, iştirakçı-dövlətlərdən birinin onun bu Konvensiyanın və ya ona dair Protokolların müddəaları ilə nəzərdə tutulmuş hüquqların pozmasının qurbanı olduğunu iddia edən şikayətlər qəbul edə bilər. Göründüyü kimi, Avropa İnsan Hüquqları Konvensiyası zərərçəkənin adından üçüncü şəxsin Məhkəməyə müraciətini nəzərdə tutmur. Doğrudur, Avropa Məhkəməsinin təcrübəsində «dolayı qurban» anlayışı mövcuddur və bu haqda növbəti fəsildə ətraflı bəhs olunur. Yəni bəzi hallarda (məsələn, yaşamaq hüququnun pozulması hallarında) Məhkəmə zərərçəkənin qohumlarına (məsələn, valideynlərinə) «qurban» statusu verir.

Prosedur xarakterli daha bir fərq ondan ibarətdir ki, adətən komitələr işə qapalı iclaslarda baxırlar, Avropa Məhkəməsinin iclasları isə, Məhkəmə tərəfindən istisna hal kimi digər qərar qəbul edilməzsə, açıq keçirilir.

Avropa İnsan Hüquqları Məhkəməsi ilə komitələr arasında ən mühüm fərq isə, onların qərarlarının hüquqi qüvvəsindədir. Komitələrin qərarları bir qayda olaraq hüquqi cəhətdən məcburi olmur və bu qərarların icrası üzərində nəzarət mexanizmi mövcud deyildir. Komitələrdən fərqli olaraq Avropa İnsan Hüquqları Konvensiyasına əsasən, iştirakçı-dövlətlər Məhkəmənin qərarlarını icra etməyi öhdələrinə götürmüşlər. Bundan başqa bu qərarların icrası üzərində effektiv nəzarət mexanizmi mövcuddur. Belə ki, Avropa İnsan Hüquqları Konvensiyasının 46-cı maddəsinə əsasən, Məhkəmənin qəti qərarı onun icrasına nəzarəti həyata

keçirən Nazirlər Komitəsinə göndərilir.

Eyni zamanda müqavilə qurumlarının yaradılmasını nəzərdə tutan BMT konvensiyalarından fərqli olaraq Avropa İnsan Hüquqları Konvensiyasına əsasən fərdi və dövlətlərarası şikayət proseduru məcburi xarakter daşıyır. Yəni Konvensiyanın iştirakçısı olan dövlət avtomatik olaraq Məhkəmənin bu səlahiyyətini tanıyır. Dövlətlərarası şikayət prosedurunda mühüm fərq ondan ibarətdir ki, komitələrdən fərqli olaraq Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçı-dövləti digər müvafiq iştirakçı-dövləti xəbərdar etmədən və onun mülahizələrini öyrənmədən dövlətlərarası şikayətlə Məhkəməyə müraciət edə bilər. Avropa İnsan Hüquqları Konvensiyasının 33-cü maddəsinə əsasən, bir iştirakçı-dövlət digərini Konvensiyanın və ya ona dair hər hansı bir Protokolun (Protokolların) müddəalarını hər hansı şəkildə pozması ehtimalı ilə bağlı Məhkəməyə müraciət edə bilər. BMT sistemində isə müvafiq komitəyə dövlətlərarası şikayətlə müraciət etmək niyyətində olan dövlət əvvəlcə qarşı tərəfə (yəni pozuntuya yol verməsi ehtimal edilən iştirakçı-dövlətə) müraciət etməlidir. Məsələn, Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın 41-ci maddəsinə müvafiq olaraq, Paktın iştirakçısı olan hər hansı dövlət digər iştirakçı-dövlətin bu Paktın müddəalarını həyata keçirmədiyi qənaətinə gələrsə, onda o, bu məsələni yazılı məlumat şəklində həmin dövlətin nəzərinə çatdıra bilər. Əgər məsələ onları təmin edəcək şəkildə həll edilməzsə, yalnız bundan sonra müraciət Komitəyə təqdim edilə bilər.

Eyni zamanda əvvəldə qeyd edildiyi kimi, komitələrin əsas səlahiyyətlərindən biri iştirakçı-dövlətlərin müvafiq beynəlxalq müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı dövri məruzələrinə baxmaqdan ibarətdir. Avropa İnsan Hüquqları Konvensiyası isə ümumiyyətlə «dövri məruzə» proseduru nəzərdə tutmur.

Nəhayət, Avropa İnsan Hüquqları Məhkəməsi - beynəlxalq səviyyədə ədalət mühakiməsini həyata keçirən və məhkəmə orqanının bütün əsas atributlarına malik olan, ədalət mühakiməsinin əsas prinsiplərini (tərəflərin bərabərliyi, çəkişmə prinsipi və s.) rəhbər tutan ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanıdır.

Yuxarıda haqqında bəhs olunan BMT-nin müvafiq qurumları isə məhkəmə orqanı deyil, tövsiyə xarakterli qərarlar qəbul edən kvazimәhkəmə orqanlarıdır.

## Avropa İnsan Hüquqları Məhkəməsi və Amerikaarası İnsan Hüquqları Komissiyası və Məhkəməsi

İnsan hüquqlarının müdafiəsinin regional mexanizmləri sırasında Amerika sistemi əsas yerlərdən birini tutur. İnsan hüquqlarının beynəlxalq müdafiəsinin Amerika sisteminin əsasını bu sənədlər təşkil edir: 1948-ci il tarixli İnsan hüquq

və vəzifələrinə dair Amerika Bəyannaməsi, Amerika Dövlətləri Təşkilatının Nizamnaməsi (1948), 1969-cu ildə qəbul olunan və 1978-ci ildə qüvvəyə minən Amerikaarası İnsan Hüquqları Konvensiyası və Konvensiyaya dair 1988-ci il tarixli Əlavə Protokol. İnsan hüquqları sahəsində əsas aktlar olan Ümumdünya İnsan Hüquqları Bəyannaməsi (1948), Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt (1966), İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Pakt (1966), Avropa İnsan Hüquqları Konvensiyasından (1950) sonra qəbul olunan Amerika İnsan Hüquqları Konvensiyası demək olar ki, qeyd olunan sənədlərlə eyniyyət təşkil edir. Xüsusilə də, Amerika Konvensiyası demək olar ki, Avropa İnsan Hüquqları Konvensiyasının əksər maddi-hüquqi normalarını özündə ehtiva edir. Amerika Konvensiyasında da Avropa İnsan Hüquqları Konvensiyasında olduğu kimi əsas etibarilə I nəsil, yəni vətəndaş və siyasi hüquqlar təsbit olunmuşdur. Düzdür, Konvensiyanın III fəsli «iqtisadi, sosial və mədəni hüquqlar» adlansa da, burada II nəsil hüquqlar sadalanmır.

«Proqressiv inkişaf» adlanan cəmi bir maddədən ibarət olan bu fəsildə yalnız ümumi formada Amerika Dövlətləri Təşkilatının Nizamnaməsində öz əksini tapan iqtisadi, sosial, təhsil, elmi və mədəni standartlara daxil olan bu hüquqların tam həyata keçirilməsinə nail olmaq üçün qanunvericilik və digər tədbirlərin görülməsini iştirakçı-dövlətlər öz öhdələrinə götürmüşlər.

Yuxarıda qeyd olunan beynəlxalq hüquqi aktlar əsasında iki regional beynəlxalq hüquq müdafiə mexanizmi fəaliyyət göstərir: Amerikaarası İnsan Hüquqları Komissiyası və Amerikaarası İnsan Hüquqları Məhkəməsi.

Amerika İnsan Hüquqları Komissiyası üzv-dövlətlərin irəli sürdükləri namizədlər sırasından Amerika Dövlətləri Təşkilatının Baş Assambleyası tərəfindən 4 il müddətinə seçilən (daha bir müddətə yenidən seçilə bilmək hüququ ilə), öz dövlətlərini təmsil etməyən 7 üzvdən ibarətdir. Amerika Dövlətləri Təşkilatının bütün üzv-dövlətləri Komissiyada təmsil olunur. Komissiyanın əsas vəzifəsi insan hüquqlarına hörmət və onların müdafiəsi işinə dəstək verməkdir. Komissiyanın əsas funksiyası və səlahiyyətləri bunlardır: üzv-dövlətlərə insan hüquqları sahəsində tövsiyələr vermək, üzv-dövlətlərin hökumətlərinə onların insan hüquqları sahəsində həyata keçirdikləri tədbirlərə dair məlumat verilməsi barədə sorğu ilə müraciət etmək, üzv-dövlətlərə onların istəyi ilə konsultativ xidmət göstərmək və s. Komissiyanın ən əhəmiyyətli səlahiyyəti isə Konvensiyada nəzərdə tutulmuş insan hüquq və azadlıqlarının pozulması ilə bağlı fərdi və ya dövlətlərarası şikayətlərə baxmaqdan ibarətdir. Konvensiyanın 44-cü maddəsinə əsasən, istənilən şəxs və ya şəxslər qrupu, yaxud Amerika Dövlətləri Təşkilatının üzvlərinin birində və ya bir neçəsində qanuni şəkildə tanınan istənilən qeyri-hökumət təşkilatı Konvensiyanın müddəalarının pozulması ilə bağlı Komissiyaya müraciət edə

bilər. Göründüyü kimi, Avropa İnsan Hüquqları Konvensiyasından fərqli olaraq (34-cü maddə) Amerika Konvensiyası qeyri-hökumət təşkilatının Komissiyaya müraciət edə bilməsi üçün onun qanuni şəkildə tanınması, yəni dövlət qeydiyyatından keçməsi tələbini irəli sürür. Fərdi şikayət prosedurundan fərqli olaraq, Amerika İnsan Hüquqları Konvensiyasına əsasən dövlətlərarası şikayət proseduru Avropa İnsan Hüquqları Konvensiyasından fərqli olaraq fakültativ xarakter daşıyır. Belə ki, Amerika Konvensiyasının 45-ci maddəsinə əsasən, Komissiyanın dövlətlərarası şikayətlərə baxa bilməsi üçün dövlətlərin xüsusi bəyanatı tələb olunur. Şikayətlərin qəbul edilmə meyarları demək olar ki, Avropa İnsan Hüquqları Konvensiyasında nəzərdə tutulan meyarlarla eynidir. İşə baxarkən Komissiya Avropa Məhkəməsi kimi, ilk olaraq, işin dostcasına həllinə səy göstərir. Nəticə hasil olmadıqda isə Komissiya şikayətlə bağlı xüsusi məruzə hazırlayır və müvafiq dövlətə göndərir. Məruzədə Komissiya tərəfindən təklif və tövsiyələr irəli sürülə bilər. Komissiya zəruri hesab edərsə, işi Məhkəməyə təqdim edə bilər. Qeyd etmək lazımdır ki, pozuntu aşkar etdikdə belə, Komissiyanın səlahiyyətində müvafiq dövlətə qarşı effektiv təsir mexanizmi yoxdur.

Amerika insan hüquq müdafiə sistemində ikinci mühüm mexanizm Amerikaarası İnsan Hüquqları Məhkəməsidir. Məhkəmə Baş Assambleya tərəfindən 6 il müddətinə (daha bir dəfə seçilə bilmək hüququ ilə) seçilən 7 hakimdən ibarətdir. Yəni Avropa Məhkəməsindən fərqli olaraq hakimlərin sayı iştirakçı-dövlətlərin sayına bərabər deyil. Avropa İnsan Hüquqları Konvensiyasında olduğu kimi Amerika Konvensiyasında da *ad hoc* hakim proseduru nəzərdə tutulmuşdur. Amerika Məhkəməsinin Avropa Məhkəməsindən mühüm fərqlərindən biri də ondan ibarətdir ki, fərd birbaşa Amerika Məhkəməsinə müraciət edə bilməz. Konvensiyanın 61-ci maddəsinə əsasən, yalnız mübahisənin tərəfi olan dövlət və Komissiya Məhkəməyə müraciət edə bilər. Məhkəmə işə yalnız Komissiya çərçivəsində həyata keçirilən prosedur tükəndikdən sonra baxa bilər. Pozuntu aşkar edərsə Məhkəmə müvafiq dövlət qarşısında pozulmuş hüquqların bərpası və zərərçəkmiş tərəfə ədalətli kompensasiya ödənilməsi tələbi ilə çıxış edə bilər. Avropa Məhkəməsində olduğu kimi Amerika Məhkəməsinin də qərarları iştirakçı-dövlətlər üçün məcburi xarakter daşıyır. Lakin Avropa Məhkəməsindən fərqli olaraq Amerika Konvensiyası qərarların icrası üzərində nəzarət mexanizmi nəzərdə tutmamışdır.

Amerika Məhkəməsinin daha bir səlahiyyəti Konvensiyanın təfsiri və tətbiqi ilə bağlıdır. Yəni Konvensiyanın təfsiri və tətbiqi ilə bağlı bütün məsələlər Məhkəmənin yurisdiksiyasına aid edilmişdir. Avropa Məhkəməsindən fərqli olaraq Amerika Məhkəməsinin bununla bağlı yurisdiksiyası fakültativ xarakterlidir. Lakin bununla yanaşı Amerika Məhkəməsinin Avropa Məhkəməsindən üstünlüyü

məsləhət rəyləri ilə bağlıdır. Belə ki, Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçı-dövlətləri Avropa Məhkəməsinə məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə bilməzlər. Bu hüquqa yalnız Avropa Şurası Nazirlər Komitəsi malikdir. Amerika Konvensiyası isə iştirakçı-dövlətlərin məsləhət rəyləri ilə bağlı Məhkəməyə müraciət hüququnu nəzərdə tutur.

Avropa Məhkəməsindən fərqli olaraq Amerika Məhkəməsi maliyyələşdiyi regional təşkilat, yəni Amerika Dövlətləri Təşkilatı qarşısında hesabatlıdır. Yəni Məhkəmə Təşkilatın Baş Assambleyasına illik hesabatlar təqdim edir. Zənnimizcə, bu, Amerika Məhkəməsinin Avropa Məhkəməsindən mühüm fərqini göstərməklə, həm də onun (Amerika Məhkəməsi nəzərdə tutulur) qüsurlu cəhətlərindəndir. Çünki tam müstəqil bir orqan, xüsusilə də məhkəmə hər hansı bir qurum qarşısında hesabatlı olmamalıdır.

## Avropa İnsan Hüquqları Məhkəməsi və İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası və Məhkəməsi

1963-cü ildə özündə 50-dən çox dövləti birləşdirən ən iri regional beynəlxalq təşkilat olan Afrika Birliyi Təşkilatının yaradılması və daha sonra 1981-ci ildə İnsan və xalqların hüquqları haqqında Xartiyanın qəbul edilməsi ilə insan hüquqlarının müdafiəsinin Afrika regional mexanizminin əsası qoyuldu. Xartiyanın digər universal və regional beynəlxalq hüquqi aktlardan fərqi ondan ibarətdir ki, Xartiyada bir sıra mühüm III nəsil hüquqlar, yəni kollektiv hüquqlar - beynəlxalq sülh və təhlükəsizlik hüququ, inkişaf hüququ, sağlam ətraf mühit hüququ - öz əksini tapmışdır. Qeyd etmək yerinə düşərdi ki, 2000-ci ildə Afrika Birliyi Təşkilatı Afrika Birliyinə çevrilmişdir. Bu mexanizmin əsasını qeyd olunan Xartiyaya uyğun olaraq təsis edilən və 1987-ci ildə fəaliyyətə başlayan İnsan və xalqların hüquqları üzrə Afrika Komissiyası təşkil edir. Komissiya, Xartiyanın iştirakçı-dövlətlərinin təqdimatı əsasında Birliyin üzv ölkələrinin dövlət və hökumət başçıları Assambleyası tərəfindən 6 il müddətinə seçilən (yenidən seçilə bilmək hüququ ilə) milliyyətcə afrikalı olan 11 müstəqil üzvdən ibarətdir. Xartiyaya əsasən Komissiya Afrika qitəsində insan hüquqlarının inkişafı və müdafiəsi üçün yaradılır. Komissiyanın əsas funksiyaları aşağıdakılardan ibarətdir:

- İnsan və xalqların hüquqlarına dair tədqiqatlar aparmaq;
- İnsan və xalqların hüquqları sahəsində ixtisaslaşan yerli təşkilatlara dəstək vermək;
- Hökumətlərə tövsiyələr vermək;
- Afrika dövlətlərinin qanunvericiliyinin təkmilləşdirilməsinə yardımçı olmaq.

Komissiya, həmçinin, iştirakçı-dövlətlərin, Afrika Birliyinin və ya Birlik tərəfindən tanınan istənilən Afrika təşkilatının xahişi ilə Xartiyanın müddəalarını şərh edə bilər. Komissiyanın daha bir mühüm səlahiyyəti ondan ibarətdir ki, o, dövlətlərarası və fərdi şikayətlərə baxır, həmçinin ayrı-ayrı məlumatlar əsasında insan və xalqların hüquqlarının kobud və kütləvi pozulması hallarına Assambleyanın diqqətini cəlb edir.

Dövlətlərarası şikayət proseduru BMT komitələrində olduğu kimidir, lakin mühüm fərq ondan ibarətdir ki, Afrika Xartiyasına əsasən (40-cı maddə) bəzi hallarda bir iştirakçı-dövlət digərinin Xartiyanın müddəalarını pozması ilə bağlı həmin dövləti xəbərdar etmədən birbaşa Komissiyaya müraciət edə bilər.

Fərdi şikayət proseduru Amerikaarası İnsan Hüquqları Komissiyasında olduğu kimidir. Mühüm fərq ondan ibarətdir ki, Amerika Konvensiyasından fərqli olaraq Afrika Xartiyasında dövlətdaxili orqanın qərarından sonra Komissiyaya müraciət etmək üçün 6 aylıq vaxt məhdudiyyəti nəzərdə tutulmamışdır. Xartiyada şikayətin milli müdafiə vasitələri tükəndikdən sonra ağlabatan müddət ərzində Komissiyaya göndərilməsi şərti irəli sürülür. «Ağlabatan müddət»in isə hansı vaxtı əhatə etməsi Xartiyada açıqlanmır. Eyni zamanda pozuntu aşkar etdikdə Komissiyanın müvafiq dövlətin üzərinə hansı tələblər qoymaq səlahiyyəti də Xartiyada açıq qalır.

Qeyd etmək lazımdır ki, hal-hazırda Afrika Komissiyası ilə yanaşı yeni bir orqan olan Afrika İnsan və xalqların hüquqları Məhkəməsi də fəaliyyət göstərir. Məhkəmə Afrika Xartiyasına əlavə 9 iyun 1998-ci il tarixli Protokol əsasında təsis olunmuşdur. 25 yanvar 2004-cü ildə Protokol qüvvəyə minmiş və Afrika Məhkəməsi fəaliyyətə başlamışdır. Xüsusilə vurğulanmalıdır ki, Məhkəmə Komissiyanı əvəz etmir, əksinə, onun fəaliyyətini tamamlayır. Məhkəmə üzv-dövlətlərin təqdimatı əsasında Assambleya tərəfindən gizli səsvermə yolu ilə 6 il müddətinə (yenidən seçilə bilmək hüququ ilə) seçilən 11 hakimdən ibarətdir. Məhkəməyə Komissiya, iştirakçı-dövlətlər, Afrika hökumətlərarası təşkilatları müraciət edə bilərlər. Eyni zamanda Məhkəmə, işə aidiyyatı olan Komissiya yanında müşahidəçi statusuna malik olan qeyri-hökumət təşkilatlarına və ya ayrı-ayrı fərdlərə bilavasitə Məhkəməyə müraciət etmək hüququ verə bilər. Məhkəmə insan və xalqların hüquqlarının pozuntusu faktını müəyyən edərsə, delikvent-dövlətin qarşısına bu pozuntunu aradan qaldırmaq, ədalətli kompensasiya ödəmək və digər tələblər qoya bilər. Məhkəmənin qərarları məcburidir və iştirakçı-dövlətlər bu qərarları icra etmək öhdəliyini götürmüşlər.

Göründüyü kimi, insan hüquqlarının müdafiəsinin Afrika sistemi ayrı-ayrı fərdlərin hüquqlarının müdafiəsi sahəsində geniş səlahiyyətlərə malik deyildir və bu baxımdan fərdlərin hüquqlarının müdafiəsi sahəsində bu sistemə daxil olan

qurumları (Komissiya və Məhkəmə) səmərəli adlandırmaq olmaz. Avropa Məhkəməsindən mühüm fərq ondan ibarətdir ki, artıq qeyd edildiyi kimi, əgər Avropa İnsan Hüquqları Məhkəməsi əsas etibarilə ayrı-ayrı fərdlərin, fərdlər qrupunun, qeyri-hökumət təşkilatlarının hüquqlarının müdafiəsində ixtisaslaşıbsa, Afrika sistemi haqqında bunu demək olmaz. Bundan başqa Afrika Komissiyası fərdi şikayətlərə baxsa da, Avropa Məhkəməsindən fərqli olaraq məcburi qərarlar qəbul etmək və delikvent-dövlətin üzərinə yerinə yetirilməsi məcburi olan tələblər qoymaq səlahiyyətinə malik deyil. Avropa Məhkəməsindən fərqli olaraq, Afrika Məhkəməsi daimi əsasda fəaliyyət göstərmir. Avropa İnsan Hüquqları Məhkəməsi ilə Afrika Məhkəməsi arasında mühüm fərqlərdən biri də ondan ibarətdir ki, Afrika Məhkəməsində fərdi şikayət proseduru fakültativ xarakter daşıyır.

Ümumilikdə qeyd etmək lazımdır ki, insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsinin istər universal, istərsə də regional mexanizmləri əsas etibarilə Avropa İnsan Hüquqları Konvensiyasının təsiri altında formalaşmış və bu Konvensiya və Avropa Məhkəməsinin təcrübəsi əsasında inkişaf edir.

Yuxarıda verilən müqayisəli təhlildən də göründüyü kimi, Avropa İnsan Hüquqları Məhkəməsini bu gün istər universal, istərsə də regional mexanizmlər sırasında ən səmərəli beynəlxalq hüquq müdafiə mexanizmi adlandırmaq olar.

# II FƏSİL

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN ŞİKAYƏTLƏRƏ BAXILMASI VƏ MƏSLƏHƏT RƏYLƏRİ VERİLMƏSİ İLƏ BAĞLI YURİSDİKSİYASI

## 2.1. Avropa İnsan Hüquqları Məhkəməsinin predmet yurisdiksiyası *(ratione materiae)*

Yurisdiksiya - (lat.jurisdictio - mühakimə icraatı, jus - hüquq və dico - deyirəm) - müvafiq orqanların səlahiyyətinin qanunla (yaxud digər normativ aktla) müəyyən edilmiş məcmusu; bu orqanların hüquqi mübahisələri və hüquqpozmalar haqqında işləri həll etmək sahəsində səlahiyyətidir (152, 357).

Avropa Məhkəməsinin yurisdiksiyası Avropa İnsan Hüquqları Konvensiyası ilə müəyyən edilmişdir. Konvensiyanın «Məhkəmənin yurisdiksiyası» adlanan 32-ci maddəsinə əsasən, Məhkəmənin yurisdiksiyası, bu Konvensiyanın və onun Protokollarının təfsiri və tətbiqi ilə bağlı 33, 34, 46 və 47-ci maddələr əsasında ona verilən bütün məsələlərə şamil olunur. Konkret iş üzrə Məhkəmənin yurisdiksiyası ilə bağlı mübahisəni Məhkəmə özü həll edir.

Bu gün Avropanın 47 dövləti və 800 milyondan artıq insan Avropa Məhkəməsinin yurisdiksiyası altındadır.

Məhkəmənin predmet yurisdiksiyası Konvensiyanın 1-ci maddəsində öz əksini tapmışdır. Həmin maddədə qeyd olunur ki, «Razılığa gələn Yüksək Tərəflər öz yurisdiksiyası altında olan hər bir şəxsin bu Konvensiyanın 1-ci bölməsində müəyyən edilmiş hüquq və azadlıqlarını təmin edirlər». Qeyd etmək lazımdır ki, bura əlavə Protokollarla nəzərdə tutulan hüquq və azadlıqlar da aid edilir. Konvensiyanın 1-ci maddəsindən göründüyü kimi, Məhkəmə yalnız Konvensiya və əlavə Protokollarda nəzərdə tutulan hüquq və azadlıqların pozulması ilə bağlı işlərə baxmaq səlahiyyətinə malikdir. Beləliklə, Avropa Məhkəməsinə verilən şikayətin qəbul edilməsi üçün zəruri şərtlərdən biri, şikayətin Konvensiyada və ya əlavə Protokollarda təsbit edilmiş hüquq və azadlıqların pozulması ilə əlaqədar olmasıdır. Şikayətin qəbul edilməsinin bu şərti Məhkəmə təcrübəsində «ratione materiae» adlanır (138, 16).

Konvensiyanın I bölməsinin on üç maddəsi və əlavə Protokolların on beş maddəsi onlarda təsbit edilmiş hüquq və azadlıqların tam siyahısını müəyyən etməyə imkan verir. Bu hüquq və azadlıqları aşağıdakı kimi ümumiləşdirmək olar:

**I. Vətəndaş və siyasi hüquqlar:**

- yaşamaq hüququ (Konvensiyanın 2-ci maddəsi);
- işgəncəyə məruz qalmamaq hüququ (3-cü maddə);
- köləliyə və məcburi əməyə məruz qalmamaq hüququ (4-cü maddə);
- azadlıq və şəxsi toxunulmazlıq hüququ (5-ci maddə);
- ədalətli məhkəmə hüququ (6-cı maddə);
- qanunsuz cəzalandırılmamaq hüququ (7-ci maddə);
- şəxsi və ailə həyatına, yaşayış sahəsinə və yazışma sirrinə hörmət hüququ (8-ci maddə);
- fikir, vicdan və din azadlığı (9-cu maddə);
- özünü ifadə etmək hüququ (10-cu maddənin 1-ci bəndi);
- məlumat almaq və yaymaq hüququ (10-cu maddənin 1-ci bəndi);
- yığıncaqlar və birləşmək azadlığı (11-ci maddənin 1-ci bəndi);
- həmkarlar ittifaqları yaratmaq və onlara üzv olmaq hüququ (11-ci maddənin 1-ci bəndi);
- nikah hüququ (12-ci maddə);
- səmərəli hüquq müdafiə vasitələri hüququ (13-cü maddə);
- öz mülkiyyətindən maneəsiz istifadə hüququ (1 saylı Protokolun 1-ci maddəsi);
- təhsil hüququ (1 saylı Protokolun 2-ci maddəsi);
- azad seçki hüququ (1 saylı Protokolun 3-cü maddəsi);
- hər hansı bir müqavilə öhdəliyini ödəmək iqtidarında olmadığına əsasən azadlıqdan məhrum edilmənin qadağan edilməsi (4 saylı Protokolun 1-ci maddəsi);
- sərbəst hərəkət etmək azadlığı (4 saylı Protokolun 2-ci maddəsi);
- özünə yaşayış yeri seçmək hüququ (4 saylı Protokolun 2-ci maddəsi);
- hər hansı ölkəni tərk etmək azadlığı (4 saylı Protokolun 2-ci maddəsi);
- vətəndaşların, vətəndaşı olduğu dövlətin ərazisindən məcburi çıxarılmasının qadağan olunması (4 saylı Protokolun 3-cü maddəsi);
- vətəndaşın, vətəndaşı olduğu dövlətin ərazisinə daxil olmaq hüququndan məhrum edilməsinin qadağan olunması (4 saylı Protokolun 3-cü maddəsi);
- əcnəbilərin kollektiv çıxarılmasının qadağan edilməsi (4 saylı Protokolun 4-cü maddəsi);
- dinc dövrdə ölüm hökmünün ləğvi (6 saylı Protokolun 1-ci maddəsi);
- əcnəbilərin çıxarılmasına dair prosedur təminatlar (7 saylı Protokolun 1-ci maddəsi);
- ər və arvadın hüquq bərabərliyi (7 saylı Protokolun 5-ci maddəsi);

- ayrı-seçkiliyin ümumi qadağan edilməsi (12 saylı Protokolun 1-ci maddəsi);
- istənilən halda ölüm hökmünün qadağan edilməsi (13 saylı Protokolun 1-ci maddəsi).

**II. Məhkəmə təminatı ilə bağlı olan hüquqlar:** (bu hüquqlar vətəndaş və siyasi hüquqların tərkib hissəsidir)

- həbs olunan hər bir şəxsə onun başa düşdüyü dildə həbsəalmanın səbəbləri və irəli sürülmüş istənilən ittiham barədə dərhal məlumat verilməsi (Konvensiyanın 5-ci maddəsinin 2-ci bəndi);
- ağlabatan müddət ərzində məhkəmə araşdırması və məhkəməyəqədər azad edilmək hüququ (5-ci maddənin 3-cü bəndi);
- hər bir şəxsin tutulma və ya həbsəalma nəticəsində, onun tutulmasının və ya həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan baxılmaq və onun həbsinin məhkəmə tərəfindən qanunsuz hesab edildiyi halda azad edilmək hüququ (5-ci maddənin 4-cü bəndi);
- qanunsuz tutulma və ya həbsəalmaya məruz qalmış hər bir şəxsin kompensasiya hüququ (5-ci maddənin 5-ci bəndi);
- hər bir şəxsin işinin ağlabatan müddətdə qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə tərəfindən obyektiv və açıq surətdə araşdırılması hüququ (6-cı maddənin 1-ci bəndi);
- təqsirsizlik prezumpsiyası (6-cı maddənin 2-ci bəndi);
- cinayət törətməkdə ittiham edilən hər bir şəxsin ona elan olunmuş ittihamın xarakteri və əsasları haqqında başa düşdüyü dildə dərhal və ətraflı məlumat almaq hüququ (6-cı maddənin 3-cü bəndi);
- cinayət törətməkdə ittiham edilən hər bir şəxsin öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və şəraitə malik olmaq hüququ (6-cı maddənin 3-cü bəndi);
- cinayət törətməkdə ittiham edilən hər bir şəxsin şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsilə müdafiə olunmaq və yaxud müdafiəçinin haqqını ödəmək üçün kifayət qədər vəsaiti olmadıqda, əgər ədalət mühakiməsinin mənafeləri bunu tələb edirsə, təmənnasız hüquqi yardım almaq hüququ (6-cı maddənin 3-cü bəndi);
- cinayət törətməkdə ittiham edilən hər bir şəxsin, onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və yaxud bu şahidlərin dindirilməsini tələb etmək, öz şahidlərinin və onun əleyhinə ifadə vermiş şahidlərin eyni şərtlərlə dindirilməsinə nail olmaq hüququ (6-cı maddənin 3-cü bəndi);
- cinayət törətməkdə ittiham edilən hər bir şəxsin məhkəmədə istifadə edi-

lən dili başa düşmədikdə və ya həmin dildə danışa bilmədikdə tərcüməçinin pulsuz köməyindən istifadə etmək hüququ (6-cı maddənin 3-cü bəndi);
- qanunsuz cəzalandırılmaya yol verilməməsi (7-ci maddə);
- cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edilmiş hər kəsin, barəsində çıxarılmış hökmə daha yuxarı məhkəmə instansiyasında yenidən baxılması hüququ (7 saylı Protokolun 2-ci maddəsi);
- məhkəmə səhvinə görə kompensasiya hüququ (7 saylı Protokolun 3-cü maddəsi);
- eyni əmələ görə iki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ-non bis in idem- (7 saylı Protokolun 4-cü maddəsi).

Məhkəmənin predmet yurisdiksiyası əlavə Protokollarla daha da genişlənmişdir. Məhkəmənin predmet yurisdiksiyasına yalnız Konvensiyanın və əlavə Protokolların konkret normalarında ifadə olunan hüquq və azadlıqlar deyil, eyni zamanda Məhkəmənin şərh etdiyi qaydada Konvensiya və ya əlavə Protokollarda birbaşa nəzərdə tutulmasa da, onların məzmunundan irəli gələn hüquqlar da daxildir. Məsələn, «Qolder Birləşmiş Krallığa qarşı» işi üzrə qəra-rında Məhkəmə Konvensiyada bilavasitə nəzərdə tutulmayan ədalət mühakiməsinə çatmaq hüququnu 6-cı maddədə təsbit olunmuş ədalətli məhkəmə araşdırması hüququnun tərkib hissəsi kimi qiymətləndirmişdir. Yəni baxmayaraq ki, ədalət mühakiməsinə çatmaq hüququ Konvensiyada birbaşa nəzərdə tutulmamışdır, onun pozulması ilə bağlı 6-cı maddəyə istinad etməklə Məhkəməyə müraciət etmək olar.

«Ceyms və başqaları Birləşmiş Krallığa qarşı» işi üzrə qərarında Məhkəmə 1 saylı Protokolun 1-ci maddəsinin özündə üç ayrı-ayrı, lakin bir - biri ilə sıx bağlı olan normanı birləşdirdiyini vurğulamışdır (36, 110).

Lakin qeyd etmək lazımdır ki, yuxarıda sadalanan hüquq və azadlıqlar əsas insan hüquq və azadlıqlarının tam siyahısı deyildir. Konvensiyanın preambulasında qeyd olunduğu kimi, o, əsas insan hüquq və azadlıqlarından «bəzilərini» təmin edir. Onu da qeyd etmək lazımdır ki, Konvensiyanın bir sıra iştirakçı-dövlətlərinin Konstitusiyalarında təsbit olunmuş bəzi hüquq və azadlıqlar Konvensiyada nəzərdə tutulmamışdır. Məsələn, Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edilmiş bəzi hüquqlar, məsələn, vərəsəlik hüququna təminat (29-cu maddənin 5-ci bəndi), siyasi sığınacaq hüququ (70-ci maddənin 1-ci bəndi) və bir sıra digər hüquqlar Konvensiyada nəzərdə tutulmamışdır.

Məhz yuxarıda qeyd olunanlarla əlaqədar olaraq, Konvensiyanın 53-cü maddəsində deyilir: «Bu Konvensiyada heç nə Razılığa gələn Yüksək Tərəflərdən hər hansı birinin qanunvericiliyi ilə və yaxud onun tərəfdar çıxdığı hər hansı bir digər sazişlə təmin edilə bilən insan hüquqları və əsas azadlıqlarının hər hansı

birini məhdudlaşdırmaq və ya onlardan geri çəkilmə kimi şərh oluna bilməz».

Beləliklə, Məhkəmə yalnız Avropa İnsan Hüquqları Konvensiyasında və (və ya) əlavə Protokollarda təsbit olunmuş hüquq və (və ya) azadlıqlarla bağlı şikayətlərə baxa bilər.

«Ayaz Mütəllibov Azərbaycana qarşı» işində ərizəçi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (MSK) onun prezidentliyə namizədliyinin qeydiyyata alınmasından imtina barədə qərarından verilmiş şikayətə baxılarkən dövlətdaxili məhkəmələrin ədalətli və qərəzsiz olmadığından şikayət etmişdir. O, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə istinad etmişdir. Ərizənin qəbuledilənliyinə dair qərarda Avropa Məhkəməsi qeyd etmişdir ki, Konvensiyanın 6.1-ci maddəsi yalnız mülki hüquq və öhdəliklərlə bağlı mübahisələrə münasibətdə tətbiq olunur. Seçki mübahisələri ilə bağlı işlər Konvensiyanın 6-cı maddəsinin əhatə dairəsindən kənara çıxır, belə ki, onlar mülki hüquq və vəzifələrə daxil olmayıb, siyasi hüququn həyata keçirilməsinə aiddir. Bu işdə apellyasiya və kassasiya məhkəmə araşdırmalarının predmeti MSK-nın ərizəçinin 15 oktyabr 2003-cü il prezident seçkilərində prezidentliyə namizədliyinin qeydiyyata alınmaması ilə bağlı qərarının düzgünlüyünün yoxlanması olub. Müvafiq olaraq məhkəmə prosesləri ərizəçinin seçkilərdə namizəd kimi iştirak etmək siyasi hüququnun bərpasına aiddir və Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinə uyğun olaraq «mülki hüquqlar və vəzifələr» anlayışına daxil olmur. Beləliklə, Məhkəmə ərizəni Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndinə uyğun olaraq *ratione materiae* qəbul edilməyən elan etmişdir (5, 141-143).

«Rəsul Quliyev Azərbaycana qarşı» işində ərizəçi bildirmişdir ki, hakimiyyət orqanları onun prezident seçkilərində namizədliyini irəli sürməsinə imkan verməyiblər. O, Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin pozulmasına istinad etmişdir. Məhkəmə qeyd etmişdir ki, 1 saylı Protokolun 3-cü maddəsi yalnız qanunverici hakimiyyət orqanının seçilməsinə aiddir. Məhkəmə belə bir nəticəyə gəlmişdir ki, 1 saylı Protokolun 3-cü maddəsi bu işə tətbiq edilə bilməz, çünki Azərbaycan Respublikası Prezidentinin seçkiləri bu maddənin müddəaları çərçivəsində «qanunverici hakimiyyət orqanının seçkiləri» kimi təfsir oluna bilməz. Beləliklə, şikayətin qəbuledilənliyinə dair qərarında Məhkəmə belə bir nəticəyə gəlmişdir ki, şikayətin bu hissəsi *ratione materiae* Konvensiyanın müddəalarına uyğun deyil (5, 144-155).

Konvensiyanın 14-cü maddəsinə əsasən, bu Konvensiyada təsbit edilmiş hüquq və azadlıqlardan istifadə hər hansı bir əlamətdən - cinsindən, irqindən, dərisinin rəngindən, dilindən, dinindən, siyasi və ya digər əqidəsindən, milli və ya sosial mənşəyindən, milli azlığa mənsubiyyətindən, əmlak vəziyyətindən, doğumundan və ya digər əlamətlərindən asılı olmayaraq ayrı-seçkilik olmadan təmin

olunur. Qeyd etmək lazımdır ki, bu maddə ayrıca deyil, digər maddələrlə birgə tətbiq olunur. 14-cü maddə bir növ, Konvensiyada hər hansı bir hüquq və azadlığın təsbit olunduğu hər bir maddənin tərkib hissəsini təşkil edir. Bunu Məhkəmə də öz qərarlarında qeyd etmişdir. O.V.Romanovskayanın Rusiya Federasiyasına qarşı işi üzrə şikayətin qəbul edilmə meyarı üzrə 3 aprel 2001-ci il tarixli qərarında Məhkəmə bildirmişdir ki, 14-cü maddə ayrıca deyil, Konvensiyanın digər maddələri ilə birgə tətbiq edilir. Onu da vurğulamaq lazımdır ki, qeyd edilən maddənin genişləndirilməsini, yəni ayrı-seçkiliyin ümumi qadağan olunmasını nəzərdə tutan Konvensiyaya əlavə 12 saylı Protokol qəbul edilmişdir. Protokola əsasən, qanunla təsbit olunmuş hər hansı hüquqdan istifadə cinsindən, irqindən, dərisinin rəngindən, dilindən, dinindən, siyasi və ya digər əqidəsindən, milli və ya sosial mənşəyindən, milli azlığa mənsubiyyətindən, əmlak vəziyyətindən, doğumundan və ya digər əlamətlərindən asılı olmayaraq ayrı-seçkilik olmadan təmin olunmalıdır. Həmin maddənin 2-ci bəndinə əsasən isə, heç kəs bu maddənin 1-ci bəndində qeyd olunmuş əlamətlərə görə dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı ayrı-seçkiliyə məruz qala bilməz. Bu Protokol «ayrı-seçkiliyin qadağan olunması» anlayışını əsaslı şəkildə genişləndirərək, yalnız Konvensiyada təsbit edilmiş hüquq və azadlıqlara deyil, həmçinin, digər, yəni, Konvensiyada nəzərdə tutulmayan hüquq və azadlıqlara münasibətdə də hər hansı ayrı-seçkiliyi qadağan edir.

Ayrı-seçkiliyin qadağan edilməsindən danışarkən, qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsinə əsasən, dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, milli, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

Konvensiyada heç nə hər hansı bir dövlətin, şəxslər qrupunun və ya şəxsin, burada təsbit olunmuş hüquq və azadlıqlarının ləğvinə yönəlmiş hər hansı bir fəaliyyətlə məşğul olmaq və ya hər hansı bir hərəkəti etmək, yaxud onları bu Konvensiyada nəzərdə tutulduğundan daha artıq dərəcədə məhdudlaşdırmaq hüququna malik olması kimi şərh oluna bilməz (17-ci maddə).

1998-ci ilin mayın 25-də Məhkəmə «Sosialist Partiyası və digərləri Türkiyəyə qarşı» işi üzrə qərar çıxarmışdır. Qeyd edilən partiya 1988-ci il fevralın 1-də təsis edilmişdir. Partiyanın təsis edilməsindən 2 həftə sonra Baş prokuror qeyd olunan partiyanın Nizamnaməsində ölkədə proletariat diktaturasının bərqərar olmasının nəzərdə tutulmasını və bunun ölkə Konstitusiyasına zidd olduğunu əsas gətirərək onun bağlanması ilə əlaqədar Konstitusiya Məhkəməsinə müraciət

etmişdir. Konstitusiya Məhkəməsi isə öz növbəsində həmin partiyanın ləğvi haqqında qərar çıxarmışdır. Konvensiyanın 11-ci maddəsinin pozulması ilə əlaqədar Avropa Məhkəməsində işə baxılarkən Türkiyə Hökuməti «bu partiyanın ümumilikdə Konvensiyaya və orada təsbit olunmuş hüquq və azadlıqlara təhlükə törətməsini» göstərərək, şikayətin Konvensiyanın 17-ci maddəsi əsasında rədd edilməsi məsələsini qaldırdı. Lakin Məhkəmə bununla razılaşmayaraq qeyd etdi ki, bu halda 17-ci maddənin tətbiqi yersizdir, belə ki, qeyd olunan partiyanın proqramı Konvensiyada təsbit edilmiş hüquq və azadlıqların pozulmasına yönələn fəaliyyəti nəzərdə tutmur (70, 496-508).

Beləliklə, göründüyü kimi, Avropa Məhkəməsinin predmet yurisdiksiyası bəzi hallarda yalnız Konvensiyada və əlavə Protokollarda təsbit olunmuş hüquq və azadlıqlarla mütləq qaydada məhdudlaşmır. Avropa Məhkəməsinin təcrübəsi onu deməyə əsas verir ki, bir sıra hallarda Məhkəmə hər hansı bir hüququn Konvensiyada və ya əlavə Protokollarda nəzərdə tutulmamasına baxmayaraq bu hüququ digər oxşar hüququn tərkib hissəsi sayaraq onu özünün predmet yurisdiksiyasına daxil edir. Bu isə bir daha təsdiq edir ki, milli məhkəmə orqanları Avropa İnsan Hüquqları Konvensiyasını tətbiq edərkən Avropa Məhkəməsinin qərarlarını nəzərə almalı və Konvensiyanı Məhkəmənin qərarlarına uyğunlaşdırılmış şəkildə tətbiq etməlidirlər. Yəni Konvensiya Məhkəmənin şərh etdiyi qaydada tətbiq olunmalıdır. Avropa Məhkəməsi Konvensiyanı təfsir etməklə Konvensiya ilə təmin olunmuş hüquqların dairəsini genişləndirmişdir.

## 2.2. Avropa İnsan Hüquqları Məhkəməsinin şəxslərə görə yurisdiksiyası (ratione personae)

Məhkəmənin şəxslərə görə yurisdiksiyası iki istiqamət üzrə nəzərdən keçirilməlidir, birincisi, Məhkəməyə kimlər müraciət edə bilər, ikincisi isə, şikayət kimə qarşı verilə bilər.

Avropa Məhkəməsi tərəfindən baxılmış işlərin əksəriyyətini fərdi şikayətlər əsasında olan işlər təşkil edir. Fərdi şikayət hüququ - Məhkəmənin ərazi yurisdiksiyası hüdudları daxilində olan hər bir şəxsin, onun Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlarının dövlət orqanları tərəfindən pozulduğu halda və bu hüquq və azadlıqların dövlətdaxili səviyyədə müdafiəsinə nail oluna bilinmədiyi halda, Avropa Məhkəməsinə müraciət etmək hüququdur. Konvensiyanın «Fərdi şikayətlər» adlanan 34-cü maddəsinə əsasən, «Məhkəmə istənilən fiziki şəxsdən, qeyrihökumət təşkilatından və ya ayrı-ayrı şəxslər qrupundan, Razılığa gələn Yüksək Tərəflərdən birinin onun bu Konvensiya və ya onun Protokolları ilə tanınmış hüquqlarını pozmasının qurbanı olduğunu iddia edən şikayətlər qəbul edə bilər.

Razılığa gələn Yüksək Tərəflər bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamağı öhdələrinə götürürlər». Göründüyü kimi, Məhkəməyə yalnız ayrı-ayrı fərdlər deyil, həmçinin şəxslər qrupu və qeyri-hökumət təşkilatları da müraciət edə bilər. Məhkəməyə müraciət edə biləcək fərdlərin dairəsi genişdir. Şəxsin hüquq və ya fəaliyyət qabiliyyətinin olmaması onun Məhkəməyə müraciəti üçün maneə sayılmır. Lakin bu halda ərizəçi nümayəndəsi tərəfindən təmsil oluna bilər. Məsələn, «Van der Ler (Van der Leer) Niderlanda qarşı» işində ərizəçi Məhkəməyə məcburi şəkildə psixiatrik xəstəxanada saxlanılmasından şikayət etmişdir. Bir sıra hallarda ərizəçi qismində azyaşlılar da çıxış etmişlər. Azyaşlılar ya valideynləri, ya qanuni nümayəndələri ilə birgə, yaxud da müstəqil şəkildə təmsil olunmuşlar. Məsələn, «Marks Belçikaya qarşı» işində şikayətçi qismində ana və azyaşlı qızı, «Kempbell və Kouzans Birləşmiş Krallığa qarşı» işində uşaqların adından valideynləri çıxış etmişlər.

«Engel və başqaları Niderlanda qarşı» işində olduğu kimi hərbi qulluqçular da iddiaçı qismində çıxış edə bilər. Lakin qeyd etmək lazımdır ki, bununla bağlı ratifikasiya zamanı bir sıra dövlətlər qeyd-şərt etmişlər. Məhkəməyə həmçinin «Petra Rumıniyaya qarşı» (1998-ci il) işində olduğu kimi məhkumlar da müraciət edə bilər, yaxud «Ekbatani İsveçə qarşı» (1988-ci il) və ya «Çaxal Birləşmiş Krallığa qarşı» (1996) işində olduğu kimi, iddiaçı qismində Konvensiyanın iştirakçısı olmayan dövlətin vətəndaşı, lakin Məhkəmənin yurisdiksiyası hüdudlarında olan şəxslər də çıxış edə bilər.

Onu da qeyd etmək lazımdır ki, Konvensiyanın pozulması müraciət edənə şəxsi ziyanın vurulması ilə bağlı olmalıdır, Konvensiyada təsbit olunmuş bu və ya digər hüquq və azadlıqların pozulması şəxsən iddiaçının özünə aid olmalıdır, yəni onun özünün bu və ya digər hüququ (hüquqları) pozulmuş olmalıdır. Şikayətin qəbul olunmasının bu şərti Məhkəmə təcrübəsində «ratione personae» adlanır. Məsələn, «Meyci (Magee) Birləşmiş Krallığa qarşı» işində şikayətçi «kral vəkili» adını almaq üçün məcburi şəkildə andiçmənin Konvensiyanın bir sıra müddəalarına zidd olduğunu iddia etmişdir. Məhkəmə isə öz növbəsində şikayətçinin «kral vəkili» statusu almaqla bağlı ərizəsinə əvvəlcədən müvafiq qurumlar tərəfindən rədd cavabı verildiyini əsas gətirərək, onun ümumiyyətlə andiçmə mərhələsinə çatmadığını və beləliklə də, Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq şikayətçinin «qurban» statusuna malik olmadığını bildirmişdir (115, 182-183).

«Ramazanova və başqaları Azərbaycana qarşı» işi üzrə 1 fevral 2007-ci il tarixli qərarda Məhkəmə qeyd etmişdir ki, «qurban» sözü işdə olan hərəkət və ya hadisənin birbaşa olaraq təsir etdiyi şəxs mənasını bildirir. Daha sonra Məhkəmə qeyd edir ki, «ərizəçi üçün əlverişli olan qərar və ya görülən tədbirlər onun «qurban» statusunun itirilməsi üçün o zaman yetərli sayıla bilər ki, milli səlahiy-

yətli qurumlar Konvensiyanın müvafiq maddəsinin pozulmasını həm mahiyyətcə, həm də açıq şəkildə etiraf etsinlər və pozuntu nəticəsində dəymiş zərərin əvəzini tam ödəsinlər. Yalnız bu şərtlər ödəndiyi halda Konvensiyanın köməkçi müdaxilə mexanizmi ərizənin araşdırılmasını dayandıra bilər» (5, 56).

«Səyyad Bayramov Azərbaycana qarşı» işi üzrə qərarında Məhkəmə qeyd etmişdir ki, Konvensiyanın 34-cü maddəsindəki «qurban» anlayışı araşdırılan hərəkətin və ya hərəkətsizliyin birbaşa təsirinə məruz qalan şəxsi bildirir (5, 237).

Təcrübədə elə hallar da olur ki, ərizəçi Məhkəməyə müraciət etdikdən sonra cavabdeh-dövlət tərəfindən onun pozulmuş hüquqları tam və ya qismən bərpa olunur və belə olan halda dövlət ərizəçinin qurban statusunu itirdiyini iddia edərək işin dayandırılması tələbi ilə çıxış edir. Məsələn, bununla bağlı yuxarıda qeyd etdiyimiz «Ramazanova və başqaları Azərbaycana qarşı» işinə başqa aspektdən nəzər salaq. Ərizəçilər əsas etibarilə təsis etdikləri ictimai birliyin uzun müddət ərzində qeydiyyata alınmamasından və bununla da onların birləşmək hüququnun pozulmasından şikayət etmişlər. Şikayətçilərin Avropa Məhkəməsinə müraciətindən sonra Ədliyyə Nazirliyi tərəfindən ərizəçilərin təsis etdikləri ictimai birlik dövlət qeydiyyatına alındığından, onların Konvensiyanın müvafiq maddəsinin pozuntusunun qurbanı statusunu itirmələrini iddia edərək Hökumət Məhkəmədən bu ərizənin baxılacaq işlərin siyahısından çıxarılmasını xahiş etmişdir. Bununla razılaşmayan Məhkəmə bildirmişdir ki, «bu işdə ictimai qurumun təsisçiləri olan ərizəçilərin hər biri qurumun dövlət qeydiyyatına alınması zamanı yol verilmiş özbaşına gecikdirmələrdən şikayət veriblər. Bu gecikmələr birliyin hüquqi şəxs statusu ala bilməməsi və lazımi fəaliyyət göstərə bilməməsinə səbəb olub. Bu isə birliyin təsisçilərinin birləşmək hüququna birbaşa təsir edib». Beləliklə, Məhkəmə ərizəçilərin «qurban» statusunu itirməsi ilə bağlı Hökumətin etirazını rədd edərək bildirmişdir ki, birliyin xeyli müddət gecikmələrdən sonra dövlət qeydiyyatına alınması faktı bu işdə ərizəçilərin avtomatik olaraq, Konvensiyada nəzərdə tutulmuş «qurban» statusunun itirilməsinə səbəb ola bilməz (8, 196).

Şəxs Məhkəməyə yalnız o hüquqların (Konvensiyada və əlavə Protokollarda təsbit olunmuş) pozulması ilə əlaqədar müraciət edə bilər ki, buna görə dövlət orqanları məsuliyyət daşısın. Fərd digər bir fərdin hərəkəti ilə əlaqədar Avropa Məhkəməsinə müraciət edə bilməz. Bir sözlə, fərdi şikayət əsasında iş üzrə cavabdeh tərəf kimi yalnız Konvensiyanın iştirakçısı olan bu və ya digər konkret dövlət (dövlətlər) çıxış edə bilər.

Şikayətin *actio popularis* verilməsi Konvensiyada nəzərdə tutulmamışdır. Şikayət şəxslər qrupu tərəfindən veriləndə belə, onların hər biri şəxsi ziyanın vurulmasını göstərməlidirlər. Məhkəmə abstrakt, hipotetik şikayətlərə baxmır. Məsələn, «Lindsey və başqaları Böyük Britaniyaya qarşı» işində şikayətin Şimali

İrlandiyada yaşayan bir milyondan artıq insanın adından verildiyi bildirilirdi. Məhkəmə bu şikayətin onun *ratione personae* yurisdiksiyasından kənar olduğunu bildirmişdir. Şikayətin şəxslər qrupu tərəfindən verilməsi deyəndə eyni faktlar əsasında Konvensiyanın bu və ya digər müddəasının pozulmasını iddia edən, şikayətin iki və ya daha artıq şəxs tərəfindən verilməsi nəzərdə tutulur. Buna misal olaraq, valideynlər qrupu tərəfindən verilən, Konvensiyaya əlavə 1 saylı Protokolun 2-ci maddəsinə əsasən, övladlarının təhsilinin xarakterini müəyyən etmək hüququnun pozulmasını iddia edən şikayətin verilməsini göstərmək olar (57, 58). Yaxud «Guerra və başqaları İtaliyaya qarşı» işində şəhərin 40 nəfər sakini Konvensiyanın 2, 8 və 10-cu maddələrinin pozulması ilə bağlı, və ya «Balmer-Şafrot İsveçrəyə qarşı» işində atom elektrik stansiyasının yaxınlığında yaşayan 10 sakin Məhkəməyə müraciət etmişlər (115, 170).

Lakin buna baxmayaraq Konvensiyanın 34-cü maddəsində ayrıca kateqoriyalar kimi göstərilən «şəxslər qrupu» kateqoriyası ilə «qeyri-hökumət təşkilatı» kateqoriyası arasında dəqiq fərq müəyyən edilməmişdir. Bir sıra hallarda Avropa Komissiyası da qeyd etmişdir ki, iddiaçı tərəfə ya qeyri-hökumət təşkilatı, ya da şəxslər qrupu kimi baxmaq olar (57, 58). Qeyri-hökumət təşkilatlarına gəlincə isə, Məhkəmə təcrübəsi bu siyahıya ictimai təşkilatları, həmkarlar ittifaqlarını, kütləvi informasiya vasitələrini, siyasi partiyaları, şirkətləri, aksioner birliklərini, dini birlikləri aid etməyə imkan verir. Dövlət təşkilatları və digər hakimiyyət funksiyalarını həyata keçirən orqanlar bu qrupa aid edilmir. Bu və ya digər təşkilatın hökumət və ya qeyri-hökumət xarakterli olmasını Məhkəmə özü müəyyənləşdirir. Bundan əlavə Məhkəməyə şikayətlə müraciət etmiş qeyri-hökumət təşkilatından, dövlət orqanlarının hərəkəti və ya fəaliyyəti nəticəsində Konvensiyanın pozulmasının qurbanı olması tələb olunur. Bununla yanaşı, həmin qeyri-hökumət təşkilatının ayrı-ayrı üzvlərinin deyil, bütövlükdə onun özünün (hüquqi şəxs kimi) hüququ pozulmuş olmalıdır. Həmin təşkilat özünün ayrı-ayrı üzvlərinin subyektiv hüquqlarının deyil, bütövlükdə hüquqi şəxs kimi özünün hüquqlarının müdafiəsini tələb etməlidir. Məsələn, «Aqroteksim və başqaları Yunanıstana qarşı» işində şirkətin aksionerləri Məhkəməyə müraciət edərək, şirkətin hüquqlarının pozulduğunu bildirmişlər. Lakin Məhkəmə ayrı-ayrı aksionerlərin hüquqlarının pozulmadığını əsas gətirərək şikayətin *ratione personae* əsasla baxılmasından imtina etmişdir.

Məhkəmə təcrübəsində «qeyri-hökumət təşkilatı» sayıla biləcək təşkilatların müraciətlərinə tez-tez rast gəlinir. Məsələn, Məhkəməyə həmkarlar ittifaqları («Belçika polislərinin milli həmkarlar ittifaqı Beçikaya qarşı», «İsveç maşinistləri həmkarlar ittifaqı İsveçə qarşı», «Uilson, Milli jurnalistlər ittifaqı və başqaları Böyük Britaniyaya qarşı»), kütləvi informasiya vasitələri («Sandi Tayms Birləş-

miş Krallığa qarşı»), siyasi partiyalar («Türkiyə Birləşmiş Kommunist Partiyası Türkiyəyə qarşı», «Stankov və Birləşmiş Makedoniya «İlinden» təşkilatı Bolqarıstana qarşı», «Rifah partiyası və başqaları Türkiyəyə qarşı»), dini təşkilatlar («Müqəddəs monastırlar Yunanıstana qarşı», «Kanea (Canea) katolik kilsəsi Yunanıstana qarşı», «X. və saentologiya kilsəsi İsveçə qarşı»), kommersiya təşkilatları, aksioner birlikləri («Pressos Kampaniya Navyera SC və başqaları Belçikaya qarşı», «Kaplan Birləşmiş Krallığa qarşı», «Sovtransavto Ukraynaya qarşı», «Uralmaş Rusiyaya qarşı») və s. bu kimi qeyri-hökumət xarakterli, yəni hər hansı formada hakimiyyət funksiyaları həyata keçirməyən təşkilatlar müraciət etmişlər.

Beləliklə, Avropa Məhkəməsinə ayrı-ayrı fərdlər, fərdlər qrupu və ya qeyri-hökumət təşkilatları müraciət edə bilər. Hakimiyyətin istənilən qolunu (icra, qanunverici, məhkəmə) təmsil edən dövlət orqanları, yerli özünüidarəetmə orqanları, dövlət ali təhsil müəssisələri, dövlət şirkətləri, ümumilikdə bu və ya digər şəkildə hakimiyyət funksiyalarını həyata keçirən təşkilatlar Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq Avropa Məhkəməsinə müraciət etmək hüququna malik deyillər.

## Məhkəmə təcrübəsində «potensial qurban» və «dolayı qurban» anlayışları

Məhkəmə təcrübəsində «qurban» anlayışı geniş mənada qəbul edilir. Bunun da nəticəsində Məhkəmə təcrübəsində «bilavasitə qurban» anlayışından başqa «potensial qurban» və «dolayı qurban» anlayışları fərqləndirilir. «Potensial qurban» anlayışı ilə bağlı olan halda, Məhkəmə müəyyən edir ki, gələcəkdə vurula bilən və real olan ziyanın təhlükəsi olduğu halda belə, iddiaçıya qurban kimi baxmaq olar. Məsələn, bununla əlaqədar olaraq, 1978-ci il tarixli «Klass və başqaları Almaniya Federativ Respublikasına qarşı» işi üzrə qərara nəzər salaq. 13 avqust 1968-ci ildə Almaniyada yazışma, telefon danışıqları və poçt göndərişləri sirrini məhdudlaşdıran qanun qəbul edilmişdir. Bu qanuna etiraz edən ərizəçilər dövlətin müvafiq qanunvericilik tədbirləri müəyyən etmək hüququnu inkar etmədən, bu qanunun Konvensiya ilə (6, 8, 13-cü maddələr) uyğunsuzluğunu göstərərək bildirmişlər ki, o, maraqlı şəxslərin bu cür tədbirlər barədə xəbərdar edilmələri vəzifəsini hakimiyyət orqanlarının üzərinə qoymamış və bununla da, bu tədbirlərə məhkəmə qaydasında etiraz etmək imkanını istisna etmişdir.

Məhkəmə tərəfindən işə baxılarkən cavabdeh tərəf təkidlə qeyd edirdi ki, iddiaçılara Konvensiyanın 34-cü maddəsi anlamında «qurban» kimi baxmaq olmaz. Belə ki, onlardan heç birinə qarşı sözügedən qanun tətbiq edilməmiş,

onların heç birinin hüququ pozulmamış və iddiaçılara bununla bağlı heç bir ziyan dəyməmişdir. Lakin Məhkəmə öz növbəsində qeyd etmişdir ki, «şəxs müəyyən hallarda onun hüquqlarını poza biləcək qanunvericilik aktının mövcud olması faktı ilə bağlı özünü pozuntunun qurbanı olduğunu iddia edə bilər, bununla yanaşı o, həmin aktın ona qarşı bilavasitə tətbiq olunmasını sübut etməyə borclu deyildir». Qeyd olunan bu işdə Məhkəmə müəyyən etdi ki, iddiaçılardan hər biri özünü Konvensiyanın yuxarıda qeyd olunan maddəsi anlamında «qurban» kimi göstərə bilər (7, 229). Yəni, Məhkəmə şikayətçilərə, onların Konvensiyada təsbit olunmuş hər hansı bir hüququnun pozulmamasına baxmayaraq «potensial qurban» statusu verdi.

Beləliklə, buradan belə bir nəticə çıxarmaq olar ki, Konvensiyaya zidd milli qanunvericilik aktı hansı şəxslərə tətbiq edilə bilərsə, həmin qanunun mövcudluğu faktının özü həmin şəxslər üçün real təhlükə yaradır və müvafiq olaraq belə şəxslər Konvensiyanın 34-cü maddəsi baxımından pozuntunun qurbanı olduğunu iddia edə bilərlər. Lakin burada bir məqama xüsusi diqqət yetirmək lazımdır. Bu heç də o demək deyil ki, ehtimal əsasında şəxs milli qanunvericiliyin Konvensiyaya uyğunluğu baxımından bu və ya digər dövlətdaxili qanunvericilik aktına yenidən baxılması tələbi ilə Məhkəməyə müraciət edə və özünü 34-cü maddəyə əsasən «qurban» hesab edə bilər. Yəni, şəxs bilavasitə həmin qanunun təsiri altında olduğunu və təhlükənin real olduğunu sübut etməlidir. Əks təqdirdə şikayət *ratione personae* şərti əsasında qəbul olunmayacaqdır. İstənilən halda Məhkəmə milli qanunvericilik aktını ləğv edə və ya bununla bağlı dövlətə konkret göstəriş verə bilməz. Bu halda, o, sadəcə pozuntu faktını bəyan edə bilər. Belə olan halda isə artıq cavabdeh tərəfin üzərinə qərardan irəli gələn ümumi tədbirlərin görülməsi öhdəliyi düşür.

28 oktyabr 1999-cu il tarixli «Brumaresku Rumıniyaya qarşı» işi üzrə qərarında Məhkəmə qeyd etmişdir ki, «Məhkəmə təcrübəsində Konvensiyanın 34-cü maddəsi anlamında «qurban» termini altında, bilavasitə zərərə məruz qalan şəxs başa düşülür, lakin eyni zamanda zərərin olmadığı halda belə, Konvensiyanın potensial pozulması halı mümkündür» (71, 359).

«Dolayı qurban» anlayışına gəlincə isə, bu qisimdə Konvensiyanın 2-ci maddəsinin pozulması ilə əlaqədar şəxsin həlak olduğu, zorakı itkin düşdüyü halda, yaxud Məhkəməyə müraciət etdikdən sonra ərizəçinin vəfatı ilə əlaqədar onun yaxın qohumları və ya birbaşa «qurban»la digər yaxın əlaqələri olan şəxslər çıxış edə bilər. Məsələn, «Stüart Birləşmiş Krallığa qarşı» işində qiyamın yatırılması zamanı hərbçilər tərəfindən qətlə yetirilən şəxsin anası dolayı qurban qismində Məhkəməyə müraciət etmişdir. Yaxud, «Kinan Birləşmiş Krallığa qarşı» işində cəzaçəkmə müəssisəsində özünü öldürən məhkumun anası müəssisə

rəhbərliyinin hərəkətlərindən şikayət etmişdir. «Sırkin Rusiyaya qarşı» işində ərizəçi oğlunun zorakı itkin düşməsindən şikayət etmişdir (73, 483).

«Dalban Rumıniyaya qarşı» işində isə iddiaçının vəfatı ilə əlaqədar onun işini həyat yoldaşı davam etdirmişdir. Məhkəmə də öz növbəsində qeyd etmişdir ki, «iddiaçının vəfatı ilə əlaqədar onun həyat yoldaşı Konvensiyanın 34-cü maddəsi anlamında «qurban» hesab edilə bilər» (71, 340). «X. Fransaya qarşı» işində ərizəçinin vəfatı ilə əlaqədar Məhkəmə onun valideynlərinə «dolayı qurban» statusu verərək işi davam etdirmişdir.

Azərbaycanla bağlı işlərə gəldikdə isə, məsələn, «Mikayıl Məmmədov Azərbaycana qarşı» işi üzrə (17 dekabr 2009-cu il tarixli qərar) dolayı qurban qismində bilavasitə qurbanın həyat yoldaşı çıxış etmişdir. Bu işdə Məhkəmə qərara almışdır ki, dövlət orqanları bilavasitə qurbanın (ərizəçinin həyat yoldaşının) ölümünə görə dövlətin məsuliyyət dərəcəsini müəyyən etmək məqsədilə səmərəli araşdırma aparmadıqlarına görə Konvensiyanın 2-ci maddəsi pozulub.

Məhkəmənin təcrübəsində elə hallar da olur ki, bəzən şikayətçinin işə Avropa Məhkəməsində baxılması müddətində vəfat etməsinə və qohumları tərəfindən işə baxılmasına davam etməsinə dair müraciətin olmamasına baxmayaraq, Məhkəmə işə baxmaqda davam edir. Məsələn, «Gagiu Rumıniyaya qarşı» işi üzrə (24 fevral 2009-cu il tarixli qərar) Hökumət ərizəçinin vəfat etməsi ilə əlaqədar olaraq işə xitam verilməsi tələbi ilə çıxış etmişdir. Şikayətçinin heç bir ailə üzvünün olmadığını və şikayətin ərizəçinin vəfatından əvvəl edildiyini nəzərə alaraq, Məhkəmə Hökumətin müraciətini rədd edərək işə baxılmasına davam etmişdir.

İddiaçının Konvensiyanın 34-cü maddəsinə əsasən «qurban» qismində çıxış edə biləcəyi və ya bilməyəcəyi haqqında məsələ bir qayda olaraq, şikayətin qəbul olunub-olunmaması haqqında məsələyə baxılarkən həll olunur.

Dövlətlərarası şikayətlərə gəlincə isə burada başlıca şərt hər iki tərəfin (həm iddiaçı, həm də cavabdeh) Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçısı olmasıdır.

Məhkəmənin ratione personae yurisdiksiyasının ikinci istiqamətinə - şikayət kimə qarşı verilə bilər - gəldikdə isə, qeyd etmək lazımdır ki, cavabdeh tərəf qismində yalnız Konvensiyanın iştirakçısı olan bu və ya digər dövlət çıxış edə bilər. Yəni, hüququ pozan hər hansı bir hakimiyyət orqanı (nazirlik, komitə, məhkəmə və s.) olsa da, şikayət ayrı-ayrı hakimiyyət orqanlarına qarşı deyil, bütövlükdə dövlətə qarşı verilir və cavabdeh qismində də dövlət çıxış edir. Şikayət bir və ya eyni vaxtda bir neçə dövlətə qarşı verilə bilər (məsələn, «İlaşku və başqaları Moldova və Rusiyaya qarşı» işində olduğu kimi). Konvensiyanın iştirakçısı olmayan dövlət və ya beynəlxalq təşkilat cavabdeh qismində iştirak edə bilməz.

Dövlət yalnız hakimiyyət səlahiyyətləri həyata keçirən qurumlarının fəaliyyətinə cavabdehdir, digər şəxslərin və ya şəxsi müəssisələrin fəaliyyəti ilə bağlı dövlətin məsuliyyəti istisna edilir. Məhkəmə təcrübəsində adətən cavabdeh-dövlət «Hökumət» adlandırılır. Bu halda «Hökumət» termini yalnız icra hakimiyyəti qurumu kimi deyil, bütövlükdə dövlət hakimiyyətini ifadə etmək üçün işlədilir.

## 2.3. Avropa İnsan Hüquqları Məhkəməsinin zamana görə yurisdiksiyası (ratione temporis)

Beynəlxalq hüququn ümumtanınmış prinsiplərinə müvafiq olaraq Avropa İnsan Hüquqları Konvensiyası, onun qüvvəyə minməsinə qədər baş verən hadisə və faktlara şamil edilmir. Bu da «Konvensiyanın geriyə qüvvəsi yoxdur» prinsipindən irəli gəlir (57, 82). Məsələn, «Fəhmin Hacıyev Azərbaycana qarşı» işi ilə bağlı qəbuledilənliyə dair qərarda Məhkəmə vurğulamışdır ki, hamılıqla tanınmış beynəlxalq hüquq prinsiplərinə əsasən, Konvensiya yalnız iştirakçı-dövlətlərə münasibətdə onun qüvvəyə mindiyi tarixdən sonra baş vermiş faktlarla bağlı həmin dövlətlər üçün məcburi qüvvəyə malikdir (5, 173).

Qeyd olunan prinsipə əsasən, Məhkəmə müvafiq cavabdeh-dövlətin Konvensiyanı ratifikasiya etməsinə qədər, həmçinin əgər şikayətə bu tarixə qədər müvafiq dövlətdaxili orqanlarda baxılıb və qərar çıxarılıbsa, baş verən hadisələrlə bağlı şikayətlərə baxa bilməz. Bir sözlə, Məhkəmə, Konvensiyanın normalarını geriyə tətbiq edə bilməz. Bu müddət, vaxt faktoru Məhkəmə təcrübəsində «ratione temporis» adlanır.

Azərbaycan Respublikasının 25 dekabr 2001-ci il tarixli Qanunu ilə Avropa İnsan Hüquqları Konvensiyası və onun 1, 4, 6 və 7 saylı Protokolları təsdiq edilmişdir.

Konvensiyanın 59-cu maddəsinə əsasən, Konvensiya onu sonradan ratifikasiya edən dövlətlər üçün, onların öz təsdiqnamələrini saxlanılmağa verdikləri tarixdən qüvvəyə minir. Konvensiya və onun ratifikasiya edilmiş Protokolları Azərbaycana münasibətdə 15 aprel 2002-ci il tarixdən, yəni ratifikasiya haqqında sənədin depozitariyə verildiyi gündən qüvvəyə minmişdir. Konvensiyanın dövlətə münasibətdə qüvvəyə minmə tarixinin olduqca mühüm hüquqi əhəmiyyəti vardır. Belə ki, məhz bu tarixdən müvafiq dövlətin yurisdiksiyası altında olan şəxslərin Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət etmək hüququ yaranır. Azərbaycanın yurisdiksiyası altında olan şəxslərin (vətəndaşlar, vətəndaşlığı olmayan şəxslər, əcnəbilər, hüquqi şəxslər və digərləri) Avropa Məhkəməsinə müraciət hüququ məhz 15 aprel 2002-ci il tarixdən, yəni Konvensiyanın Azərbaycana münasibətdə qüvvəyə mindiyi tarixdən yaranır. Burada bir məqama da diqqət ye-

tirmək zəruridir ki, əgər pozulmuş hüquq Konvensiyaya dair hər hansı Protokolda nəzərdə tutulubsa Məhkəməyə müraciət etmək hüququ həmin Protokolun, barəsində şikayət verilən dövlətə münasibətdə qüvvəyə minməsi tarixindən başlanır.

«Ramazanova və başqaları Azərbaycana qarşı» işi üzrə qərarında Məhkəmə qeyd etmişdir ki, ərizəçilərin şikayətində göstərilən hadisələrin bir hissəsi 15 aprel 2002-ci il tarixdən, yəni Konvensiyanın Azərbaycan Respublikasının ərazisində qüvvəyə mindiyi gündən əvvələ aiddir. Məhkəmə yalnız Konvensiyanın Razılığa gələn Yüksək Tərəfin ərazisində qüvvəyə minməsindən sonra baş verən hadisələrdən törəyən hüquq pozuntuları əsasında verilən şikayətlərə baxa bilər (5, 55-56). Yaxud «Tarverdiyev Azərbaycana qarşı» işi üzrə 26 iyul 2007-ci il tarixli qərarda Məhkəmə qeyd etmişdir ki, o, yalnız Razılığa gələn müvafiq Yüksək Tərəfə münasibətdə Konvensiyanın qüvvəyə mindiyi tarixdən sonra baş vermiş hadisələrdən irəli gələn Konvensiya pozuntularına dair şikayətləri araşdırmaq səlahiyyətinə malikdir (8, 465). «Lətifə Əliyeva Azərbaycana qarşı» işi üzrə Məhkəmə belə bir qənaətə gəlmişdir ki, ratifikasiya tarixindən sonra dövlətin bütün hərəkət və hərəkətsizlikləri Konvensiyaya uyğun olmalıdır, lakin Konvensiya həmin tarixə qədər baş vermiş pozuntularla və ya vurulmuş ziyanla bağlı hüquqi müdafiə vasitəsinin təmin olunması məsələsində iştirakçı-dövlətlərin üzərinə hər hansı konkret öhdəlik qoymur (5, 274).

Qeyd etmək lazımdır ki, «ratione temporis» şərtinin tətbiq olunub-olunmaması üçün, müvafiq hüquqpozmanın baş verdiyi tarix deyil, bununla bağlı müvafiq dövlətdaxili orqanın son, qəti qərarının çıxarıldığı tarix əsas götürülür. Misal üçün qeyd edək ki, hər hansı bir iş üzrə müvafiq dövlətdaxili orqanın çıxardığı son qərar iş üzrə cavabdeh-dövlətin Konvensiyanı ratifikasiya etməsindən sonra olan dövrə təsadüf edirsə, bu halda işə Avropa Məhkəməsində baxılması üçün «ratione temporis» şərti tətbiq olunmayacaq. Bununla əlaqədar olaraq «Belcuk Polşaya qarşı» işinə nəzər salaq. İddiaçı 1992-ci ilin noyabrında oğurluğa cəhdə görə rayon məhkəməsi tərəfindən üç il azadlıqdan məhrumetmə cəzasına məhkum edilmişdir. Bundan sonra iddiaçı apellyasiya şikayəti ilə vilayət məhkəməsinə müraciət etmiş və bu instansiyada onun işinə baxılması prosesində şəxsən iştirak etmək tələbini irəli sürmüşdür. Lakin 1993-cü il aprelin 21-də onun bu tələbi rədd edilmişdir. Həmin ilin may ayının 10-da iddiaçının iştirakı olmadan onun işinə baxılmış və vilayət məhkəməsi tərəfindən apellyasiya şikayəti təmin olunmamışdır. Bundan sonra iddiaçı Konvensiyanın 6-cı maddəsinin (ədalətli məhkəmə araşdırması hüququ) pozulması ilə əlaqədar olaraq Avropa Məhkəməsinə müraciət etmişdir. Avropa Məhkəməsində işə baxılarkən Polşa Hökuməti belə bir bəyanatla çıxış etdi ki, Məhkəmənin «ratione temporis» bu işə baxmaq səlahiyyəti yoxdur, belə ki, Polşa Məhkəmənin yurisdiksiyasını 1993-cü il may ayının 1-dən tanımışdır, id-

diaçı isə bu tarixə qədər mühakimə olunmuş və onun apellyasiya prosesində şəxsən iştirak etmək haqqında tələbinə bu tarixə qədər rədd cavabı verilmişdir. Lakin Məhkəmə bununla razılaşmayaraq qeyd etmişdir ki, bu halda əsas kimi işə apellyasiya instansiyasında baxılma tarixi, yəni 1993-cü il may ayının 10-u götürülür, bu isə Polşa tərəfinin Məhkəmənin yurisdiksiyasını tanımasından sonraya təsadüf edir (138, 31).

Milli məhkəmənin qərarının Avropa Məhkəməsinin «ratione temporis» yurisdiksiyası baxımından əhəmiyyətini açıqlamaq üçün «Gülnarə Kazımova Azərbaycana qarşı» işinə nəzər salaq. 3 may 2001-ci ildə ərizəçi dələduzluqda şübhəli bilinərək polis tərəfindən saxlanılmışdır. 11 may 2001-ci ildə rayon məhkəməsi onun barəsində həbs qətimkan tədbiri seçilməsi barədə qərar qəbul etmişdir. 17 sentyabr 2001-ci ildə birinci instansiya məhkəməsi ərizəçini 3 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum etmişdir. Ərizəçinin şikayəti ondan ibarət olmuşdur ki, ibtidai istintaq və birinci instansiya məhkəməsində məhkəmə baxışı gedişində həbs olunmasının səbəbləri, ona qarşı ittihamların xarakteri və səbəbləri haqqında yaxşı başa düşdüyü dildə məlumatlandırılmayıb. Eyni zamanda ona müdafiəyə hazırlaşmaq üçün kifayət qədər vaxt və imkan verilməyib, özü tərəfindən seçilmiş vəkilin köməyilə müdafiə oluna bilməyib, həmçinin tərcüməçinin köməyindən istifadə edə bilməyib. O, bildirmişdir ki, birinci instansiya məhkəməsi bütün bu faktları və müvafiq sübutları müəyyən edə və qiymətləndirə bilməyib və buna görə də, araşdırma zamanı səhvlərə yol verilib və beləliklə də, Konvensiyanın 6-cı maddəsinin bu məsələyə tətbiq olunmasını tələb etmişdir. Avropa Məhkəməsi isə öz qərarında qeyd etmişdir ki, onun, Konvensiyanın ratifikasiyasından sonra yaranan aktlar, faktlar və qərarlar əsasında Konvensiyanın pozulmasına dair şikayətlərə baxmaq hüququ vardır. Ərizəçinin şikayətində qərarının düzgünlüyünü və ədalətliliyini mübahisələndirdiyi birinci instansiya məhkəməsində baxış və mühakimə icraatı 17 sentyabr 2001-ci ildə, yəni 15 aprel 2002-ci ildən xeyli əvvəl başa çatıb. Qərarın qəbul edildiyi tarix mühüm əhəmiyyətə malik olduğu üçün, bununla əlaqədar birinci instansiya məhkəməsinin öz qərarını elan etmə tarixi, yəni 17 sentyabr 2001-ci il həlledici faktordur. Beləliklə, Məhkəmə müəyyən etmişdir ki, ərizənin bu hissəsi *ratione temporis* Məhkəmənin səlahiyyət çərçivəsindən kənara çıxır və buna görə də Konvensiyanın müddəalarının təsiri altına düşmür (5, 126-129).

Avropa Məhkəməsinin zamana görə yurisdiksiyası kontekstində bizim üçün xüsusi önəm kəsb edən məsələ Ermənistanın Azərbaycan torpaqlarını işğalı nəticəsində hüququ pozulmuş insanların Avropa Məhkəməsinə müraciət etməsi və bu tip şikayətlərə Məhkəmədə baxılması perspektivinin təhlilidir.

İlk olaraq qeyd olunmalıdır ki, Məhkəmə təcrübəsində «uzanan pozuntu»

adlanan hüquqpozmalarla bağlı işlərə də rast gəlinir. Məhkəmə tərəfindən buna birmənalı tərif verilməmişdir. Ümumi şəkildə qeyd etmək olar ki, belə pozuntu, Konvensiyada təsbit olunmuş bu və ya digər hüququn pozulmasıdır ki, bu pozuntu cavabdeh dövlətin Konvensiyanı ratifikasiya etməsi və Məhkəmənin yurisdiksiyasını tanıması tarixindən əvvəl baş vermişdir və bu tarixdən sonra da davam etmişdir (138, 32). Konkret iş üzrə hüquq pozuntusunun «uzanan» olub-olmaması haqqında məsələni Məhkəmə özü müəyyən edir və buna müvafiq olaraq, bu və ya digər işə «ratione temporis» şərtinin tətbiq olunması məsələsini də Məhkəmə həll edir.

Avropa Məhkəməsinin zamana görə yurisdiksiyası (ratione temporis) kontekstində qeyd etmək olar ki, bu halda Ermənistanın Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiyasından və Məhkəmənin yurisdiksiyasını tanımasından əvvəl baş verən, lakin bu günədək davam edən uzanan hüquq pozuntusu vardır. Yəni, baxmayaraq ki, pozuntu faktı baş verəndə Konvensiya Ermənistan üçün məcburi hüquqi qüvvə kəsb etmirdi, bu pozuntu Ermənistanın Konvensiyaya qoşulmasından sonra da davam etmişdir. Yəni Məhkəmənin təcrübəsinə əsasən, bu pozuntulara «uzanan hüquq pozuntusu» statusu verilməli və buna əsasən qarşı tərəfin «ratione temporis»lə bağlı ola biləcək etirazı rədd edilməlidir.

Dediklərimizi əsaslandırmaq üçün Məhkəmənin təcrübəsinə müraciət edək.

Bununla əlaqədar olaraq, «Loizidou Türkiyəyə qarşı» işinə nəzər salaq. Türkiyə tərəfi bu işin Məhkəmənin ərazi yurisdiksiyası altına düşmədiyini bəyan etməklə yanaşı, eyni zamanda burada «ratione temporis» şərtinə əməl edilmədiyini də qeyd edirdi. İddiaçı 1989-cu ildə, Konvensiyaya əlavə 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə əlaqədar Avropa Komissiyasına müraciət etmişdir, sonradan isə bu iş Məhkəməyə verilmişdir. Türkiyə tərəfi qeyd edirdi ki, «ratione temporis» şərtinə uyğun olaraq iddiaçının şikayəti rədd edilməlidir. Belə ki, pozuntu faktı Konvensiyanın Türkiyə üçün məcburi qüvvə kəsb etməsindən əvvələ təsadüf edir. Məhkəmə isə öz növbəsində qeyd etmişdir ki, bu halda «ratione temporis» tətbiq olunmur, belə ki, Türkiyənin Məhkəmənin yurisdiksiyasını tanımasından əvvəl başlanan və işin baxılması anına qədər davam edən uzanan hüquq pozuntusu vardır (2, 19). Yaxud 24 iyun 1993-cü il tarixli «Papamixalopulos (Papamichalopoulos) və başqaları Yunanıstana qarşı» işi üzrə qərarında Məhkəmə 1 saylı Protokolun 1-ci maddəsinin pozulduğunu və bu pozuntunun uzanan xarakterli olmasını qeyd etmişdir (69, 820).

Başqa bir misal «De Bekker» işi ilə bağlıdır. Belçika vətəndaşı II Dünya müharibəsi illərində faşistlərlə əməkdaşlıq etməkdə günahlandırılmışdır. Onun əməli sübuta yetirilmiş və Belçika tərəfi Konvensiyanı ratifikasiya edənə qədər, milli məhkəmə tərəfindən iş üzrə qərar çıxarılmışdır. Lakin sonradan adı çəkilən

şəxs Avropa Komissiyasına müraciət etmiş və bildirmişdir ki, onun bir sıra hüquqlardan, əsasən də, özünü ifadə hüququndan məhrum olması, Konvensiyada təsbit olunmuş bir sıra hüquq və azadlıqlarının fasiləsiz olaraq pozulmasına gətirib çıxarmışdır. Beləliklə də, bu hadisənin Belçikanın Konvensiyanı ratifikasiya etməsindən əvvələ təsadüf etməsinə baxmayaraq və bu pozuntunun işin baxılma anına qədər davam etdiyini nəzərə alaraq, bu hüquq pozuntusunun «uzanan pozuntu» olması qeyd olunmuşdur. Müvafiq olaraq bu halda «ratione temporis» şərti tətbiq olunmamalıdır (57, 83).

«Almeyda Qarrett və başqaları Portuqaliyaya qarşı» işi üzrə 1970-ci illərin ortalarında (Konvensiyanın Portuqaliyaya münasibətdə qüvvəyə minməsindən əvvəl) ərizəçilərin torpaq sahələrinin ekspropriasiyası nəticəsində onlara kompensasiya ödənilməməsini Məhkəmə uzanan hüquq pozuntusu kimi qiymətləndirmiş və bunun nəticəsində 1 saylı Protokolun 1-ci maddəsinin pozulduğunu bəyan etmişdir. Yaxud «Roş (Roche) Birləşmiş Krallığa qarşı» işi üzrə, 1960-cı illərdə ərizəçinin hərbi qulluqçu qismində iştirak etdiyi kimyəvi silahın sınağı ilə bağlı dövlət tərəfindən ərizəçiyə zəruri məlumat verilməməsini Məhkəmə 8-ci və 10-cu maddələrin uzanan pozuntusu kimi qiymətləndirmişdir (115, 218).

Beləliklə, Məhkəmənin zamana görə yurisdiksiyası baxımından işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur.

«Ratione temporis»dən digər vaxt faktoru ilə bağlı olan şərti, «altı aylıq müddət» adlanan şərti fərqləndirmək lazımdır. Konvensiyanın 35-ci maddəsinə əsasən, Məhkəmə məsələyə dövlətdaxili orqanın son qərarının qəbul olunmasından sonra altı ay müddət ərzində baxa bilər.

Qeyd edilməlidir ki, daxili hüquq vasitələrinin tam istifadə edilib tükənməsi şərti ilə 6 ay şərti arasında sıx əlaqə vardır. Belə ki, 6 ay müddətinin başlanmış sayılması daxili hüquq müdafiə vasitələrinin istifadəsinin bitdiyi andan başlayır. Bu məsələdə əsas problem daxili hüquq vasitələrinin hansı andan tükənmiş hesab edilməsidir. Ona görə də, daxili hüquq vasitələrinin mövcud olub-olmaması, mövcud hüquq vasitələrindən hansının istifadəsinin məcburiliyi və s. bu kimi şərtlər 6 aylıq müddətin başlanğıc tarixinin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır. Bir qayda olaraq, 6 aylıq müddətin başlanğıc tarixi daxili hüquq müdafiə vasitələrinin istifadə edilib tükənməsinin nəticəsi kimi son qərarın çıxarılma vaxtından hesablanır. Bəzən isə qəti qərarın rəsmi olaraq yazılı şəkildə şikayətçiyə bildirilməsi vaxtı əsas kimi qəbul edilir. Belə ki, «Vorm Avstriyaya qarşı» (1997-ci il) işində, iş üzrə Avstriya tərəfinin son məhkəmə qərarının çıxarılması tarixindən hesablanmaqla 6 aylıq müddətin keçməsi ilə əlaqədar olaraq işin qəbul edilməməsi haqqında tələbinə Məhkəmə rədd cavabı verərək, 6 aylıq

müddətin son məhkəmə qərarının surətinin rəsmi şəkildə iddiaçıya verildiyi tarixdən hesablandığını bildirmişdir.

«Həsən Babayev Azərbaycana qarşı» işi üzrə qərarda Məhkəmə qeyd etmişdir ki, altı aylıq müddətin axımı qəti ölkədaxili qərar qəbul olunduqdan və bütün səmərəli və yararlı daxili hüquq müdafiə vasitələri tükəndiyi tarixdən başlayır. Lakin, ümumi hakimiyyətin iradəsindən asılı hərəkətlərindən irəli gələn ekstraordinar vasitələri Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndinin mənasında səmərəli vasitə hesab etmək olmaz və bu cür vasitəni tükəndirməyə yönələn istənilən uğursuz cəhd altı aylıq müddətin axımını təzələyə bilməz (5, 156-161). «Tarverdiyev Azərbaycana qarşı» işi üzrə 26 iyul 2007-ci il tarixli qərarda Məhkəmə 6 aylıq müddət faktoruna bir qədər başqa prizmadan yanaşmışdır. Belə ki, Hökumətin altı aylıq vaxtın ötməsi ilə bağlı iddiasına cavab olaraq Məhkəmə bildirmişdir ki, yekun ərizə forması ərizəçi tərəfindən Məhkəməyə gec təqdim edilsə də, ərizənin təqdim edilməsinin formal tarixi ərizəçinin şikayət vermək niyyəti barədə Məhkəməyə ilk məktubunu göndərdiyi tarixdir (8, 465).

## 2.4. Avropa İnsan Hüquqları Məhkəməsinin ərazi yurisdiksiyası (ratione loci)

Beynəlxalq hüquqa görə hər bir dövlət öz ərazisi hüdudlarında ərazi üstünlüyünü həyata keçirir. Dövlətin öz ərazisi çərçivəsindəki yurisdiksiyası mütləq və müstəsna xarakter daşıyır. Dövlət öz ərazisində yerləşən bütün şəxslər, mülkiyyət və baş verən bütün hadisələr üzərində, ümumi və ya konkret beynəlxalq hüquq norması ilə başqa cür nəzərdə tutulmayıbsa, hakimiyyət səlahiyyətləri həyata keçirir (19, 83).

Dövlətin yurisdiksiyası ilk növbədə onun ərazisinə şamil edilir və buna müvafiq olaraq, Avropa Məhkəməsinin yurisdiksiyası Konvensiyanın bütün iştirakçı-dövlətlərinin ərazilərini əhatə edir. Bir sözlə, Məhkəmənin ərazi yurisdiksiyası Konvensiyanın iştirakçı-dövlətlərinin ərazi yurisdiksiyalarının cəmini təşkil edir. Məhkəmənin ərazi yurisdiksiyası «ratione loci» formulasında ifadə olunur.

Konvensiyanın 56-cı maddəsi «Ərazi tətbiqi» adlanır və həmin maddəyə əsasən, istənilən dövlət ratifikasiya zamanı və yaxud sonradan istənilən vaxt Avropa Şurası Baş Katibinə ünvanlanmış bildiriş vasitəsilə bəyan edə bilər ki, Konvensiya, bu maddənin IV bəndinə uyğun olaraq, beynəlxalq münasibətlərinə görə məsuliyyət daşıdığı bütün ərazilərə və ya onlardan hər hansı birinə şamil olunur. Konvensiyanın qüvvəsi bildirişdə göstərilmiş əraziyə və ya ərazilərə Avropa Şurası Baş Katibi bu bildirişi aldıqdan sonra otuzuncu gündən etibarən şamil olunur. Konvensiyanın müddəaları belə ərazilərdə yerli şəraitin lazımi qaydada

nəzərə alınması ilə tətbiq edilir. Bu maddəyə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə ərazinin adından Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər. 56-cı maddəyə əsasən, dövlətlər öz yurisdiksiya hüdudlarını genişləndirirlər və buna müvafiq olaraq Məhkəmənin də ərazi yurisdiksiyası genişlənir. Elə hallar da olur ki, fərdin hüquqlarının müdafiəsinin təmini üçün dövlətin yurisdiksiyası onun ərazi hüdudları ilə məhdudlaşmır. Avropa Məhkəməsi dəfələrlə qeyd etmişdir ki, «yurisdiksiya» termini iştirakçı-dövlətlərin milli ərazisi ilə məhdudlaşmır. Hakimiyyət orqanlarının fəaliyyəti nəticəsində onun ərazi hüdudlarından kənarda baş vermiş nəticələrə görə də dövlətin məsuliyyəti yarana bilər.

Yəni, iştirakçı-dövlətin məsuliyyəti eyni dərəcədə o hallara da aid edilir ki, həmin dövlətin hakimiyyət orqanlarının istənilən hərəkəti və ya hərəkətsizliyi onun ərazisindən kənarda müəyyən nəticələrə gətirib çıxarır. Müvafiq olaraq, hərbi əməliyyatlar nəticəsində dövlət milli sərhədlərindən kənarda olan ərazi üzərində səmərəli nəzarəti həyata keçirmək imkanı əldə etdikdə də, onun məsuliyyəti haqqında məsələ ortaya çıxa bilər. Konvensiya ilə nəzərdə tutulan hüquq və azadlıqları həmin ərazidə təmin etmək üzrə öhdəliklər Konvensiyanın iştirakçısı olan dövlətin əraziyə nəzarət etməsi faktından törəyir və bu, nəzarətin həmin ölkənin silahlı qüvvələri tərəfindən, yaxud həmin dövlətə tabe olan yerli administrasiya tərəfindən həyata keçirilməsindən asılı deyil.

Bu mövqe Məhkəmənin baxdığı bir sıra işlərdə (Loizidu Türkiyəyə qarşı, Kipr Türkiyəyə qarşı) daha aydın ifadə olunmuşdur. Qeyd olunan qərarlarda Məhkəmə vurğulamışdır ki, Məhkəmənin təcrübəsində «yurisdiksiya» termini Konvensiyanın 1-ci maddəsinə müvafiq olaraq, iştirakçı-dövlətlərin milli ərazisi ilə məhdudlaşmır. Məhkəmənin mövqeyinə görə, iştirakçı-dövlət, hakimiyyətini ərazi hüdudunda və ya ondan kənarda həyata keçirməsindən asılı olmayaraq, nəzərdə tutulan hüquq və azadlıqları onun faktiki hakimiyyəti və cavabdehliyi altında olan bütün şəxslərə münasibətdə təmin etməyə borcludur.

1974-cü ildə Şimali Kipr Türk Respublikasının (ŞKTR) yaradılması ilə əlaqədar adanın cənub hissəsində olan sakinlər adanın şimalında qalan mülkiyyətlərindən istifadə etmək hüququndan məhrum oldular. Bununla əlaqədar olaraq, Məhkəmə 18 dekabr 1996-cı ildə «Loizidu (Loizidou) Türkiyəyə qarşı» işi üzrə qərar çıxarmışdır (7, 369). Məhkəmədə işə baxılarkən Kipr hökuməti bildirmişdir ki, artıq uzun müddətdir ki, Kipr yunanları işğal edilmiş ərazidə öz mülkiyyətlərindən maneəsiz istifadə etmək hüququndan məhrum ediliblər. Məhkəmə isə öz növbəsində qeyd etmişdir ki, əgər ərizəçi Konvensiyanın 1 saylı Protokolunun 1-

ci maddəsi baxımından torpaqların mülkiyyətçisi sayılarsa, bu iş davamlı xarakter daşıyan pozuntulara aiddir.

Türkiyə tərəfi qeyd edirdi ki, Türkiyə Hökuməti müstəqil dövlət olan ŞKTR-in ərazisində baş verən hadisələrə cavabdeh deyil. Bu respublikanın müstəqilliyini isə onun referendum yolu ilə qəbul olunmuş Konstitusiyası təsdiq edir.

Lakin, Məhkəmə bu mövqe ilə razılaşmayaraq qeyd etmişdir ki, ŞKTR beynəlxalq birlik, o cümlədən BMT tərəfindən beynəlxalq-hüquqi baxımdan müstəqil dövlət kimi tanınmamışdır və Konvensiyanın da beynəlxalq-hüquqi xarakterini nəzərə alaraq, Məhkəmə bunu nəzərə almalıdır. Yəni, Məhkəmənin mövqeyinə görə, Avropa İnsan Hüquqları Konvensiyası Beynəlxalq müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasına uyğun olaraq şərh edilməlidir. Məhkəmənin fikrincə, Avropa Konvensiyasının əsasında duran prinsiplər real vəziyyətdən təcrid olunmuş halda şərh və tətbiq edilə bilməz.

Türk hərbi qüvvələrinin adanın şimal hissəsinə tam nəzarət etdiyini nəzərə alaraq, Məhkəmə qeyd etmişdir ki, «Türkiyə ŞKTR-in fəaliyyətinə cavabdehdir və bu fəaliyyətin neqativ nəticələrini öz üzərində hiss edən şəxslər, Konvensiyanın 1-ci maddəsinə müvafiq olaraq, Türkiyənin yurisdiksiyası altındadırlar. Beləliklə, Türkiyənin Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları təmin etmək öhdəliyi adanın şimal hissəsinə də tətbiq edilir» (7, 369-406).

Demək olar ki, eyni fikirləri Məhkəmə «İlaşku və digərləri Moldova və Rusiya Federasiyasına qarşı» işi üzrə qərarında da təkrarlamışdır. Məhkəmə əsasən qeyd etmişdir ki, Konvensiyanın birinci maddəsi kontekstində «yurisdiksiya» termini iştirakçı-dövlətlərin milli ərazi hüdudları ilə məhdudlaşmır (73, 219-243).

Yuxarıda deyilənlərlə bağlı hüquq elmləri doktoru, professor L.Hüseynov qeyd edir ki, hər hansı ərazi üzərində faktiki mülki və ya hərbi nəzarət həyata keçirən dövlət həmin ərazidə insan hüquq və azadlıqlarını təmin etməyə borcludur. Ərazisi işğal olunmuş dövlət həmin ərazidə işğalçı tərəfindən törədilmiş insan hüquqlarının pozuntusuna görə məsuliyyət daşımır (61, 107).

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, Avropa Məhkəməsinin ərazi yurisdiksiyası (ratione loci) kontekstində Azərbaycanın işğal olunmuş ərazilərində insan hüquqlarının pozulmasına görə Ermənistan dövlətinin məsuliyyəti məsələsi meydana çıxır. Belə ki, Azərbaycanın işğal edilmiş əraziləri üzərində faktiki nəzarəti həyata keçirdiyindən həmin ərazidə insan hüquq və azadlıqlarının pozulmasına görə məhz Ermənistan dövləti məsuliyyət daşıyır.

Artıq qeyd olunduğu kimi, Ermənistandan deportasiya olunmuş və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində bir çox hüquqları pozulmuş, əsasən də Konvensiyaya əlavə 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə əlaqədar minlərlə soydaşımız işğalçı Ermənistana qarşı bu dövlətin

də Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmasını nəzərə alaraq Avropa Məhkəməsinə müraciət etmək imkanı əldə etmişlər. Məcburi köçkünlərin müraciətlərinə gəlincə, məsələyə Məhkəmənin ərazi yurisdiksiyası baxımından yanaşsaq, fikrimizcə qarşı tərəfin *ratione loci* ilə bağlı ola biləcək etirazı Məhkəmə tərəfindən rədd edilməlidir. Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində pozuntulara görə məsuliyyətdən qaçaraq Dağlıq Qarabağda «yerli hakimiyyət orqanları»nın formalaşdığını və onun «müstəqil dövlət» olduğunu əsas gətirə bilər. Lakin Avropa Məhkəməsinin təcrübəsi onu deməyə əsas verir ki, Məhkəmə belə mövqeyi rədd edir (məsələn, Loizidu işində olduğu kimi). Belə ki, «Dağlıq Qarabağ» dövlət kimi dünya birliyi, hər hansı bir beynəlxalq təşkilat və ya dövlət tərəfindən (hətta Ermənistanın özü tərəfindən belə) tanınmamışdır. Bu gün həm ayrı-ayrı dövlətlər, həm də universal və regional beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu qeyd-şərtsiz qəbul edilir. Bundan başqa, Azərbaycan ərazilərinin işğalı BMT Təhlükəsizlik Şurasının qətnamələrində pislənilmiş, işğal olunmuş ərazilərdən işğalçı qoşunların çıxarılması tələb olunmuşdur. Həmçinin BMT Baş Assambleyası tərəfindən «Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət» adlı qətnamədə də Baş Assambleya Azərbaycan Respublikasının ərazi bütövlüyünü təsdiq etməklə, Azərbaycanın işğal olunmuş ərazilərindən bütün erməni qüvvələrinin dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmişdir. Eyni zamanda AŞPA-nın 1416 və 1690 saylı 2005-ci il tarixli qətnamə və tövsiyəsində Azərbaycan ərazilərinin erməni qüvvələri tərəfindən işğal edildiyi, Dağlıq Qarabağın separatçı qüvvələr tərəfindən idarə edildiyi və silahlı qüvvələrin işğal olunmuş ərazilərdən çıxarılmasının zəruriliyi qeyd olunmuşdur. Avropa Məhkəməsinin təcrübəsi onu deməyə əsas verir ki, o, işə baxılması prosesində beynəlxalq hüquqi aktları, o cümlədən BMT tərəfindən qəbul olunan qətnamə və tövsiyələri nəzərə alır. Məsələn, «Loizidu Türkiyəyə qarşı» işində Məhkəmə BMT Təhlükəsizlik Şurasının 541 saylı qətnaməsini xatırladaraq, həmin qətnamənin ŞKTR-in yaradılmasını hüquqi cəhətdən əsassız elan etməsini bildirmişdi.

Adı çəkilən qətnamələr də sübut edir ki, dünya ictimaiyyəti Dağlıq Qarabağı beynəlxalq hüquq baxımından dövlət kimi tanımır. Yalnız Azərbaycan Respublikasının Hökuməti Dağlıq Qarabağda qanuni hökumət sayıla bilər.

Ermənistanın Dağlıq Qarabağa faktiki nəzarət həyata keçirməsi, Dağlıq Qarabağda separatçı hərəkata Ermənistan tərəfindən dəstək verilməsi, Dağlıq Qarabağ ərazisində erməni silahlı birləşmələrinin Ermənistan tərəfindən maliyyələşdirilməsi, zəruri texnika, silah və sursatla təmin olunması, aktiv hərbi əməliyyatlar, həmçinin atəşkəs dövründə əsir düşmüş azərbaycanlı hərbi qulluqçuların, girov götürülmüş sərhədyanı bölgədə yaşayan mülki şəxslərin Ermənistan ərazi-

sində saxlanılması, 1 dekabr 1989-cu ildə beynəlxalq hüquq normalarına zidd olaraq Ermənistan parlamenti tərəfindən «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında» qərar qəbul edilməsi, Dağlıq Qarabağ ərazisində Ermənistan Respublikası parlamentinə seçkilər keçirilməsi və Azərbaycanın işğal olunmuş ərazisindən Ermənistan parlamentinə deputat seçilməsi və bu kimi digər faktlarla sübuta yetirilir.

Beləliklə, yuxarıda deyilənlərə əsasən qeyd etmək olar ki, Ermənistan, işğal altında olan Dağlıq Qarabağa və ətraf ərazilərə effektiv hərbi və siyasi nəzarət həyata keçirdiyindən Avropa Məhkəməsinin təcrübəsində formalaşan hüquq standartlarına əsasən, Dağlıq Qarabağda idarəçiliyin qanunsuz rejim tərəfindən həyata keçirilməsi bəhanəsi ilə məsuliyyətdən yayına bilməz.

Ermənistanın daim istinad etdiyi, müqəddəratı təyin etmək hüququndan danışarkən xüsusilə vurğulamaq lazımdır ki, bu hüququn subyekti milli azlıqlar deyil, xalqdır. İnsan hüquqlarına dair mühüm universal beynəlxalq müqavilələr olan Vətəndaş və siyasi hüquqlar haqqında Beynəlxalq Paktda, həmçinin İqtisadi, sosial və mədəni hüquqlar haqqında Beynəlxalq Paktda da özünütəyinetmə hüququnun xalqlara məxsus olduğu təsbit edilir. Beynəlxalq-hüquqi baxımdan «xalq» anlayışı hər hansı bir dövlətin əhalisini bildirir. Yalnız dövlət ərazisində yaşayan xalq bütövlükdə müqəddəratı təyin etmək hüququna malikdir. Təcrübə göstərir ki, Avropa Məhkəməsi işin hallarından asılı olaraq digər beynəlxalq-hüquqi aktlara da müraciət edir və bəzi hallarda müəyyən dərəcədə onlara əsaslanır. «Loizidu Türkiyəyə qarşı» qərarında Məhkəmə qeyd etmişdir ki, «insan hüquqları haqqında müqavilə olan Avropa İnsan Hüquqları Konvensiyasının xüsusi xarakterini nəzərə alaraq, Məhkəmə onun səlahiyyətinə dair mübahisəli məsələləri həll edərkən, həm də beynəlxalq hüququn bütün müvafiq normalarını nəzərə almalıdır» (7, 375).

Beləliklə, Məhkəmənin ərazi yurisdiksiyası baxımından işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur.

Ərazi yurisdiksiyası baxımından əhəmiyyətli qərarlar sırasında «Bankoviç və başqaları Belçikaya və Razılığa Gələn digər 16 Dövlətə qarşı» işi üzrə və «Öcalan Türkiyəyə qarşı» işi üzrə qərarlar xüsusi yer tutur. «Bankoviç» işi üzrə qərarda Avropa Məhkəməsi qeyd etmişdir ki, «beynəlxalq ümumi hüquq baxımından dövlətin yurisdiksiya səlahiyyəti ilk növbədə ərazi səlahiyyətidir. Beynəlxalq hüquq dövlətin öz yurisdiksiyasını ərazisindən kənarda tətbiq etməsini istisna etmirsə, belə yurisdiksiyanın güman edilən əsasları bir qayda olaraq, digər müvafiq dövlətin suveren ərazi hüquqları ilə müəyyən edilir və məhdudlaşır. Müvafiq surətdə, məsələn, dövlətin öz yurisdiksiyasını dövlət sərhədlərindən

kənarda tətbiq etmək səlahiyyəti həmin dövlətin və digər dövlətin ərazi səlahiyyətindən asılıdır. Bundan əlavə, dövlət digər dövlətin razılığı, dəvəti və ya güzəşti olmadan onun ərazisində öz yurisdiksiyasını, əslində, tətbiq edə bilməz. Yurisdiksiyanın ərazi anlayışının mühümlüyünü nəzərə alaraq, Məhkəmə yalnız müstəsna hallarda razılaşır ki, Razılığa Gələn Dövlətlərin öz ərazilərindən kənarda etdiyi hərəkətlər, yaxud onların hüquqi nəticələri Konvensiyanın 1-ci maddəsinin mənası baxımından onlar tərəfindən yurisdiksiyanın tətbiqi sayıla bilər».

Eyni fikirləri Məhkəmə «Öcalan Türkiyəyə qarşı» işi üzrə qərarında təkrarlamışdır. Bu işdə xüsusilə maraq kəsb edən məqam ondan ibarətdir ki, ərizəçinin faktiki olaraq başqa bir dövlətin, daha dəqiq desək, Keniyanın ərazisində tutulmasına baxmayaraq Avropa Məhkəməsi ərizəçinin Konvensiyanın 1-ci maddəsi baxımından Türkiyənin yurisdiksiyası altında olması qənaətinə gəlmişdir. Ərizəçi Keniyanın paytaxtı Nayrobi şəhərinin aeroportu daxilindəki beynəlxalq zonada Türkiyə təhlükəsizlik qüvvələrinin nümayəndələri tərəfindən həbs edilmişdi. Bundan dərhal sonra o, Keniya rəsmiləri tərəfindən Türkiyə rəsmilərinə təhvil verilmişdi. Bununla bağlı Məhkəmə qərara gəlmişdir ki, «ərizəçi faktiki olaraq Türkiyə hakimiyyətinin nəzarəti altında idi və buna görə də, baxmayaraq ki, bu halda Türkiyə öz hakimiyyətini ərazisindən kənarda tətbiq etmişdi, ərizəçi Türkiyənin yurisdiksiyası altında idi». Bu işin halları yuxarıda adı çəkilən «Bankoviç» işinin hallarından məhz onunla fərqlənir ki, ərizəçi Türkiyə rəsmiləri tərəfindən Türkiyəyə qayıtmağa məcbur edilmişdi və oraya qaytarılmasından sonra hakimiyyət orqanlarının nəzarəti altında idi.

## 2.5. Avropa İnsan Hüquqları Məhkəməsinin məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası

1963-cü ildə Avropa İnsan Hüquqları Konvensiyasına dair 2 saylı Protokolun qəbul edilməsi ilə Məhkəmənin məsləhət rəyləri vermək kimi daha bir səlahiyyəti yarandı. Sonradan bu Protokol bütünlüklə Konvensiyanın mətninə inkorporasiya edildi.

Avropa Məhkəməsi Avropa Şurası Nazirlər Komitəsinin sorğusu ilə Avropa İnsan Hüquqları Konvensiyasının və ona dair Protokolların müddəalarının şərhinə dair hüquqi məsələlər üzrə məsləhət rəyləri verə bilər. Belə rəylər nə Konvensiyanın birinci bölməsi və ona dair Protokollarda müəyyən edilən hüquq və azadlıqların məzmun və həcminə dair hər hansı məsələyə, nə də Məhkəmənin və ya Nazirlər Komitəsinin Konvensiyada nəzərdə tutulan hər hansı müraciətə baxarkən toxunmalı olduğu digər məsələlərə aid olmamalıdır.

Məsləhət rəyi vermək haqqında Nazirlər Komitəsi tərəfindən edilən sorğu-

nun Məhkəmənin səlahiyyətinə aid olub-olmamasını Avropa Məhkəməsi özü həll edir.

Məhkəmə hesab etsə ki, məsləhət rəyi çıxarmaq haqqında xahiş onun Konvensiyanın 47-ci maddəsi ilə müəyyən edilən məşvərətçi səlahiyyətinə aid deyil, əsaslandırılmış qərar formasında bunu elan edir.

Məsləhət rəyləri Böyük Palatanın səs çoxluğu ilə qəbul edilir. Çoxluq təşkil edən hakimlərin sayı orada göstərilməlidir.

Məhkəmənin məsləhət rəyləri əsaslandırılmalıdır. Əgər məsləhət rəyi ümumilikdə və ya qismən hakimlərin yekdil rəyini əks etdirmirsə, onda hər hansı hakim özünün xüsusi rəyini vermək hüququna malikdir.

Qeyd etmək lazımdır ki, təcrübədə Məhkəmənin məsləhət rəyləri olduqca azdır. Ümumiyyətlə, Məhkəmə bu səlahiyyətindən nadir hallarda istifadə edir.

2002-ci ildə Nazirlər Komitəsi İnsan hüquqları və əsas azadlıqları haqqında Müstəqil Dövlətlər Birliyi (MDB) Konvensiyası ilə nəzərdə tutulan MDB İnsan hüquqları komissiyasının Avropa İnsan Hüquqları Konvensiyasının 35-ci maddəsi baxımından beynəlxalq araşdırma orqanı kimi qəbul edilə bilməsi ilə bağlı məsləhət rəyi verilməsinə dair sorğu ilə Məhkəməyə müraciət etmişdir. Məhkəmə yekdilliklə bu məsələnin onun səlahiyyətində olmaması barədə qərar qəbul etmişdir (36, 187).

Nazirlər Komitəsi Avropa Məhkəməsi hakimlərinin seçilməsi üzrə təsdiq edilən namizədlər siyahısının geri götürülə bilməsi ilə əlaqədar dövlətlərin səlahiyyətləri barədə müəyyən qanuni məsələlər üzrə məsləhətçi rəy üçün Məhkəməyə müraciət etmişdir. İş namizədlərin siyahısının Parlament Assambleyasına təqdim edilməsi üçün nəzərdə tutulmuş müddətin bitməsindən sonra bu siyahının geri götürülməsi ilə bağlı olmuşdur.

Məhkəmə 22 yanvar 2010-cu il tarixdə Avropa Məhkəməsi hakimlərinin seçilməsi məqsədilə təqdim edilən namizədlər siyahısı ilə əlaqədar hüquqi məsələlər üzrə məsləhətçi rəy çıxarmışdır.

Nazirlər Komitəsi Məhkəməyə əsasən aşağıdakı suallarla müraciət etmişdir:

1. Avropa Məhkəməsinə hakim seçilmək üçün dövlət tərəfindən irəli sürülən üç namizəddən ibarət siyahı yenisi ilə əvəz edilə bilərmi? Əgər edilə bilərsə, bu halda zaman məhdudiyyəti varmı?

2. Geri götürülmüş siyahıdakı namizədlər Konvensiyanın 22-ci maddəsinə müvafiq olaraq dövlət tərəfindən irəli sürülmüş hesab edilə bilərmi?

3. Geri götürülmüş siyahının dövlət tərəfindən təqdim edilən namizədlərin yeni siyahısı ilə əvəz edilməsi Parlament Assambleyası tərəfindən nəzərə alınmalıdırmı?

4. Dövlət tərəfindən Parlament Assambleyasına təqdim edilən siyahıda bir

və ya bir neçə namizəd Assambleyanın səs verməsindən əvvəl geri çəkilərsə, həmin dövlət yeni siyahı təqdim etmək məqsədilə namizəd və ya namizədləri əlavə etmək öhdəliyi daşıyırmı?

1-ci sualla əlaqədar Məhkəmə qeyd etmişdir ki, dövlətlər tərəfindən yeni siyahı AŞPA-ya müəyyən olunmuş son tarixə qədər təqdim edilməlidir. Bu tarixdən sonra dövlətlər siyahılarını geri götürə bilməzlər.

Eyni məntiqlə dövlətlər namizədlərin siyahısını zaman məhdudiyyətinin bitməsindən əvvəl geri götürdükdə, həmin siyahıdakı şəxslər artıq namizəd kimi qiymətləndirilə bilməz (2-ci suala cavab), yeni siyahıdakı şəxslər isə namizəd qismində qəbul olunmalıdırlar (3-cü suala cavab).

4-cü sualla bağlı Məhkəmə vurğulamışdır ki, bu cür vəziyyət siyahını təqdim edən dövlətin səlahiyyətlərindən kənar olan müstəsna halın yaranması ilə bağlı ola bilər. Məhkəmə həmçinin qeyd etmişdir ki, əgər geri çəkilmə zaman məhdudiyyətinin bitməsindən əvvəl baş verərsə, dövlət ya namizədi əvəz edə, yaxud da üç namizəddən ibarət yeni siyahı təqdim edə bilər. Lakin geri götürmə həmin tarixdən sonra baş verərsə, dövlət yalnız irəli sürülməsi mümkün olmayan namizədi əvəz edə bilər.

Beləliklə, Məhkəmə yekdilliklə qərara almışdır ki, Parlament Assambleyasına təqdim edilmənin son tarixindən sonra siyahının geri götürülməsinə yol verilmir.

Fikrimizcə, Avropa Məhkəməsinin məsləhət rəyləri verilməsi sahəsində fəaliyyəti canlanmalıdır və məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə biləcək subyektlərin dairəsi genişləndirilməlidir, yəni insan hüquqlarının müdafiəsinin Amerika sistemində olduğu kimi, Avropa Konvensiyasının iştirakçı-dövlətlərinin də bununla bağlı birbaşa Məhkəməyə müraciət etmək hüququ təmin edilməlidir.

Məhkəmənin məsləhət yurisdiksiyası ilə bağlı başqa bir müddəa Avropa Şurası çərçivəsində qəbul olunan digər bir beynəlxalq müqavilədə - İnsan hüquqları və biotəbabət haqqında 4 aprel 1997-ci il tarixli Konvensiyada öz əksini tapmışdır. Qeyd olunan Konvensiyaya əsasən, Avropa İnsan Hüquqları Məhkəməsi iştirakçı-dövlətlərdən birinin və ya bu Konvensiya əsasında təsis edilən Bioetika üzrə Rəhbər Komitənin (CDBİ) müraciəti əsasında bu Konvensiyanın şərhi ilə bağlı hüquqi məsələlərə dair məsləhət rəyləri verə bilər.

## 2.6. Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası və milli hüquq

Avropa Məhkəməsinin yurisdiksiyasını ətraflı təhlil etmək üçün, onun milli hüquqla qarşılıqlı əlaqəsinə diqqət yetirmək lazımdır.

***Subsidiarlıq prinsipi.*** Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlar pozulduğu halda onların bərpasını ilk növbədə dövlətlərin özləri təmin etməlidirlər. Bu müddəa Konvensiyanın 1-ci maddəsində də öz əksini tapır. Bu sahədə Avropa Məhkəməsinin rolu isə subsidiar xarakter daşıyır və yalnız dövlətdaxili səviyyədə öz həllini tapmayan, Konvensiyada nəzərdə tutulmuş hüquq və azadlıqların pozulması ilə bağlı konkret mübahisələrə baxmaqdan ibarətdir. Milli məhkəmənin qərarından Avropa Məhkəməsinə şikayət etmək olmaz. Avropa Məhkəməsi milli məhkəmələrə münasibətdə yuxarı instansiya məhkəməsi kimi çıxış etmir. Belə ki, artıq qeyd etdiyimiz kimi, bu sahədə Avropa Məhkəməsinin rolu subsidiardır. Bu, əsasən aşağıdakılarda ifadə olunur:

- Avropa Məhkəməsi Konvensiyanın bu və ya digər müddəasının pozulduğunu müəyyən etdiyi halda belə, dövlətdaxili qanunvericiliyə dəyişikliklər etmək və ya belə dəyişikliyin edilməsini və ya hər hansı qanunvericilik aktının ləğvini tələb edə bilməz. Məsələn, 1987-ci il «F. İsveçrəyə qarşı» işində iddiaçı Məhkəmədən İsveçrənin Mülki Məcəlləsinin 150-ci maddəsinin qüvvədən düşmüş elan etməsini tələb etmişdir. Lakin Məhkəmə milli qanunvericilik aktının ləğvinin onun səlahiyyətində olmadığını qeyd etmişdir;

- Avropa Məhkəməsi milli məhkəmələrin qərarlarını ləğv edə bilməz. Belə ki, o, milli məhkəmələrə münasibətdə yuxarı instansiya orqanı deyildir. Bu yanaşma «dördüncü instansiya doktrinası»na («quatrieme instance») əsaslanır. Məhkəmə öz qərarlarında dəfələrlə qeyd etmişdir ki, o, dövlətlərə, onların qanunverici, məhkəmə və digər fəaliyyətləri ilə əlaqədar heç bir göstəriş verə bilməz. Məsələn, 25 may 1998-ci il tarixli «Sosialist partiyası və digərləri Türkiyəyə qarşı» işi üzrə qərarında Məhkəmə Konvensiyanın 11-ci maddəsinin pozulmasını qeyd etmişdir. Lakin Məhkəmə, iddiaçıların partiyanın bağlanması haqqında Türkiyə Respublikası Konstitusiya Məhkəməsinin qərarının ləğv edilməsi və bu partiyaya siyasi partiya statusunun verilməsi haqqında tələbini rədd edərək qeyd etmişdir ki, o, Konvensiyaya müvafiq olaraq belə tədbirlər görmək səlahiyyətinə malik deyil (70, 506). Yaxud «Findli (Findlay) Birləşmiş Krallığa qarşı» (25 fevral 1997-ci il) işində Məhkəmə qeyd etmişdir ki, milli məhkəmənin qərarının ləğv edilməsi onun səlahiyyətində deyildir (70, 409);

- «Fimar Hacıyeva Azərbaycana qarşı» işi üzrə qərarda Məhkəmə vurğulamışdır ki, Konvensiyanın 19-cu maddəsinə əsasən onun yeganə vəzifəsi Konven-

siyanın iştirakçısı olan Tərəflərin üzərlərinə götürdükləri öhdəliklərə riayət etmələrini təmin etməkdir. O, konkret olaraq hüquqi məsələlərlə və ya faktlarla bağlı səhvə yol verdiyini iddia edən ərizəni araşdırmaq səlahiyyətinə malik deyil, lakin belə səhvlərin Konvensiya ilə qorunan hüquq və azadlıqların mümkün pozuntusuna səbəb ola biləcəyini hesab edirsə, bu cür hallar istisna təşkil edir (5, 202-207);

- Avropa Məhkəməsinin qərarları, dövlətlər üçün, o cümlədən konkret iş üzrə cavabdeh dövlətin qanunverici orqanı və məhkəmə sistemi üçün məcburi presedent xarakterinə malik deyil. Lakin bununla yanaşı qeyd etmək lazımdır ki, dövlətlər Məhkəmənin qərarlarına ciddi yanaşırlar və bu qərarlara milli məhkəmələrin təcrübəsində geniş istinad edilir.

Məsələn, bununla bağlı Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin təcrübəsinə müraciət edək. Mütərəqqi haldır ki, Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası tərəfindən Avropa Məhkəməsinin yurisdiksiyası tanındıqdan sonra özünün qərarlarında Avropa Məhkəməsinin qərarlarına, eləcə də Avropa İnsan Hüquqları Konvensiyasına geniş istinad etməyə başlamışdır. Məsələn, Konstitusiya Məhkəməsinin (Konstitusiya Məhkəməsi Plenumunun) Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67 və 423-cü maddələrinə dair 11 iyun 2002-ci il tarixli, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 440.4-cü və «Məhkəmə qərarlarının icrası haqqında» Azərbaycan Respublikası Qanununun 74.1-ci maddələrinə dair 27 dekabr 2002-ci il tarixli, Azərbaycan Respublikası Konstitusiyasının 100-cü maddəsinin «…başqa dövlətlər qarşısında öhdəliyi olmayan…» müddəasının şərh edilməsinə dair 01 avqust 2003-cü il tarixli, E.Əlizadə və digərlərinin şikayəti üzrə məhkəmə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 11 may 2004-cü il tarixli, «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 28 noyabr 2003-cü il tarixli Qanununun II hissəsinin şərh edilməsinə dair 7 sentyabr 2004-cü il tarixli, Azərbaycan Respublikası Konstitusiyasının 49-cu maddəsinin şərh edilməsinə dair 21 oktyabr 2005-ci il tarixli, B.Yusifovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət işləri və inzibati hüquqpozmalara dair işlər üzrə məhkəmə kollegiyasının 2005-ci il 7 mart tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 17 fevral 2006-cı il tarixli, Azərbaycan Respublikası Cinayət-Prosessual qanunvericiliyində əks olunan uzanan və davam edən cinayətlərlə bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 75-ci maddəsinin şərh olunmasına dair 27 dekabr 2006-cı il tarixli, C.Abdullayeva və digərlərinin şikayəti ilə əlaqədar Azərbaycan Respublikası Ali Məhkəməsi Mülki işlər üzrə məhkəmə kollegiyasının 11 may

2005-ci il tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 13 aprel 2007-ci il tarixli, Q.Hüseynovun şikayəti üzrə məhkəməyə müraciət hüququnun pozulmasına dair 29 iyun 2007-ci il tarixli və digər qərarlarda Konstitusiya Məhkəməsi Avropa Məhkəməsinin qərarlarına istinad etmişdir. Məsələn, Konstitusiya Məhkəməsinin Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 67 və 423-cü maddələrinə dair 11 iyun 2002-ci il tarixli qərarında qeyd olunur ki, «…Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Azərbaycan Respublikası Konstitusiyasında, beynəlxalq hüquqi aktlarda təsbit olunmuş hüquq və azadlıqların təmin olunması baxımından, habelə Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsindən istifadə edərək aşağıdakıları qeyd etməyi zəruri hesab edir» (9, 257-263). Konstitusiya Məhkəməsi Plenumunun E.Əlizadə və digərlərinin şikayəti üzrə məhkəmə aktlarının Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 11 may 2004-cü il tarixli qərarında Konstitusiya Məhkəməsi Avropa Məhkəməsinin «Sidiropulos və digərləri Yunanıstana qarşı» işi üzrə 10 iyul 1998-ci il tarixli qərarına istinad edərək Avropa Məhkəməsinin Konvensiyanın 11-ci maddəsi üzrə formalaşmış hüquqi mövqeyini əsas götürmüşdür (9, 408-421). Konstitusiya Məhkəməsi Plenumunun «Azərbaycan Respublikasının Vergi Məcəlləsinə əlavə və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikasının 28 noyabr 2003-cü il tarixli Qanununun II hissəsinin şərh edilməsinə dair 7 sentyabr 2004-cü il tarixli qərarında Avropa Məhkəməsi təcrübəsinin əhəmiyyəti xüsusi vurğulanır. Qərarda əsasən qeyd edilir ki, «…Qanunun və digər normativ-hüquqi aktların dərc edilməsi və icrası ilə bağlı İnsan hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsi əhəmiyyət kəsb edir. Avropa Məhkəməsinin təcrübəsinə görə qanun açıq-aşkar, sadə, aydın olmalı, qabaqcadan xəbər verilməklə son dərəcə dəqiq və dürüst ifadə edilməli, həmçinin onun təsiri altına düşən şəxslərlə rəftar zamanı özbaşınalığa rəvac vermə təhlükəsinə qarşı təminatları özündə cəmləşdirməlidir» (9, 500-505). Konstitusiya Məhkəməsi Plenumunun B.Yusifovanın şikayəti üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Cinayət işləri və inzibati hüquqpozmalara dair işlər üzrə məhkəmə kollegiyasının 2005-ci il 7 mart tarixli qərarının Azərbaycan Respublikası Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılmasına dair 17 fevral 2006-cı il tarixli qərarında Plenum göstərilən məsələlərlə əlaqədar İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın bəzi müddəalarının diqqətə layiq olduğunu və Avropa Məhkəməsinin təcrübəsinin mühüm əhəmiyyət kəsb etdiyini qeyd etmişdir (9, 734-744).

Hesab edirik ki, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, o cümlədən digər milli məhkəmə orqanları Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına yalnız istinadla kifayətlənməməli, həmçinin onları tətbiq etməklə

bütövlükdə hüquq tətbiqetmə praktikasını təkmilləşdirməlidirlər.

Avropa Məhkəməsinin keçmiş üzvlərindən biri, hakim Sorensen subsidiarlıq prinsipi ilə əlaqədar qeyd edir ki, «Məhkəmənin fəaliyyəti müvafiq səlahiyyətli dövlətdaxili orqanlara münasibətdə subsidiardır. Məhkəmənin məqsədi - Konvensiyanın iştirakçı-dövlətlərinin öz daxili hüquqi mexanizmləri vasitəsilə insan hüquqlarının müdafiəsini yüksək səviyyədə təmin etmək üçün, onlara bu sahədə istiqamət vermək və yardımçı olmaqdır» (172, 4).

Məhkəmənin keçmiş qrefyesi Petsoldun fikrincə isə: «Subsidiarlıq Konvensiyanın tətbiqinin əsas prinsipidir. O, Konvensiyaya xasdır və onun müdafiə sisteminə daxildir. Bu prinsip, ilkin olaraq dövlətin öz daxili hüquqi mexanizmləri vasitəsilə Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları lazımi səviyyədə müdafiə etmək səlahiyyətini və öhdəliyini tanıyır» (172, 59-60).

Bir məqamı da vurğulamaq lazımdır ki, Avropa Məhkəməsi milli qanunların Konvensiyaya uyğun olub-olmaması məsələsinə baxmır. O, dövlətdaxili qanunvericilik üzərində nəzarət həyata keçirmir. Məhkəmə, hər hansı bir dövlətdaxili qanunvericilik aktının tətbiqi nəticəsində Konvensiyanın bu və ya digər normasının pozulduğunu müəyyən etsə belə, onun dəyişdirilməsini və ya ləğvini tələb edə bilməz. Çünki, Konvensiyanın iştirakçı-dövlətləri Məhkəməyə belə bir səlahiyyət verməmişlər. Lakin təcrübə göstərir ki, əksər hallarda dövlətlər özləri könüllü şəkildə, yaxud Avropa Şurası qarşısında götürdükləri öhdəlikləri nəzərə alaraq Məhkəmənin qərarından irəli gələn müvafiq tədbirləri (qanunvericilik və digər) həyata keçirirlər.

Məhkəmənin özünün dəfələrlə qeyd etdiyi kimi, o dövlətdaxili qanunvericiliyə nəzarət həyata keçirmir. Məsələn, 1979-cu il «Marks Belçikaya qarşı» işində Məhkəmə qeyd etmişdir ki, Belçikanın mülki qanunvericilik normalarının Konvensiyaya uyğun olub-olmaması məsələsinə baxmaq onun səlahiyyətində deyildir; o, yalnız iddiaçının şikayətinə əsasən bu normaların təsiri altında yaranan konkret hala baxır (69, 231). İddiaçının hüquqlarının pozulmasının səbəbi bu normalar olsa belə, Məhkəmə onların qüvvədən düşməsi və ya dəyişdirilməsi məsələsini qaldıra bilməz. Bu mənada Məhkəmənin qərarı deklarativ xarakter daşıyır.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Avropa Məhkəməsi heç bir halda «neqativ qanunverici» rolunda çıxış etmir.

## Bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi

Ümumiyyətlə qeyd etmək lazımdır ki, beynəlxalq məhkəmə orqanlarına və ya digər beynəlxalq mexanizmlərə müraciət etməzdən əvvəl daxili hüquq müdafiə vasitələrinin tükənməsi qaydası beynəlxalq hüququn mühüm prinsiplərindəndir. Fərdi şikayət prosedurunu nəzərdə tutan insan hüquqlarına dair beynəlxalq müqavilələrdə müvafiq beynəlxalq orqana şikayət ilə müraciət etməzdən əvvəl bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi şərti əsas şərt kimi göstərilir (61, 134).

Belə bir müddəa Avropa İnsan Hüquqları Konvensiyasında da nəzərdə tutulmuşdur. Konvensiyanın 35-ci maddəsinə əsasən, «Məhkəmə yalnız beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına müvafiq olaraq bütün daxili hüquq müdafiə vasitələri tükəndikdən sonra işi baxılmağa qəbul edə bilər». Konvensiyanın 35-ci maddəsi sonradan Avropa Məhkəməsinə göndərilməsi güman edilən şikayətlərin ən azı mahiyyəti üzrə və yerli qanunvericilikdə nəzərdə tutulmuş formal tələblərə və zaman məhdudiyyətlərinə əməl olunaraq yerli məhkəmələr qarşısında qaldırılmasını zəruri edir.

Bu şərtin mövcudluğu bilavasitə subsidiarlıq prinsipindən irəli gəlir. Hüququnun pozulduğunu iddia edən şəxs onun bərpası üçün ilk növbədə milli hüquqda müəyyən edilmiş və müraciət edilməsi mümkün olan bütün daxili hüquq müdafiə vasitələrindən istifadə etməlidir. «Məmmədov (Cəlaloğlu) Azərbaycana qarşı» işi üzrə 11 yanvar 2007-ci il tarixli qərarda Məhkəmə qeyd etmişdir ki, Konvensiyanın 35-ci maddəsinə aid olan ölkədaxili hüquq müdafiə vasitələrinin tükənməsi qaydası dövlətləri öz hüquq sistemləri vasitəsilə işi həll etmək imkanına malik olmasından əvvəl öz hərəkətlərinə görə beynəlxalq orqanlar qarşısında cavab vermək vəzifəsindən azad etmək üçün dövlətə qarşı beynəlxalq məhkəmə və ya arbitraj orqanına iddia verən şəxslərin üzərinə əvvəlcə milli hüquq sistemində nəzərdə tutulan hüquq müdafiə vasitələrindən istifadə etmək öhdəliyi qoyur. Bu qaydaya əməl etmək üçün ərizəçi iddia edilən pozuntularla bağlı mümkün və kifayət olan hüquqi müdafiə vasitələrinə müraciət etməlidir (5, 34).

«Fəridə Kunqurova Azərbaycana qarşı» işi üzrə qəbuledilənliyə dair qərarda Məhkəmə vurğulamışdır ki, Konvensiyanın 35-ci maddəsində qeyd edilən daxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi haqqında qayda beynəlxalq məhkəmə və ya arbitraj orqanında dövlətə qarşı iddia qaldırmaq istəyənlərin üzərinə belə bir vəzifə qoyur ki, əvvəlcə milli hüquq sisteminin təqdim etdiyi hüquqi müdafiə vasitələrindən istifadə etsinlər, bununla da dövlətlərə öz hərəkətlərinə görə

beynəlxalq orqan qarşısında cavab verməzdən əvvəl hüquq sistemləri vasitəsilə vəziyyəti düzəltmək imkanı verilir (5, 186).

Azərbaycan Respublikası Konstitusiyasında *ubi jus ibi remedium* prinsipinə uyğun olaraq qeyd olunur ki, hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir. 60-cı maddəyə müvafiq olaraq, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə təminat verilir. Hər kəs dövlət orqanlarının, siyasi partiyaların, həmkarlar ittifaqlarının və digər ictimai birliklərin, vəzifəli şəxslərin qərar və hərəkətlərindən (yaxud hərəkətsizliyindən) məhkəməyə şikayət edə bilər. 71-ci maddəyə əsasən isə, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir.

Hansı hüquq müdafiə vasitələrinə müraciət edilməsi haqqında məsələ dövlətdaxili hüquqla müəyyən edilir.

Azərbaycan Respublikasının Məhkəmələr və hakimlər haqqında 10 iyun 1997-ci il tarixli Qanununa əsasən, məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır. Deməli, Azərbaycanda Konvensiya anlamında daxili hüquq müdafiə vasitələrinin tükənməsi üçün (məhkəmə sistemi nəzərdə tutulur) əvvəlcə I instansiya məhkəməsinə, sonra apellyasiya instansiyası məhkəməsinə və nəhayət Ali Məhkəməyə müraciət edilməlidir. Xüsusilə vurğulamaq lazımdır ki, Avropa Məhkəməsinə müraciət etmək məqsədilə Azərbaycanda dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi üçün Ali Məhkəmənin Plenumuna əlavə kassasiya qaydasında şikayət etməyə ehtiyac yoxdur. Avropa Məhkəməsinə müraciət edən şəxs ekstraordinar vasitələri tükəndirməyə borclu deyildir. Bu baxımdan Ali Məhkəmənin Plenumu səmərəli müdafiə vasitəsi hesab oluna bilməz. Həmçinin, hər bir halda Konstitusiya Məhkəməsinə müraciət edilməsi də zəruri deyildir. Belə ki, Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyətini həyata keçirən orqanlardan biri olsa da, məhkəmə sisteminə daxil deyildir. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanununun 19-cu maddəsinə əsasən, Azərbaycan Respublikasında ədalət mühakiməsini Azərbaycan Respublikasının məhkəmə sisteminə daxil olan aşağıdakı məhkəmələr həyata keçirirlər: rayon (şəhər) məhkəmələri; ağır cinayətlər məhkəmələri; Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi; hərbi məhkəmələr; inzibati-iqtisadi məhkəmələr; Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi; apellyasiya məhkəmələri; Azərbaycan Respublikasının Ali Məhkəməsi.

Lakin bəzi hallarda, xüsusilə də milli qanunvericilikdən asılı olaraq, Avropa Məhkəməsi Konstitusiya Məhkəməsini tükəndirilməsi zəruri olan dövlətdaxili mexanizmlər sırasına aid edir. Azərbaycan Respublikası Konstitusiyasının 130-cu

maddəsinə müvafiq olaraq, həmçinin Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikasının 23 dekabr 2003-cü il tarixli Qanununun 34-cü maddəsinə əsasən, hər kəs onun hüquq və azadlıqlarını pozan qanunvericilik və icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarından, bələdiyyə və məhkəmə aktlarından Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində göstərilən məsələlərin həll edilməsi üçün Konstitusiya Məhkəməsinə pozulmuş insan hüquq və azadlıqlarının bərpa edilməsi məqsədi ilə şikayət verə bilər. Beləliklə, əgər pozulmuş hüququn bərpası milli səviyyədə Konstitusiya Məhkəməsinin səlahiyyətləri daxilindədirsə, məsələn, hüququ pozulmuş şəxs bu pozuntunun milli qanunvericilik aktının mövcudluğu və ya ona qarşı tətbiqi ilə baş verdiyini iddia edirsə, bu halda, dövlətdaxili hüquq müdafiə mexanizmlərinin tükəndirilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət edilməlidir. Bu halda Konvensiyanın 35-ci maddəsində nəzərdə tutulan 6 aylıq müddətin başlanması Konstitusiya Məhkəməsi Plenumunun qərarından sonra olacaq. Yəni, son dövlətdaxili instansiya qismində Konstitusiya Məhkəməsi çıxış edəcəkdir.

Lakin bütün bunlarla yanaşı qeyd etmək lazımdır ki, hər bir konkret halda işin xüsusiyyətlərindən asılı olaraq dövlətdaxili vasitələrin tükəndirilib-tükəndirilməməsi, Konstitusiya Məhkəməsinə müraciətin nə dərəcədə zəruri olması, 6 aylıq müddətin başlanğıc tarixini Avropa Məhkəməsi özü müəyyən edir və təcrübə göstərir ki, Məhkəmə bəzən fərqli mövqe nümayiş etdirir.

Qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Avropa Şurasının bərabərhüquqlu üzvü olduqdan sonra respublikamızda yeni bir mexanizm - ombudsman institutu təsis edilmişdir.

28 dekabr 2001-ci il tarixli Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında Konstitusiya Qanununa əsasən, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) vəzifəsi Azərbaycan Respublikasının Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş və dövlət və yerli özünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və bu Konstitusiya Qanunu ilə müəyyən edilmiş hallarda insan hüquqları pozuntularının qarşısının alınması üçün təsis edilir. Qanundan da göründüyü kimi, ombudsmanın əsas vəzifəsi pozulmuş insan hüquqlarının bərpasıdır. Lakin Avropa Məhkəməsinə şikayət vermək məqsədilə dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi üçün ombudsmana müraciət etmək tələb olunmur. Ombudsmanın özünün Avropa Məhkəməsinə müraciət etməsinə gəlincə isə (məsələn, pozulmuş hüququn bərpası üçün ombudsmanın səlahiyyətində olan təsir imkanları kifayət etmədiyi halda, Konvensiyada təsbit olunmuş bu və ya digər hüququ pozulmuş şəxsin hüququnun

müdafiəsi məqsədilə), yuxarıda qeyd etdiyimiz kimi dövlət təşkilatları və digər hakimiyyət funksiyalarını həyata keçirən və ya onların adından çıxış edən təşkilatlar Avropa Məhkəməsinə müraciət edə bilməzlər. Ombudsman - xüsusi statuslu vəzifəli şəxsdir. Onu Azərbaycan Respublikası Prezidentinin təqdim etdiyi namizədlər sırasından parlament seçir. Göründüyü kimi, ombudsman Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq Avropa Məhkəməsinə müraciət edə bilməz. Deməli, ombudsmanın vasitəsilə də Avropa Məhkəməsinə müraciət etmək olmaz. Belə ki, dövlət təsisatlarının vasitəçiliyi ilə edilən şikayətləri Avropa Məhkəməsi rədd edir. İkinci bir tərəfdən, qeyd olunduğu kimi, Konvensiyanın pozulması Məhkəməyə müraciət edənə şəxsi ziyanın vurulması ilə bağlı olmalıdır. Digər şəxsin və ya şəxslərin pozulmuş hüquqları ilə bağlı müraciətləri Avropa Məhkəməsi icraata qəbul etmir. Qeyd edildiyi kimi, Avropa Məhkəməsinə müraciət etməzdən əvvəl bütün dövlətdaxili hüquq müdafiə mexanizmlərinin tükəndirilməsi üçün ombudsmana müraciət etmək zəruri deyildir. Yəni, Avropa Məhkəməsi tərəfindən ombudsman Konvensiyanın 35-ci maddəsi baxımından tükəndirilməsi vacib olan dövlətdaxili mexanizmlər sırasına aid edilmir. Fikrimizcə bunun əsas səbəbi ondan ibarətdir ki, ombudsman hüquqi cəhətdən məcburi qərarlar qəbul etmək, həmçinin məhkəmə qərarlarını ləğv etmək səlahiyyətinə malik deyildir.

Onu da vurğulamaq lazımdır ki, hər bir konkret halda, cavabdeh-dövlətin hüquq sisteminin, əsasən də, məhkəmə sisteminin xüsusiyyətlərini və həmçinin, müvafiq konkret işin spesifik cəhətlərini nəzərə alaraq, iddiaçı tərəfindən bütün mümkün dövlətdaxili hüquq müdafiə vasitələrindən istifadə olunub-olunmaması haqqında məsələni Məhkəmə özü həll edir. Məsələn, bəzi hallarda Məhkəmə, ərizəçinin müdafiəçidən imtina etməsini bütün dövlətdaxili vasitələrin tükənməməsi kimi qiymətləndirmişdir. Yaxud, Konvensiyanın 10-cu maddəsinin pozulması ilə bağlı «Əhməd Sadıq Yunanıstana qarşı» işində (1996-cı il) Məhkəmə, Konvensiyanın Yunanıstanın hüquq sisteminin tərkib hissəsini təşkil etdiyini əsas gətirərək, iddiaçının milli məhkəmə instansiyalarının heç birində Konvensiyanın 10-cu maddəsinin pozulmasını iddia etməməsini qeyd etmiş və bunu bütün dövlətdaxili vasitələrin (geniş mənada) tükənməməsi hesab edərək işə baxılmasından imtina etmişdir (138, 51).

Daxili hüquqi müdafiə vasitələrinin tükəndirilməsi sadəcə ərizələrin müvafiq daxili məhkəmələrə verilməsini tələb etmir, həm də bu vasitələrdən artıq qəbul olunmuş qərarların dəyişdirilməsi məqsədilə istifadə olunmasını tələb edir. O, həmçinin tələb edir ki, sonradan Avropa Məhkəməsinə verilməsi nəzərdə tutulan şikayətlər ən azı mahiyyəti üzrə və daxili qanunvericilikdə nəzərdə tutulmuş formal tələblərə və müddətlərə uyğun olaraq öncə daxili məhkəmələrə verilməlidir. Hətta daxili məhkəmələr Konvensiyaya əsasən işə öz təşəbbüsləri ilə

baxmaq hüququna malik olsalar və ya baxmağa borclu olsalar belə, bu, ərizəçini həmin məhkəmələrdə Konvensiyaya istinad etmək və ya onların qarşısında eyni və ya oxşar arqumentlər qaldırmaq vəzifəsindən azad etmir; beləliklə, ərizəçi onların diqqətini sonradan zərurət olduqda Avropa nəzarətinə görə cavabdeh olan orqanlar qarşısında qaldırmaq istədiyi problemə cəlb etmiş olur.

Qeyd etmək yerinə düşərdi ki, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, Avropa İnsan Hüquqları Konvensiyası milli hüquq sisteminin tərkib hissəsini təşkil edir. Belə ki, Konstitusiyanın 148-ci maddəsinin II bəndinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir.

Məhkəmənin təcrübəsində elə hallara rast gəlinir ki, Məhkəmə, iddiaçının Ali Məhkəməyə, yəni müvafiq dövlətdə son məhkəmə instansiyasına müraciət etməməsini dövlətdaxili müdafiə mexanizmlərinin tükənməməsi kimi qiymətləndirməmişdir. Məsələn, 1996-cı il «Kiqan İrlandiyaya qarşı» işində Məhkəmə, cavabdeh-tərəfin, iddiaçının Ali Məhkəməyə müraciət etməməsi ilə əlaqədar olaraq dövlətdaxili mexanizmlərin tükənməməsini göstərmək tələbini rədd edərək qeyd etmişdir ki, Ali Məhkəmənin təcrübəsi göstərir ki, iddiaçının bu məhkəmə orqanına müraciəti nəticəsiz qalacaqdı (70, 1-9).

2004-cü il «İsgəndər Həmidov Azərbaycana qarşı» işində isə əksinə, Məhkəmə iddiaçının apellyasiya məhkəməsinin qərarından şikayət etməməsini əsas gətirərək, dövlətdaxili mexanizmlərin tükənmədiyini qeyd etmiş və işi icraata qəbul etməmişdir (5, 137-140). Yaxud «Lətif Quliyev və Cərulla Ramazanov Azərbaycana qarşı» işi üzrə qismən qəbuledilənliyə dair yekun qərarında Məhkəmə qeyd etmişdir ki, ərizəçilər apellyasiya məhkəməsinin qərarından kassasiya şikayəti verə bilərdilər. Beləliklə, bu ərizəni təqdim etdikdən sonra ərizəçilərin ixtiyarında dövlətdaxili səviyyədə daha bir hüquqi müdafiə vasitəsi vardı və həmin vasitədən istifadə etməklə Məhkəmə qarşısında qaldırdıqları eyni şikayətləri daxili məhkəmədə qaldıra bilərdilər (5, 217-222).

Məhkəmə daxili hüquq vasitələrinin tükənib-tükənməməsi məsələsinə baxarkən, əsasən aşağıdakı məqamlara diqqət yetirir:

- ilk növbədə, milli hüquqla nəzərdə tutulan hüquq müdafiə vasitələrinin səmərəli olması. Bununla əlaqədar olaraq Məhkəmə bir sıra qərarlarında qeyd etmişdir ki, dövlətdaxili hüquq müdafiə vasitələri, yalnız «kağız üzərində» deyil, həmçinin təcrübədə də kifayət qədər səmərəli olmalıdır. Məsələn, «Tarverdiyev Azərbaycana qarşı» işi üzrə 26 iyul 2007-ci il tarixli qərarında Məhkəmə qeyd etmişdir ki, daxili hüquq müdafiə vasitələri iddia edilən pozuntunun baş verməsinin və ya davam etməsinin qarşısını almaq və ya artıq baş vermiş pozuntuya görə kompensasiyanı təmin etmək baxımından «səmərəli» olmalıdır (5, 76). Yaxud

«Fəridə Kunqurova Azərbaycana qarşı» işi üzrə Məhkəmə bildirmişdir ki, ərizəçinin ixtiyarında olan hüquq müdafiə vasitələri o halda normal sayılır ki, onlar iddia edilən pozuntularla bağlı vəziyyəti düzəltmək iqtidarında olan əlçatan və yetərli vasitələr olsun (5, 186);

- hüququ pozulmuş şəxs qeyri-səmərəli hüquq müdafiə vasitələrinə müraciət etməyə borclu deyildir. Müdafiə vasitəsinin qeyri-səmərəliliyi əsasən o deməkdir ki, bu vasitə, müvəffəqiyyətlə nəticələnəcəyi minimal perspektivə belə malik deyil və buna görə də şikayətçi ona müraciət etməyə borclu deyildir (61, 137);

- Konvensiyaya zidd inzibatçılığın, inzibati təcrübənin (məsələn, idarəetmənin üsulunun və ya formasının, vəzifəli şəxslərin hərəkət və ya hərəkətsizliyinin, bir sözlə qeyri-səmərəli idarəetmənin və s.) mövcudluğu və bunun nəticəsində milli məhkəmələrdə işlərə baxılmasının nəticəsiz və mənasız olması. Konvensiyaya zidd inzibati təcrübə ilə əlaqədar, Avropa Komissiyası vaxtilə bir sıra qərarlarla bağlı qeyd etmişdir ki, burada iki cəhət əsas götürülür: hüquqa zidd hərəkətlərin təkrarlılığı və müntəzəmliliyi və dövlət orqanlarının buna laqeyd münasibəti;

- bir sıra hallarda Məhkəmə ərizəçinin dövlətdaxili səviyyədə məhkəmə iclasında üzürlü səbəb olmadan iştirak etməməsini dövlətdaxili vasitələrin tükənməməsi kimi qiymətləndirmişdir. Məsələn, «Dmitri İvanov Azərbaycana qarşı» işi üzrə qərarda (15 fevral 2007-ci il tarixli) Məhkəmə ərizəçinin üzürlü səbəb göstərmədən məhkəmə iclasında iştirak etməməsini və bununla da dövləti onun hüquq sistemi vasitəsilə pozulmuş hüququ bərpa etmək imkanından məhrum etməsini daxili hüquqi müdafiə vasitələrinin tükəndirilməməsi kimi qiymətləndirmişdir (5, 315-323).

Qeyd etmək lazımdır ki, Məhkəmədə, şikayətçinin pozulmuş hüquqlarının bərpası və müdafiəsi üçün müvafiq dövlətdə effektiv hüquq müdafiə vasitələrinin olmasını sübut etmək vəzifəsi iş üzrə cavabdeh-dövlətin üzərinə düşür. Bu mexanizmlərin səmərəsizliyini və ya onlardan hər hansı birinə müraciətin heç bir nəticə verməyəcəyini isə iddiaçı özü sübuta yetirməlidir. Məsələn, bununla bağlı Məhkəmə «Məmmədov (Cəlaloğlu) Azərbaycana qarşı» işi üzrə qərarda bildirmişdir ki, o, milli hüquqda həbsdəki şəraitlə bağlı mümkün hüquq müdafiə vasitələrinin olmadığı barədə ərizəçinin arqumentini qəbul edə bilməz. O, qeyd etmişdir ki, vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında qanun vətəndaşın hüquq və azadlığını pozan dövlət orqanının hər hansı hərəkət və ya hərəkətsizliyindən şikayət edilməsinin məhkəmə qaydasını nəzərdə tutur. Milli hüquq sistemində birbaşa tətbiq olunan Azərbaycan Respublikası Konstitusiyasının 46-cı maddəsi və Konvensiyanın 3-cü maddəsi qeyri-insani və ya ləyaqəti alçaldan rəftarı qadağan

edir. Buna görə də, bu müddəalara istinad edərək, ərizəçi saxlandığı şəraitlə bağlı ədliyyə nazirliyinə şikayət edə bilər və yaxud birbaşa milli məhkəmələrə müraciət edə bilərdi. Lakin ərizəçi buna cəhd etməmişdir. Bundan əlavə o, bu cür addımların qeyri-səmərəli olacağını inandırıcı şəkildə göstərə bilməmişdi. Hüquq müdafiə vasitələrinin səmərəliliyi barədə adi şübhələr mümkün vasitələrdən normal istifadə olunması tələbinin yerinə yetirilməməsi üçün yetərli deyil. Beləliklə də, Məhkəmə şikayətin bu hissəsinə dövlətdaxili hüquq müdafiə vasitələri tükənmədiyinə görə baxmaqdan imtina etmişdir (7, 576).

Daxili hüquq müdafiə vasitələrinin səmərəliliyi məsələsinə toxunarkən, qeyd etmək lazımdır ki, Avropa İnsan Hüquqları Konvensiyasının 13-cü maddəsinə əsasən, bu Konvensiyada təsbit edilmiş hüquq və azadlıqları pozulan hər bir şəxs, bu pozuntunun rəsmi surətdə çıxış edən şəxslər tərəfindən törədildiyi halda belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir. Bu maddə bir növ 1-ci maddənin məntiqi davamıdır. 13-cü maddəyə əsasən, dövlətlər, öz üzərlərinə Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların pozulduğu halda şəxsin bu hüquq və azadlıqlarının müdafiəsinə imkan verən dövlətdaxili mexanizmin yaradılması öhdəliyi götürmüşlər. Özü də bu mexanizm, həmin maddədə qeyd olunduğu kimi səmərəli olmalıdır. Yuxarıda qeyd olunan maddədə təsbit olunmuş bu hüququn xüsusiyyəti ondan ibarətdir ki, o, Konvensiyada təsbit edilmiş bu və ya digər hüquq və azadlıqların pozulması faktı ilə bağlıdır. Bununla əlaqədar olaraq «Pauell və Reyner Birləşmiş Krallığa qarşı» işi üzrə qərarında Məhkəmə müəyyən etdi ki, burada söhbət fərdi hüquqdan gedir, bu hüququn pozulması dövlətin məsuliyyətini doğurur, lakin bir şərtlə ki, Konvensiyada təsbit edilmiş bu və ya digər hüquq və ya azadlıqların pozulması faktı Məhkəmə tərəfindən müəyyən olunsun (69, 66).

13-cü maddənin təfsiri zamanı Məhkəmə müəyyən etmişdir ki, nəinki qeyd edilən sahədə dövlətdaxili mexanizmin olmaması, həmçinin, belə mexanizmin olduğu halda, lakin bu orqanın konkret iş üzrə fəaliyyətsizliyi, hərəkətsizliyi də səmərəli dövlətdaxili hüquq müdafiə vasitəsinin olmaması kimi qiymətləndirilə bilər. «Kurt Türkiyəyə qarşı» işi üzrə qərarında (25 may 1998-ci il), 13-cü maddə ilə əlaqədar, Məhkəmə, hakimiyyət orqanlarının ciddi araşdırma aparmamasını, iddiaçının səmərəli hüquq müdafiə vasitələrindən məhrum olması kimi qiymətləndirmişdir (70, 523-524).

Təcrübədə elə *xüsusi hallar* olur ki, onlar ərizəçini dövlətdaxili vasitələrin tükəndirilməsi öhdəliyindən azad edir. Məsələn, cəzaçəkmə müəssisəsində saxlanma şəraiti ilə bağlı olan «AB Niderlanda qarşı» işində İşgəncənin qarşısının alınması üzrə Avropa Komitəsinin rəyini və cavabdeh-dövlət tərəfindən cəzaçəkmə müəssisəsində saxlanma şəraitinin yaxşılaşdırılması üzrə heç bir tədbirin görülmə-

məsini nəzərə alaraq, Məhkəmə qeyd etmişdir ki, «dövlət tərəfindən vaxtında aidiyyəti tədbirlərin görülməməsi xüsusi hallara gətirib çıxarmışdır ki, bu hallar ərizəçini hökumət tərəfindən təqdim olunan dövlətdaxili vasitəni istifadədən azad edir» (115, 211).

Bütün bu deyilənlərlə yanaşı, onu da qeyd etmək lazımdır ki, şikayətin, bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməməsi ilə bağlı qəbul edilməməsi yalnız müvəqqəti maneədir. İddiaçı bütün mümkün dövlətdaxili hüquq müdafiə mexanizmlərindən istifadə etdikdən sonra və heç bir nəticə əldə etmədiyi təqdirdə, yenidən Avropa Məhkəməsinə müraciət edə bilər. Burada əsas diqqət 6 aylıq müddətin ötürülməməsinə yetirilməlidir.

Yuxarıda qeyd etmişdik ki, Ermənistandan deportasiya olunmuş və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində bir çox hüquqları pozulmuş minlərlə soydaşımız işğalçı Ermənistana qarşı bu dövlətin də Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmasını nəzərə alaraq Avropa Məhkəməsinə müraciət etmək imkanı əldə etmişlər. Bu kontekstdə bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi şərtinə gəlincə isə qeyd etmək lazımdır ki, əgər cavabdeh tərəf, yəni Ermənistan, dövlətdaxili vasitələrin tükənməməsi ilə bağlı Avropa Məhkəməsi qarşısında məsələ qaldırsa və iddia etsə ki, ərizəçi (və ya ərizəçilər) bütün dövlətdaxili vasitələrin tam istifadə edilib tükəndirilməsi üçün Ermənistanın və ya «Dağlıq Qarabağ»ın aidiyyəti orqanlarına müraciət etməli idi, fikrimizcə, belə arqumentlər Avropa Məhkəməsi tərəfindən rədd edilməlidir. Əvvəla, əgər Ermənistan ərazi yurisdiksiyası baxımından məcburi köçkünlərin işləri ilə bağlı bu işlərin (işin) ona aidiyyəti olmadığını iddia etsə və bununla yanaşı dövlətdaxili vasitələrin tükəndirilməsi üçün Ermənistanın dövlətdaxili orqanlarına müraciət edilməli olduğunu bildirsə, belə olan halda, bu arqument əsassız olacaqdır. Belə ki, «İlaşku və başqaları Moldova və Rusiyaya qarşı» işində Rusiya Hökuməti Dnestryanı bölgədə baş verən hadisələrə onun aidiyyəti olmadığını bəyan etməklə yanaşı, ərizəçilərin daxili hüquq müdafiə vasitələrinin tükəndirilməsi üçün Rusiya Ali Məhkəməsinə müraciətin zəruri olduğunu iddia edirdi. Lakin Avropa Məhkəməsi Rusiya Hökumətinin bu etirazı ilə razılaşmayaraq, qeyd etmişdir ki, «Rusiya tərəfi şikayətin predmetini təşkil edən hadisələrə aidiyyəti olmadığını bəyan etdiyindən ərizəçilərin Rusiyanın hakimiyyət orqanlarına müraciətini gözləmək düzgün olmazdı» (73, 219-243). Qarşı tərəfdən irəli sürülməsi ehtimal edilən ikinci arqumentə gəlincə isə, yəni «Dağlıq Qarabağ»da mövcud olan mexanizmlərin tükəndirilməsi, fikrimizcə, bu aşağıdakı səbəblərə görə rədd edilməlidir. Birincisi, «Dağlıq Qarabağ»ın müstəqil dövlət kimi hər hansı bir dövlət və ya beynəlxalq təşkilat tərəfindən tanınmaması səbəbindən müvafiq olaraq həmin ərazidə mövcud olan mexanizmlər də qanuni sayıla bilməz;

ikincisi, ərizəçinin (ərizəçilərin) Azərbaycan Respublikasının vətəndaşı (vətəndaşları) olması səbəbindən o (onlar), bu qurumlara müraciət etməyə borclu deyildir (deyillər), və nəhayət hətta «Dağlıq Qarabağ»da müəyyən mexanizmlərin mövcudluğu göstərilsə belə, həmin mexanizmlər səmərəli sayıla bilməz, belə ki, bu mexanizmlər separatçı qurum tərəfindən yaradılıb və onun iradəsini həyata keçirir. Dağlıq Qarabağ bölgəsinin separatçı qüvvələr tərəfindən idarə olunması isə AŞPA-nın 1416 saylı (2005) qətnaməsində də qeyd olunur. Məhz bu baxımdan orada mövcud olan vasitələr qanuni və səmərəli sayıla bilməz. Avropa Məhkəməsinin təcrübəsindən çıxış edərək qeyd etmək olar ki, hüququ pozulmuş şəxs belə vasitələrə müraciət etməyə borclu deyildir.

Yuxarıda deyilənlərlə yanaşı eyni zamanda qeyd etmək lazımdır ki, Avropa Məhkəməsi bütün dövlətdaxili vasitələrin tükənməsi şərtinə əməl edilib edilməməsi məsələsinə baxarkən, ümumi hüquqi və siyasi vəziyyəti, həmçinin ərizəçinin şəxsi vəziyyətini nəzərə alır.

Beləliklə, göründüyü kimi, bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi şərti baxımından da işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur.

# III FƏSİL

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN YURİSDİKSİYASININ HƏYATA KEÇİRİLMƏSİ MEXANİZMİ

## 3.1. Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edilməsi qaydası

### Fərdi şikayətlər

Avropa Məhkəməsinin təcrübəsində əsas yeri fərdi şikayətlər tutduğundan bu bölmədə əsas diqqət məhz belə şikayətlərə yetirilmişdir. Dövlətlərarası şikayətlərə gəlincə isə, bəzi vacib məqamlar qeyd edilmişdir.

Konvensiyanın 34-cü maddəsinə əsasən Avropa Məhkəməsinə müraciət edəcək hər bir şəxs ilk növbədə əsasən aşağıdakı məqamlara diqqət yetirməlidir:

- cavabdeh-dövlətin Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiya etməsi;
- pozulmuş hüquq və ya hüquqların Konvensiya və ya əlavə Protokollarda təsbit olunması;
- əgər pozulmuş hüquq(lar) Konvensiyaya dair hər hansı bir Protokolda nəzərdə tutulmuşsa, bu Protokolun müvafiq dövlət tərəfindən ratifikasiya edilməsi;
- pozuntunun cavabdeh-dövlətin Konvensiyanı və ya müvafiq Protokolu ratifikasiyasından sonrakı dövrə təsadüf etməsi;
- bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi;
- müvafiq sonuncu dövlətdaxili orqanın qəti qərarının qəbul edilməsindən sonra altı ay müddətinin keçməməsi və s.

Bu şərtlərdən birinə və ya bir neçəsinə əməl olunmadığı təqdirdə, şikayət Avropa Məhkəməsi tərəfindən qəbul olunmayacaqdır.

Onu da qeyd etmək lazımdır ki, Məhkəmə fərdi şikayətlərin müraciət prosedurunu mümkün qədər asanlaşdırır. Hələ 1971-ci il «Ringeyzen Avstriyaya qarşı» işində Məhkəmə qeyd etmişdir ki, fərdi şikayət ərizələri əksər hallarda hüquqşünas köməyi olmadan tərtib olunur və buna görə də burada hər bir rəsmi qaydaya ciddi fikir vermək ədalətsizlik olardı. Əgər, ərizə müvafiq qaydalara tam cavab vermirsə, lakin bütövlükdə Məhkəmənin diqqətini cəlb edə biləcək hüquqi vəziyyətdən bəhs edirsə, bu halda belə şikayət Məhkəmə tərəfindən qəbul edilir. Bundan sonra isə daha ətraflı və dəqiq məlumat üçün şikayətçiyə Məhkəmənin rəsmi müraciət blankı göndərilir. 6 həftə ərzində şikayətçi həmin blankı doldurub

Məhkəmənin katibliyinə göndərməlidir. Bununla da şikayətçiyə öz ərizəsini təkmilləşdirmək imkanı verilir. Lakin bütün bunlarla yanaşı hər bir halda Məhkəməyə şikayət ərizəsi aydın və dolğun tərtib olunmalıdır. Ərizədə əsasən:

- şikayətin qısa məzmunu göstərilməli;
- Konvensiya və (və ya) əlavə Protokollarda əks olunmuş pozulmuş hüquq(lar) göstərilməli;
- istifadə edilmiş bütün dövlətdaxili hüquq müdafiə vasitələri göstərilməli;
- hakimiyyət orqanları tərəfindən qəbul edilmiş qərarların dəqiq tarixi və qısa məzmunu göstərilməklə siyahısı olmalıdır.

Ərizəyə, əsasən bu qərarların surəti əlavə olunur, belə ki, göndərilən sənədlər geri qaytarılmadığına görə, onların əsli deyil, surətini göndərmək tövsiyə olunur. Məhkəmənin rəsmi dilləri ingilis və fransız dilləridir. Lakin ərizə şikayətçinin ana dilində də tərtib oluna bilər. Ərizə şikayətçinin özü tərəfindən göndərilməlidir, bu halda dövlət orqanlarının vasitəçiliyindən istifadə etmək olmaz. Ərizə faksla və ya elektron poçt vasitəsilə göndərildiyi halda 5 gün ərzində şikayətçi tərəfindən imzalanmış ərizə adi poçtla Katibliyə göndərilməlidir. İstənilən halda ərizənin verilmə tarixi onun Məhkəmə tərəfindən alındığı deyil, göndərildiyi tarix hesab olunacaq. Yəni, altı aylıq müddətin bitdiyi gün həmin ərizənin göndərildiyi gün sayılır.

Məhkəmənin yerləşdiyi yer Fransanın Strasburq şəhəridir. Ərizələr Məhkəməyə aşağıdakı ünvana göndərilir:

*Council of Europe. European Court of Human Rights.*
*F-67075 Strasbourg Cedex France.*

Ərizə Məhkəməyə daxil olduqdan sonra Katiblik tərəfindən şikayətçiyə müvafiq cavab verilir. Zəruri olarsa əlavə məlumat və sənədlər tələb edilə bilər (79, 20). Məhkəmənin reqlamentinin 45-ci maddəsinə əsasən, Konvensiyanın 33-cü və ya 34-cü maddələrinə əsasən verilmiş ərizə yazılı formada verilir və şikayətçi və ya onun nümayəndəsi tərəfindən imzalanır. Qeyri-hökumət təşkilatları və ya şəxslər qrupu tərəfindən verilən ərizələr isə bu təşkilatı və ya şəxslər qrupunu təmsil edən şəxs tərəfindən imzalanır. Şikayətçi öz nümayəndəsindən istifadə edirsə, bu nümayəndə vəkalətnaməyə malik olmalıdır.

Reqlamentin 47-ci maddəsinə müvafiq olaraq, Konvensiyanın 34-cü maddəsinə əsasən verilmiş istənilən şikayət əgər müvafiq seksiyanın sədri başqa cür qərar qəbul etməzsə, Katiblik tərəfindən verilən rəsmi blankda təqdim olunur. Şikayət ərizəsində aşağıdakılar göstərilməlidir:

- şikayətçinin adı, soyadı, doğum tarixi, vətəndaşlığı, cinsi, məşğuliyyət növü və ünvanı;
- əgər nümayəndə varsa, onun adı, soyadı, məşğuliyyət növü və ünvanı;

- hərəkətlərindən şikayət edilən iştirakçı-dövlətin (dövlətlərin) adı;
- faktların qısa xülasəsi;
- pozulduğu elan edilən Konvensiya müddəalarının qeyd edilməsi və müvafiq arqumentlərin göstərilməsi;
- Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan, ərizənin qəbul edilmə şərtlərinin (bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi və «altı aylıq müddət qaydası») yerinə yetirilməsinin təsdiqi;
- şikayətin məqsədi (və ya predmeti) və Konvensiyanın 41-ci maddəsinə müvafiq olaraq ədalətli kompensasiya haqqında tələbin göstərilməsi; həmçinin əlavə kimi:
- işə aid olan bütün sənədlərin, əsasən də, məhkəmə qərarlarının surətləri.

Həmin maddənin 2-ci bəndinə əsasən, şikayətçi, həmçinin:

- Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan şərtlərin (bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi və «altı aylıq müddət qaydası») yerinə yetirildiyini təsdiq edən informasiya, ilk növbədə yuxarıda qeyd edilən sənədləri təqdim etməlidir;
- bu şikayətin digər beynəlxalq orqana verilib-verilmədiyini göstərməlidir.

Şikayətçi müraciətlə bağlı hər bir dəyişiklik haqqında, o cümlədən ünvan dəyişikliyi haqqında Məhkəməni məlumatlandırmalıdır (79, 13-20).

Adının açıqlanmasını istəməyən ərizəçi bunu əsaslandırmalı və bunu doğuran səbəbləri Məhkəməyə bildirməlidir. İstisna və kifayət qədər əsaslandırılmış hallarda Palata Sədri bu anonimliyin saxlanılması barədə qərar verə bilər.

Onu da vurğulamaq lazımdır ki, ərizəçi məhkəmə rüsumlarından azad edilir.

Artıq qeyd etdiyimiz kimi, şikayətin rəsmi təqdim olunması üçün Məhkəmə Katibliyi tərəfindən şikayətçiyə xüsusi ərizə forması (formulyar) göndərilir. Bu blank rəsmi sənəddir və şikayətin Avropa Məhkəməsi tərəfindən baxılması üçün əsasdır. Buna görə də, o, tam və dəqiq doldurulmalıdır.

Ərizə forması 8 bölmədən ibarətdir. I bölmə «Tərəflər» adlanır və iki hissədən ibarətdir: «A» (ərizəçi) və «B» (cavabdeh-dövlət). «A» hissəsində şikayətçinin adı, soyadı, cinsi, vətəndaşlığı, məşğuliyyəti, doğulduğu tarix və yer, daimi yaşadığı ünvan, telefon nömrəsi, əgər nümayəndə tərəfindən təmsil olunursa, bu nümayəndənin adı, soyadı, məşğuliyyəti, ünvanı, telefon nömrəsi göstərilir. Nümayəndə qismində Konvensiya iştirakçısı olan hər hansı dövlətdə vəkillik təcrübəsinə malik olan və ya vəkil kimi fəaliyyət göstərən və bu dövlətlərin birinin ərazisində daimi yaşayan və ya Məhkəmənin Palatasının Sədri ilə razılaşdırılan digər şəxs çıxış edə bilər. Belə olan halda, Məhkəmənin Katibliyi yazışmanı şikayətçinin nümayəndəsi ilə aparır. Əgər şikayət iki və ya daha

artıq şəxs tərəfindən verilirsə, onların hər biri haqqında tələb olunan dolğun informasiya verilməlidir. «B» hissəsində isə, barəsində şikayət verilən dövlətin adı göstərilir.

«Faktların xülasəsi» adlanan II bölmədə isə, müraciətin predmetini təşkil edən faktlar dəqiq və aydın şəkildə sadalanmalı, hadisə baş vermə ardıcıllığı ilə təsvir edilməli, tarixlər dəqiq göstərilməlidir.

III bölmədə şikayətçinin fikrincə, baş verən pozuntunun Konvensiyaya və ya əlavə Protokollara zidd olması, habelə bu barədə şikayətçinin arqumentləri və onları təsdiq edən halların şərhi öz əksini tapmalıdır. Bununla yanaşı, Konvensiyanın və əlavə Protokolların konkret normalarına istinad etməklə, ikinci bölmədə sadalanan faktların bu normalarla ziddiyyət təşkil etməsi əsaslandırılmalıdır. Konvensiyanın bəzi maddələri ilə təminat verilən bir sıra hüquqların qanun çərçivəsində məhdudlaşdırılmasına yol verilir (məsələn, 8-11-ci maddələr). Əgər şikayətdə belə maddələrə istinad edilirsə, bu halda onlarda nəzərdə tutulan məhdudlaşdırıcı halların konkret iş üzrə, konkret halda hansı səbəbdən hüquqi əsasının olmadığı şikayətçi tərəfindən əsaslandırılmalıdır.

IV bölmədə şikayətçi tərəfindən istifadə edilən bütün dövlətdaxili hüquq müdafiə vasitələri haqqında məlumat öz əksini tapmalıdır. Bununla əlaqədar iş üzrə müvafiq milli orqanlar tərəfindən çıxarılan qərarlar xronoloji ardıcıllıqla göstərilməli və əgər istifadə edilməyən dövlətdaxili hüquq müdafiə vasitəsi qalıbsa, ondan istifadə edilməməsinin səbəbləri əsaslandırılmış şəkildə izah olunmalıdır.

V bölmədə şikayətin predmeti qısa şəkildə şərh edilməklə, Məhkəmədən hansı nəticələrin gözlənildiyi konkret göstərilməlidir. Həmçinin, Konvensiyanın 41-ci maddəsinə müvafiq olaraq, ədalətli kompensasiya üzrə ümumi tələb bildirilməlidir.

VI bölmədə, əgər şikayətə başqa beynəlxalq orqanda baxılıbsa, bu haqda ətraflı məlumat verilməli, beynəlxalq instansiyanın adı, gəldiyi nəticə, tarix, habelə onun qəbul etdiyi qərarın surəti əlavə edilməlidir.

VII bölmədə anketə əlavə olunan, iş üzrə çıxarılan və ərizədə qeyd edilmiş məhkəmə qərarlarının, habelə Məhkəmə tərəfindən sübut kimi qəbul edilə bilən hər hansı digər sənədlərin (dindirmə protokolu, şahid ifadələri və s.) surətlərinin siyahısı göstərilir.

VIII bölmədə qeyd olunur ki, «Mən, aşağıda imza edən, təsdiq edirəm ki, bu sənəddə qeyd olunan bütün məlumatlar doğrudur». Şikayətçinin imzası qeyd edilir. Ərizəni nümayəndə imzalayırsa, bu halda şikayətçi tərəfindən imzalanan etibarnamə ərizəyə əlavə edilməlidir.

Konvensiyanın 35-ci maddəsinə əsasən, Məhkəmə yalnız beynəlxalq

hüququn ümumtanınmış normalarına müvafiq olaraq bütün dövlətdaxili hüquq müdafiə vasitələri tükəndikdən sonra və iş üzrə müvafiq milli orqanın son qərarınıın çıxarıldığı tarixdən 6 ay ərzində məsələyə baxa bilər. Məhkəmə 34-cü maddəyə müvafiq olaraq verilmiş aşağıdakı şikayətlərə baxmır:

- anonim olan; və ya
- mahiyyətcə Məhkəmənin artıq baxdığı məsələ ilə eyni olan, yaxud beynəlxalq araşdırmanın və ya tənzimlənmənin digər prosedurunun predmeti olan və işə aid yeni faktları əks etdirməyən. Məhkəmə, şikayətin Konvensiyanın və ya onun Protokollarının müddəalarına uyğun olmadığını, açıq-aşkar əsassız və ya şikayət hüququndan sui-istifadə olunduğunu, yaxud Konvensiya və ona dair Protokollarda göstərilmiş insan hüquqlarına hörmətin şikayətə mahiyyəti üzrə baxılmasını tələb etdiyi hallar istisna olmaqla ərizəçinin böyük zərərə məruz qalmadığını (yerli məhkəmə tərəfindən lazımınca araşdırılmayan heç bir iş bu əsasla rədd edilə bilməz) hesab etdikdə, 34-cü maddəyə müvafiq olaraq təqdim olunmuş istənilən fərdi şikayəti qəbuledilməz elan edə bilər. Məhkəmə bu maddəyə müvafiq olaraq, qəbul olunmayan hesab etdiyi istənilən şikayəti rədd edir. O, bunu icraatın istənilən mərhələsində edə bilər.

**<u>Şikayət ərizəsinin anonim olmaması</u>**

Konvensiyanın 35-ci maddəsinə müvafiq olaraq, Məhkəmə istənilən anonim şikayəti rədd edir. Məhkəməyə müraciət edənin adı, soyadı açıq şəkildə göstərilməlidir. Müraciət edənin şəxsiyyətinin müəyyənləşdirilməməsi halında şikayət icraata qəbul edilmir.

Bəzi hallarda Katibliyə, şəxsin adı və soyadı göstərilməyən, lakin geriyə ünvanı göstərilən ərizələr də daxil olur. Bu halda Katiblik həmin ünvana, şikayətçinin öz adını və soyadını göstərilməsini nəzərdə tutan məktubla müraciət edir. Lakin onu da qeyd etmək lazımdır ki, şikayətin anonim olmasının yolverilməzliyi şərti şikayətçiyə Avropa Məhkəməsindən onun adının ictimaiyyətə açıqlanmamasını xahiş etmək hüququnu istisna etmir. Belə halda, Məhkəmə adətən öz qərarında şikayətçinin adını açıqlamır (məsələn, «B.v. France», «X. v. UK» və s.).

**<u>Şikayətə Avropa Məhkəməsində əvvəllər baxılmaması və eyni şikayətin başqa beynəlxalq araşdırma orqanına verilməməsi</u>**

Məhkəmə mahiyyətcə artıq baxdığı məsələ ilə eyni olan, yaxud beynəlxalq araşdırmanın və ya tənzimlənmənin digər prosedurunun predmeti olan və işə aid yeni faktları əks etdirməyən şikayətlərə baxmır. Qeyd etmək lazımdır ki, bu müddəa, hüququn ümumtanınmış prinsipi olan *non bis in idem* prinsipindən irəli gəlir. Avropa Məhkəməsi tərəfindən əvvəllər mahiyyəti üzrə baxılmış şikayətlərin

yenidən icraata qəbul edilməsinə yol verilmir. Bununla əlaqədar aşağıdakı hallarda Məhkəmə şikayəti qəbul etmir:

- şikayət Məhkəmədə əvvəl araşdırılmış məsələ ilə mahiyyət etibarilə eyni olduqda;
- şikayət əvvəl araşdırılmış məsələ ilə müqayisədə yeni halları ehtiva etmədikdə.

Birinci halda, məsələn, adı açıqlanmayan şəxs Almaniyaya qarşı işində, həbs edilmiş bir şəxsin şikayətinin Məhkəmə tərəfindən rədd edilməsindən sonra eyni şikayətlə iddiaçının anası Avropa Məhkəməsinə müraciət etmişdir. Məhkəmə isə qərarında ərizəçilərin fərqli şəxslər olmasına baxmayaraq, şikayətlərin mahiyyət etibarilə eyni olduğunu qeyd edərək, şikayət ərizəsinin icraata qəbul edilməməsi haqqında qərar vermişdir. İkinci halda isə, ərizəçilərin rədd edilməsi üçün daxil olmuş yeni şikayətin işin mahiyyətini dəyişəcək yeni faktları ehtiva etməməsi tələb olunur. Burada əsas məqam ondan ibarətdir ki, yeni faktlar Avropa Məhkəməsinin ilk şikayəti rədd etmək üçün istinad etdiyi əsası dəyişdirəcək xarakterə malik olmalıdır. Belə xarakterə malik faktların mövcudluğu halında təkrar şikayətlər icraata qəbul edilir. Məsələn, milli məhkəməyə müraciətinin ağlabatan müddət ərzində baxılaraq yekunlaşdırılmamasından şikayət edən şəxsin müraciəti Avropa Məhkəməsi tərəfindən ilkin olaraq rədd edilsə də, şikayətin icraata qəbul edilməməsi haqqında qərarın verilməsindən sonra keçən müddət ərzində işin baxışı yekunlaşdırılmamışsa, bu, yeni halların ortaya çıxması kimi qiymətləndirilə bilər. Belə ki, Məhkəmə həmin müddəti də nəzərə alaraq, bütövlükdə işə baxılma müddətinin ağlabatan müddət həddini keçdiyi qənaətinə gələrək işi icraata qəbul edə bilər.

Məhkəməyə göndərilmiş fərdi şikayətlər başqa bir beynəlxalq araşdırma orqanına edilmiş müraciətlə mahiyyət etibarilə eyni olmamalıdır. Bu şərtə əməl olunmaması da şikayətin qəbul edilməməsi üçün əsasdır.

**Şikayətin açıq surətdə əsaslandırılması**

Konvensiyanın 35-ci maddəsinə əsasən, Məhkəmə açıq əsaslandırılmamış şikayətləri qəbul olunmayan elan edə bilər. Məhkəmə şikayətin açıq surətdə əsaslandırılması şərtinə əsaslanaraq onları rədd edərkən, əsasən, şikayətin kifayət qədər sübutları ehtiva etməməsinə və onun Konvensiyanın müddəalarının pozulması nəticəsini doğurmaması faktına diqqət yetirir. Məsələn, bununla bağlı Azərbaycana qarşı bir neçə işə nəzər salaq.

«Rəsul Quliyev Azərbaycana qarşı» işində ərizəçi, Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndinə əsasən, həbsi barədə qərarın qeyri-qanuni olması barədə şikayət etmişdir. Bununla bağlı Məhkəmə qeyd etmişdir ki, «azadlıq hüququ»nu

bəyan edərkən 5-ci maddənin 1-ci bəndi şəxsin fiziki azadlığını nəzərdə tutur və onun məqsədi heç kəsin azadlıqdan özbaşına məhrum edilməməsini təmin etməkdir. Bu halda ərizəçinin həbsi barədə məhkəmə qərarının mövcud olmasına baxmayaraq, fiziki olaraq, ərizəçi həbsə alınmayıb və hazırda Amerika Birləşmiş Ştatlarında yaşayır. Müvafiq olaraq, hələ «fiziki azadlıq»dan məhrum edilmədiyinə görə onun Konvensiyanın 5-ci maddəsinə əsasən qanunsuz həbsinə dair şikayəti vaxtından əvvəl edilmiş şikayət sayılır. Eyni zamanda Məhkəmə qeyd etmişdir ki, icra olunmamış həbs qərarının Konvensiyanın 5-ci maddəsinin 1-ci bəndi baxımından «qanuni» olub-olmamasının Məhkəmə tərəfindən araşdırılmasına heç bir lüzum yoxdur. Beləliklə də, şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan mənada açıq-aydın əsassız olduğundan rədd edilmişdir (5, 148-149). «Fəridə Kunqurova Azərbaycana qarşı» işində ərizəçi öz şikayətində bildirmişdir ki, o, Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndi pozulmaqla, faktiki törətdiyi cinayətdən daha ağır olan cinayətə görə məhkum edilib və müvafiq surətdə ona daha ağır cəza təyin edilib. Şikayətçinin bu iddiası ilə bağlı Məhkəmə qeyd etmişdir ki, Konvensiyanın 7-ci maddəsi sadəcə cinayət qanunvericiliyinin təqsirləndirilən şəxsin zərərinə retroaktiv tətbiqini qadağan etmir, o həm də «cinayət qanununda nəzərdə tutulmayan əməl cinayət deyil» (*nullum crimen, nulla poena sine lege*) prinsipini ümumi şəkildə təsdiq edir. Buna görə də, Məhkəmənin nəzarət funksiyası buna əmin olmaqdan ibarətdir ki, təqsirləndirilən şəxs sonradan cinayətə görə məhkum edilməsinə səbəb olan əməli törətdiyi anda həmin əmələ görə cəza nəzərdə tutan hər hansı qanunvericilik norması qüvvədə olub və tətbiq edilmiş cəza həmin normada nəzərdə tutulan həddi aşmayıb. Məhkəmə həmçinin qeyd etmişdir ki, ərizəçi törədildiyi anda cinayət sayılmayan hərəkətə görə məhkum edildiyini və ya tətbiq edilməli olan cəzadan daha ağır cəzanın tətbiq edildiyini göstərən hər hansı arqument təqdim etməyib. O, 1 sentyabr 2000-ci ildən qüvvədə olan və sözügedən vaxtda tətbiq edilən Cinayət Məcəlləsinin 221.3-cü maddəsinə əsasən məhkum edilib. Ərizəçiyə tətbiq edilmiş cəza həmin müddəada nəzərdə tutulmuş həddi aşmayıb. Buna görə də, Məhkəmə hesab etmişdir ki, ərizəçinin Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndi üzrə şikayəti əsassızdır (5, 191-192). «Valentina Akimova Azərbaycana qarşı» işində ərizəçi bildirmişdir ki, mənzili başqa şəxslər tərəfindən zəbt olunduğuna görə ailəsi ilə birlikdə öz evində yaşaya bilməyib. Buna görə də, o və ailə üzvləri bir neçə il qohumlarının evlərində yaşamağa məcbur olublar və nəticədə onun mənzil toxunulmazlığına hörmət hüququ pozulub. Lakin Məhkəmə qeyd etmişdir ki, ərizəçi heç vaxt həmin mənzildə məskunlaşmamış, hər hansı müddət ərzində orada heç vaxt yaşamamış və ona məxsus olan əşyaları oraya köçürməmişdi. Məhkəmə eyni zamanda bildirmişdir ki, görünür, ərizəçi qohumları ilə birgə

yaşadığı yerdə məskunlaşaraq artıq özünə «mənzil» qurmuşdu. Buna görə də, Məhkəmə hesab etmişdir ki, sözügedən halda «mənzil» Konvensiyanın 8-ci maddəsində nəzərdə tutulan mənada «mənzil» sayıla bilməz, çünki ərizəçi heç vaxt orada məskunlaş- mayıb, həmin yerdə kifayət qədər əlaqələrə malik olmayıb və görünür, haradasa bir başqa yerdə özünə mənzil qurub. Beləliklə də, Məhkəmə şikayətin bu hissəsini açıq-aydın əsassız hesab etmiş və Konvensiyanın 35-ci maddəsinin 3-cü və 4-cü bəndlərinə müvafiq olaraq şikayəti rədd etmişdir (5, 208-216). «Etimad Əsədov və başqaları Azərbaycana qarşı» işində ərizəçilər Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi anlamında milli məhkəmələrin müstəqilliyi və qərəzsizliyini şübhə altına almışlar. Məhkəmə isə ərizəçilərin hakimlərin müstəqilliyi və qərəzsizliyini şübhə altına almaq üçün tutarlı əsas olmadığını bildirmişdir. Bununla da Məhkəmə şikayətin bu hissəsini Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndində nəzərdə tutulan mənada qəbulolunmaz elan etmişdir (5, 223-232).

**Şikayət hüququndan sui-istifadə edilməməsi**

Konvensiyanın 35-ci maddəsinə əsasən, Məhkəmə istənilən fərdi şikayəti, şikayət vermə hüququndan sui-istifadə edilmiş hesab edirsə, qəbul olunmayan elan edə bilər. Şikayət hüququndan sui-istifadə edilməməsi şərti əsasən, fərdi şikayət hüququndan siyasi təbliğat vasitəsi kimi istifadənin qarşısının alınmasına yönəlmişdir. Həm Komissiya, həm də Məhkəmə baxdığı bir sıra işlərdə şikayət edilən dövlət və ya onun təmsilçilərinə, yaxud da Avropa Məhkəməsinin hakimlərinə qarşı təhqir xarakterli ifadələrin işlədilməsini şikayət hüququndan sui-istifadə kimi qiymətləndirmişlər. Bir sıra hallarda isə şikayət edənin yanlış məlumat verməsi və müraciətini bu məlumatlarla əsaslandırması da şikayət hüququndan sui-istifadə kimi qiymətləndirilmişdir.

**Dövlətlərarası şikayətlər**

Konvensiyanın 33-cü maddəsi «Dövlətlərarası işlər» adlanır və həmin maddəyə əsasən, «Hər hansı Razılığa gələn Yüksək Tərəf digər Razılığa gələn Yüksək Tərəfin Konvensiya və onun Protokollarının müddəalarının ehtimal olunan pozulması barədə Məhkəməyə müraciət edə bilər». Qeyd olunan maddənin Məhkəmə tərəfindən şərhi nəticəsində aşağıdakı meyarlar müəyyən olunmuşdur:

- iş üzrə tərəflər yalnız Avropa Şurasının üzvləri və Konvensiyanın iştirakçısı olan dövlətlər ola bilər;
- mübahisənin predmetini yalnız Konvensiyada və (və ya) əlavə Protokollarda təsbit olunmuş əsas hüquq və azadlıqların pozulması təşkil edə bilər;
- Məhkəməyə müraciət cavabdeh-dövlətin mütləq surətdə xəbərdar edil-

məsini nəzərdə tutmur;

- iştirakçı-dövlətlərin Konvensiya ilə öz üzərinə götürdükləri öhdəlikləri nəzərə alsaq, bir dövlətin digər bir dövlətin daxilində baş verən hadisələrlə bağlı Məhkəməyə müraciətini dövlətlərin daxili işinə müdaxiləsi kimi qiymətləndirmək olmaz (insan hüquqlarının kollektiv təmini prinsipi);

- dövlətin Məhkəməyə müraciəti yalnız onun öz vətəndaşlarının hüquq və azadlıqlarının pozulduğu halda deyil, eyni zamanda müvafiq-dövlətin Konvensiyada nəzərdə tutulmuş hüquq və azadlıqların pozulması ehtimalı olan bütün hallarda mümkündür. Bu da, Konvensiyanın preambulasında nəzərdə tutulmuş «insan hüquqlarının kollektiv həyata keçirilməsinin təmin edilməsi» prinsipindən irəli gəlir (138, 34).

Reqlamentin 46-cı maddəsi «Dövlətlərarası şikayətin məzmunu» adlanır. Həmin maddəyə əsasən, Konvensiyanın 33-cü maddəsinə əsasən, Məhkəməyə müraciət edəcək Konvensiya iştirakçısı olan istənilən dövlət şikayətlə Məhkəmə Katibliyinə müraciət edir. Şikayətdə əsasən aşağıdakılar göstərilməlidir:

- şikayət edilən Konvensiya iştirakçısı olan müvafiq dövlətin adı;

- faktların xülasəsi;

- Konvensiyanın iddia olunan pozuntusu və ya pozuntuları və müvafiq sübutlar;

- Konvensiyanın 35-ci maddəsinin 1-ci bəndində nəzərdə tutulan şərtlərin (dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi və «altı aylıq müddət qaydası») gözlənilməsinin təsdiqi;

- şikayətin məqsədi və Konvensiyanın 41-ci maddəsinə müvafiq olaraq zərərçəkmiş tərəfə (və ya tərəflərə) ədalətli kompensasiya haqqında ümumi tələbin göstərilməsi;

- nümayəndə qismində çıxış edən şəxsin (və ya şəxslərin) adı və ünvanı; həmçinin əlavə kimi:

- işə aid olan sənədlərin, əsasən də, məhkəmə qərarlarının və digər sənədlərin surətləri.

İnsan hüquqlarının kollektiv təmini ilə əlaqədar, 1967-ci ildə Danimarka, Norveç, İsveç və Niderland, Yunanıstanda dövlət çevrilişi nəticəsində insan hüquqlarının total şəkildə pozulması və kütləvi repressiyalarla əlaqədar olaraq Məhkəməyə müraciət etmişlər. İş Məhkəməyə verilməmiş, hələ Komissiya tərəfindən baxılarkən Yunanıstan Konvensiyanı denonsasiya etmiş və onun Avropa Şurasında üzvlüyü dayandırılmışdır. Lakin Komissiya qeyd etmişdir ki, bu hal işə xitam verilməsi üçün əsas ola bilməz. Belə ki, Konvensiyanın 58-ci maddəsinin 2-ci bəndinə əsasən, denonsasiya müvafiq Razılığa gələn Yüksək Tərəfi denonsasiyanın qüvvəyə minəcəyi tarixədək törədə biləcəyi və bu Konvensiya

üzrə öhdəliklərini poza biləcək hər hansı əməlinə münasibətdə belə öhdəliklərdən azad etmir. Öz məruzəsində Komissiya, Konvensiyanın bir sıra maddələrinin pozulması halını qeyd etmişdir.

1982-ci ildə Danimarka, Norveç, İsveç, Niderland və Fransa, 1980-ci ildə Türkiyədə hakimiyyətə hərbi rejimin gəlməsi ilə əlaqədar yaranan vəziyyətlə bağlı Məhkəməyə müraciət etmişlər. Lakin sonradan ölkədə vəziyyətin yaxşılığa doğru dəyişməsi ilə əlaqədar olaraq məsələ dostcasına həll olunmuş və bunun nəticəsində Türkiyə tərəfi milli hüquq sistemində və praktikasında Konvensiyanın 3-cü maddəsinin effektiv təmini ilə əlaqədar görülən tədbirlər haqqında dövri məruzələrin Avropa Komissiyasına təqdim edilməsinə razılıq vermişdir.

1972-ci ildə İrlandiya Birləşmiş Krallığa qarşı, Şimali İrlandiyada terrorizmlə mübarizə zamanı polisin və hərbi qüvvələrin fəaliyyəti ilə bağlı şikayət irəli sürmüşdür. Şikayət əsasən, hərbi qüvvələrin və polisin dindirmə zamanı, həmçinin məhkumlarla rəftarda ifadə olunan, onlara qarşı işgəncə və insan ləyaqətini alçaldan rəftarın tətbiq olunması ilə əlaqədar idi. İrlandiya tərəfi həmçinin, Konvensiyanın digər maddələrinin də pozulmasını qeyd edirdi. İş üzrə Komissiyanın məruzəsində 3-cü maddənin pozulması qeyd olunurdu. 1978-ci ildə iş baxılmaq üçün Məhkəməyə verildi. Öz növbəsində Məhkəmə 3-cü maddənin pozulması faktını qeyd etdi, lakin bunu işgəncə kimi deyil, insan ləyaqətini alçaldan rəftar kimi qiymətləndirdi.

## 3.2. Avropa İnsan Hüquqları Məhkəməsində şikayətlərə baxılması mexanizmi

Avropa Məhkəməsində şikayətlərə baxılma mexanizmi bir neçə mərhələdən ibarətdir: şikayətin qeydiyyata alınması; şikayətin ilkin öyrənilməsi; şikayətin qəbuledilənliyi məsələsinə baxılması; şikayətin kommunikasiyası; sənədlər mübadiləsi; işin dostcasına həlli; işə mahiyyəti üzrə baxılması və qərar çıxarılması.

**Şikayətin qeydiyyata alınması.** Avropa Məhkəməsinə göndərilən bütün şikayətlər Katiblikdə qeydiyyatdan keçir. Məhkəmənin rəsmi müraciət blankı olsa da, ilkin olaraq şikayət adi məktub formasında da göndərilə bilər. Katiblikdən bununla bağlı cavab gəldikdən sonra şikayət Katibliyin göndərdiyi rəsmi blankda altı həftədən gec olmayaraq göndərilməlidir. Ərizənin göndərildiyi tarix rəsmi blankın deyil, ilkin müraciətin göndərildiyi tarixdən hesablanır. Məhkəmənin rəsmi dilləri ingilis və fransız dilləri olsa da, şikayətin qəbuledilənliyi haqqında qərar qəbul edilənədək şikayətçi və ya onun nümayəndəsi ilə ünsiyyət, habelə çəkişmə sənədləri Konvensiyanın iştirakçısı olan dövlətlərin rəsmi dillərindən birində ola bilər. Qeydiyyata alınmış şikayətə sıra nömrəsi qoyulur və şikayətçinin adına dosye açılır. Qeyd etmək lazımdır ki, bu mərhələdə də, şikayətin qəbul

edilməsindən imtina edilə bilər. Məsələn, əgər elə ilk mərhələdə şikayətin qeyri-məqbul olması aşkarlanarsa, misal üçün, şikayət anonimdirsə, yaxud şikayət Konvensiyanın iştirakçısı olmayan dövlətə qarşı verilibsə və ya digər bir beynəlxalq hüquqi aktda, məsələn, Avropa Sosial Xartiyasında, təsbit olunmuş hüquqların pozulması iddia olunursa, belə olan halda şikayətin qeydiyyatı mərhələsində onun qəbulundan imtina olunacaq.

**Şikayətin ilkin öyrənilməsi.** Reqlamentin 49-cu maddəsinə əsasən, ərizəçinin təqdim etdiyi material özlüyündə şikayətin qeyri-məqbul olmasını və ya işlərin siyahısından çıxarılmalı olduğunu aşkar edirsə, şikayət, əksinə hər hansı xüsusi səbəb olmadıqda, tək hakim tərkibi tərəfindən həll olunmalıdır. Şikayət Konvensiyanın 34-cü maddəsinə əsasən verildikdə və Reqlamentin 53-cü maddəsinin 2-ci bəndinə əsasən verilmiş səlahiyyəti həyata keçirən Palata və ya Komitə tərəfindən onun araşdırılması əsaslı görünsə, işin həvalə olunduğu bölmənin sədri şikayəti araşdırmalı olan məruzəçi hakim təyin etməlidir.

Şikayətləri araşdırarkən məruzəçi hakimlər:

- təyin olunan müddətdə əhəmiyyətli hesab etdikləri hər hansı faktiki məlumatları, sənədləri və ya başqa materialları təqdim etməyi tərəflərdən tələb edə bilər;

- işin Palata və ya Komitə tərəfindən baxılmalı olduğuna dair bölmə sədrinin göstərişindən asılı olaraq, şikayətin tək hakim tərkibi, Komitə və ya Palata tərəfindən baxılmalı olub-olmadığını həll edir;

- Palataya və ya Komitəyə yaxud da müvafiq Sədrə öz funksiyalarının həyata keçirilməsinə köməklik edə bilən məruzələri, layihələri və başqa sənədləri təqdim etməlidir.

Şikayətin qeydiyyata alınması və məruzəçi-hakim tərəfindən öyrənilməsi hələ onun qəbul edilməsi demək deyil. Burada söhbət işin məruzəçi-hakim tərəfindən ilkin öyrənilməsi və əsasən də bütün ilkin şərtlərə əməl olunub-olunmamasının yoxlanılmasından gedir. Onu da qeyd etmək lazımdır ki, məruzəçi-hakimə işin ilkin öyrənilməsi üçün vaxt məhdudiyyəti qoyulmur.

**Şikayətin qəbuledilənliyinə dair məsələyə baxılması.** Əgər işin ilkin öyrənilməsi mərhələsində şikayət məruzəçi-hakim tərəfindən rədd edilmirsə, bu halda onun qəbul olunub-olunmaması haqqında məsələnin həlli üçün şikayət məruzəçi-hakimin rəyi ilə birlikdə tək hakimli tərkibə verilir. Tək hakim Konvensiyanın 34-cü maddəsinə əsasən verilmiş ərizəni qəbul edilə bilməyən elan edə və ya icraatda olan işlərin siyahısından çıxara bilər və bu cür qərar əlavə öyrənilmədən qəbul edilə bilər. Bu qərar qətidir. Ərizəçi qərar barədə məktubla məlumatlandırılmalıdır.

Tək hakimli tərkibdə hakim özünün seçildiyi Razılığa gələn Yüksək Tərəfə

qarşı olan heç bir ərizəyə baxmamalıdır.

Əgər tək hakim ərizəni qəbul edilə bilməyən elan etmirsə və ya siyahıdan çıxarmırsa, o zaman həmin hakim əlavə öyrənilmə üçün onu Komitəyə və ya Palataya göndərir.

İşin hallarını nəzərə alaraq, məruzəçi-hakim tək hakimli tərkibə müraciət etmədən ərizənin qəbul edilib edilməməsi haqqında məsələnin həlli üçün işi birbaşa Komitəyə göndərə bilər. Konvensiyanın 28-ci maddəsinə əsasən, 34-cü maddəyə müvafiq olaraq təqdim olunan ərizəyə münasibətdə Komitə yekdil səslə, əlavə öyrənmədən onu qəbul edilə bilməyən elan edə və ya məhkəmə işlərinin siyahısından çıxara bilər; və ya onu qəbul edilə bilən elan edə bilər və eyni zamanda işin mahiyyətinə uyğun qərar çıxara bilər, bu şərtlə ki, işin Konvensiyanın və ya ona dair Protokolların təfsiri və ya tətbiqi ilə bağlı olan əsas məsələsi artıq Məhkəmənin qəti müəyyən edilmiş presedent hüququnun predmeti olsun. Belə qərardadlar və qərarlar qətidir.

Komitə işin Konvensiyanın 28-ci maddəsinə əsasən prosedur üzrə baxılmalı olduğuna dair qənaətə gələrsə, o, yekdil səslə qəbuledilənlik və lazım olduqda, ədalətli kompensasiya barədə qərardad daxil olmaqla, qərar qəbul edir.

Komitə tərəfindən qərardad və ya qərar qəbul olunmursa, şikayət Reqlamentin 52-ci maddəsinin 2-ci bəndinə əsasən təşkil olunmuş Palataya işə baxılması üçün təqdim olunmalıdır.

Konvensiyanın 26-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulan 7 hakimdən ibarət Palata, Reqlamentin 26-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulan qaydada müvafiq seksiyanın Sədri tərəfindən təsis olunur. Konvensiyanın 26-cı maddəsinin 1-ci bəndinə əsasən, bu Palatalar Məhkəməyə daxil olan işlərə baxılması üçün təsis olunur. Hər bir iş üzrə Palatanın tərkibinə seksiyanın Sədri, iş üzrə tərəf olan dövlətdən seçilmiş hakim daxildir. Əgər bu hakim şikayət daxil olan seksiyanın üzvü deyilsə, bu halda o, Konvensiyanın 26-cı maddəsinin 4-cü bəndinə əsasən, Palatanın *ex-officio* üzvü olur. Palatanın digər üzvləri isə seksiya Sədri tərəfindən, bu seksiyanın üzvləri sırasından ardıcıllıq qaydasında təyin olunur. Digər hakimlər isə iclasda «ehtiyat-hakim» qismində iştirak edirlər. İşə mahiyyəti üzrə baxılmasında iştirak edən hakimlər, onların səlahiyyət müddəti bitdikdə belə, prosesdə iştirak etməkdə davam edirlər.

Reqlamentin 54-cü maddəsinə əsasən, Palata birbaşa şikayəti qəbulolunmaz elan edə bilər və ya işi icraatdan çıxara bilər. Palata və ya onun sədri aşağıdakı qərarları çıxara bilər:

- işə aidiyyəti olan istənilən faktiki məlumatların, sənədlərin və ya digər materialların təqdim edilməsi barədə tərəflərə müvafiq təkliflər vermək;
- şikayət barəsində cavabdeh dövlətə məlumat vermək və şikayətlə bağlı

yazılı izahatlar təqdim etməsini ona təklif etmək;

- tərəflərə əlavə yazılı arayışlar təqdim edilməsini təklif etmək.

Şikayətin qəbul olunub-olunmaması haqqında qərar çıxarmazdan əvvəl Palata, tərəflərin xahişi ilə və ya öz təşəbbüsü ilə dinləmə keçirə bilər. Bu halda, əgər istisna hal kimi Palata digər qərar qəbul etməzsə, tərəflərə işin mahiyyəti üzrə öz fikirlərini bildirmək təklif olunur.

Reqlamentin 55-ci maddəsinə əsasən, şikayətin qəbul olunmasına qarşı etiraz, iş üzrə tərəf olan dövlət tərəfindən yazılı və ya şifahi arayışlarda təqdim olunur. 56-cı maddəyə müvafiq olaraq, Palatanın qərarında, onun yekdilliklə və ya əksər səs çoxluğu ilə qəbul edilməsi göstərilir və bu qərar əsaslandırılmalıdır. Palatanın qərarı haqqında Katib iş üzrə tərəflərə məlumat verir.

Əgər Palata tərəfindən şikayət qəbul olunan elan edilirsə işə baxılması prosesinin növbəti mərhələsi başlayır, əks halda iş üzrə icraat dayandırılır. Şikayət həmçinin qismən qəbul olunan və ya olunmayan elan edilə bilər. Məsələn, əgər ərizəçi şikayətin bir hissəsi, yəni məsələn, bir hüququn pozulması ilə bağlı zəruri şərtlərə əməl edib, şikayətin qalan hissəsi, digər hüququn pozulması ilə bağlı isə şərtlərin birinə və ya bir neçəsinə (misal üçün, bütün zəruri dövlətdaxili hüquq müdafiə mexanizmlərini tükəndirməyib, yaxud şikayətin bu hissəsi cavabdeh-dövlətin Konvensiyanın ratifikasiyasından əvvəlki dövrə təsadüf edirsə və bununla da Məhkəmənin zamana görə yurisdiksiyası xaricindədir və s.) əməl etməyibsə. Məsələn, «Ələkrəm Hümmətov Azərbaycana qarşı» işi üzrə Məhkəmə şikayətin bir hissəsinin (həbsxanada tibbi xidmətin olmaması, həbsxanada saxlanmasının qanuniliyi, ömürlük azadlıqdan məhrumetmə hökmünün çıxarılması) baxılmasını təxirə salmağı qərara almış, ərizənin qalan hissəsinin qəbul edilməsinin mümkün olmadığını bəyan etmişdir (5, 136). Yaxud, «Fəhmin Hacıyev Azərbaycana qarşı» işi üzrə Məhkəmə ərizəçinin daxili hüquqi müdafiə vasitələrini tükəndirib-tükəndirməməsi məsələsinə baxılmasını ərizəyə mahiyyəti üzrə baxılması ilə birləşdirməyi qərara almış, ərizəçinin məhkəməyə müraciət etmək və ayrı-seçkiliyə məruz qalmamaq hüququ ilə bağlı şikayətlərini onlara mahiyyəti üzrə baxmadan qəbul olunan, ərizədəki şikayətlərin qalan hissəsini qəbul olunmayan elan etmişdir (6, 661). «Valentina Akimova Azərbaycana qarşı» işi üzrə Məhkəmə işin mahiyyəti üzrə qərar çıxarmadan ərizəçinin ədalətli məhkəmə araşdırması hüququ və mülkiyyətdən maneəsiz istifadə hüququ ilə bağlı şikayətlərini qəbul olunan, ərizənin qalan hissəsini isə qəbul olunmayan elan etmişdir (5, 216).

**Şikayətin kommunikasiyası.** Palata işi icraata qəbul etdikdən sonra bu barədə cavabdeh-dövlətə məlumat verir və ondan ərizə ilə bağlı yazılı qeydlərini təqdim etməyi xahiş edir. Bu, şikayətə baxılmasının kommunikasiya mərhələsidir.

Yəni, şikayətin kommunikasiyası müvafiq dövlətin ona qarşı şikayət verilməsi barədə Avropa Məhkəməsi tərəfindən rəsmi məlumatlandırılmasıdır. Əgər şikayətin qəbuledilənliyi ilə bağlı qərar iş üzrə tərəf olan dövləti cəlb etmədən, yəni yalnız ərizəçinin məlumatı əsasında qəbul edilmişsə bu halda şikayət, qəbuledilənliklə bağlı qərar qəbul olunduqdan sonra kommunikasiya olunur. Əks təqdirdə isə, yəni ərizənin qəbuledilənliyi ilə bağlı məsələyə baxılarkən Məhkəmə bununla bağlı barəsində şikayət verilən dövlətin mövqeyini öyrənmək qərarına gəlirsə, bu halda qəbuledilənliyə baxılma mərhələsində şikayət kommunikasiya olunur.

Konvensiyanın 36-cı maddəsinə əsasən, Palataların birində və ya Böyük Palatada olan bütün işlərdə vətəndaşı şikayətçi olan Razılığa gələn hər bir Yüksək Tərəfin yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək hüququ vardır. Məhz buna görə də, Məhkəmə şikayət barədə ərizəçinin vətəndaşı olduğu dövlətə, barəsində şikayət verilən dövlətlə ərizəçinin vətəndaşı olduğu dövlət fərqli olduqda, məlumat verir.

Məhkəmənin Katibliyi həmçinin kommunikasiya barədə ərizəçini və ya onun nümayəndəsini məlumatlandırır.

**Sənədlər mübadiləsi.** Şikayət Məhkəmə tərəfindən qəbul edildikdən sonra iş üzrə materiallar cavabdeh dövlətə göndərilir və təklif olunur ki, o, şikayət üzrə öz rəyini və münasibətini bildirsin. Yəni, şikayətin kommunikasiyasından sonra sənədlər mübadiləsi, başqa sözlə, iddiaçı və cavabdeh tərəfindən çəkişmə sənədlərinin Məhkəməyə təqdim edilməsi mərhələsi başlayır. Reqlamentin 38-ci maddəsinə əsasən, yazılı izahatlar və ya sair sənədlər Məhkəmə tərəfindən müəyyən olunmuş müddətdə təqdim edilməlidir. Bu müddətdən sonra təqdim edilən yazılı izahatlar və ya sair sənədlər Məhkəmə tərəfindən qəbul olunmaya bilər.

1 noyabr 2003-cü ildə Avropa Məhkəməsinin sədri tərəfindən «Çəkişmə sənədləri» adlı praktiki təlimat təsdiq edilmişdir. Təlimata əsasən, sənədlər Məhkəməyə üç nüsxədə, poçt və ya faksla göndərilə bilər. Tərəflərin qeyd və etirazları əks olunan sənəddə əsasən aşağıdakılar təsbit olunmalıdır:

- ərizənin nömrəsi və işin adı;
- məzmunu qısa ehtiva edəcək başlığın göstərilməsi (məsələn, bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsinə dair etiraz, işin mahiyyətinə dair etiraz, yaxud Hökumətin rəyinə dair cavab və s.).

Çəkişmə sənədlərinin tərtib olunmasına dair Məhkəmə tərəfindən aşağıdakı tələblər irəli sürülür:

- sənədlər A4 formatlı kağızda təqdim olunmalı;
- aydın oxunacaq tərzdə yazılmalı, yaxud daha yaxşısı kompüterdə yığılmalı;
- tarixlər rəqəmlərlə göstərilməli;

- hər bir səhifə ardıcıllıqla nömrələnməli;
- nömrələnmiş paraqraflara bölünməli;
- Məhkəmənin qərarlarının formasına uyğun tərzdə müvafiq bölmələrə («Faktlar»; «Milli qanunvericilik (və praktika)»; «Tərəflərin arqumentləri»; «Hüquq məsələləri») bölünməli;
- Məhkəmə tərəfindən qoyulmuş suallara cavablar və qarşı tərəfin qeydləri ayrıca başlıq altında verilməli;
- çəkişmə sənədində və ona əlavədə göstərilən bütün sənədlərə istinadlar olmalıdır.

Əgər çəkişmə sənədləri 30 səhifədən artıq olarsa, bu halda onun qısa xülasəsi verilməlidir.

Sənədlər mübadiləsi prosesi Palatanın təşəbbüsü ilə başlayır və onun təşəbbüsü ilə də yekunlaşır və bu zaman Palata hər hansı vaxt məhdudiyyəti ilə bağlı deyildir.

Xüsusilə vurğulamaq lazımdır ki, bu mərhələdə də, işin halları ilə daha yaxından tanışlıq nəticəsində iddiaçı tərəfindən bütün ilkin şərtlərə əməl olunub-olunmaması və müvafiq olaraq ərizənin qəbul olunub-olunmaması haqqında məsələ yenidən gündəmə çıxa bilər. Bu haqda məsələ iş üzrə tərəf olan dövlət tərəfindən onun memorandumunda da göstərilə bilər.

**İşin dostcasına həlli**. Şikayətə mahiyyəti üzrə baxmadan öncə Məhkəmə işin dostcasına həlli üçün səy göstərir. Bu da tərəflər arasında barışıq əldə edilməsi məqsədi güdür. Hər bir işin baxılmasında bu vacib prosedur mütləq həyata keçirilir. Konvensiyanın 39-cu maddəsinə əsasən, prosesin istənilən mərhələsində Konvensiyada və onun Protokollarında təsbit edilmiş insan hüquqlarına hörmət əsasında Məhkəmə işin dostcasına həlli üçün maraqlı tərəflərə öz xidmətlərini təqdim edə bilər. Bu prosedur məxfi həyata keçirilir. Məsələ dostcasına həll olunduqda, Məhkəmə faktların və əldə olunmuş razılığın qısa xülasəsi əks olunan qərardad qəbul etməklə işi öz siyahısından çıxarır.

İşin dostcasına həlli prosedurunda tərəflər arasında vasitəçi qismində adətən Məhkəmənin Katibi çıxış edir. Reqlamentin 62-ci maddəsinə əsasən, ərizə Məhkəmə tərəfindən qəbul edildikdən sonra Katib, Palatanın və ya onun Sədrinin göstərişlərinə əsasən işin dostcasına həlli məqsədilə tərəflərlə ünsiyyət yaradır. Palata məsələnin bu cür həllinə yardım edə biləcək istənilən tədbirləri həyata keçirir. İşin dostcasına həlli məqsədilə edilmiş hər hansı yazılı və ya şifahi məlumatlar, eləcə də təkliflər və ya güzəştlər Məhkəmə araşdırılması zamanı istinad və ya əsas kimi istifadə oluna bilməz. Əgər Katib məsələnin dostcasına həll olunduğunu Palataya bildirirsə, bu halda Palata bu tənzimləmənin Konvensiya və əlavə Protokollarda təsbit olunmuş insan hüquqlarına uyğun olduğuna əmin

olduqdan sonra həmin işi, Məhkəmədə baxılmalı olan işlərin siyahısından çıxarır.

Məhkəmə işin dostcasına həlli üçün zəruri bildiyi istənilən addımı ata bilər. Məsələn, Məhkəmə «Keksal Niderlanda qarşı» işində olduğu kimi tərəflərin görüşməsi üçün vasitəçi qismində çıxış edə bilər. Qeyd olunan işdə Məhkəmə tərəflərin Niderlandın Haaqa şəhərində görüşünü təşkil etmiş və tərəflər arasında razılıq əldə olunmuşdur.

Lakin qeyd etmək lazımdır ki, bir çox hallarda tərəflər özləri mümkün barışıq yollarını axtarıb tapırlar və əldə olunan nəticəni Məhkəməyə bildirirlər. Adətən, ilk növbədə buna iş üzrə cavabdeh-dövlət səy göstərir və şikayətçinin öz ərizəsini hansı şərtlərlə geri götürəcəyini araşdırır. İşin dostcasına həlli zamanı, əksər hallarda, dövlət, müraciət edənin şikayət üzrə tələb etdiyi ona dəymiş maddi və (və ya) mənəvi zərərin ödənilməsi məqsədilə bu və ya digər pul məbləğinin ödənilməsinə razılıq verir. Lakin bəzi hallarda yalnız pulun ödənilməsi kifayət etmir. Belə ki, Konvensiyanın 39-cu maddəsi bu sahədə Məhkəmənin qarşısına əsasən iki vəzifə qoyur. Birincisi, işin dostcasına həlli məqsədilə tərəflər arasında vasitəçilik; ikincisi, işin dostcasına həllinin Konvensiyada və əlavə Protokollarda təsbit edilmiş insan hüquqlarına hörmət əsasında təmin edilməsi.

Təcrübədən çıxış edərək işin dostcasına həllinin üç mümkün variantını fərqləndirmək olar: birincisi, dostcasına həllin ən asan yoludur və şikayətçiyə onun tələb etdiyi və ya razılaşdırılmış müəyyən məbləğdə pulun ödənilməsində ifadə olunur. Məsələn, «Z.W. Birləşmiş Krallığa qarşı» işində hökumət tərəfindən ərizəçiyə 77 min funt sterlinq miqdarında kompensasiya ödənməklə məsələ dostcasına həll olunmuşdur. İkinci növ razılaşma müvafiq dövlətdən ərizəçiyə kompensasiya qismində pulun ödənilməsindən başqa, həmçinin, müəyyən inzibati xarakterli və ya digər tədbirlərin görülməsini də tələb edir. Məsələn, Konvensiyanın müddəaları pozulmaqla həbs edilmiş ərizəçinin azad olunması, mülkiyyətçinin qanunsuz müsadirə edilmiş mülkünün qaytarılması, ictimai birliyin qeydiyyata alınması və s. Məsələn, «Benzan Xorvatiyaya qarşı» işində ərizəçi Konvensiyanın 3-cü maddəsinə istinad edərək həbsxanada saxlanma şəraitindən şikayət etmişdir. İş üzrə tərəf olan dövlət isə ərizəçiyə 12 min avro miqdarında kompensasiya ödəməklə yanaşı, onun saxlandığı həbsxananın təmir edilməsi öhdəliyini də götürmüşdür. Üçüncü növ razılaşma dövlət tərəfindən pozulmuş hüququn (hüquqların) bərpası üçün daha səmərəli tədbirlərin, məsələn, qanunvericilik tədbirlərinin, görülməsini nəzərdə tutur. Məsələn, «Fildinq Birləşmiş Krallığa qarşı» işində ərizəçi dul qadınlara sosial yardımın təmin edilməsini, dul kişilərə isə belə bir yardımın edilməməsinin ayrı-seçkilik olduğunu bildirmişdir. Sosial təminat və pensiyalar haqqında Qanuna dul kişilərin də sosial yardımla təmin edilməsini nəzərdə tutan dəyişikliyin edilməsi ilə və ərizəçiyə dul qadınların aldığı məvacib miqdarında

14.500 funt sterlinq ödənməklə məsələ dostcasına həll olundu. Yaxud «Krouk İrlandiyaya qarşı» işində ərizəçi psixiatrik müəssisələrdə saxlanmanın qanuniliyi məsələsinin araşdırılmasının müstəqil prosedurunun olmamasından şikayət etmişdir. Cavabdeh-dövlət isə işin dostcasına həlli üçün ərizəçiyə kompensasiya ödəməklə yanaşı Psixi sağlamlıq haqqında Qanunu təcrübədə səmərəli tətbiq edəcəyini bəyan etmişdir.

Fikrimizcə, dostcasına həllin özünəməxsus forması ərizəçinin ərizəsini geri götürməsi haqqında Məhkəməyə məktubla müraciət etməsidir. Məsələn, 2006-cı il «Əsədov və başqaları Azərbaycana qarşı» işində ərizəçilərdən biri Məhkəməyə məktub göndərərək onların ictimai birliyinin Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınması faktı ilə əlaqədar olaraq ərizəçilərin ərizəni geri götürmək istədikləri barədə məlumat vermişdir. Məhkəmə belə qənaətə gəlmişdir ki, Konvensiyanın 37-ci maddəsinin 1-ci bəndinin «c» yarımbəndində nəzərdə tutulan mənada ərizəyə baxılmasını davam etdirməyə haqq qazandıran əsas yoxdur (5, 333-336).

Qeyd etmək lazımdır ki, bir sıra hallarda işin dostcasına həlli şikayətçiyə ədalətli kompensasiya qismində Məhkəmənin təyin edəcəyi məbləğdən daha böyük məbləğ əldə etməyə şərait yaradır. Nəzərə alaraq ki, bəzi işlər üzrə Məhkəmə yalnız hüquq pozuntusunun baş verdiyini etiraf etməklə kifayətlənir və bunu ədalətli kompensasiyanın əvəzi kimi elan edir. Elə hallar da olur ki, şikayətçi üçün hüquq pozuntusu faktının Məhkəmə tərəfindən elan edilməsi, yəni iş üzrə Məhkəmənin qərarı prinsipial olaraq mühüm əhəmiyyət kəsb edir və o, hətta sərfəli şərtlər altında belə, dostcasına həldən imtina edir.

Əgər işin dostcasına həlli Konvensiyada təsbit olunmuş insan hüquqlarına hörmət əsasında təmin edilməzsə, o, Məhkəmə tərəfindən qəbul edilmir. Bəzi hallarda konkret iş üzrə, işin dostcasına həlli zamanı yalnız müvafiq pul məbləğinin ödənilməsi kifayət etmir. Bunun Məhkəmə tərəfindən qəbul olunması üçün iş üzrə tərəf olan dövlətdən əlavə tədbirlər görülməsi də tələb olunur. Məsələn, yuxarıda qeyd etdiyimiz «Fildinq Birləşmiş Krallığa qarşı» işində dövlət ərizəçiyə yalnız pulun ödənilməsi ilə kifayətlənsəydi, çox güman ki, Məhkəmə məsələnin bu cür dostcasına həllini qəbul etməyəcəkdi. Belə ki, ərizəçinin ayrı-seçkiliyə məruz qalması davam edəcəkdi. Yaxud, «Süleymanoviç və digərləri və Seydoviç və Süleymanoviç İtaliyaya qarşı» işi üzrə şikayətçi qismində 2000-ci ildə İtaliyadan Bosniyaya deportasiya olunan qaraçılar çıxış edirdi. İtaliya hökumətinin deportasiya haqqında qərarı ləğv edərək şikayətçilərin İtaliyaya geri dönməsinə icazə verməsi və şikayətçilərin hər birinə 7.746 avro məbləğində kompensasiya ödənilməsi ilə məsələ dostcasına həll olundu. Əgər bu işdə hökumət şikayətçilərə yalnız pul formasında kompensasiya ödənilməsi ilə kifayətlənsəydi

böyük ehtimalla məsələnin bu cür dostcasına həlli Məhkəməni qane etməyəcəkdi. Belə ki, şikayətçilərin hüquqları pozulmaqda davam edəcəkdi və bununla da dostcasına həll Konvensiya ilə ziddiyyət təşkil edəcəkdi.

Dostcasına həll sazişinin şərtlərinə əməl olunmadığı təqdirdə Məhkəmə işin icraatını bərpa edir.

Konvensiyanın 37-ci maddəsinə əsasən, Konvensiyanın və ona dair Protokolların müddəalarında müəyyən edilən insan hüquqlarına riayət olunması bunu tələb edirsə, Məhkəmə şikayətə baxmaqda davam edir. Əgər Məhkəmə işin gedişinin buna bəraət qazandırdığını hesab edirsə, şikayətin baxılmalı işlərin siyahısına bərpa edilməsi haqqında qərar qəbul edilə bilər.

«Katiç Serbiyaya qarşı» işi üzrə (20 iyul 2009-cu il tarixli qərar) barışıq sazişinin şərtlərinə əməl edilməməsi ilə bağlı Məhkəmə işin icraatını bərpa etmişdir. İş üzrə ərizəçilər fəaliyyət qabiliyyətini itirmiş iki ruhi xəstə şəxslər Hökumət tərəfindən təklif edilən barışıq sazişini qəbul etmişlər və 4 mart 2008-ci ildə Məhkəmə işi icraatdan cıxarmışdır. 30 aprel 2008-ci ildə barışıq sazişində göstərildiyi kimi Hökumət ərizəçilərin adına açılmış bank hesablarına altı min avro köçürmüş və sosial xidmət mərkəzi tərəfindən məbləğin idarə olunması üçün himayəçi təyin etmişdir. 2008-ci ilin noyabrına qədər verilən məbləğdən yalnız təxminən 400 avro ərizəçilərin ehtiyacları üçün xərclənmişdir. Nəticədə, onlar çox çətin şəraitdə yaşamağa davam etmişlər. Onların hüquqi statusunu nəzərə alaraq, ərizəçilər öz pullarını sərbəst surətdə əldə edə bilmirdilər. Cavabdeh-dövlət vaxtında barışıq sazişi üzrə məbləği ərizəçilərin hesabına köçürmüş və bu başqa vəziyyətdə barışıq sazişinin şərtlərini yerinə yetirmək üçün kifayət etmiş olardı. Lakin ərizəçilərin fəaliyyət qabiliyyətsizliyi və hüquqi statusunu nəzərə alaraq, 2008-ci ilin noyabrına qədər onların ehtiyacları üçün yalnız 400 avro xərcləndiyi faktı və onların ev şəraitinin çətin olmaqda davam etməsi göstərir ki, dövlət dostcasına həlletmənin şərtlərinə tam əməl etməmişdir. Beləliklə, işin icraatı bərpa edilmişdir.

Qeyd etmək yerinə düşərdi ki, Azərbaycana dair işlərdə işin dostcasına həlli prosesində tərəflər arasında vasitəçi qismində Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi çıxış edir.

Beləliklə, Məhkəmə yalnız, işin dostcasına həllinin Konvensiyada və əlavə Protokollarda təsbit olunmuş insan hüquqlarına uyğun olmasına əmin olduqdan sonra işi öz siyahısından çıxarır.

Konvensiyada, işin dostcasına həlli ilə bağlı dövlətlərarası və fərdi işlər arasında fərq göstərilmir. Buna görə bu prosedur həm dövlətlərarası, həm də fərdi işlərə tətbiq olunur.

Yuxarıda biz fərdi şikayətlərin dostcasına həlli hallarını qeyd etdik, indi isə,

dövlətlərarası işlərin bu cür həllinə nəzər salaq.

1982-ci ildə Fransa, Niderland, Danimarka, Norveç və İsveç Türkiyəyə qarşı şikayətlə çıxış etdilər. Bu, əsasən, Türkiyənin Konvensiyanın bəzi müddəalarını yerinə yetirməkdən geri çəkilməsinə dair bəyanat verməsindən sonra Konvensiyanın 3, 5, 6, 9, 10 və 11-ci maddələrinin ehtimal olunan pozuntusu ilə əlaqədar idi. 6 dekabr 1983-cü il tarixdə Komissiya bu şikayəti qəbul olunan elan etdi. Lakin adı çəkilən ölkələrin Hökumət nümayəndələrinin birgə görüşlərindən və danışıqlarından sonra, əsasən də, barəsində şikayət verilən ölkədə insan hüquqlarının təmini ilə bağlı vəziyyətin bir qədər müsbətə doğru dəyişməsindən sonra məsələ dostcasına həll olundu və Tərəflər bu barədə birgə saziş layihəsini Komissiyaya təqdim etdilər. Türkiyə isə öz növbəsində, Konvensiyanın 3-cü maddəsindən (işgəncələrin qadağan olunması) irəli gələn öhdəliklərə əməl edilməsinə ciddi nəzarət etməyi öhdəsinə götürdü. Bununla yanaşı, Tərəflər razılığa gəldilər ki, Türkiyə Hökuməti Konvensiyanın 3-cü maddəsinin təmin edilməsi ilə bağlı qanunvericilik və digər tədbirlərin həyata keçirilməsi haqqında məruzələri Komissiyaya təqdim etsin. Digər bir dövlətlərarası işə, «Danimarka Türkiyəyə qarşı» işinə nəzər salaq. Şikayətçi-dövlət onun vətəndaşının Türkiyədə polis məntəqəsində işgəncəyə məruz qaldığını bildirir və kompensasiya və digər tədbirlərin görülməsini tələb edirdi. Türkiyə tərəfinin öz üzərinə bununla bağlı bir sıra öhdəliklərin (məsələn, türk polis əməkdaşlarının Avropa Şurasının təlimlərində, həmçinin Danimarka hökuməti tərəfindən maliyyələşdirilən ikitərəfli tədris kursunda iştirakının təmin edilməsi, İşgəncələrin qarşısının alınması üzrə Avropa Komitəsi ilə əməkdaşlıq etmək və s.) götürməsi ilə məsələ dostcasına həll olundu (115, 118).

Qeyd etmək lazımdır ki, 14 saylı Protokol dostcasına həll proseduruna bir sıra yeniliklər gətirmişdir. Belə ki, əgər Protokol qüvvəyə minənədək bu prosedur yalnız Məhkəmə tərəfindən ərizənin qəbul olunan elan edilməsindən sonra həyata keçirilirdisə, 14 saylı Protokol dostcasına həlletmə prosedurunun prosesin istənilən mərhələsində həyata keçirilməsini nəzərdə tutur. Qeyd olunduğu kimi bu Protokol artıq Konvensiyanın mətninə inkorporasiya olunmuş və hazırda Konvensiya 14 saylı Protokolla dəyişdirilmiş yeni redaksiyada qüvvədədir. Mühüm yeniliklərdən biri də onunla bağlıdır ki, Konvensiyanın 39-cu maddəsinə əsasən, işin dostcasına həlli ilə bağlı Məhkəmənin qərardadı, qərardadda müəyyən edilmiş şərtlərin yerinə yetirilməsinə nəzarət edəcək Nazirlər Komitəsinə göndərilir.

Bununla əlaqədar olaraq, 10 may 2006-cı ildə nazir müavinlərinin 964-cü iclasında «Qərarların və dostcasına həll sazişlərinin şərtlərinin icrasına nəzarət haqqında» Nazirlər Komitəsinin Qaydaları qəbul edilmişdir.

Əgər Konvensiyanın 39-cu maddəsinin 4-cü bəndinə əsasən Məhkəmənin qərarı Nazirlər Komitəsinə göndərilirsə, Komitə barəsində şikayət verilən dövləti onu dostcasına həll edilmə sazişinin şərtlərinin icrası barədə məlumatlandırmağa çağırır. Komitə dostcasına həll edilmə sazişinin şərtlərinin Məhkəmə qərarında əks olunduğu kimi icra olunub-olunmamasını yoxlayır.

Eyni zamanda Nazirlər Komitəsi dostcasına həll sazişinin şərtlərinin icrasına dair həm ərizəçidən, həm də ictimai təşkilatlardan və milli insan hüquqları təsisatlarından daxil olmuş məlumatlara baxır.

**Şikayətin siyahıdan çıxarılması.** Bir məqamı da vurğulamaq lazımdır ki, Məhkəmə istənilən mərhələdə şikayəti öz siyahısından çıxara bilər. Konvensiyanın 37-ci maddəsi «Şikayətlərin siyahıdan çıxarılması» adlanır. Həmin maddəyə əsasən, əgər işin vəziyyəti aşağıdakı nəticələrə gəlməyə əsas verirsə, icraatın istənilən mərhələsində Məhkəmə şikayəti işlərin siyahısından çıxarmaq barədə qərar qəbul edə bilər:

- şikayətçi daha öz ərizəsinə baxılmasına nail olmaq üçün səy göstərmirsə, və ya;
- məsələ öz həllini tapıbsa, və ya;
- Məhkəmənin müəyyənləşdirdiyi istənilən digər səbəbə görə şikayətə baxışı davam etdirməyə zərurət yoxdursa.

Məsələn, «Aydın Şirinov Azərbaycana qarşı» işində 16 iyul 2003-cü ildə Məhkəmənin katibliyi ərizəçini Hökumətin təqdim etdiyi qeydlərə cavab olaraq 20 sentyabr 2004-cü ilədək yazılı qeydlərini təqdim etməyi bildirmişdir. Ərizəçidən vaxtında cavab alınmadığına görə 12 yanvar 2005-ci ildə Katiblik müraciətini yenidən təkrar etmişdir. Ərizəçi yenə də cavab vermədiyindən, 30 avqust 2005-ci ildə Katiblik ərizəçiyə məktub göndərərək xəbərdarlıq etmişdir ki, müraciətə cavab verməsə və tələb olunan informasiyanı təqdim etməsə, Məhkəmə hesab edəcək ki, o, daha ərizəsinə baxılmasına nail olmaq üçün səy göstərmir. 30 noyabr 2005-ci ildə faksla göndərdiyi məktubda ərizəçinin nümayəndəsi Məhkəməyə məlumat verdi ki, ərizəçi ölkə başçısının 29 dekabr 2003-cü il tarixli əfv fərmanına uyğun olaraq həbsxanadan azad edildiyinə görə ərizəsini geri götürmək istəyir. Məhkəmə isə öz növbəsində Konvensiyada və onun Protokollarında müəyyən edilmiş insan hüquqlarına hörmətlə əlaqədar olaraq ərizəyə baxılmasının davam etdirilməsini tələb edən hər hansı xüsusi halın olmadığı qənaətinə gəlmiş və beləliklə də, ərizənin işlərin siyahısından çıxarılmasını qərara almışdır (5, 327-329).

«Demokratik Fəaliyyət Cəmiyyəti və Zeynilli Azərbaycana qarşı» işində (20 sentyabr 2007-ci il tarixli qərar) Məhkəmə tərəfindən 1 mart 2006-cı il tarixdə ərizəçiyə Hökumətin mülahizələri ilə bağlı yazılı qeydlərini 12 aprel 2006-cı ilə qədər təqdim etməsi barədə məktub göndərilmişdir. Ərizəçi tərəfindən bununla

bağlı Məhkəməyə hər hansı cavab məktubu daxil olmamışdır. 14 sentyabr 2006-cı ildə Məhkəmə məktubunu təkrarlayaraq bildirmişdir ki, əgər tələb olunan məlumat göndərilməsə, Məhkəmə hesab edəcək ki, ərizəçi öz ərizəsini Məhkəmə qarşısında sübut etmək istəmir. Ərizəçi yenə də öz mülahizələrini Məhkəməyə təqdim etməmişdir. Belə olan halda, Məhkəmə qərara gəlmişdir ki, ərizəçi Məhkəmədə ərizəsinə baxılmasına nail olmaq üçün səy göstərmək niyyətində deyil və müvafiq olaraq ərizəni baxılmalı olan işlərin siyahısından çıxarmağı qərara almışdır (5, 347-349).

Lakin heç də ərizəçinin öz ərizəsini geri götürmək istədiyini bəyan etdiyi hər bir halda, Məhkəmə işin siyahıdan çıxarılmasına dair qərar qəbul etmir. Məsələn, «Tayrer Birləşmiş Krallığa qarşı» işində ərizəçi öz ərizəsini geri götürmək istədiyini bildirsə də, Məhkəmə işin siyahıdan çıxarılmasından imtina etmiş və bildirmişdir ki, bütövlükdə ərizədə qaldırılan şikayət ümumi xarakterli olub Konvensiyaya riayət edilməsi məsələsinə toxunduğundan şikayətin araşdırılmasının davam etməsini tələb edir (115, 124).

Beləliklə, əgər, Konvensiya və onun Protokolları ilə təmin olunan insan hüquqlarına riayət olunması bunu tələb edirsə, hətta bəzi hallarda şikayətçinin istəyinə zidd olaraq, Məhkəmə şikayətə baxmaqda davam edir. Bu, Avropa İnsan Hüquqları Məhkəməsinin unikallığını göstərən daha bir mühüm amildir.

Əgər Məhkəmə işin gedişinin buna bəraət qazandırdığını hesab edirsə, şikayətin baxılmalı olan işlərin siyahısına bərpa edilməsi haqqında qərar qəbul edə bilər.

**Şikayətə mahiyyəti üzrə baxılması.** Beləliklə, Məhkəmə bütün ilkin şərtlərin yerinə yetirilməsinə, iş üzrə bütün materialların toplanmasına, heç bir nəticə verməyən işin dostcasına həlli prosedurunun keçirilməsinə əmin olduqdan sonra işə mahiyyəti üzrə məhkəmə dinləmələri prosedurunda baxır. Dinləmələr, adətən, tərəflərin iştirakı ilə keçirilir. Lakin Palata bir sıra hallarda dinləmələrin, tərəflərin iştirakı olmadan keçirilməsi barədə qərar qəbul edə bilər. Bu, həm müraciət edən tərəfin xahişi ilə, həm də tərəflərlə razılaşdırılmaqla Məhkəmənin öz təşəbbüsü ilə ola bilər.

İşlərə ardıcıllıqla baxılır. Lakin Məhkəmə hər hansı işə birincilik qaydasında baxılması haqqında qərar qəbul edə bilər. Məsələn, 25 oktyabr 2005-ci ildə Məhkəmə, Azərbaycana qarşı Məmmədovun (Cəlaloğlunun) ərizəsinə birincilik verilməsini qərara almışdır.

Konvensiyanın 29-cu maddəsinə müvafiq olaraq, əgər 27-ci və 28-ci maddəyə əsasən hər hansı bir qərardad qəbul olunmayıbsa və ya 28-ci maddəyə əsasən heç bir qərar çıxarılmayıbsa, o zaman Palata 34-cü maddəyə uyğun olaraq təqdim edilmiş fərdi şikayətlərin qəbul edilə bilmə meyarına və mahiyyətinə görə

qərar çıxarır. Qəbul edilə bilməyə dair qərardad ayrıca çıxarıla bilər.

Palata 33-cü maddənin müddəalarına müvafiq olaraq dövlətin verdiyi şikayətin qəbul olunması və mahiyyəti üzrə qərar çıxarır. Qəbul edilə bilməyə dair qərar, əgər müstəsna hallarda Məhkəmə başqa cür qərar verməyibsə, ayrıca çıxarılır.

Palatanın səlahiyyətinə həmçinin, yeni açılmış hallar üzrə işə təkrarən baxılması da aiddir. Reqlamentin 42-ci maddəsinə əsasən, Palata tərəflərin xahişi ilə və ya öz təşəbbüsü ilə iki və ya daha artıq işi bir icraatda birləşdirə bilər. Təbii ki, şikayətlərin predmetləri eyni və iş üzrə cavabdeh dövlət də eyni olmalıdır.

Konvensiyanın 40-cı maddəsinə əsasən, Məhkəmə istisna hal kimi digər qərar qəbul etməzsə, onun iclasları açıq keçirilir. Reqlamentin 63-cü maddəsinə əsasən isə, istisna hallarda dinləmələrin açıq keçirilməməsi haqqında qərarı Palata öz təşəbbüsü ilə, iş üzrə tərəflərin, yaxud istənilən maraqlı tərəfin tələbi ilə qəbul edir. Dinləmələr adətən ictimaiyyət üçün açıq olur. Dinləmələrə kütləvi informasiya vasitələri də buraxılır. Televiziya çəkilişi iclasın əvvəlində mümkündür, çəkilişin bütün proses boyu davam etdirilməsi üçün iclasa sədrlik edənin icazəsi lazımdır. Lakin bəzi hallarda ictimaiyyət nümayəndələri (adətən, müxtəlif ölkələrdən olan tələbə-hüquqşünas qrupları və s.), kütləvi informasiya vasitələri prosesə və ya onun bir hissəsinə buraxılmaya bilər. Reqlamentin 63-cü maddəsinin 2-ci bəndinə əsasən, demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik maraqları naminə, habelə yetkinlik yaşına çatmayanların maraqları tələb etdikdə və ya tərəflərin şəxsi həyatının müdafiəsi üçün, yaxud da - Palatanın fikrincə, ciddi surətdə zəruri olan dərəcədə - dinləmələrin açıq keçirilməsinin ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallarda mətbuat və ya ictimaiyyət bütün proses ərzində və ya onun bir hissəsi ərzində dinləmələrə buraxılmaya bilər.

Adətən açıq dinləmələrdən öncə qısa hazırlıq iclası keçirilir və bu iclasda əsasən müvafiq işə baxılması üzrə hakimlərin əlavə təklif və rəyləri öyrənilir. Sonra isə iş üzrə dinləmələr başlayır. İclasa Palatanın Sədri və ya onun müavini rəhbərlik edir. Proses çəkişmə və tərəflərin bərabərliyi prinsiplərinə əsaslanır. Məhkəmənin qarşısında özlərinin vəkilləri və nümayəndələri ilə iki tərəf çıxış edir - şikayətçi tərəf və cavabdeh-dövlət. İddiaçı, Konvensiyanın istənilən iştirakçı-dövlətində vəkillik fəaliyyəti ilə məşğul olan və bu dövlətlərin birinin ərazisində daimi yaşayan şəxs, yaxud Palatanın Sədri tərəfindən təsdiq edilmiş istənilən başqa şəxs tərəfindən təmsil oluna bilər. İddiaçı özü də öz maraqlarını müdafiə edə bilər. Məcburi təmsilçilik hallarında Palatanın Sədri ərizəçinin özünü təmsil etməsinə razılıq verə bilər, bu şərtlə ki, zəruri hallarda o, vəkilin və ya digər təsdiq edilmiş nümayəndənin köməyindən istifadə etsin. Müstəsna hallarda və icraatın

istənilən mərhələsində Palatanın Sədri əgər onun fikrincə, vəkilin və ya digər təsdiq olunmuş nümayəndənin fəaliyyəti belə hesab etməyə imkan verir ki, bu şəxs müraciət edən tərəfi artıq təmsil edə bilmir və ya artıq ona kömək edə bilmir, Palatanın Sədri bu şəxsin iddiaçını artıq təmsil edə bilməməsi və şikayətçinin digər nümayəndə təyin etməsi barədə qərar çıxara bilər. Vəkil və ya digər təsdiq edilmiş nümayəndə, yaxud öz maraqlarını özü müdafiə etmək istəyən ərizəçi Məhkəmənin rəsmi dillərindən (ingilis və fransız) birini kifayət edəcək səviyyədə bilməlidir. Lakin Palatanın Sədri, rəsmi dil olmayan başqa bir dilin (Konvensiyanın üzv-dövlətlərinin rəsmi dillərindən biri) işlədilməsinə razılıq verə bilər. Məhkəmə dinləmələrində ərizəçi ilə, həmçinin onun nümayəndələri ilə ünsiyyət Məhkəmənin rəsmi dillərindən birində aparılır. Lakin Palatanın Sədri prosesi Konvensiyanın iştirakçı dövlətlərinin birinin rəsmi dilində aparılmasına razılıq verə bilər. Əgər belə razılıq verilmişsə, bu halda, ərizəçinin qeyd və fikirlərinin şifahi və ya yazılı tərcüməsini təmin etmək məqsədilə Katib zəruri tədbirlər görür. Konvensiyanın iştirakçı-dövlətləri və ya üçüncü şəxslərlə istənilən ünsiyyət, həmçinin onların fikir və bildirişləri Məhkəmənin rəsmi dillərindən birində olmalıdır. Palatanın Sədri rəsmi olmayan dildən istifadə edilməsinə razılıq verə bilər. Belə razılıq verilibsə, bu halda belə xahişlə müraciət edən tərəf, şifahi və ya yazılı fikir və rəylərin şifahi və ya yazılı formada ingilis və ya fransız dilinə tərcümə edilməsinin təmin edilməsinə cavabdehdir. İstənilən şahid, ekspert, yaxud başqa şəxs iki rəsmi dildən birini kifayət qədər bilmirsə, Məhkəmədə öz ana dilində çıxış edə bilər. Bu halda Katib şifahi və ya yazılı tərcüməni təmin etmək üçün zəruri tədbirləri görür.

İş üzrə tərəfi neçə nəfərin təmsil etməsinə baxmayaraq dinləmələrdə adətən onlardan biri çıxış edir. Hər bir tərəf adətən iki dəfə çıxış edir: şikayətçi tərəfindən şikayətin əsaslandırılması və qarşı tərəfin etirazı, sonra isə deyilənlərə əsasən fikir mübadiləsi. Məhkəmə qarşısına çıxmış hər bir şəxsə hakimlər suallar verə bilər. Əgər tərəf üzürlü səbəb olmadan iclasa gəlməmişsə, bununla belə Palata hesab etsə ki, bu ədalət mühakiməsinin həyata keçirilməsinə zidd deyil, dinləmə keçirilə bilər. Məhkəmə dinləmələri adətən 3-4 saat çəkir.

**Prosesdə üçüncü tərəfin iştirakı.** Konvensiyanın «Üçüncü tərəfin iştirakı» adlanan 36-cı maddəsinə əsasən, Palataların birində və ya Böyük Palatada olan bütün işlərdə vətəndaşı şikayətçi olan Razılığa gələn hər bir Yüksək Tərəfin yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək hüququ vardır. Ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi naminə Məhkəmənin Sədri işdə tərəf olmayan istənilən Razılığa gələn Yüksək Tərəfi və ya şikayətçi olmayan istənilən maraqlı şəxsi yazılı qeydlər təqdim etmək və ya dinləmələrdə iştirak etmək üçün dəvət edə bilər.

Üçüncü tərəf qismində prosesdə iştirak etmək üçün icazə verilməsi haqqında edilən sorğu kifayət qədər əsaslandırılmalı və Məhkəmənin rəsmi dillərindən birində təqdim olunmalıdır. Məhkəmədə üçüncü tərəf kimi dövlətlər, ayrı-ayrı şəxslər, qeyri-hökumət təşkilatları iştirak edə bilərlər.

Prosesdə üçüncü tərəfin iştirakı ilə əlaqədar bir neçə misallar göstərək. Məsələn, «Pretti Birləşmiş Krallığa qarşı» işi üzrə - «Könüllü Evtanaziya Cəmiyyəti» və «İngiltərə və Uelsin Katolik Yepiskopları Konfransı Təşkilatı»; «K.K.C. Niderlanda qarşı» işi üzrə - BMT-nin Qaçqınların işləri üzrə Ali Komissarı və Rusiya Hökuməti; «A. Birləşmiş Krallığa qarşı» işi üzrə - Avstriya, Belçika, Niderland, Fransa, Finlandiya, İrlandiya, İtaliya və Norveç hökumətləri; «Hetton və başqaları Birləşmiş Krallığa qarşı» işi üzrə - «Yer kürəsinin dostları» təşkilatı və «Britaniya aviaxətləri» təşkilatı; «Bleçiç Xorvatiyaya qarşı» işi üzrə - ATƏT-in Bosniya və Hersoqovinadakı nümayəndəliyi prosesdə üçüncü tərəf kimi iştirak etmişlər.

Son dövrlər hüquq müdafiə təşkilatlarının prosesdə üçüncü tərəf kimi iştirakı halları çoxalmışdır. Məsələn, «Makkan və başqaları Birləşmiş Krallığa qarşı», «Con Mürrey Birləşmiş Krallığa qarşı», «Çahal Birləşmiş Krallığa qarşı» işləri üzrə - Beynəlxalq Amnistiya; «Şanaxan Birləşmiş Krallığa qarşı» işi üzrə - Şimali İrlandiya İnsan hüquqları komissiyası; «Nikula Finlandiyaya qarşı», «MC Bolqarıstana qarşı», «İncal Türkiyəyə qarşı» işləri üzrə - «INTERIGHTS» təşkilatı; «Mamatkulov və Abdurəsuloviç Türkiyəyə qarşı» işi üzrə - Beynəlxalq hüquqşünaslar komissiyası dinləmələrdə üçüncü tərəf kimi iştirak edərək özlərinin yazılı qeydlərini təqdim etmişlər (115, 97-101).

Məhkəmə istənilən müvafiq məsələ ilə əlaqədar informasiya almaq, bu barədə öz fikrini bildirmək və ya məruzə hazırlamaq xahişi ilə öz seçimi ilə istənilən şəxsə və ya təşkilata müraciət edə bilər. Məsələn, «Belçika milli polis ittifaqı Belçikaya qarşı» işi üzrə prosesdə Məhkəmə, həmin ittifaqın baş katibini dinləmişdir.

Qeyd etmək yerinə düşərdi ki, Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Palata və Böyük Palatada olan bütün məhkəmə işlərinə dair yazılı şəkildə şərhlər verə və dinləmələrdə iştirak edə bilər.

**İclasın protokolu və dinləmələrin başa çatması**. Palatanın qərarına əsasən, iclasın protokolu Katib tərəfindən hazırlanır. Protokolda əsasən aşağıdakılar qeyd olunur:

- iclas zamanı Palatanın tərkibi;
- Məhkəmə qarşısında çıxış edən şəxslərin siyahısı;
- dinləmələrdə çıxış edən şahidlərin, ekspertlərin və istənilən digər şəxslərin adı, soyadı və şəxsiyyəti haqqında digər məlumatlar;
- proses zamanı verilən bəyanatların, sualların və cavabların məzmunu;

- Palata və ya onun Sədri tərəfindən çıxarılan hər bir qərarın məzmunu.

Əgər protokol bütövlükdə və ya onun bir hissəsi Məhkəmənin rəsmi dillərindən birində tərtib olunmamışsa, bu halda, Palatanın qərarı ilə Katib onun rəsmi dillərdən birinə tərcüməsini təmin edir. Protokolun surətləri Katib və ya Palatanın Sədri ilə razılaşdırılmaqla ona düzəlişlər etmək üçün tərəflərin nümayəndələrinə göndərilir, lakin bu düzəlişlər onun məzmununun mahiyyətinə təsir göstərməməlidir. Bunların hansı müddətdə edilməli olduğunu Katib Palatanın Sədrinin təlimatlarına əsasən müəyyən edir. Həmin düzəlişlərdən sonra protokol Sədr və Katib tərəfindən imzalanır və o, Məhkəmənin rəsmi sənədinə çevrilir.

Dinləmələr başa çatdıqdan sonra Palatanın tərkibi ilk qapalı müzakirə keçirir. Sədr özü, yaxud Katibin və ya məruzəçi-hakimin təqdim etdiyi məruzə əsasında həll olunması tələb olunan məsələləri Sədr müzakirəyə çıxarır. Bəzi vacib məsələlər barədə ilkin səsvermə keçirilə bilər. İkinci müzakirədə isə Katibin və referentin iştirakı ilə redaksiya heyəti (adətən üç hakimdən ibarət olur) tərəfindən hazırlanmış qərarın mətni qəbul olunur. Qərar üzrə yekun səsvermə keçirilir. Səsvermə zamanı hakim bitərəf qala bilməz. Səsvermə zamanı səslərin tənyarı bölündüyü halda, təkrar səsvermə keçirilir, bu da eyni nəticəni verdikdə Sədrin səsi həlledici sayılır. Qərar səs çoxluğu ilə qəbul edilir.

**Yazılı icraat.** Təcrübə göstərir ki, Məhkəmədə baxılan işlərin əksəriyyətinə açıq dinləmələr keçirilmədən, yazılı icraat qaydasında baxılır. Məhz bu cür prosedur Məhkəmənin böyük ərizə axını qarşısında davam gətirməsinə imkan verir. Məhkəmənin əksər işlərə yazılı icraat qaydasında baxması haqqında danışarkən qeyd etmək yerinə düşərdi ki, şikayətin Məhkəmə tərəfindən qəbul olunması və onun qeydiyyata alınması ilə bağlı Məhkəmənin müraciət edən tərəfə göndərdiyi cavab məktubunda əsasən aşağıdakılar qeyd olunur: «Sizin işə Məhkəmə tərəfindən mümkün olan zaman baxılacaqdır. Məhkəmə baxışı əsasən yazılı qaydada keçirilir və prosesdə sizin şəxsən iştirakınız, yalnız sizin Məhkəmə tərəfindən dəvət olunduğunuz halda nəzərdə tutulur. Məhkəmənin qərarı haqqında sizə məlumat veriləcək».

Göründüyü kimi, bu halda Məhkəmənin Katibliyi tərəfindən işin gedişi haqqında yazılı məlumat verildiyi üçün Strasburqa getmək tələb olunmur. Həmçinin, yuxarıda qeyd etdiyimiz kimi, Məhkəmənin qərarı haqqında da tərəfə məlumat verilir.

Yazılı icraat prosedurunda Palatanın birinci iclasında işin halları üzrə ümumi müzakirə keçirilir. Müzakirələr zamanı Palatanın işində iştirak edən hər bir hakim iş üzrə öz fikir və mülahizələrini bildirir. İclasda mütləq qaydada iş üzrə tərəf olan dövlətdən seçilmiş hakim çıxış edir. Müzakirələr başa çatdıqdan sonra bu barədə yekun rəylər və müzakirələrin nəticəsi qeyd olunur və ehtiyac olduqda səsvermə

keçirilir. Palatanın növbəti iclasında isə iş üzrə qərar müzakirə olunur və qəbul edilir. Beləliklə, işə şifahi və ya yazılı icraat qaydasında baxılması, bəzi prosedur xarakterli fərqləndirici cəhətlər istisna olmaqla, demək olar ki, mahiyyət etibarilə eynidir.

**Böyük Palatada icraat.** Böyük Palata Konvensiyanın 26-cı maddəsinin 1-ci bəndi əsasında yaradılır. Palata 17 hakimdən və 3 ehtiyat hakimdən ibarətdir. Bu Palata üç il müddətinə yaradılır. Onun iclaslarına Məhkəmənin Sədri və ya onun müavinlərindən biri sədrlik edir.

Böyük Palatanın tərkibinə Məhkəmənin Sədri, onun müavinləri və seksiyaların Sədrləri daxildir (Reqlamentin 24-cü maddəsi). Bununla yanaşı, Konvensiyanın 26-cı maddəsinin 4-cü bəndinə əsasən, işdə tərəf olan dövlətdən seçilmiş hakim Böyük Palatanın ex-officio üzvü olur.

Böyük Palata əsasən dövlətlərarası işlərə, həmçinin Konvensiya və Reqlamentlə müəyyən edilmiş hallarda fərdi işlərə baxır. Böyük Palata, «Böyük Palatanın xeyrinə yurisdiksiyadan imtina» və «iş üzrə tərəfin tələbi ilə işin Böyük Palataya verilməsi» hallarında işlərə baxır. Əgər Palatanın icraatında olan iş Konvensiyanın və ya onun Protokollarının şərhinə dair ciddi məsələlərə toxunursa, yaxud məsələnin həlli Məhkəmənin əvvəllər çıxardığı qərara zidd ola bilərsə, tərəflərdən heç biri buna etiraz etmədikdə Palata öz qərarını çıxarana qədər istənilən vaxt Böyük Palatanın xeyrinə yurisdiksiyasından imtina edə bilər.

Böyük Palata, Konvensiyanın 30-cu maddəsinin müddəalarına əsasən, Palata yurisdiksiyasından imtina etdikdə və ya 43-cü maddənin müddəalarına müvafiq olaraq iş ona göndərildikdə 33-cü və ya 34-cü maddələrin müddəalarına müvafiq olaraq verilmiş şikayətlər üzrə qərar çıxarır; Nazirlər Komitəsi tərəfindən 46-cı maddənin 4-cü bəndinə əsasən Məhkəməyə göndərilmiş məsələləri həll edir və 47-ci maddənin müddəalarına müvafiq olaraq təqdim edilmiş məsləhət rəyləri çıxarmaq üçün verilmiş xahişlərə baxır.

Palatanın qərar çıxarmasından sonrakı üç ay müddət ərzində iş üzrə istənilən tərəf, müstəsna hallarda, işə baxılmaq üçün Böyük Palataya verilməsi barədə ərizə verə bilər. Əgər iş Konvensiya və onun Protokollarının müddəalarının şərhi və ya tətbiqinə dair ciddi məsələ və ya ümumi xarakterli digər ciddi məsələ qaldırsa, Böyük Palatanın beş hakimdən ibarət komitəsi ərizəni qəbul edir. Komitə tələbi qəbul edirsə, bu halda Böyük Palata qərar çıxarmaqla işi həll edir.

Böyük Palatada icraat prosedur qaydaları Palatada işlərə baxılma proseduru qaydaları ilə eynidir. Belə ki, Reqlamentin 71-ci maddəsinə əsasən, Palatalarda icraat prosedurunu müəyyənləşdirən qaydalar, müvafiq fərqlər nəzərə alınmaqla, *mutatis mutandis* Böyük Palatada icraat proseduruna da tətbiq olunur.

**Məhkəmə köməyi.** Reqlamentin 11-ci fəsli «Hüquqi yardım» adlanır və

100-105-ci maddələr hüquqi yardıma görə ödəniş məsələlərinə həsr olunub. 100-cü maddəyə əsasən, Palatanın Sədri, Konvensiyanın 34-cü maddəsinə əsasən Məhkəməyə müraciət etmiş tərəfə onun öz xahişi ilə və ya öz təşəbbüsü ilə, Reqlamentin 54-cü maddəsinin 2(b) bəndinə əsasən, şikayətin qəbul edilənliyi məsələsi haqqında cavabdeh-dövlətin yazılı izahatlar təqdim etdiyi andan, yaxud bu izahatların təqdim edilməsi üçün müəyyən edilən vaxtın bitdiyi andan ərizəçiyə işlə əlaqədar təmənnasız hüquqi yardım göstərilməsi haqqında qərar verə bilər. Əgər ərizəçiyə belə kömək göstərilməsi haqqında qərar verilibsə, bu qərar işə Böyük Palatada baxılması zamanı da qüvvədə qalır. Bu, əsasən o deməkdir ki, ərizəçiyə müvafiq xərclərin, məsələn, vəkilin və ya nümayəndənin haqqının, yol xərclərinin, yaşayış və digər zəruri xərclərin ödənilməsi üçün müəyyən pul məbləği verilir. Məhkəmə köməyi yalnız o hallarda təqdim olunur ki, Palatanın Sədri əmindir ki:

- bu köməyin göstərilməsi Palatanın icraatında olan işə baxılması üçün vacibdir;

- ərizəçi müvafiq xərclərin bütövlükdə və ya onların bir hissəsinin ödənilməsi üçün kifayət qədər vəsaitə malik deyildir.

Lakin, onu da qeyd etmək lazımdır ki, ona kömək göstərilməsi xahişi ilə Məhkəməyə müraciət etmiş şəxs, müvafiq xərcləri bütövlükdə və ya bir hissəsini ödəmək üçün kifayət qədər vəsaitə malik olmadığını sübuta yetirməlidir. Kifayət qədər vəsaitə malik olmadığını sübuta yetirmək üçün şəxs, orada öz gəlirlərini göstərməklə müvafiq dövlət orqanları tərəfindən təsdiq edilmiş bəyannamə forması təqdim etməlidir. Müvafiq xərclərin ödənilməsi məbləğini Katib müəyyənləşdirir. Bu məbləğ orta hesabla adətən, bir neçə min avro təşkil edir. Qeyd etmək lazımdır ki, vəkilin haqqının ödənilməsi ilə bağlı, həmçinin açıq dinləmələrdə iştirakla bağlı olan xərclər Məhkəmə xərclərinə daxil edilir və sonradan bunlar işi uduzan cavabdeh-dövlət tərəfindən ərizəçiyə ödənilir. Məsələn, «Hacıyev Azərbaycana qarşı» işi üzrə 16 noyabr 2006-cı il tarixli qərarda Məhkəmə, məhkəmə xərclərinə və digər məsrəflərə görə Avropa Şurasından hüquqi yardım qismində alınmış 850 avro bu məbləğdən çıxarılmaqla 2 500 avro təyin etmişdir (6, 661). Yaxud «Məmmədov (Cəlaloğlu) Azərbaycana qarşı» işi üzrə (11 yanvar 2007-ci il tarixli qərar) Məhkəmə ərizəçiyə çəkdiyi məhkəmə xərcləri və məsrəflərinə görə 1 817 avro təyin etmişdir (5, 25-46).

Əgər ərizəçiyə Məhkəmə köməyi təqdim olunmuşsa və Məhkəmə baxışı nəticəsində Konvensiyanın pozulması faktı aşkar edilməmişsə, bu halda ərizəçiyə zəruri xərclərin ödənilməsi üçün təqdim olunmuş müvafiq pul məbləği geri alınmır. Həmçinin də, əgər Məhkəmə köməyinin məbləği müvafiq xərclərin məbləğindən artıq olarsa, bu halda da artıq qalan məbləğ geri alınmır. Lakin əgər,

vurulan ziyana görə təyin olunmuş kompensasiyanın məbləği Məhkəmə köməyi məbləğindən artıqdırsa, bu halda sonuncu məbləğ birincidən çıxarılır.

Konvensiyanın 50-ci maddəsinə əsasən, Məhkəmənin saxlanılması xərcləri Avropa Şurası tərəfindən ödənilir.

Reqlamentin 105-ci maddəsinə əsasən, Palatanın Sədri istənilən vaxt Məhkəmə köməyinin göstərilməsi üçün müvafiq halların artıq mövcud olmadığına əmin olduqda, Məhkəmə köməyi göstərilməsi haqqında qərarı ləğv edə və ya ona dəyişikliklər edə bilər.

**<u>Dövlətlərarası işlərə baxılması qaydası</u>**

Dövlətlərarası işlərlə fərdi şikayətlər arasında müəyyən əsaslı fərqlər olsa da, bu işlərin icraata qəbulu və onlara baxılması qaydaları arasında o qədər də əhəmiyyətli fərqlər yoxdur. Bəzi fərqli xüsusiyyətlər kimi əsasən aşağıdakıları göstərmək olar:

- dövlətlərarası şikayət daha geniş həcmli olmalıdır. Əgər fərdi şikayətlərə dair Reqlamentin 47-ci maddəsində faktların qısa xülasəsinin qeyd olunması göstərilirsə, dövlətlərarası şikayətlərin məzmununa dair 46-cı maddədə «qısa» sözü işlədilmir, faktların xülasəsinin qeyd olunması göstərilir;
- işin öyrənilməsi üzrə bir neçə məruzəçi-hakimin təyin olunması bir qayda olaraq dövlətlərarası işlərə baxılarkən tətbiq olunur;
- şikayətin qəbul olunması haqqında məsələyə birbaşa işə baxılması üçün yaradılan Palata tərəfindən baxılır;
- dövlətlərarası şikayətlərə baxılarkən işin dostcasına həlli prosedurundan imtina edilməsi mümkün deyildir;
- dövlətlərarası işlərə baxılarkən prosesdə hər iki tərəfdən seçilmiş hakim iştirak edir. Əgər şikayət bir neçə dövlət tərəfindən verilibsə onlar ümumi ad hoc hakimin təyin edilməsi barədə razılığa gələ bilərlər.

Reqlamentin 51-ci maddəsinə əsasən, Konvensiyanın 33-cü maddəsinə müvafiq olaraq şikayət verildiyi halda, Məhkəmənin Sədri mümkün olan qısa müddətdə bu barədə cavabdeh-dövlətə məlumat verir və işi seksiyalardan birinə təqdim edir. İş seksiyaya daxil olduqdan sonra seksiya Sədri Reqlamentin 26-cı maddəsində nəzərdə tutulan qaydada Palata təsis edir və şikayətin qəbul olunma məsələsi ilə bağlı yazılı izahatlar təqdim etməyi cavabdeh-dövlətə təklif edir. Alınan izahatlar haqqında Katib müraciət edən dövlətə məlumat verir, o da öz növbəsində buna cavab-izahatlar təqdim edə bilər. Şikayətin qəbul olunub-olunmaması haqqında qərar çıxarılanadək Palata tərəflərə əlavə yazılı izahatlar təqdim etməyi təklif edə bilər. Şikayətin qəbuledilənliyi haqqında dinləmələr, əgər

bunu Konvensiya iştirakçısı olan maraqlı bir və ya bir neçə dövlət tələb edirsə və ya Palata öz təşəbbüsü ilə bu haqda qərar çıxardığı halda, keçirilir. Konvensiyanın 33-cü maddəsinə əsasən verilmiş şikayətin qəbul olunması haqqında Palata qərar çıxarmışsa, bu halda, Palata Sədri Konvensiyanın maraqlı iştirakçı-dövlətləri ilə məsləhətləşmədən sonra, işin mahiyyəti üzrə yazılı izahatlar və istənilən digər əlavə sübutların təqdim edilməsi üçün müddət müəyyən edir. Lakin Sədr maraqlı dövlətlərin razılığı ilə yazılı icraatın keçirilməməsi haqqında qərar çıxara bilər. İşin mahiyyəti üzrə dinləmələr, əgər bunu bir və ya bir neçə maraqlı dövlət tələb edərsə və ya əgər bu haqda Palata öz təşəbbüsü ilə qərar qəbul edərsə keçirilir. Palata Sədri dinləmənin şifahi olmasını müəyyən edir. İclasda Palata, məruzəçi-hakim tərəfindən təqdim olunan məruzələri, sənədləri nəzərə alır.

Göründüyü kimi, işə baxılma prosedurunda dövlətlərarası şikayətlərlə fərdi şikayətlər arasında mahiyyət etibarilə o qədər də fərqli cəhətlər yoxdur.

## 3.3. Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları

### Qərarın məzmunu

Məhkəmənin qərarı kifayət qədər mürəkkəb və məzmunlu bir sənəddir. Reqlamentin «Qərarın məzmunu» adlanan 74-cü maddəsinə əsasən, qərarda aşağıdakılar qeyd edilməlidir:

- Sədrin və Palatanın və ya Komitənin tərkibində olan digər hakimlərin adları və Katibin və ya onun müavininin adı;
- qərarın çıxarılma və elan edilmə tarixi;
- tərəflər haqqında məlumat;
- tərəflərin nümayəndələri, vəkilləri və ya məsləhətçilərinin adları;
- işə baxılma qaydası;
- iş üzrə faktlar;
- tərəflərin dəlilləri;
- hüquqi məsələlər üzrə əsaslandırma;
- nəticə müddəaları;
- xərclərə dair qərar, əgər varsa;
- çoxluq təşkil edən hakimlərin sayı;
- zəruri hallarda, hansı mətnin autentik olduğu haqqında müddəa.

Qərar bir neçə hissədən ibarət olur. Birinci hissədə - «Prosedur» - əsasən, işin qəbul olunma tarixi, şikayətçinin kimliyi və onun fikrincə pozulmuş hüquq və ya hüquqların təsbit olunduğu Konvensiyanın və ya Protokolun (Protokolların) bu və ya digər maddəsi və ya maddələri, işə baxılması üçün təsis edilən Palatanın

və ya Komitənin tərkibi, tərəflərin nümayəndələri haqqında məlumat və s. göstərilir. İkinci hissədə - «Faktlar» - işin hallarının ətraflı şərhi, işə aid olan milli qanunvericilik normaları, şikayətçinin keçdiyi məhkəmə instansiyalarının qərarlarından çıxarışlar və s. göstərilir. Qərarın ən əsas və ən məzmunlu hissəsi «Hüquq» hissəsidir. Burada bütün hüquqi məsələlər əks olunur və araşdırılır. Bu hissənin ən xarakterik xüsusiyyətlərindən biri ondan ibarətdir ki, burada prosesin çəkişmə prinsipi əsasında qurulması aşkar surətdə nəzərə çarpır. Belə ki, hər bir konkret iş üzrə Məhkəmənin həll etməli olduğu hər bir məsələ üzrə əvvəlcə şikayətçinin mövqeyi, sonra cavabdeh-dövlətin mövqeyi, sonra isə bunların əsasında, həmçinin Məhkəmənin öz arqumentləri əsasında Məhkəmənin gəldiyi nəticə əks olunur. Bu hissədə Məhkəmənin həll etməli olduğu hər bir məsələ, xarakterindən asılı olaraq, müvafiq başlıq altında ayrıca yarımhissədə təsbit olunur. Bu yarımhissənin nəticə hissəsində isə bu barədə Məhkəmənin gəldiyi nəticə, yəni bu məsələ üzrə Məhkəmənin qərarı əks olunur. Məsələn, müvafiq yarımhissədə bu qərar və ya bu barədə Məhkəmənin gəldiyi nəticə həll olunan məsələnin xarakterindən asılı olaraq əsasən aşağıdakı kimi göstərilir: «iş üzrə tərəf olan dövlətin bu məsələ üzrə etirazı qəbul olunmur» və ya «Konvensiyanın bu və ya digər maddəsinin pozulması faktı vardır» və s. Sonda isə bütün bunlar ümumiləşdirilərək qərarın nəticəvi hissəsində öz əksini tapır. Qərarın nəticəvi hissəsi ayrıca deyil, «Hüquq» hissəsinin tərkib hissəsi, daha doğrusu sonuncu hissəsi sayılır. Həll edilməli olan müvafiq məsələlər üzrə qərarlar «lehinə» və ya «əleyhinə» səslərin verilməsi ilə göstərilir və ya qərarın yekdilliklə qəbul olunması qeyd olunur. Nəticəvi hissə yekun, son xarakter daşıyır, lakin burada bir istisna hal ola bilər. Bu da kompensasiyanın ödənilməsi ilə bağlıdır, o hallarda ki, onun məbləği şikayətçi tərəfindən kifayət qədər konkretləşdirilməmiş olsun və ya tərəflərin razılığa gəlməsi ehtimalı vardır. Belə olan halda, Məhkəmə qeyd edir ki, məsələ tam həll olunması üçün hazır deyildir və bu haqda qərar təxirə salınır. Məsələn, «Əfəndiyeva Azərbaycana qarşı» işi üzrə 25 oktyabr 2007-ci il tarixli qərarda Məhkəmə 41-ci maddənin tətbiqinin həllinin hələ hazır olmadığını qeyd etmiş, müvafiq olaraq bu məsələnin həllini sonraya saxlamış, Hökuməti və ərizəçini Konvensiyanın 44-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq bu qərarın qəti qərara çevrildiyi tarixdən sonra üç ay ərzində bu məsələ ilə bağlı yazılı qeydlərini təqdim etməyə, xüsusən də əldə etdikləri mümkün razılaşma barədə Məhkəməyə məlumat verməyə çağırmışdır (5, 107-120).

Bəzi hallarda isə, ədalətli kompensasiya ilə bağlı məsələnin həlli ayrıca, kifayət qədər geniş həcmli qərar formasında çıxarılır. Məsələn, 25 iyul 2002-ci ildə Məhkəmə «Sovtransavto holdinq Ukraynaya qarşı» işi üzrə qərar çıxarmışdır. 2 oktyabr 2003-cü ildə isə bu iş üzrə 41-ci maddə ilə bağlı ayrıca qərar çıxarıl-

mışdır (73, 692).

Qeyd etmək lazımdır ki, əsas qərardan əlavə kimi çıxarılan daha bir qərar növü də şərhlə bağlı qərardır. Doğrudur, buna Məhkəmənin təcrübəsində az təsadüf olunur, lakin belə hallar vardır. Reqlamentin 79-cu maddəsinə əsasən, hər bir tərəf, qərar elan edildikdən sonra bir il müddətində onun şərhinə dair Məhkəməyə müraciət edə bilər. Bu barədə müraciət Katibliyə verilir. Müraciətdə qərarın nəticə hissəsinin hansı müddəasına və ya müddəalarına şərhin verilməsi dəqiq göstərilməlidir. Müvafiq Palata öz əvvəlki tərkibində bu məsələyə baxır. Palata öz təşəbbüsü ilə bu işə baxılması üçün kifayət qədər əsaslar olmadığını əsas gətirərək müraciəti rədd edə bilər. Şərhlə bağlı qərara misal olaraq, 1973-cü il tarixli «Ringeyzen Avstriyaya qarşı» işi üzrə qərarı göstərmək olar. İş üzrə əsas qərarında Məhkəmə Konvensiyanın 5-ci maddəsinin pozulması faktını qeyd etmiş və zərərçəkən tərəfə 20 min alman markası məbləğində kompensasiya ödənilməsini müəyyən etmişdir. Bununla əlaqədar ortaya belə bir sual çıxmışdır ki, Məhkəmə tərəfindən müəyyən edilən bu məbləğ şikayətçinin dövlətə olan borclarının məcburi surətdə ödənilməsinə sərf oluna bilərmi? Şərhlə bağlı qərarında Məhkəmə müəyyən etmişdir ki, Konvensiyanın 50-ci maddəsinə (Konvensiyanın 11 saylı Protokolun qüvvəyə minməsinə qədərki redaksiyası nəzərdə tutulur; Konvensiyanın indiki redaksiyasında 41-ci maddə) müvafiq olaraq müəyyən edilmiş kompensasiya bilavasitə zərərçəkən tərəfə ödənilməlidir və hər hansı bir formada müsadirə oluna bilməz.

Konvensiyanın 45-ci maddəsinin 2-ci bəndinə əsasən, əgər qərar bütövlükdə və ya qismən hakimlərin yekdil rəyini ifadə etmirsə, bu halda hər hansı bir hakim özünün xüsusi rəyini bildirə bilər. Bu müddəa Reqlamentdə bir qədər də genişləndirilmişdir. Reqlamentin 74-cü maddəsinin 2-ci bəndinə uyğun olaraq, Palata və ya Böyük Palata tərəfindən işin baxılmasında iştirak edən hər bir hakimin qərarla üst-üstə düşən və ya ondan fərqlənən xüsusi rəyini bildirməyə, ya da xüsusi rəyi olduğunu qeyd etməyə hüququ vardır. Göründüyü kimi, prosesdə iştirak edən hər bir hakim, onun mövqeyinin, əksəriyyətin mövqeyi ilə üst-üstə düşmədiyi hallarda qərara əlavə kimi, ayrıca rəyini bildirə bilər. Bu ayrıca yazılı mövqe qərarın struktur hissəsi sayılmır, ona əlavə hesab olunur, lakin buna baxmayaraq qərarın mətni ilə bərabər dərc olunur. Bununla da, qərarın özü və ona əlavə kimi hakimin ayrıca mövqeyi vahid bir sənəd təşkil edir. Məhkəmə təcrübəsində hakimin çıxarılan qərarla və ya onun bir hissəsi ilə razılaşmadığını bildirən xüsusi rəy və hakimin qərarla razılaşdığı və onun qəbul olunmasına səs verdiyi halda, müəyyən əlavələrin edilməsinin vacibliyini bildirən uyğun (və ya üst-üstə düşən) rəy fərqləndirilir. Bütövlükdə isə, bunlar ayrıca rəy və ya mövqe adlandırılır. Elə işlər olur ki, orada yuxarıda qeyd olunan hər iki rəy növünə rast gəlmək olur. Məsələn,

19 mart 1997-ci il tarixli «Hornsbi (Hornsby) Yunanıstana qarşı» işi üzrə qərarla bağlı hakim Morenillanın uyğun mövqeyi, hakim Pettitinin xüsusi mövqeyi və hakim Valtikosun xüsusi mövqeyi olmuşdur. Bəzi qərarlarda yalnız uyğun və ya yalnız xüsusi rəyə rast gəlinir. Məsələn, 9 fevral 1995-ci il tarixli «Uelç (Welch) Birləşmiş Krallığa qarşı» işi üzrə qərarda yalnız hakim De Meyerin uyğun mövqeyi olmuşdur. Bəzi işlərdə isə hakimin qismən uyğun, qismən isə xüsusi rəyi ilə rastlaşmaq olar. Məsələn, «Slivenko və başqaları Latviyaya qarşı» işi üzrə (9 oktyabr 2003-cü il tarixli qərar) hakim A.Kovler özünün qismən uyğun, qismən xüsusi rəyini bildirmişdir (73, 657-659). Bəzi işlərdə isə bir neçə hakim ümumi birgə mövqedən çıxış edirlər. Məsələn, «Cersild Danimarkaya qarşı» işi üzrə (23 sentyabr 1994-cü il tarixli qərar) hakimlər Rissdal, Bernhardt, Şpilman və Loizu birgə xüsusi rəylə çıxış etmişlər (6, 274). «Həsən və Çavuş Bolqarıstana qarşı» işi üzrə (26 oktyabr 2000-ci il tarixli qərar) hakimlər Tulkens və Kasadevall qismən xüsusi birgə rəylə çıxış etmiş, hakimlər Bonello, Strajniçka, Qreve və Maruste də həmin rəyə qoşulmuşlar (6, 725).

Hakimlərin ayrıca mövqe bildirmək hüququndan və bu sahədə olan təcrübədən danışarkən bir məqamı da xüsusilə vurğulamaq lazımdır ki, bütövlükdə "hakimlərin ayrıca mövqe institutu" Konvensiyanın şərhi prosesində, Məhkəmənin hüquqi mövqelərinin, ümumilikdə Məhkəmə təcrübəsinin formalaşmasında mühüm rol oynamışdır.

Reqlamentə əsasən, hər bir tərəf, yeni açılan hallar olduqda, hansı ki, öz xarakterinə görə həlledici rol oynaya bilərdi və qərar çıxarıldığı zaman Məhkəməyə məlum deyildi, həmçinin müvafiq tərəfə də məlum olması mümkün deyildi, yeni açılan halın (halların) ona məlum olduqdan sonra 6 ay ərzində işə yenidən baxılması üçün Məhkəməyə müraciət edə bilər. Müraciətdə yenidən baxılması üçün sözügedən qərar, həmçinin yuxarıda göstərilmiş şərtlərə əməl edilməsini sübut edən məlumat göstərilməlidir. Müraciətə bunları təsdiq edən bütün sənədlərin toplusu əlavə edilməlidir. Müraciət və təsdiqləyici sənədlər Katibliyə verilir. Əvvəlki tərkibdə olan Palata öz təşəbbüsü ilə işə yenidən baxılması üçün kifayət qədər əsasların olmadığını əsas gətirərək müraciəti rədd edə bilər. Palatanı əvvəlki tərkibdə təsis etmək mümkün olmadığı hallarda, Məhkəmənin Sədri Palatanın tərkibini püşkatma yolu ilə tamamlayır və ya yenidən təşkil edir. Əgər Palata müraciəti qəbul edirsə, bu halda Katib bu barədə qarşı tərəfi (tərəfləri) məlumatlandırır və onlara Palata Sədri tərəfindən müəyyən edilmiş müddətdə öz yazılı bildirişlərini təqdim etməyi təklif edir. Əgər Palata dinləmələrin keçirilməsini qərara alırsa, bu halda onun keçirilməsi tarixini Palatanın Sədri müəyyənləşdirir. Bütövlükdə məsələ bu barədə qərar çıxarılmaqla Palata tərəfindən həll olunur.

Məhkəmənin qərarı Palatanın və ya Komitənin sədri və Katib tərəfindən

imzalanır. Qərar açıq dinləmələrdə Palatanın və ya Komitənin sədri və ya buna səlahiyyətli digər hakim tərəfindən elan olunur. Qərarda, onun Strasburqda, İnsan Hüquqları Sarayında elan olunması qeyd edilir. Tərəflərin rəsmi nümayəndələri və onları təmsil edən digər şəxslər dinləmənin keçirilməsi haqqında əvvəlcədən məlumatlandırılır. Qərarın Nazirlər Komitəsinə, həmçinin iş üzrə tərəflərə göndərilməsi də qərarın elan edilməsi hesab olunur. Katib qərarın təsdiq olunmuş surətini tərəflərə, Avropa Şurasının Baş Katibinə, üçüncü tərəflərə və bunda bilavasitə maraqlı digər şəxslərə göndərir. İmzalanmış və möhürlənmiş qərarın əsli isə Məhkəmənin arxivində saxlanılır. Qərar, Məhkəmənin qərarın hər iki rəsmi dildə çıxarılmasını müəyyən etdiyi hallar istisna olmaqla, ingilis və ya fransız dilində çıxarılır. Elan edilmiş qərarlar ictimaiyyət üçün açıqdır. Məhkəmənin rəsmi nəşrində qərarlar hər iki rəsmi dildə dərc olunur.

Məhkəmənin qəti qərarları, Konvensiyanın 44-cü maddəsinin 3-cü bəndinə əsasən dərc olunur və bu işin müvafiq formada həyata keçirilməsinə Katib cavabdehdir. Bundan başqa, Katib seçilmiş qərarların rəsmi məcmuələrinin, həmçinin Məhkəmə Sədrinin məqsədəmüvafiq hesab etdiyi digər sənədlərin dərc olunmasına da cavabdehdir.

Eyni zamanda Məhkəmənin bütün qərarları ilə «HUDOC» normativ bazası vasitəsilə Məhkəmənin rəsmi internet səhifəsində tanış olmaq olar (www.echr.coe.int).

## Pilot-qərar proseduru

Avropa Məhkəməsinin qərarlarından danışarkən son dövrlər tətbiq olunan pilot-qərarı prosedurunu da qeyd etmək lazımdır. Son illər Avropa Məhkəməsi eyni problemlərdən irəli gələn işlərin həll edilməsi vasitəsi kimi pilot-qərar prosedurunu tətbiq etməyə başlamışdır. Prosedurun əsas mahiyyəti ondan ibarətdir ki, Məhkəməyə eyni məsələdən irəli gələn çoxlu sayda şikayət daxil olduqda, Məhkəmə, onlardan birini və ya bir neçəsini prioritet baxılma üçün seçə bilər. Seçilmiş iş və ya işləri həll edərkən, Məhkəmə, konkret işdən (işlərdən) kənara çıxan həll yolunu axtarır ki, eyni məsələdən ortaya çıxmış bütün oxşar işləri əhatə etsin. Prosedurun mühüm xüsusiyyətlərindən biri bütün başqa müvafiq işlərin baxılmasının müəyyən müddətə təxirə salınmasının və ya «dondurulmasının» mümkünlüyüdür. Bu, milli hakimiyyət orqanlarını zəruri tədbirlər görməyə həvəsləndirən əlavə vasitədir. Təxirə salınma müddəti cavabdeh-dövlətin pilot qərardan irəli gələn öhdəliklərin icrasından asılıdır. Eyni zamanda vurğulanmalıdır ki, ədalət mühakiməsinin maraqları tələb etdikdə, Məhkəmə istənilən vaxt təxirə salınmış işin baxılmasını bərpa edə bilər.

Avropa Məhkəməsi bu prosedurdan 2004-cü ildə ilk pilot qərarını qəbul etdikdən sonra istifadə etməyə başlamışdır. Polşa ilə bağlı ilk pilot-qərar proseduru cavabdeh-dövlət tərəfindən zəruri tədbirlərin, əsasən də qanunvericilik tədbirlərinin həyata keçirilməsi ilə uğurla nəticələnmişdir.

Pilot-qərar proseduru son illər Məhkəmənin iş yükünün həddindən artıq artması nəticəsində meydana çıxan bütün problemlərin həlli yolu olmasa da, iş yükünün müəyyən dərəcədə yüngülləşməsi və təkrar şikayətlərin əsasında duran problemlərin həllinə xidmət edən əhəmiyyətli prosedurdur.

## Qərarların hüquqi qüvvəsi və icrası

Avropa Məhkəməsinin qərarlarının hüquqi qüvvəsindən danışarkən qeyd etmək lazımdır ki, Məhkəmənin qəti qərarları iş üzrə tərəf olan dövlətlər üçün məcburi xarakter daşıyır.

Beynəlxalq hüquq ədəbiyyatında Avropa Məhkəməsinin qərarlarının məcburi presedent xarakterinə malik olması ilə bağlı fikir ayrılığı mövcuddur. Məsələn, hüquq elmləri doktoru, professor L.Hüseynov qeyd edir ki, formal olaraq presedent sayılmasa da, Avropa Məhkəməsinin qərarlarına həm Məhkəmənin özünün və digər müvafiq beynəlxalq orqanların, həm də milli məhkəmələrin praktikasında bu və ya digər işlərin həllində geniş istinad edilir (19, 193). Bəzi ədəbiyyatlarda göstərilir ki, Məhkəmənin presedentləri məcburi hüquqi qüvvəyə malikdir və onların hüquqi statusu məcburi hüquqi normaların statusuna bərabərdir (23, 131). Hüquq üzrə fəlsəfə doktoru V.İbayev qeyd edir ki, Konvensiyanın 32-ci maddəsi Avropa Məhkəməsinin qərarlarının presedent əhəmiyyətinə malik olmasına zəmin yaradır. Həmin maddəyə müvafiq olaraq, Məhkəmənin Konvensiyanın hər hansı maddəsi ilə bağlı verdiyi şərh həmin maddənin tərkib hissəsinə çevrilir və ona görə də, məcburi hüquqi qüvvə kəsb edir. Milli məhkəmələr üçün həmin presedentlərin mahiyyəti ondan ibarətdir ki, məhkəmələr onu əvvəllər Avropa Məhkəməsi tərəfindən baxılan işlərə bənzər işlərdə tətbiq etməlidirlər. Milli qanunverici və məhkəmə orqanları həmin qərarları qanunyaradıcılıq və Konvensiyanın hər hansı tətbiqi prosesində nəzərə almalıdırlar. Avropa Məhkəməsinin presedentlərini Konvensiya müddəalarının şərhi kimi qəbul etsək, onlar müstəsna əhəmiyyət kəsb edirlər, çünki, göstərilən şərhlərə Konvensiyanın tərkib hissəsi kimi baxılmalıdır. Bütün bu deyilənlərlə bağlı V.İbayev belə bir nəticəyə gəlir ki, Azərbaycan Respublikasında bütün məhkəmələr Konstitusiyanın 12-ci maddəsinə müvafiq olaraq, insan və vətəndaş hüquqlarını Konvensiyanın mətni ilə yanaşı, həmçinin Strasburq Məhkəməsinin qərarlarında ona verilən şərhə uyğun tətbiq etməlidir (22, 20-22).

Göstərilən fikirlərlə müəyyən qədər razılaşaraq qeyd etmək lazımdır ki, hazırda Konvensiyanın maddi hüquq normaları Avropa Məhkəməsinin şərh etdiyi qaydada tətbiq edilir. Yəni, milli səviyyədə hüquq tətbiqedən orqanlar Konvensiyanı Avropa Məhkəməsinin qərarlarını, şərhlərini, Avropa Məhkəməsinin təcrübəsində formalaşan Məhkəmənin hüquqi mövqelərini nəzərə alaraq tətbiq etməlidirlər.

Bununla yanaşı hesab edirik ki, Avropa Məhkəməsinin qərarlarının məcburi presedent xarakterinə malik olub-olmaması məsələsinin araşdırılmasına ehtiyac vardır.

Geniş mənada presedent deyəndə bu və ya digər situasiyada əvvəl baş verən hal və onun təkrarlanacağı halında necə hərəkət etməli olduğunu bildirən nümunə başa düşülür. Əgər presedent məhkəmə işinə aiddirsə bu zaman o, məhkəmə presedenti formasını alır. Məhkəmə presedenti dedikdə isə, analoji işlər üzrə aşağı məhkəmələr üçün məcburi olan yeni hüquq norması yaradan yuxarı məhkəmənin konkret iş üzrə qərarı başa düşülür. Məhkəmə presedenti hüququn mənbəyi kimi aşağıdakı xüsusiyyətlərə malikdir:

- konkret işə baxılması nəticəsində yaranır;
- özündə hüquq normasını ehtiva edir və bunun da nəticəsində aşağı məhkəmələr özlərinin sonrakı qərarlarında ona istinad edir;
- bütün məhkəmə instansiyaları tərəfindən tətbiqi məcburidir.

Başqa sözlə məhkəmə presedenti özündə fərdilik, normativlik və ümummədburilik kimi əlamətləri cəmləşdirir (83, 50 ).

Qeyd olunan məsələnin araşdırılması zamanı meydana bir neçə sual çıxır: Avropa Məhkəməsinin qərarları beynəlxalq hüququn mənbəyi hesab oluna bilərmi?

Avropa Məhkəməsi Avropa İnsan Hüquqları Konvensiyasına əsaslanır və onu tətbiq edir. Konvensiya beynəlxalq hüququn bilavasitə mənbəyidirsə, belə olan halda, Avropa Məhkəməsinin qərarları beynəlxalq hüququn törəmə mənbəyi kimi çıxış edir.

Yaxud belə bir sual yaranır: Avropa Məhkəməsi beynəlxalq ədalət mühakiməsini həyata keçirərkən beynəlxalq hüquq normaları yaradırmı? Məlumdur ki, beynəlxalq sistemdə dövlətdaxili sistemdən fərqli olaraq dövlətlər üçün məcburi normalar müəyyən edən qanunverici orqan yoxdur. Yəni, beynəlxalq hüquq normaları beynəlxalq hüququn əsas subyektləri olan dövlətlər tərəfindən yaradılır.

Fikrimizcə, Avropa Məhkəməsi hüquq norması yaratmır, yalnız Avropa Konvensiyasında və əlavə Protokollarda təsbit olunmuş normaları tətbiq edir, yəni bu ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanı hüquqyaratma ilə deyil, hüquq tətbiqetmə ilə məşğul olur. Avropa Məhkəməsinin əsaslandığı Avropa İnsan Hü-

quqları Konvensiyası Məhkəməyə hüquqyaratma ilə bağlı hər hansı səlahiyyət verməmişdir. Konvensiyanın 32-ci maddəsinə əsasən, Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhi və tətbiqinə dair məsələlər Məhkəmənin səlahiyyətindədir. Məhkəmənin hüquqyaratma fəaliyyəti ilə məşğul olması nəinki Konvensiyaya, həmçinin beynəlxalq hüququn ümumtanınmış prinsiplərindən biri olan dövlətlərin suverenliyi prinsipinə zidd olardı (83, 71).

Avropa Məhkəməsinin qərarlarının presedent xarakterinə malik olub-olmaması məsələsinə gəlincə isə, qeyd edilməlidir ki, birincisi, Avropa Məhkəməsinin özü də öz qərarları ilə bağlı deyildir. İkincisi, Məhkəmənin qərarları hüquq norması yaratmır, onlar yalnız Konvensiyanın tətbiqi və təfsiri aktlarıdır. Yəni, Avropa Məhkəməsinin məqsədi presedent yaratmaq deyil, sadəcə Konvensiyaya uyğun olaraq müəyyən bir hüquq standartının mövcudluğunun konstatasiyasıdır. Təbii ki, Avropa Məhkəməsinin qərarları milli məhkəmələr üçün presedent qismində çıxış etmir, onlar subsidiar və müəyyən qədər tövsiyə xarakterlidir. Yəni bu qərarlar daha çox Məhkəmənin müasir dövrdə Konvensiyanın müddəalarını necə başa düşdüyünü əks etdirir.

Bir məqamı da qeyd etmək zəruridir ki, hüquq norması yaratmasa da, belə bir fikir irəli sürmək olar ki, Konvensiyanın normalarını şərh edərkən Məhkəmə milli hüquq tətbiq edən orqanlar üçün əhəmiyyətli olan xüsusi növ normalar – yəni təfsir xarakterli normalar yaradır. Məhkəmənin Konvensiyanın normalarının şərhi verilən və özünün də istinad etdiyi qərarları isə təfsir xarakterli presedentlər adlandırmaq olar. Yeni norma yaradan məhkəmə presedentindən fərqli olaraq təfsir presedentləri mövcud normanın analoji işlər üzrə tətbiqinin izahına yönəlmişdir. Təfsir presedentləri işlərə baxılması prosesində məhkəmələr tərəfindən nəzərə alınmaqla bütövlükdə məhkəmə fəaliyyətinin təkmilləşməsinə, analoji işlər üzrə normanın dəfələrlə tətbiqi prosesində hüquq normasının mahiyyətinin və məzmununun açılmasına və konkretləşdirilməsinə yardımçı olur (83, 386-387).

Hüquq normasının düzgün tətbiqinin nümunəsi olmaqla təfsir presedenti işin düzgün həllinə də öz töhfəsini verir. Eyni zamanda qeyd etmək lazımdır ki, təfsirin presedent xarakteri alması üçün onun analoji işlər üzrə dəfələrlə tətbiqi zəruridir.

Beləliklə, Avropa Məhkəməsinin qərarları hüquqyaratma deyil, hüquq tətbiqetmə fəaliyyətinin nəticəsidir və buna görə də onlar yeni norma doğura bilməzlər. Bu mövqedən çıxış edərək belə qənaətə gəlmək olar ki, «Avropa Məhkəməsinin presedent hüququ» ifadəsinin əvəzinə «Avropa Məhkəməsinin təcrübəsi» ifadəsinin işlədilməsi hüquqi baxımdan daha məqsədəmüvafiq olardı. Bundan başqa Avropa Məhkəməsi üçün «əsas qanun» olan Avropa İnsan Hüquqları Konvensiyası onun qərarlarının presedent xarakterli olmasını deməyə əsas

vermir. Belə ki, Konvensiyanın 46-cı maddəsinə əsasən iştirakçı-dövlətlər Məhkəmənin onların tərəf olduqları işlər üzrə qəti qərarını icra etməyi öhdələrinə götürürlər. Bu əsasən o deməkdir ki, Məhkəmənin qərarı yalnız konkret işin tərəfləri üçün məcburi qüvvəyə malikdir və digər subyektlər üçün hər hansı bir hüquqi nəticə doğurmur.

Qeyd etmək lazımdır ki, Məhkəmə özü bəzən ingilis dilindən «presedent hüququ» kimi tərcümə olunan «case law» terminindən, yaxud fransız dilindən «məhkəmə təcrübəsi» kimi tərcümə olunan «jurisprudence» terminindən istifadə edir. Yaxud 14 saylı Protokolun 8-ci maddəsində, və ya Konvensiyanın 14 saylı Protokolun qüvvəyə minməsindən sonrakı yeni redaksiyasında 28-ci maddədə ingilis dilində olan mətnində «case law» terminindən, fransız mətnində isə «jurisprudence» terminindən istifadə edilmişdir. Protokolun Azərbaycan dilinə tərcüməsində də «presedent hüququ» terminindən istifadə edilmişdir. Məhkəmə tərəfindən bu iki terminin eyniləşdirilməsi nə dərəcədə doğrudur?

Qeyd etmək lazımdır ki, bu terminləri qətiyyən eyniləşdirmək olmaz. Kontinental hüquq sistemində «presedent» termini əvəzinə daha çox «məhkəmə təcrübəsi» terminindən istifadə olunur. Öz növbəsində «məhkəmə təcrübəsi» terminini geniş və dar mənada şərh etmək olar. Geniş mənada o, bütövlükdə «məhkəmə fəaliyyəti» termininin sinonimi kimi qəbul edilir. Dar mənada isə məhkəmə fəaliyyəti nəticəsində yaranan və müəyyən qədər ümumiləşdirmə və məcburilik kimi xassələrə malik olan qaydalar, definisiyalar kimi başa düşülür. Məhkəmə presedenti və təcrübəsi terminlərinin tamamilə eyniləşdirilməsi yolverilməzdir, çünki onların fərqli mənaları var. Məhkəmə presedenti deyəndə, ilk növbədə, yeni normanın yaradılması nəzərdə tutulur. Məhkəmə təcrübəsi isə, əsasən, qanunvericiliyin tətbiqi məsələlərini öyrənir və ümumiləşdirir. Məhkəmə təcrübəsi hüquq tətbiqetmə prosesidir, məhkəmə presedenti isə bu prosesin yekunudur. Daha bir fərqli cəhət ondan ibarətdir ki, məhkəmə təcrübəsi bütün məhkəmələrin fəaliyyətini əhatə etdiyi halda, məhkəmə presedenti yalnız yuxarı məhkəmələri əhatə edir. Göründüyü kimi, terminoloji və məzmun baxımından bu iki termin heç də üst-üstə düşmür (83, 283).

Azərbaycan kontinental hüquq sisteminə daxil olduğundan 14 saylı Protokolun Azərbaycan dilinə tərcümə olunmuş variantında, həmçinin Konvensiyanın yeni redaksiyada olan mətnində «presedent hüququ» termini əvəzinə «məhkəmə təcrübəsi» ifadəsinin işlədilməsi, zənnimizcə, daha doğru olardı.

Mahiyyət etibarilə, Məhkəmənin qərarları deklarativ xarakter daşıyır. Bu fikri Məhkəmənin özü də çoxsaylı qərarlarında təsdiq edir (məsələn, «Tarverdiyev Azərbaycana qarşı» işi üzrə Avropa Məhkəməsinin 26 iyul 2007-ci il tarixli qərarı. 5, 80). Ümumiyyətlə, Konvensiyanın 46-cı maddəsində nəzərdə tutulmuş hüquqi

öhdəliyini yerinə yetirmək üçün daxili hüquq sistemindəki vasitələrdən hansını seçib istifadə etmək, ilk növbədə, müvafiq dövlətin öz işidir.

Məsələn, «Marks Belçikaya qarşı» işi üzrə 13 iyun 1979-cu il tarixli qərarında Məhkəmə qeyd etmişdir ki, Məhkəmənin qərarı əsas etibarilə deklarativ xarakter daşıyır və qərarın icrası üçün hansı vasitələrdən istifadə edilməsini iştirakçı-dövlətlərin öz ixtiyarına buraxır (69, 231).

Yeri gəlmişkən qeyd edək ki, Məhkəmə cavabdeh-dövlətə konkret göstərişlər vermək səlahiyyətinə malik deyil. Hesab edirik ki, bu onun zəif cəhətlərindəndir.

Avropa Məhkəməsi işin mahiyyəti üzrə iki növ qərar qəbul edir: birinci növ qərarda Məhkəmə hüquq pozuntusunun bəyan edilməsi ilə kifayətlənir və bu növ qərar deklarativ xarakter daşıyır. Lakin bu heç də o demək deyil ki, Məhkəmənin deklarativ qərarı iş üzrə tərəf olan dövlət üçün məcburi öhdəlik müəyyən etmir. Bəzi hallarda deklarativ qərarlar müvafiq dövlətin üzərinə daha artıq öhdəlik qoyur, nəinki ədalətli kompensasiya təyin edilən qərarlar. Məsələn, «Tarverdiyev Azərbaycana qarşı» işi üzrə Avropa Məhkəməsinin qərarı deklarativ xarakterli olsa da, həmin qərarda Məhkəmə dövlətin üzərinə milli məhkəmənin qərarının icrası vəzifəsini qoymuşdur (5, 80). Deklarativ qərarlar iş üzrə tərəf olan dövlətin üzərinə pozuntunu aradan qaldırmaq, pozulmuş hüquqları bərpa etmək və mümkün dərəcədə vəziyyəti əvvəlki kimi bərpa etmək (restitutio in integrum) öhdəliyi qoyur.

İkinci növ qərarlarda Məhkəmə cavabdeh-dövlətin üzərinə zərərçəkən tərəfə ədalətli kompensasiya ödənilməsi öhdəliyini qoyur.

Konvensiyanın 41-ci maddəsinə müvafiq olaraq, dövlət tərəfindən Konvensiyada nəzərdə tutulan hər hansı insan hüququnun pozulduğunu aşkar etdikdə, Məhkəmə öz qərarı ilə zərərçəkmiş tərəfə «ədalətli kompensasiya» təqdim edir. Həmin maddədə deyilir: «Əgər Məhkəmə Konvensiya və onun Protokollarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə ədalətli kompensasiya təyin edir». Bu əsasən, o deməkdir ki, Məhkəmə dövlətin üzərinə zərərçəkən şəxsə dəymiş maddi və (və ya) mənəvi zərəri ödəmək vəzifəsini qoyur. Lakin Məhkəmə dövlətin üzərinə belə bir vəzifə qoymaya da bilər; məsələn, bəzi hallarda hüquq pozuntusu faktının Məhkəmə tərəfindən bəyan edilməsinin özü «ədalətli kompensasiya» hesab olunur. Məsələn, «Çahal Birləşmiş Krallığa qarşı» işi üzrə 15 noyabr 1996-cı il tarixli qərarında Məhkəmə baş vermiş pozuntuların bəyan edilməsinin mənəvi zərərin əvəzinin ödənişi üçün kifayət etdiyini qeyd etmişdir (6, 308-354).

Məhkəmə təcrübəsindən çıxış edərək qeyd etmək olar ki, fikrimizcə Məhkə-

mə bəzi qərarlarında ədalətli kompensasiyanın *sui generis* növünü müəyyən etmişdir. Belə ki, «Tarverdiyev Azərbaycana qarşı» işi üzrə qərarında (26 iyul 2007-ci il) Məhkəmə 6-cı maddənin pozulması ilə bağlı ədalətli kompensasiya qismində dövlətin üzərinə milli məhkəmə qərarının icra edilməsi öhdəliyini qoymuşdur. Qərarın Konvensiyanın 41-ci maddəsinin tətbiqi ilə bağlı hissəsində Məhkəmə qeyd etmişdir ki, 6-cı maddənin pozulması ilə bağlı kompensasiyanın ən məqsədəuyğun forması mümkün qədər tez zamanda 6-cı maddənin tələblərinə riayət edərək ərizəçinin pozulmuş hüquqlarını təmin etməkdir. Məhkəmə qərara almışdır ki, Hökumət milli məhkəmənin 20 avqust 2001-ci il tarixli qətnaməsinin icrasını müvafiq vasitələrlə təmin etməlidir. Bununla da Məhkəmə dövlətin üzərinə milli məhkəmənin qərarının icrası vəzifəsini qoymuşdur.

Ədalətli kompensasiya özündə mənəvi zərəri, maddi ziyanı və məhkəmə xərclərini ehtiva edir. Məhkəmə bunlardan biri, ikisi və ya hər biri haqqında ayrı-ayrılıqda kompensasiya təyin edə bilər. Məsələn, «Bouman Birləşmiş Krallığa qarşı» işi üzrə 19 fevral 1998-ci il tarixli qərarında Məhkəmə pozuntu faktının etiraf edilməsinin ərizəçiyə dəyən mənəvi zərərin ədalətli ödənişi olduğu qənaətinə gəlmiş, eyni zamanda məhkəmə xərcləri və məsrəflərinə görə 26.633 ingilis funtu təyin etmişdir.

Məhkəmə xərcləri və digər məsrəflər faktiki və zəruri olaraq çəkilməyibsə və onların məbləği ağlabatan deyilsə, onda 41-ci maddəyə əsasən onların əvəzinin ödənilməsi təyin oluna bilməz.

Qeyd etmək lazımdır ki, Məhkəməyə müraciət edən tərəf ədalətli kompensasiya haqqında tələbi müraciət ərizəsində göstərməlidir. Təsadüfi deyildir ki, Məhkəməyə rəsmi müraciət anketinin beşinci bölməsində ərizəçi, Konvensiyanın 41-ci maddəsinə müvafiq olaraq, ədalətli kompensasiya üzrə almaq istədiyi ümumi tələbi bildirməlidir. Reqlamentin 60-cı maddəsinə əsasən, Məhkəmə, Konvensiya ilə təmin olunmuş hüquqlarının pozulmasına dair qənaətə gəldiyi halda, əgər ərizəçi, Konvensiyanın 41-ci maddəsinə əsasən ədalətli kompensasiyanın ona ödənilməsini istəyirsə, bununla bağlı konkret tələblər irəli sürməlidir. Əks təqdirdə Məhkəmə ədalətli kompensasiyanı təyin etməyə bilər. Məsələn, «Ryabıx Rusiya Federasiyasına qarşı» işində (24 iyul 2003-cü il tarixli qərar), ərizəçi Məhkəmənin müəyyən etdiyi müddətdə ədalətli kompensasiya haqqında tələbini irəli sürmədiyindən, Məhkəmə Konvensiyanın 41-ci maddəsinə uyğun olaraq, ədalətli kompensasiya təyin etməkdən imtina etmişdir.

Əgər kompensasiya haqqında tələb irəli sürülmüşsə və Məhkəmə Konvensiyanın bu və ya digər maddəsinin (maddələrinin) pozulduğunu müəyyən etmişsə, bu halda:

- əgər kompensasiya haqqında məsələ tam aydındırsa, Məhkəmə işin

mahiyyəti üzrə çıxardığı qərarda Konvensiyanın 41-ci maddəsinin tətbiq olunması haqqında qərarını da göstərir;

- əgər kompensasiya haqqında məsələ tam aydın deyilsə, bu haqda qərar təxirə salınır və bununla bağlı Palata tərəfindən gələcək prosedur müəyyən olunur. Məsələn, «Akimova Azərbaycana qarşı» işi üzrə (27 sentyabr 2007-ci il tarixli qərar) Məhkəmə, 41-ci maddənin tətbiqi məsələsinin həll olunmaq üçün hələ hazır olmadığı qənaətinə gəlmiş və bu məsələni bütövlükdə təxirə salmışdır. Yaxud, «Əfəndiyeva Azərbaycana qarşı» işi üzrə 25 oktyabr 2007-ci il tarixli qərarda Məhkəmə 41-ci maddənin tətbiqinin həllinin hələ hazır olmadığını qeyd etmiş və müvafiq olaraq bu məsələnin həllini sonraya saxlamışdır.

Əgər Məhkəmə ədalətli kompensasiyanın təyin edilməsinə ayrıca baxmaq qənaətinə gələrsə, belə olan halda, Palata, işə mahiyyəti üzrə baxılmasında iştirak edən hakimlərdən təşkil olunur. Bu mümkün olmadıqda, Məhkəmənin Sədri Palatanı komplektləşdirir və ya Palatanı püşkatma yolu ilə təsis edir. Kompensasiya ilə bağlı zərərçəkmiş tərəflə müvafiq dövlət arasında razılaşma əldə olunarsa, Məhkəmə bu razılaşmanın ədalətli xarakterli olmasına əmin olduqdan sonra, işi siyahıdan çıxarır. Kompensasiyanın təqdim edilib-edilməməsi haqqında məsələni Məhkəmə həll edir. Kompensasiyanın məbləği də maddi və mənəvi zərər nəzərə alınmaqla Məhkəmə tərəfindən müəyyən edilir. Mənəvi zərəri müəyyən edərkən bəzi hallarda Məhkəmə əvvəllər çıxardığı analoji qərarlara müraciət edir. Məsələn, 1998-ci il «Larissisa və başqaları Yunanıstana qarşı» işi üzrə, Məhkəmə ərizəçilərə dəymiş mənəvi zərəri müəyyən edərkən 1993-cü ildə oxşar iş üzrə çıxardığı qərarına müraciət etmişdir (150, 44).

Qeyd edildiyi kimi, kompensasiyanın məbləği Məhkəmə tərəfindən müəyyən edilir. Məhkəmə zərərçəkmiş tərəfə dəymiş mənəvi zərərin ödənilməsi kimi hüququn pozulması faktının bəyan edilməsini göstərdiyi hallarda, işlə bağlı rüsum və xərclər zərərçəkmiş tərəfə ödənilir. Əksər hallarda ədalətli kompensasiya müxtəlif pul məbləğlərində təzahür edir. Kompensasiya üç ay müddətində ödənilməlidir. Üç aylıq müddət bitdikdən sonra öhdəlik icra edilənə qədər ödənilməli məbləğin üzərinə Avropa Mərkəzi Bankındakı borc dərəcəsinin yuxarı həddinə bərabər olan adi faiz məbləği və onun da üzərinə daha üç faiz əlavə olunur.

Qeyd etmək lazımdır ki, Məhkəmə, Konvensiyanın pozulması nəticəsində zərərçəkmiş tərəfə dəymiş maddi və ya mənəvi zərərlə bağlı kompensasiyanı (müəyyən pul məbləğini), zərərçəkmiş tərəfin Konvensiya ilə nəzərdə tutulan pozulmuş hüquq və ya hüquqlarının milli məhkəmələr və Avropa Məhkəməsi tərəfindən müdafiəsi məqsədilə çəkdiyi xərcləri (məhkəmə xərcləri) bir-birindən fərqləndirir. Belə ki, Məhkəmə müvafiq qərarında zərərçəkmiş tərəfə maddi və ya mənəvi zərərin ödənilməsi ilə bağlı müəyyən pul məbləğinin ödənilməsini və

zərərçəkmiş tərəfin məhkəmə rüsumları ilə bağlı xərclərinin ödənilməsini ayrı-ayrılıqda göstərir. Məsələn, «Nəsibova Azərbaycana qarşı» işi üzrə 18 oktyabr 2007-ci il tarixli qərarında Məhkəmə, cavabdeh-dövlət tərəfindən mənəvi ziyana görə 1 000 avro, məhkəmə xərclərinə və digər məsrəflərə görə 2 000 avro ödənilməsini müəyyən etmişdir (5, 95-106).

Ərizəçi tərəfindən maddi ziyanın ödənilməsinə dair tələb irəli sürüldükdə Məhkəmə maddi ziyanla bağlı müvafiq sənədlər və sübutlar təqdim etməyi tələb edir. Məsələn, «Ramazanova və başqaları Azərbaycana qarşı» işində ərizəçilər 25 000 avro məbləğində maddi ziyanın ödənilməsini tələb etmişlər. Məhkəmə isə öz növbəsində qeyd etmişdir ki, ərizəçilər maddi ziyanla bağlı şikayəti müvafiq sənədlər və sübutlarla əsaslandırmayıblar (5, 47-67).

Beləliklə, ədalətli kompensasiyanın əsas məqsədi zərərin nəticəsini başqa cür aradan qaldırmaq mümkün olmadıqda hüquq pozuntusu nəticəsində şikayətçiyə dəyən zərərə (həm maddi, həm də qeyri maddi xarakterli) mümkün qədər uyğun şəkildə əvəzin ədalətli şəkildə ödənməsindədir. Avropa Məhkəməsi tərəfindən kompensasiya bütün hallarda deyil, «zəruri olan hallarda» təqdim olunur və həmin zəruriliyin müəyyənləşdirilməsi Avropa Məhkəməsinin özünün mülahizələrindən asılıdır.

## Qərarların icrası

Konvensiyanın «Qərarların məcburi qüvvəsi və icrası» adlanan 46-cı maddəsinə əsasən, Razılığa gələn Yüksək Tərəflər, Məhkəmənin onların tərəf olduqları işlər üzrə qəti qərarını icra etməyi öhdələrinə götürürlər.

AŞPA özünün 1268 saylı 2002-ci il tarixli «Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının implementasiyası» adlı qətnaməsində vurğulamışdır ki, «Məhkəmənin qərarlarının lazımi qaydada implementasiyası onun bu gün malik olduğu yüksək nüfuzunun saxlanılması baxımından zəruridir».

2010-cu ilin 18-19 fevral tarixlərində İsveçrənin Avropa Şurası Nazirlər Komitəsində sədrliyi çərçivəsində İnterlakendə Avropa Məhkəməsinin gələcək islahatlarının müəyyən edilməsi məqsədilə nazirlərin konfransı keçirilmişdir. Konfransın yekunu olaraq İnterlaken Bəyannaməsi qəbul edilmişdir. Bəyannamədə Məhkəmənin qərarlarının tam, səmərəli və qısa müddət ərzində icrasının zəruriliyi xüsusilə vurğulanır. Yeri gəlmişkən, Bəyannamənin mühüm yeniliklərindən biri ondan ibarətdir ki, üzv-dövlətlərə milli hakimlərin və zərurət olarsa, müstəqil hüquqşünasların Məhkəmənin Katibliyinə ezam olunması məsələsinə baxılması tövsiyə edilir.

Konvensiyanın 46-cı maddəsinə uyğun olaraq Avropa Məhkəməsi qərarının

icrası öhdəliyi cavabdeh-dövlətin bütün müvafiq orqanlarına aid edilir (63, 54). Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli qərarında qeyd edilir ki, insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq, o cümlədən Avropa Məhkəməsinin həmin hüquqların təmininə yönəlmiş qərarlarının icrası qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsidir.

Məhkəmənin qəti qərarı onun icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə göndərilir.

Göründüyü kimi, Məhkəmə qərarlarının icrasına nəzarət funksiyası bilavasitə Məhkəmənin deyil, Nazirlər Komitəsinin üzərinə düşür.

Qərar Konvensiyanın 46-cı maddəsinin 2-ci bəndinə uyğun olaraq, Nazirlər Komitəsinə verildikdən sonra bu məsələ dərhal gündəliyə daxil edilir. Nazirlər Komitəsi nəzarəti üç istiqamətdə həyata keçirir: birincisi, ədalətli kompensasiya ilə bağlı qərar çıxarıldığı halda Məhkəmə tərəfindən müəyyən olunmuş kompensasiyanın (gecikmə hallarında həm də faizlərin) cavabdeh-dövlət tərəfindən zərərçəkənə ödənilməsinə nəzarət; ikincisi, cavabdeh-dövlət tərəfindən pozulmuş hüquqların bərpasına, hüquq pozuntusunun davam etdiyi halda onun dayandırılmasına və aradan qalxmasına, pozuntudan əvvəlki vəziyyətin bərpasına yönələn fərdi tədbirlərin həyata keçirilməsinə nəzarət; üçüncüsü, analoji hüquq pozuntularının gələcəkdə qarşısının alınmasına yönəlmiş ümumi tədbirlərin həyata keçirilməsinə nəzarət.

**Pul kompensasiyasının ödənilməsi.** Birinci istiqamət üzrə nəzarət bir qədər sadədir. Belə ki, əgər qərar yalnız ədalətli kompensasiyanın ödənilməsi ilə bağlıdırsa cavabdeh-dövlət tərəfindən zərərçəkənə kompensasiya ödənildikdən sonra qərarın icrası ilə bağlı Nazirlər Komitəsinin funksiyası bitmiş sayılır. Kompensasiya cavabdeh dövlətin büdcəsindən ödənilir. Azərbaycan Respublikası Prezidentinin 8 noyabr 2003-cü il tarixli «İnsan hüquqları üzrə Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi haqqında» Fərmanında hər il Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsi hazırlanarkən Avropa Məhkəməsi qarşısında Azərbaycan Respublikasının maraqlarının müdafiəsi və həmin Məhkəmənin qərarlarının icrası üçün maliyyə vəsaitinin ayrılmasının nəzərdə tutulması Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılmışdır. Avropa Məhkəməsi yanında Azərbaycan Respublikasının səlahiyyətli nümayəndəsi isə öz növbəsində iddiaçıya pul kompensasiyasının ödənilməsi və ya pozulmuş hüquq və azadlıqların bərpa olunması haqqında Məhkəmə tərəfindən qərar qəbul edildiyi halda, qərarın tam və vaxtında icra edilməsi məqsədilə aidiyyəti dövlət orqanlarına məlumat verməlidir. Qərar icra olunduqdan sonra səlahiyyətli nümayəndə bu barədə Nazirlər Komitəsini məlumatlandırır. Bundan sonra

əgər Nazirlər Komitəsi hesab etsə ki, qərar cavabdeh-dövlət tərəfindən tam icra olunub, Komitə bununla bağlı qəti qətnamə qəbul edir və bununla da Konvensiyanın 46-cı maddəsinin 2-ci bəndinə əsasən nəzarət prosedurunu yekunlaşdırır.

Avropa Məhkəməsinin keçmiş hakimi V.Tumanov haqlı olaraq ədalətli kompensasiyanın ödənilməsini nəzərdə tutan 41-ci maddəni Konvensiyada nəzərdə tutulan yeganə «sanksiya» kimi qiymətləndirir (138, 74). Məhz buna görə də, o, imperativ xarakter daşıyır və iş üzrə tərəf olan dövlətin üzərinə bilavasitə zərərçəkən tərəfə ona dəymiş maddi və mənəvi zərərə görə Məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiyanın ödənilməsi vəzifəsini qoyur.

**Fərdi tədbirlər.** Avropa Məhkəməsi tərəfindən ona qarşı çıxarılan qərarın icrası üçün cavabdeh-dövlət tərəfindən həyata keçirilən fərdi tədbirlərə əsasən, Konvensiyanın müddəalarını pozaraq əcnəbilərin ölkə ərazisindən çıxarılması hallarında Məhkəmənin qərarından sonra müvafiq dövlət tərəfindən görülən tədbirlər (məsələn, əcnəbilərə çıxarıldıqları ölkəyə geri dönməyə icazənin verilməsi, onların həmin ölkənin ərazisində yaşayış hüququnun tanınması və s.); Məhkəmənin müvafiq qərarından sonra Konvensiyanın müddəaları pozulmaqla həbs olunmuş şəxsin azadlığa buraxılması və onun üzərindən məhkumluğun götürülməsi; milli məhkəmələr tərəfindən işə yenidən baxılması; ərizəçinin əfv edilməsi və bununla bağlı digər tədbirlər aiddir.

Nazirlər Komitəsinin 23 iyul 2001-ci il tarixdə qəbul etdiyi «Türkiyədə fikir azadlığının pozulması: fərdi tədbirlər» adlı qətnaməsində göstərilir ki, «Konvensiyanın 46-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulmuş Məhkəmənin qərarlarına tabe olmaq öhdəliyi, o cümlədən aşkar olunmuş pozuntuya son qoymaq və imkan dərəcəsində onun nəticələrinin aradan qaldırılmasını nəzərdə tutur».

Qeyd etmək lazımdır ki, bəzi hallarda Məhkəmə tərəfindən hələ mahiyyəti üzrə qərar çıxarılmadan (bəzən isə şikayət Konvensiyanın digər müddəalarının pozuntusuna aid olduqda belə) ərizəçi əfv olunur. Məsələn, «Hacıyev Azərbaycana qarşı» işində ərizəçi 21 yanvar 2003-cü ildə Avropa Məhkəməsinə müraciət etmiş, 10 may 2004-cü ildə isə əfv edilmişdir. Yaxud «Aydın Şirinov Azərbaycana qarşı» işində ərizəçi 24 sentyabr 2002-ci ildə Məhkəməyə əsassız məhkum edilməsi ilə bağlı şikayət ərizəsi ilə müraciət etmiş, Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən 29 dekabr 2003-cü ildə əfv edilmişdir. Bununla bağlı ərizəçinin nümayəndəsi Məhkəməyə müraciət etmiş və ərizəçinin əfv olunduğuna görə ərizəsini geri götürmək istədiyini bildirmişdir.

Göründüyü kimi bir sıra hallarda müvafiq dövlət Məhkəmənin işin mahiyyəti üzrə qərarını gözləmədən əvvəlki vəziyyətin bərpasına (restitutio in integrum) yönəlmiş fərdi tədbirlər həyata keçirir. Yəni, burada söhbət daha çox mövcud qərarın deyil, Avropa Məhkəməsinə müraciətin və gözlənilən mümkün qərarın

təsirindən gedir.

Avropa Məhkəməsinin qərarından sonra milli məhkəmələr tərəfindən işə yenidən baxılması qərarın icrası üçün dövlət tərəfindən həyata keçirilən ən səmərəli fərdi tədbirlərdən biridir. Avropa Şurası Nazirlər Komitəsinin «Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları nəticəsində milli səviyyədə bəzi işlərə yenidən baxılması və ya icraatın bərpası» adlı tövsiyəsində (2000) də işə yenidən baxılmasının əvvəlki vəziyyətin bərpası (restitutio in integrum) üçün ən səmərəli vasitə olduğu qeyd edilir. «Piersak Belçikaya qarşı» işdə isə Məhkəmə qeyd etmişdir ki, iş üzrə milli məhkəmə prosesinin yenilənməsi «restitutio in integrum»a ən çox yaxın olan tədbirdir.

Qeyd etmək yerinə düşərdi ki, 11 iyun 2004-cü il tarixli «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə» Azərbaycan Respublikası Qanunu ilə Azərbaycan Respublikası Mülki Prosessual və Cinayət Prosessual Məcəllələrinə (o cümlədən bir sıra digər qanunvericilik aktlarına) bir sıra əlavə və dəyişikliklər edilmişdir. Mülki Prosessual Məcəllənin «İşə hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə yenidən baxılması» adlanan 431-1-ci maddəsində, hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə məhkəmə aktlarına yenidən baxmaq üçün əsaslar sırasında Avropa Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının məhkəmələrinin işə baxarkən Avropa İnsan Hüquqları Konvensiyasının müddəalarını pozduğu müəyyən edilməsi göstərilmişdir. Həmin Məcəllənin «Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxan məhkəmə» adlanan 431-2-ci maddəsinə əsasən isə, qanuni qüvvəyə minmiş məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu baxır. Plenum Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin və Avropa Məhkəməsinin qərarlarının icrası ilə bağlı yalnız hüquqi məsələlər üzrə işlərə baxır. Avropa Məhkəməsinin qərarı ilə əlaqədar olaraq Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakı qərarlardan birini qəbul edir:

- əlavə kassasiya qaydasında çıxarılmış qərarın və (və ya) kassasiya instansiyası məhkəməsinin qərarının və onunla bağlı apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının tam və ya qismən ləğv edilməsi və işin apellyasiya instansiyası məhkəməsinə yenidən baxılması üçün göndərilməsi barədə (Avropa Məhkəməsi tərəfindən məhkəməyə müraciət etmək hüququnu pozan məhkəmə aktlarına dair qərar qəbul edildikdə, plenum həmçinin hüquq və azadlıqların pozulması ilə çıxarılmış birinci instansiya məhkəməsinin aktlarını da tam və ya qismən ləğv edə bilər);
- əlavə kassasiya qaydasında çıxarılmış qərarın və (və ya) kassasiya

instansiyası məhkəməsinin qərarının ləğv edilməsi və apellyasiya instansiyası məhkəməsinin qətnaməsinin və ya qərardadının qüvvədə saxlanılması barədə;

- əlavə kassasiya qaydasında çıxarılmış qərarın ləğv edilməsi və kassasiya instansiyası məhkəməsinin qərarının qüvvədə saxlanılması barədə;

- əlavə kassasiya qaydasında çıxarılmış qərara və ya kassasiya instansiyası məhkəməsinin qərarına dəyişiklik edilməsi barədə.

Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin «Məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxılması üçün əsaslar» adlanan 455-ci maddəsinə əsasən, məhkəmə aktlarına hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə baxılması üçün əsaslardan biri Avropa Məhkəməsi tərəfindən Azərbaycan Respublikasının məhkəmələrində cinayət işi, məhkəməyədək sadələşdirilmiş icraat materialları və ya xüsusi ittiham qaydasında şikayət üzrə icraat zamanı Konvensiyanın müddəalarının pozulduğu müəyyən edilməsidir. Bununla bağlı işlərə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu baxır. Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqda, Ali Məhkəmənin sədri hakimlərin birinə işin plenumun məhkəmə iclasına hazırlanmasını və məruzə edilməsini tapşırır. İşə plenumun məhkəmə iclasında Avropa Məhkəməsinin qərarı Azərbaycan Respublikasının Ali Məhkəməsinə daxil olduqdan sonra 3 aydan gec olmayan müddətdə baxılır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun Avropa Məhkəməsinin pozuntu aşkar etdiyi işlərə yenidən baxılması ilə əlaqədar mövqeyi bundan ibarətdir ki, Avropa Məhkəməsinin pozuntu aşkar etdiyi bütün işlərə deyil, konkret hallarda işin icraatı yenilənmədən ədalətli kompensasiyaya nail olunmasının mümkün olmadığı hallarda milli məhkəmə prosesində işin icraatının təzələnməsi məqsədəmüvafiq hesab olunmalıdır («Ramazanova və qeyriləri»nin işi ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 29 oktyabr 2007-ci il tarixli qərarı. 23, 206-218).

Nazirlər Komitəsi başqa qərar qəbul etmədiyi halda, iş Komitənin insan hüquqlarının müdafiəsinə həsr olunmuş hər bir iclasının gündəliyinə o vaxtadək daxil olunur ki, Razılığa gələn Yüksək Tərəf Məhkəmənin müəyyən etdiyi ədalətli kompensasiyanın ödənilməsinə və ya mümkün olan fərdi tədbirlərin görülməsinə dair məlumatı təqdim etsin.

**Ümumi tədbirlər.** Məhkəmənin konkret qərarını icra edərkən dövlət, həmçinin, ümumi tədbirlər də həyata keçirməlidir. Bu, dövlətin həm qanunvericiliyini və inzibati praktikasını Konvensiyaya uyğunlaşdırmaq, həm də gələcəkdə analoji pozuntuların qarşısını almaq öhdəliyindən irəli gəlir (61, 166). Qərarın icrası ilə bağlı müvafiq dövlət ümumi tədbirlər həyata keçirməklə hüquq pozuntusuna gətirib çıxaran səbəbi aradan qaldırmış olur. Fərdi tədbirlərdən fərqli olaraq ümumi

tədbirlərin spesifik cəhəti ondan ibarətdir ki, bu tədbirlər konkret qərar çərçivəsindən kənara çıxır və dövlətdən konkret fərdlə bağlı olmayan tədbirlərin görülməsini tələb edir. Ümumi tədbirlərə əsas etibarilə, milli qanunvericiliyin, hüquq tətbiqetmə praktikasının təkmilləşdirilməsi, dövlətdaxili qanunvericilik aktlarının Avropa İnsan Hüquqları Konvensiyasına, Avropa Şurasının hüquq standartlarına uyğunlaşdırılması, insan hüquqları ilə bağlı yeni qanunların qəbulu, məhkəmə-hüquq islahatlarının aparılması, Avropa Məhkəməsinin qərarlarının cavabdeh-dövlətin rəsmi dilində nəşr edilməsi və aidiyyəti dövlət qurumları arasında yayılmasını aid etmək olar.

Avropa Şurası Nazirlər Komitəsi 26 iyun 2001-ci il tarixli «Matevs Birləşmiş Krallığa qarşı» işi ilə bağlı aralıq qətnaməsində qeyd etmişdir ki, «Razılığa gələn Yüksək Tərəflərin Məhkəmənin qərarlarına tabe olmaq öhdəliyi Məhkəmənin qərarında aşkar edilmiş pozuntularla analoji xarakterli yeni pozuntulara yol verilməməsi üçün ümumi xarakterli səmərəli tədbirlərin görülməsini ehtiva edir».

Avropa Məhkəməsinin qərarlarının yerinə yetirilməsi zəruri hallarda həm Konvensiyada nəzərdə tutulmuş insan hüquqlarının pozuntusunun, həm də ərizəçi üçün onun zərərli nəticələrinin aradan qaldırılması məqsədilə xüsusi, həmçinin eyni xarakterli pozuntuların gələcəkdə baş verməsinin qarşısının alınması üçün ümumi xarakterli tədbirlərin görülməsini nəzərdə tutur. Avropa Məhkəməsinin qərarları yalnız onun icraatında olan işlərin həllinə deyil, həmçinin geniş mənada Konvensiya normalarının izah edilməsinə, qorunmasına, inkişafına xidmət edir və bu yolla dövlətlərin Konvensiya iştirakçısı kimi daşıdıqları öhdəliklərə riayət olunmasına yardım göstərir.

Əgər Avropa Məhkəməsi tərəfindən bəyan edilən hüquq pozuntusunun səbəbi bu və ya digər milli qanunvericilik aktının tətbiqidirsə, belə olan halda, Məhkəmənin qərarının icrasının təmin edilməsi məqsədilə cavabdeh dövlət zəruri qanunvericilik tədbirləri görməlidir. Əks halda o, Konvensiyanın 46-cı maddəsi ilə öz üzərinə götürdüyü öhdəliyi yerinə yetirməmiş olacaq.

Lakin əgər dövlət Məhkəmənin qərarından irəli gələn zəruri qanunvericilik tədbirlərini həyata keçirmirsə və ya bunu etməyə tələsmirsə, müvafiq dövlətdaxili qanun (yəni, şəxsin hüquqlarının pozulmasına gətirib çıxaran akt) milli məhkəmələr tərəfindən tətbiq olunmamalıdır. Bu zaman milli məhkəmə Avropa İnsan Hüquqları Konvensiyasının primatlığı prinsipini rəhbər tutaraq şəxsin hüquqlarının pozulmasına səbəb olan milli qanunvericilik aktının, o qüvvədə olsa belə, tətbiqindən imtina etməlidir.

Praktikada bəzi hallarda Məhkəmənin qərarının icrasının təmin edilməsi məqsədilə qanunvericilik tədbirlərinin həyata keçirilməsi zəruriliyini müvafiq dövlətə qərarın icrasına nəzarət prosesində Nazirlər Komitəsi özü tövsiyə edir (63,

67). Məsələn, Nazirlər Komitəsi 11 iyun 2004-cü il tarixli «Sovtransavto Holdinq Ukraynaya qarşı» işi ilə bağlı aralıq qətnaməsində qeyd etmişdir ki, cavabdeh-dövlət qanunvericilikdə zəruri dəyişikliklər edilənə kimi dövlətdaxili hüquq müdafiə vasitələrinin səmərəliliyini təmin etməlidir.

Bəzi hallarda isə Avropa Məhkəməsinin qərarı Konstitusiyaya dəyişiklik və ya əlavənin edilməsini zəruri edir. Məsələn, Türkiyəyə qarşı bir sıra qərarlardan sonra bu ölkənin Konstitusiyasına insan hüquqlarına dair dövlətin iştirakçısı olduğu beynəlxalq müqavilələrin milli qanunvericiliyə münasibətdə üstünlüyünü nəzərdə tutan əlavə edilmişdir.

Yuxarıda qeyd olunduğu kimi, ümumi tədbirlərə həmçinin Avropa Məhkəməsinin qərarlarının cavabdeh-dövlətin dilində nəşr edilməsi və aidiyyəti dövlət qurumları arasında yayılması da aid edilir. Buna mühüm əhəmiyyət verən Nazirlər Komitəsi 2002-ci ildə «Üzv-dövlətlərdə Avropa İnsan Hüquqları Konvensiyasının mətninin və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnun nəşri və yayılması» adlı tövsiyə qəbul etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2006-cı il tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında İnsan hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planı»nda Avropa Məhkəməsinin qərarlarının Azərbaycan dilinə tərcümə edilməsinin zəruriliyi vurğulanır. Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında isə Avropa Məhkəməsinin qərarlarının Azərbaycan dilinə tərcümə edilməsi və müvafiq qurumlar arasında yayılması vəzifə kimi qarşıya qoyulmuşdur.

Təqdirəlayiq haldır ki, son dövrlər Avropa Məhkəməsinin seçilmiş qərarları, o cümlədən Azərbaycanla bağlı qərarları Azərbaycan dilinə tərcümə olunaraq nəşr olunmuş, həmçinin müntəzəm şəkildə «Avropa İnsan Hüquqları Məhkəməsinin bülleteni» nəşr olunur.

Qeyd etmək lazımdır ki, müvafiq tədbirlərin (istər fərdi, istərsə də ümumi) görülməsi üçün cavabdeh-dövlətə konkret müddət təyin etmək Nazirlər Komitəsinin səlahiyyətində deyildir.

Lakin bir məqamı da vurğulamaq lazımdır ki, Məhkəmə qərarlarının müvafiq dövlət tərəfindən sistematik olaraq icra olunmaması, hüquq pozuntusu faktı ilə bağlı Konvensiyaya uyğun olmayan hallarda mütəmadi olaraq heç bir qanunvericilik və ya inzibati tədbirlərin görülməməsi və s. bu kimi hallar mütəmadi hal aldıqda və nəticə etibarilə əsas insan hüquq və azadlıqlarının pozulmasına gətirib çıxardıqda, bu, müvafiq dövlət üçün mənfi nəticələrə gətirib çıxara bilər. Bu da əsasən artıq dövlətin Avropa Şurası qarşısında, onun Nizamnaməsinə uyğun olaraq

öz üzərinə götürdüyü öhdəliklərlə əlaqədardır. Məsələn, elə ciddi sanksiyalar vardır ki, onlar Konvensiyada deyil, məhz Avropa Şurasının Nizamnaməsində nəzərdə tutulmuşdur.

Nizamnamənin 3-cü maddəsi Şuranın hər bir üzvünün hər kəsin əsas insan hüquq və azadlıqlarından istifadə etmək haqqında prinsipini tanıdığını bəyan edir. 8-ci maddə isə Nazirlər Komitəsinə, insan hüquqlarını ciddi şəkildə pozan, yəni 3-cü maddənin göstərişlərini ciddi şəkildə pozan, hər bir üzv-dövlətə qarşı, onun Şurada üzvlüyünü dayandırmaq və ya Şuradan kənarlaşdırmaq kimi tədbirlərin görülməsi səlahiyyətini verir. Lakin təcrübədə hələ ki, Avropa Məhkəməsi qərarlarının icra edilməməsi ilə bağlı hər hansı bir dövlətin Avropa Şurasından kənarlaşdırılması halına rast gəlinməmişdir.

Qərarların icrasından danışarkən, təəssüf hissi ilə qeyd etmək lazımdır ki, onların icra edilməməsi hallarına da rast gəlinir. Bir sıra hallarda bu, dövlətin bütövlükdə qərara etiraz etməsi ilə əlaqədardır. Məsələn, Məhkəmənin «Loizidou Türkiyəyə qarşı» 18 dekabr 1996-cı il tarixli qərarı ilə əlaqədar Türkiyə bu qərarın icrasından imtina etmiş və bunu belə əsaslandırmışdır ki, o, müstəqil dövlət olan Şimali Kipr Türk Cümhuriyyətinin hərəkətlərinə görə məsuliyyət daşımır. Lakin Nazirlər Komitəsi bu iş üzrə Məhkəmə qərarının Türkiyə üçün məcburi olduğunu təsdiq edən bir neçə qətnamə qəbul etmişdir. Nəhayət, 2003-cü ildə Türkiyənin şikayətçiyə maddi və mənəvi ziyana görə pul kompensasiyasını ödəməsi ilə Nazirlər Komitəsi qərarın icrasına nəzarəti yekunlaşdırmışdır.

Qərarların icrası sahəsində problemlərə Avropa Məhkəməsinin sədri də diqqət yönəltmişdir. Avropa İnsan Hüquqları Məhkəməsinin məhkəmə ilinin açılışı münasibətilə 30 yanvar 2009-cu il tarixdə keçirilən təntənəli iclasındakı çıxışında Məhkəmənin sədri Jan-Pol Kosta vurğulamışdır ki, «Məhkəmə qərarlarının icrası tez-tez təxirə salınır və ya nadir, lakin çox təəssüfedici hallarda onların icrasından imtina edilir» (26, 16).

Beləliklə, əgər qərarın icrası ilə bağlı dövlətdən alınan məlumat Nazirlər Komitəsini tam qane edirsə (yəni qərar icra olunubsa) o, işi yekunlaşdıran qətnamə qəbul edir. Qətnamədə göstərilir ki, Hökumətdən alınan müvafiq məlumatla tanışlıqdan sonra və Konvensiyanın 41-ci maddəsinə uyğun olaraq Məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiya məbləğinin zərərçəkən tərəfə ödənilməsinə əmin olduqdan sonra Nazirlər Komitəsi hesab edir ki, o, Konvensiyanın 46-cı maddəsinin 2-ci bəndi ilə üzərinə düşən funksiyanı yerinə yetirmişdir. Əgər qərarın icrası ilə bağlı Hökumətdən alınan məlumat Nazirlər Komitəsini qane etmirsə, yəni əgər cavabdeh-dövlət, Məhkəmə tərəfindən müəyyən edilmiş kompensasiya məbləğini zərərçəkən tərəfə ödəməmişsə və ya qərardan irəli gələn digər zəruri tədbirləri görməmişsə, bu halda, Nazirlər Komitəsi aralıq qətnamə

qəbul edir və bu işə yenidən qayıdacağını bəyan edir.

Əgər müvafiq Razılığa gələn Yüksək Tərəf Məhkəmə qərarının icra olunması üçün zəruri olan ümumi xarakterli tədbirlərin görülməsinə dair məlumatı təqdim etmək imkanına hələ də malik olmadığı barədə Nazirlər Komitəsini xəbərdar edirsə, Komitə başqa qərar qəbul etmədiyi halda, iş Komitənin bundan sonra altı aydan gec olmayaraq həyata keçirilən iclasının gündəliyinə yenidən daxil edilir; analoji qayda müddətin bitməsi və ya müddətin uzadılması məsələsinə də tətbiq olunur.

Qərarın icrası üzrə cavabdeh-dövlət tərəfindən həyata keçirilən qanunvericilik tədbirlərini qiymətləndirərkən Nazirlər Komitəsi Avropa Şurasının qurumlarından biri olan İnsan hüquqları və hüquqi məsələlər baş direktoratının xidmətindən istifadə edir. Yəni, qeyd olunan direktorat cavabdeh-dövlət tərəfindən həyata keçirilən ümumi tədbirlərin, əsasən də, qanunvericilik tədbirlərinin, Komitə tərəfindən qərarın icrası üzərində nəzarəti dayandırmasına kifayət edib-etməyəcəyinə dair konsultativ rəy verir.

Eyni zamanda qeyd etmək lazımdır ki, əgər şikayətçi hesab edirsə ki, dövlət Məhkəmənin qərarını qismən və ya tam icra etməmişdir, o, bununla bağlı Nazirlər Komitəsinə müraciət edə bilər. Komitə isə öz növbəsində cavabdeh-dövlətə müraciət edir və bununla bağlı öz qeydlərini təqdim etməyi təklif edir.

Nazirlər Komitəsi eyni zamanda, Məhkəmənin qərarlarının icrası vəziyyətinə dair ictimai təşkilatlardan, eləcə də milli insan hüquqları təsisatlarından daxil olmuş məlumatlara baxmaq hüququna malikdir.

14 saylı Protokol qərarların icrası prosesinə əhəmiyyətli dəyişikliklər gətirmişdir. Konvensiyanın 46-cı maddəsinə əsasən, əgər Nazirlər Komitəsi hesab edərsə ki, qəti qərarın yerinə yetirilməsinə nəzarətə qərarın şərhi ilə bağlı ortaya çıxan problemlər maneə yaradır, o zaman o, şərhlə bağlı ortaya çıxan məsələni həll etmək üçün işi Məhkəməyə göndərə bilər. Qərarın göndərilməsi üçün Komitədə iştirak etmək hüququ olan nümayəndələrin üçdə iki səs çoxluğu tələb olunur. Cavabdeh-dövlətin Məhkəmənin qərarının icrasından boyun qaçırdığı hallarda isə Komitə həmin dövləti xəbərdar etdikdən sonra və Komitədə iştirak etmək hüququ olan nümayəndələrin üçdə iki səs çoxluğu ilə qəbul edilmiş qərarla cavabdeh-dövlətin Konvensiyanın 46-cı maddəsinin 1-ci bəndinə əsasən üzərinə götürdüyü öhdəliyi yerinə yetirib-yetirməməsi məsələsini aydınlaşdırmaq üçün işi Məhkəməyə göndərə bilər. Əgər Məhkəmə Konvensiyanın 46-cı maddəsinin 1-ci bəndinin pozulduğunu aşkar edərsə, müvafiq tədbirlərin görülməsi üçün işi Nazirlər Komitəsinə göndərir.

Qeyd olunduğu kimi, 14 saylı Protokolla əlaqədar olaraq 10 may 2006-cı ildə «Qərarların və dostcasına həll sazişlərinin şərtlərinin icrasına nəzarət

haqqında» Nazirlər Komitəsinin Qaydaları qəbul edilmişdir. Yeni Qaydalara əsasən, cavabdeh-dövlət ona münasibətdə qəbul olunmuş qərarlarla əlaqədar nəinki görülmüş tədbirlər, həmçinin görmək niyyətində olduğu tədbirlər haqqında Komitəyə məlumat təqdim etməlidir.

Nazirlər Komitəsi Konvensiyanın 46-cı maddəsinin 2-5-ci bəndləri və 39-cu maddəsinin 4-cü bəndinə müvafiq olaraq həyata keçirdiyi fəaliyyət barədə illik hesabat qəbul edir. Bu hesabat ictimaiyyət üçün açıq sənəd olmaqla Avropa Məhkəməsinə, eləcə də Avropa Şurasının Baş Katibinə, Parlament Assambleyasına və Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarına göndərilir.

Beləliklə, Avropa Məhkəməsinin qərarlarının icrası işdə tərəf olan dövlət üçün məcburidir və dövlət qərarların icrası üçün zəruri tədbirlər görməlidir. Bir sıra hallarda isə dövlətlər tərəfindən qərarların icra edilməməsinin səbəbləri sırasında siyasi, qanunvericilik, maliyyə, sosial və digər problemləri göstərmək olar.

Qeyd etmək lazımdır ki, bəzən «qərarların icrası» termini əvəzinə «qərarların implementasiyası» terminindən istifadə olunur. Konvensiyada «implementasiya» deyil «icra» terminindən istifadə olunsa da, AŞPA-nın 1268 saylı 2002-ci il tarixli qətnaməsi «Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının implementasiyası» adlanır.

Qeyd edilməlidir ki, implementasiya icraya nisbətən daha geniş anlayış olmaqla, həmçinin Məhkəmə qərarlarının konkret qərarın haqqında çıxarıldığı və qərarı icra etməli olan dövlətdən başqa digər iştirakçı dövlətlər tərəfindən də tanınmasını ehtiva edir. Başqa sözlə, Avropa Məhkəməsinin qərarlarının implementasiyası onların həm bilavasitə icrasını, həm də iştirakçı-dövlətlərdə gələcəkdə qanunvericilik prosesində Məhkəmə təcrübəsindən istifadə olunmasını əhatə edir.

Beləliklə, əgər qərarın icrası üçün dövlət ümumi xarakterli tədbirlər görməlidirsə bu, qərarın icrasından daha çox onun implementasiyasını zəruri edir.

Avropa Məhkəməsinin qərarlarının icrasından danışarkən onu da qeyd etmək lazımdır ki, Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Avropa Məhkəməsinin qərarında əks etdirilmiş qanun pozuntusu hakim barəsində intizam icraatının başlanması üçün əsaslardan biri kimi müəyyən edilmişdir.

## <u>Qərarların hüquqi nəticələri və onların milli hüquqa təsiri</u>

Avropa Məhkəməsinin qərarlarından irəli gələn öhdəliklər öz-özlüyündə *erga omnes* qüvvəsinə malik olmasa da, qərarların məcburi qüvvəsi konkret işin çərçivəsindən kənara çıxır. Yəni bir dövlət barəsində çıxarılan qərar yalnız həmin

dövlət tərəfindən deyil, digərləri tərəfindən də nəzərə alınmalı və digər dövlətlər də gələcəkdə analoji pozuntulara yol verməməlidirlər. Bunun üçün, həmçinin də Məhkəməyə ərizə axınının qarşısını almaq üçün milli orqanlar, xüsusilə də məhkəmələr hüquq tətbiqetmə təcrübəsində Avropa Məhkəməsinin təcrübəsini nəzərə almalı və Avropa İnsan Hüquqları Konvensiyasını birbaşa tətbiq etməlidirlər. Avropa İnsan Hüquqları Konvensiyası beynəlxalq hüquqi təbiətinə görə özü icra olunan müqavilə olduğundan onun milli səviyyədə hüquq tətbiqedən orqanlar tərəfindən birbaşa tətbiqinə heç bir maneə yoxdur.

Son vaxtlar Azərbaycan Respublikasının ayrı-ayrı qanunvericilik və digər normativ aktlarında, o cümlədən məhkəmə qərarlarında Avropa İnsan Hüquqları Konvensiyasının tətbiqinin və Avropa Məhkəməsinin qərarlarına istinadın zəruriliyi öz əksini tapır. Azərbaycan Respublikasında məhkəmə sisteminin müasirləşdirilməsi və «Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2006-cı il tarixli Fərmanında, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının apellyasiya məhkəmələrinə və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsinə, Avropa Məhkəməsinin qərarlarının öyrənilməsi işinin təşkil edilməsi və onun məhkəmə təcrübəsində nəzərə alınması tövsiyə edilir.

Azərbaycan Respublikasının Ali Məhkəməsi də son dövrlər çıxardığı qərarlarda Avropa Məhkəməsinin qərarlarına istinad edir. Eyni zamanda, «Ədalət mühakiməsinin həyata keçirilməsi zamanı «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin tətbiqi haqqında» Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 30 mart 2006-cı il tarixli qərarında ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələr tərəfindən Avropa İnsan Hüquqları Konvensiyası müddəalarının və Avropa Məhkəməsinin presedentlərinin düzgün və vahid qaydada tətbiqinin təmini məqsədilə Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu aşağıdakıları qərara almışdır:

- insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr milli qanunvericiliklə yanaşı, Konvensiya müddəalarını da rəhbər tutmalı və bu zaman Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər;

- «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası normaları hüququn digər normalarından təcrid olunmuş şəkildə deyil, beynəlxalq hüququn müvafiq normaları nəzərə alınmaqla təfsir və tətbiq edilməlidir. Beynəlxalq müqavilələrin, o cümlədən «İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında» Avropa Konvensiyası normalarının təfsiri zamanı onun konteksti ilə yanaşı müqavilənin sonrakı tətbiqi təcrübəsinə istinad

edilməlidir;

- Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən, dövlətin Konvensiya əsasında üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini təmin etməlidirlər və s.

«Ramazanova və qeyriləri»nin işi ilə bağlı Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu 29 oktyabr 2007-ci il tarixli qərarda qeyd etmişdir ki, «insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə bağlı məhkəmələr Konvensiya müddəalarını rəhbər tutmalı və bu zaman Avropa Məhkəməsinin təcrübəsinə istinad etməlidirlər».

Ümumiyyətlə qeyd etmək lazımdır ki, Avropa Məhkəməsi qərarlarının müvafiq dövlətin milli hüququna təsirinin bir neçə istiqamətini qeyd etmək olar. Birincisi, iştirakçı-dövlətlərin Konvensiya ilə öz üzərinə götürdükləri öhdəliklər. Məsələn, Konvensiyanın 1-ci maddəsindən, yaxud 46-cı maddənin 1-ci bəndindən irəli gələn öhdəliklər. İkincisi, konvension normaların mütəmadi pozulduğu hallarda və bunun da milli qanunvericiliklə əlaqədar olduğu hallarda dövlətin Avropa Şurası qarşısında siyasi məsulliyyəti. Üçüncüsü, Məhkəmə qərarından irəli gələn və həyata keçirilməsi zəruri olan tədbirlərin, məsələn, qanunvericilik sahəsində müəyyən islahatların aparılması və digər tədbirlərin müvafiq dövlət tərəfindən könüllü olaraq həyata keçirilməsi. Bu halda Məhkəmə qərarı müvafiq dövlət tərəfindən görüləcək tədbirlərin həyata keçirilməsinə təkan verən əsas kimi çıxış edir və yaxud bəzi hallarda isə Məhkəmənin qərarı milli hüquqda olan boşluğun nəzərə çarpmasına və aradan götürülməsinə bir növköməkçi olur (138, 61).

Konvensiyanın 41-ci maddəsi ilə nəzərdə tutulan ədalətli kompensasiyanı dolayısı ilə Məhkəmənin qərarlarının müvafiq dövlətin milli hüququna təsiri kimi qiymətləndirmək olar. Məhkəmədə işi uduzan dövlət hesab edir ki, eyni xarakterli başqa işlər üzrə də bu cür qərarlar çıxarıla bilər. Bu isə dövlətə müəyyən maliyyə problemləri yarada bilər. Lakin bu heç də o demək deyildir ki, Məhkəmənin qərarı ilə müəyyən məbləğdə kompensasiya ödəməli olan dövlət mütləq qaydada müvafiq pozuntu ilə əlaqədar qanunvericilikdə dəyişikliklər edir. Bəzən dövlət yalnız kompensasiya kimi pul məbləğini zərərçəkən tərəfə ödəməklə kifayətlənir və Məhkəmə qərarından irəli gələn digər tədbirləri həyata keçirmir və ya həyata keçirməyə tələsmir. Məsələn, 1979-cu il «Marks Belçikaya qarşı» işi üzrə Məhkəmənin, Konvensiyanın 8-ci və 14-cü maddələrinin pozulması ilə bağlı qərarından sonra, 1991-ci il eyni məzmunlu «Vermeyer Belçikaya qarşı» işi üzrə Məhkəmə yenə də 8-ci və 14-cü maddələrin pozulması ilə bağlı eyni məzmunlu qərar çıxarmışdır. Yəni, on iki il ərzində Belçika milli qanunvericiliyində müvafiq dəyişikliklər etməmiş, lakin sonradan belə dəyişiklik edilmişdir.

Məhkəmənin milli hüquqa təsirinin daha bir vasitəsi Konvensiyanın 46-cı

maddəsinin 2-ci bəndinə əsaslanır. Bir çox hallarda bu prosedur müvafiq dövlətin Avropa Şurası qarşısında öhdəliyi ilə bağlı onun milli hüququnun Konvensiyaya uyğunlaşdırılması xarakteri alır. Bu bir qədər də onunla bağlıdır ki, Avropa Şurasına üzv-dövlətlərin konstitusiyaları ratifikasiya olunmuş beynəlxalq müqavilələri özlərinin qanunvericilik sisteminin tərkib hissəsi elan edir. Bununla bağlı ümumiyyətlə qeyd etmək lazımdır ki, beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları, həmçinin ratifikasiya olunmuş beynəlxalq müqavilələr bir çox dövlətlərin konstitusiyaları və digər qanunvericilik aktları, o cümlədən adət hüququ əsasında dövlətdaxili hüququn mənbəyi hesab olunur. Belə ki, məsələn, Fransa Konstitusiyasının 55-ci maddəsinə əsasən, ratifikasiya olunmuş beynəlxalq müqavilələr daxili qanunvericilik aktlarından daha üstün hüquqi qüvvəyə malikdirlər. İtaliya Konstitusiyasının 10-cu maddəsinə müvafiq olaraq, İtaliyanın hüquq qaydası beynəlxalq hüququn ümumtanınmış normaları ilə razılaşdırılır. Almaniya Federativ Respublikasının Əsas Qanununun 25-ci maddəsinə əsasən, ümumi beynəlxalq hüquq normaları Federasiyanın hüquq sisteminin tərkib hissəsidir. Onlar dövlətdaxili qanunlara nisbətdə üstünlüyə malikdir və bilavasitə federal ərazinin sakinləri üçün hüquq və vəzifələr yaradır. Rusiya Federasiyası Konstitusiyasının 15-ci maddəsinə uyğun olaraq, beynəlxalq hüququn ümumtanınmış prinsip və normaları və Rusiya Federasiyasının beynəlxalq müqavilələri onun hüquq sisteminin tərkib hissəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr Azərbaycan Respublikasının qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsidir. Eyni zamanda Konstitusiya ratifikasiya edilmiş beynəlxalq müqavilələri milli hüquq sisteminin tərkib hissəsi elan etməklə yanaşı, onlara üstünlük verir. Belə ki, Konstitusiyanın 151-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikasının Konstitusiyası və referendumla qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Konstitusiya, həmçinin, insan hüquqlarına dair beynəlxalq müqavilələrin daha üstün hüquqi qüvvəsini tanıyır. Belə ki, Konstitusiyanın 12-ci maddəsinə müvafiq olaraq, Konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir. Fikrimizcə, praktiki cəhətdən Konstitusiyanın qeyd olunan norması belə bir nəticə çıxarmağa əsas verir ki, hüquq tətbiq edən orqan insan hüquqları sahəsində Azərbaycan Respublikasının ratifikasiya etdiyi beynəlxalq müqavilə normalarını tətbiq edərkən onları konstitusion normalara münasibətdə belə üstün tutmalıdır.

Bu tədqiqat işi yekunlaşdırılanadək Avropa Məhkəməsi tərəfindən Azərbaycana qarşı mahiyyəti üzrə 50-dək qərar çıxarılmışdır. Bu qərarlarda əsas etibarilə Konvensiyanın 2-ci (yaşamaq hüququ), 3-cü (işgəncələrin qadağan olunması), 5-ci (azadlıq və toxunulmazlıq hüququ), 6-cı (ədalətli məhkəmə araşdırması hüququ), 10-cu (ifadə azadlığı), 11-ci (toplaşmaq və birləşmək azadlığı) maddələrinin, həmçinin, 1 saylı Protokolun 1-ci (mülkiyyətin müdafiəsi) və 3-cü maddələri (azad seçki hüququ) və 4 saylı Protokolun 2-ci maddəsinin (hərəkət azadlığı) pozuntusu aşkar edilmişdir.

2011-ci ildə Avropa Məhkəməsi tərəfindən ümumilikdə 1.157 qərar çıxarılmışdır (2010-cu ildə bu rəqəm 1.499 olmuşdur). 269 qərar 14 saylı Protokolun qüvvəyə minməsindən sonra yeni prosedura uyğun olaraq 3 hakimdən ibarət komitələr tərəfindən qəbul edilmişdir. Ən çox pozulan hüquqlar sırasında ədalətli məhkəmə araşdırması hüququ (Konvensiyanın 6-cı maddəsi), mülkiyyətin müdafiəsi (1 saylı Protokolun 1-ci maddəsi) və azadlıq və toxunulmazlıq hüququnu (Konvensiyanın 5-ci maddəsi) qeyd etmək olar.

İndi isə Avropa Məhkəməsinin qərarlarının hüquqi nəticələri və onların milli hüquqa təsiri ilə bağlı konkret misallara müraciət edək:

- 18 iyun 1971-ci il tarixli «De Vilde, Ooms və Versip (Ve Wilde, Ooms and Versyp) Belçikaya qarşı» işi üzrə qərarla bağlı - 6 avqust 1971-ci ildə Belçikanın qanunvericiliyinə müvafiq əlavə və dəyişikliklər edilmişdir;
- 28 noyabr 1978-ci il tarixli «Lüdike, Belkasem və Kox (Luedicke, Belkacem and Koc) Almaniyaya qarşı» işi üzrə qərarla bağlı - «məhkəmə xərcləri» anlayışının Avropa Məhkəməsi tərəfindən şərhini nəzərə alaraq Almaniyanın «Məhkəmə xərcləri haqqında Qanun»una və Cinayət-Prosessual Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir;
- 26 aprel 1979-cu il tarixli «Sandi Tayms (The Sunday Times) Birləşmiş Krallığa qarşı» işi üzrə qərarla bağlı - Böyük Britaniyada 27 iyul 1981-ci ildə ümumi hüququn ziddiyyətli presedentlərini aradan qaldıran müvafiq qanun qəbul edilmişdir;
- 5 noyabr 1981-ci il tarixli «X Birləşmiş Krallığa qarşı» işi üzrə qərarla bağlı - Böyük Britaniyada «Ruhi xəstələrin tibbi təminatı haqqında» Qanun 30 sentyabr 1983-cü ildə qüvvəyə minmişdir;
- 25 fevral 1982-ci il tarixli «Kempbel və Kozans (Campbell and Cosans) Birləşmiş Krallığa qarşı» işi üzrə qərarla bağlı - Böyük Britaniyada dövlət məktəblərində cismani cəzaların təyin edilməsini aradan qaldıran «Təhsil haqqında Qanun» 15 avqust 1987-ci ildə qüvvəyə minmişdir;
- 26 oktyabr 1984-cü il tarixli «Makqof (McGoff) İsveçə qarşı» işi üzrə qərarla bağlı – İsveçdə «Məhkəmə İcraatı Məcəlləsinə yenidən baxılması üzrə»

Komissiya həmin Məcəlləyə, Avropa Məhkəməsinin qərarından irəli gələn dəyişikliklərin edilməsi təklifi ilə çıxış etmişdir. Komissiya həmçinin, Avropa Məhkəməsinin qərarı barədə yerli prokurorluq və məhkəmə orqanlarını məlumatlandırmışdır. 17 dekabr 1987-ci ildə isə, İsveçin Məhkəmə İcraatı Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir;

- 26 oktyabr 1984-cü il tarixli «De Kubbe (De Cubber) Belçikaya qarşı» işi üzrə qərarla bağlı - Belçikanın Kassasiya Məhkəməsi özünün 23 yanvar 1985-ci il tarixli qərarında Avropa Məhkəməsinin təcrübəsini nəzərə almışdır;

- 26 mart 1985-ci il tarixli «X və Y Nuderlanda qarşı» işi üzrə qərarla bağlı - Niderlandın Cinayət Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir;

- 18 dekabr 1986-cı il tarixli «Conston və başqaları (Johnston and others) İrlandiyaya qarşı» işi üzrə qərarla bağlı - İrlandiyada 1987-ci il tarixli «Uşaq hüquqları haqqında» Qanunla nikahda və nikahdankənar doğulan uşaqların hüquqları eyniləşdirilmişdir;

- 24 may 1989-cu il tarixli «Hausşild (Hauschildt) Danimarkaya qarşı» işi üzrə qərarla bağlı - «Məhkəmə icraatı haqqında» Qanuna müvafiq əlavələr edilmişdir;

- 24 aprel 1990-cı il tarixli «Kruslin (Kruslin) Fransaya qarşı» və «Hyuviq (Huviq) Fransaya qarşı» işləri üzrə qərarlarla bağlı – Fransanın Cinayət-Prosessual Məcəlləsinə müvafiq dəyişikliklər edilmişdir;

- 23 oktyabr 1990-cı il tarixli «Haber (Huber) İsveçrəyə qarşı» işi üzrə qərarla bağlı – İsveçrənin Cinayət-Prosessual Məcəlləsinə cinayət törətməkdə şübhəli bilinən şəxslərin saxlanması haqqında qərar çıxarmaq səlahiyyətinin prokurora deyil, məhkəməyə məxsus olmasını nəzərdə tutan dəyişikliklər edilmişdir;

- 12 may 1992-ci il tarixli «Meqyeri (Megyeri) Almaniyaya qarşı» işi üzrə qərarla bağlı - Avropa Məhkəməsinin qərarı alman dilinə tərcümə edilmiş və federasiya subyektlərinin məhkəmə orqanlarına göndərilmişdir;

- 29 oktyabr 1992-ci il tarixli «Açıq Qapılar və Dublin şəhərinin qadınları naminə (Open Door And Dublin Well Woman) İrlandiyaya qarşı» işi üzrə qərarla bağlı - İrlandiyanın qanunvericiliyinə müəyyən dəyişikliklər edilmişdir;

- 26 noyabr 1992-ci il tarixli «Ciankarlo və Françesko Lombardo İtaliyaya qarşı» (Giancarlo and Francesco Lombardo v. Italy) işi üzrə qərarla bağlı-İtaliyada 14 yanvar 1994-cü il tarixli Qanunla, işlərə ağlabatan müddət ərzində baxılmasını təmin etmək məqsədilə regional məhkəmə palataları yaradılması nəzərdə tutulmuşdur;

- 23 mart 1994-cü il tarixli «Silva Pontes (Silva Pontes) Portuqaliyaya qarşı» işi üzrə qərarla bağlı - Portuqaliyanın məhkəmə sistemində islahatların həyata

keçirilməsini nəzərdə tutan Qanun qəbul edilmişdir;

- 23 sentyabr 1994-cü il tarixli «Cersild (Jersild) Danimarkaya qarşı» işi üzrə qərarla bağlı - Danimarkanın Ali Məhkəməsi öz qərarında Avropa Məhkəməsinin qərarına istinad etmişdir;

- 11 yanvar 2007-ci il tarixli «Ramazanova və başqaları Azərbaycana qarşı» işi üzrə qərarla bağlı - Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumu 29 oktyabr 2007-ci il tarixli qərarında Avropa Məhkəməsinin qərarına istinad etmişdir;

- 8 aprel 2010-cu il tarixli «Namət Əliyev Azərbaycana qarşı» işi ilə bağlı – Azərbaycan Respublikasının Seçki Məcəlləsinə vətəndaşların seçki hüququnu pozan hərəkətlərdən (hərəkətsizlikdən) və qərarlardan şikayətlərin araşdırılması məqsədi ilə Mərkəzi Seçki Komissiyasının nəzdində 9 nəfərdən, dairə seçki komissiyasının nəzdində isə 3 nəfərdən ibarət müvafiq ekspert qrupları yaradılmasını nəzərdə tutan əlavə edilmişdir;

- 10 iyun 2010-cu il tarixli "Qarayev Azərbaycana qarşı" işi üzrə qərarla bağlı - Avropa Məhkəməsinin qərarından sonra şikayətçi həbsdən azad edilmişdir.

Bu misalları davam etdirmək də olar. Yuxarıda göstərilənlərdən görünür ki, Avropa Məhkəməsinin qərarları bilavasitə və ya dolayısı ilə bu və ya digər dərəcədə milli hüquqa və hüquqtətbiqetmə praktikasına təsir etmiş və bunun nəticəsində dövlətdaxili səviyyədə müvafiq tədbirlər, həm qanunvericilik tədbirləri, məsələn, müvafiq qanunun qəbul edilməsi, yaxud müvafiq aktlarda dəyişikliklər edilməsi və s., həm də digər tədbirlər, məsələn, məhkəmə təcrübəsində dəyişikliklər edilməsi, milli hüquq sistemində Konvensiyanın səmərəli implementasiyası, milli məhkəmələr tərəfindən Avropa Məhkəməsinin qərarlarının nəzərə alınması və s. həyata keçirilmişdir.

# NƏTİCƏ

Bu tədqiqat çərçivəsində Avropa İnsan Hüquqları Məhkəməsinin beynəlxalq hüquqi statusunun, fəaliyyətinin hüquqi əsaslarının, həmçinin yurisdiksiyasının araşdırılması müəyyən bir ümumiləşdirmə və təkliflər üçün əsas verir.

Beləliklə, bütün bu deyilənlərə yekun olaraq əsasən aşağıdakıları qeyd etmək olar:

**I.** Avropa Məhkəməsinin beynəlxalq hüquqi stasusu ilə bağlı deyilənləri ümumiləşdirərək qeyd etmək olar ki, Avropa İnsan Hüquqları Məhkəməsi - ədalət mühakiməsini beynəlxalq səviyyədə həyata keçirən və məhkəmənin bütün əsas atributlarına malik olan ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanıdır.

Avropa İnsan Hüquqları Konvensiyasının gətirdiyi yenilik ondan ibarət idi ki, o, ilk dəfə olaraq fərdlərin beynəlxalq məhkəmə orqanına müraciətini nəzərdə tuturdu. Bununla da, Konvensiyanın qəbul edilməsi fərdin beynəlxalq hüququn *sui generis* subyektinə çevrilməsində mühüm mərhələ oldu. Məhz buna görə də, Konvensiyanı öz əhəmiyyətinə görə analoqu olmayan beynəlxalq müqavilə adlandırmaq olar. Beləliklə, Avropa Məhkəməsinin təcrübəsi və fəaliyyəti Avropa İnsan Hüquqları Konvensiyasının bu sahədə ən səmərəli beynəlxalq hüquqi akt olduğunu, Avropa Məhkəməsinin isə insan hüquqlarının müdafiəsi sahəsində ən səmərəli beynəlxalq mexanizm olmasını deməyə əsas verir.

Bu gün Avropa İnsan Hüquqları Konvensiyası və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarları formalaşmaqda olan Avropa Şurası hüququnun ən mühüm mənbəyi kimi çıxış edir.

**II.** Avropa Məhkəməsinin yurisdiksiyasının digər universal və regional beynəlxalq hüquq müdafiə mexanizmlərinin yurisdiksiyası ilə müqayisəli təhlilinin nəticələrinə dair aşağıdakıları qeyd etmək olar:

- Avropa Məhkəməsindən fərqli olaraq BMT çərçivəsində fəaliyyət göstərən müqavilə qurumlarına (komitələrə) müraciət etmək üçün müvafiq dövlətdaxili orqanın qəti qərarından sonra vaxt məhdudiyyəti yoxdur. İstisna yalnız İqtisadi, sosial və mədəni hüquqlar haqqında Pakta dair Fakültativ Protokol təşkil edir. Protokolun 3-cü maddəsinə əsasən şikayət Komitəyə bütün dövlətdaxili mexanizmlər tükəndikdən sonra bir il ərzində verilə bilər;
- BMT müqavilələrində komitələrə müraciətin əsas şərtlərindən biri kimi Avropa İnsan Hüquqları Konvensiyasında olduğu kimi bütün dövlətdaxili hüquq müdafiə mexanizmlərinin tükəndirilməsi göstərilir. Eyni zamanda bunun ardınca

qeyd olunur ki, bu qayda belə vasitələrin tətbiqinin həddindən artıqləngidilməsi halında tətbiq olunmur;

- Avropa Məhkəməsindən fərqli olaraq, komitələrə hüquq pozuntusu ilə bağlı üçüncü şəxslər də müraciət edə bilər. Məsələn, Əlillərin hüquqları haqqında Konvensiyaya dair Fakültativ Protokola əsasən, Əlillərin hüquqları üzrə Komitə Konvensiyanın müddəalarının müvafiq iştirakçı-dövlət tərəfindən pozulmasının qurbanı olduğunu iddia edən və onun yurisdiksiyası altında olan şəxslərdən və ya şəxslər qrupundan yaxud onların adından məlumatları qəbul etmək və baxmaq səlahiyyətinə malikdir;

- Müqavilə qurumlarının yaradılmasını nəzərdə tutan BMT konvensiyalarından fərqli olaraq Avropa İnsan Hüquqları Konvensiyasına əsasən fərdi və dövlətlərarası şikayət proseduru məcburi xarakter daşıyır. Yəni, Avropa Konvensiyasının iştirakçısı olan dövlət avtomatik olaraq Məhkəmənin bu səlahiyyətini tanıyır. Dövlətlərarası şikayət prosedurunda mühüm fərq ondan ibarətdir ki, BMT sistemindən fərqli olaraq Avropa İnsan Hüquqları Konvensiyasının iştirakçı-dövləti digər müvafiq iştirakçı-dövləti xəbərdar etmədən və onun mülahizələrini öyrənmədən dövlətlərarası şikayətlə Avropa Məhkəməsinə müraciət edə bilər;

- Komitələrin əsas səlahiyyətlərindən biri iştirakçı-dövlətlərin müvafiq beynəlxalq müqavilədən irəli gələn öhdəliklərin yerinə yetirilməsi ilə bağlı dövri məruzələrinə baxmaqdan ibarətdir. Avropa İnsan Hüquqları Konvensiyası isə, ümumiyyətlə, «dövri məruzə» proseduru nəzərdə tutmur;

- Avropa Məhkəməsi ilə komitələr arasında ən mühüm fərq isə onların qərarlarının hüquqi qüvvəsindədir. Komitələrin qərarları bir qayda olaraq hüquqi cəhətdən məcburi olmur və bu qərarların icrası üzərində nəzarət mexanizmi mövcud deyildir. Komitələrdən fərqli olaraq Avropa İnsan Hüquqları Konvensiyasına əsasən, iştirakçı-dövlətlər Məhkəmənin qərarlarını icra etməyi öhdələrinə götürmüşlər. Bundan başqa bu qərarların icrası üzərində effektiv nəzarət sistemi mövcuddur;

- Avropa İnsan Hüquqları Məhkəməsi - beynəlxalq səviyyədə ədalət mühakiməsini həyata keçirən və məhkəmə orqanının bütün əsas atributlarına malik olan, ədalət mühakiməsinin əsas prinsiplərini (tərəflərin bərabərliyi, çəkişmə prinsipi və s.) rəhbər tutan ixtisaslaşdırılmış beynəlxalq məhkəmə orqanıdır. BMT-nin müvafiq komitələri isə məhkəmə orqanı deyil, tövsiyə xarakterli qərarlar qəbul etmək səlahiyyətinə malik olan kvazimə hkəmə orqanlarıdır;

- Amerika İnsan Hüquqları Konvensiyasına əsasən, dövlətlərarası şikayət proseduru Avropa İnsan Hüquqları Konvensiyasından fərqli olaraq fakültativ xarakter daşıyır. Belə ki, Amerika Konvensiyasının 45-ci maddəsinə əsasən, Amerikaarası İnsan Hüquqları Komissiyasının dövlətlərarası şikayətlərə baxa bilməsi

üçün dövlətlərin xüsusi bəyanatı tələb olunur. Pozuntu aşkar etdikdə belə, Komissiyanın səlahiyyətində müvafiq dövlətə qarşı effektiv təsir mexanizmi yoxdur;

- Amerika Məhkəməsinin Avropa Məhkəməsindən mühüm fərqlərindən biri ondan ibarətdir ki, fərd birbaşa Amerika Məhkəməsinə müraciət edə bilməz. Amerika Konvensiyasının 61-ci maddəsinə əsasən, yalnız mübahisənin tərəfi olan dövlət və Komissiya Məhkəməyə müraciət edə bilər. Avropa Məhkəməsində olduğu kimi, Amerika Məhkəməsinin də qərarları iştirakçı-dövlətlər üçün məcburi xarakter daşıyır. Lakin Avropa Məhkəməsindən fərqli olaraq, Amerika Konvensiyası qərarların icrası üzərində nəzarət mexanizmi nəzərdə tutmamışdır. Lakin bununla yanaşı Amerika Məhkəməsinin Avropa Məhkəməsindən üstünlüyü məsləhət rəyləri ilə bağlıdır. Belə ki, Avropa İnsan Hüquqları Konvensiyasına əsasən iştirakçı dövlətlər Avropa Məhkəməsinə məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə bilməzlər. Bu hüquqa yalnız Avropa Şurası Nazirlər Komitəsi malikdir. Amerika Konvensiyası isə iştirakçı-dövlətlərin məsləhət rəyləri ilə bağlı Məhkəməyə müraciət hüququnu nəzərdə tutur;

- Avropa Məhkəməsindən fərqli olaraq Amerika Məhkəməsi maliyyələşdiyi regional təşkilat, yəni Amerika Dövlətləri Təşkilatı qarşısında hesabatlıdır. Məhkəmə Təşkilatın Baş Assambleyasına illik hesabatlar təqdim edir;

- Afrika Komissiyası fərdi şikayətlərə baxsa da, Avropa Məhkəməsindən fərqli olaraq məcburi qərarlar qəbul etmək və delikvent-dövlətin üzərinə yerinə yetirilməsi mütləq olan tələblər qoymaq səlahiyyətinə malik deyil;

- Avropa Məhkəməsindən fərqli olaraq Afrika Məhkəməsi daimi əsasda fəaliyyət göstərmir. Avropa Məhkəməsi ilə Afrika Məhkəməsi arasında mühüm fərqlərdən biri ondan ibarətdir ki, Afrika Məhkəməsində fərdi şikayət proseduru fakültativ xarakter daşıyır.

Ümumilikdə, Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyasının digər universal və regional beynəlxalq hüquq müdafiə mexanizmlərinin yurisdiksiyası ilə müqayisəli təhlilinə yekun vuraraq qeyd etmək olar ki, insan hüquqlarının beynəlxalq hüquqi müdafiəsinin universal, əsasən də regional mexanizmləri əsas etibarilə Avropa İnsan Hüquqları Konvensiyasının təsiri altında formalaşmış və bu Konvensiya və Avropa Məhkəməsinin təcrübəsi əsasında inkişaf edir. Müqayisəli təhlildən və nəticələrdən də göründüyü kimi, Avropa İnsan Hüquqları Məhkəməsini bu gün istər universal, istərsə də regional mexanizmlər sırasında ən səmərəli beynəlxalq hüquq müdafiə mexanizmi adlandırmaq olar.

**III.** Avropa Məhkəməsinin predmet, şəxslərə, zamana görə, ərazi və məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası ilə əlaqədar deyilənləri ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar:

- Avropa Məhkəməsi yalnız Avropa İnsan Hüquqları Konvensiyasında və onun əlavə Protokollarında nəzərdə tutulan hüquq və azadlıqların pozulması ilə bağlı işlərə baxmaq səlahiyyətinə malikdir. Məhkəmənin predmet yurisdiksiyasına yalnız Konvensiyanın və əlavə Protokolların konkret normalarında ifadə olunan hüquq və azadlıqlar deyil, eyni zamanda Məhkəmənin şərh etdiyi qaydada Konvensiya və ya əlavə Protokollarda birbaşa nəzərdə tutulmasa da, onların məzmunundan irəli gələn hüquqlar da daxildir. Məhkəmənin təcrübəsi onu deməyə əsas verir ki, bir sıra hallarda Məhkəmə hər hansı bir hüququn Konvensiyada və ya əlavə Protokolda nəzərdə tutulmamasına baxmayaraq bu hüququ digər oxşar hüququn tərkib hissəsi sayaraq onu özünün predmet yurisdiksiyasına daxil edir. Bu isə bir daha təsdiq edir ki, milli məhkəmə orqanları Avropa İnsan Hüquqları Konvensiyasını tətbiq edərkən Avropa Məhkəməsinin qərarlarını nəzərə almalı və Konvensiyanı Məhkəmənin qərarlarına uyğunlaşdırılmış şəkildə tətbiq etməlidirlər. Yəni, Konvensiya Avropa İnsan Hüquqları Məhkəməsinin şərh etdiyi qaydada tətbiq olunmalıdır.

- Məhkəməyə yalnız ayrı-ayrı fərdlər deyil, həmçinin şəxslər qrupu və qeyri-hökumət təşkilatları da müraciət edə bilər. Məhkəməyə müraciət edə biləcək fərdlərin dairəsi genişdir. Bu qisimdə hüquq və ya fəaliyyət qabiliyyəti olmayanlar, azyaşlılar, ahıllar, hərbi qulluqçular, məhkumlar, iştirakçı-dövlətin vətəndaşı olmayan, lakin onun yurisdiksiyası altında olan şəxslər çıxış edə bilərlər. Şikayət şəxslər qrupu tərəfindən veriləndə belə, onların hər biri şəxsi ziyanın vurulmasını göstərməlidirlər. Məhkəmə abstrakt, hipotetik şikayətlərə baxmır. Qeyri-hökumət təşkilatlarına gəlincə isə, Məhkəmə təcrübəsi bu siyahıya ictimai təşkilatları, hüquqi şəxsləri, həmkarlar ittifaqlarını, kütləvi informasiya vasitələrini, siyasi partiyaları, şirkətləri, aksioner birliklərini, dini birlikləri aid etməyə imkan verir. Dövlət təşkilatları və digər hakimiyyət funksiyalarını həyata keçirən orqanlar bu qrupa aid edilmir.

Beləliklə, Avropa Məhkəməsinə ayrı-ayrı fərdlər, fərdlər qrupu və ya qeyri-hökumət təşkilatları müraciət edə bilər. Hakimiyyətin istənilən qolunu (icra, qanunverici, məhkəmə) təmsil edən dövlət orqanları, yerli özünüidarəetmə orqanları, dövlət ali təhsil müəssisələri, dövlət şirkətləri, ümumilikdə bu və ya digər şəkildə hakimiyyət funksiyalarını həyata keçirən təşkilatlar Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq Avropa Məhkəməsinə müraciət etmək hüququna malik deyillər;

- Məhkəmə təcrübəsində «qurban» anlayışı geniş mənada qəbul edilir. Bunun da nəticəsində Məhkəmə təcrübəsində «bilavasitə qurban» anlayışından başqa «potensial qurban» və «dolayı qurban» anlayışları fərqləndirilir. «Potensial qurban» anlayışı ilə bağlı olan halda, Məhkəmə müəyyən edir ki, gələcəkdə vurula

bilən və real olan ziyanın təhlükəsi olduğu halda belə, iddiaçıya qurban kimi baxmaq olar. «Dolayı qurban» anlayışına gəlincə isə, bu qisimdə Konvensiyanın 2-ci maddəsinin pozulması ilə əlaqədar şəxsin həlak olduğu, zorakı itkin düşdüyü halda, yaxud Məhkəməyə müraciət etdikdən sonra ərizəçinin vəfatı ilə əlaqədar onun yaxın qohumları, və ya birbaşa «qurban»la digər yaxın əlaqələri olan şəxslər çıxış edə bilər;

- Avropa İnsan Hüquqları Konvensiyası, onun qüvvəyə minməsinə qədər baş verən hadisə və faktlara şamil edilmir. Məhkəmə müvafiq cavabdeh-dövlətin Konvensiyanı ratifikasiya etməsinə qədər, həmçinin əgər şikayətə bu tarixə qədər müvafiq dövlətdaxili orqanda baxılıb və qərar çıxarılıbsa, baş verən hadisələrlə bağlı şikayətlərə baxa bilməz. Bu şərtin tətbiq olunub-olunmaması üçün, müvafiq hüquqpozmanın baş verdiyi tarix deyil, bununla bağlı müvafiq dövlətdaxili orqanın son, qəti qərarının çıxarıldığı tarix əsas götürülür.
- Avropa Məhkəməsinin zamana görə yurisdiksiyası (ratione temporis) kontekstində qeyd etmək olar ki, Ermənistandan deportasiya olunmuş və Ermənistan tərəfindən Azərbaycan torpaqlarının işğalı nəticəsində bir çox hüquqları pozulmuş, əsasən də Konvensiyaya əlavə 1 saylı Protokolun 1-ci maddəsinin pozulması ilə əlaqədar minlərlə soydaşımız işğalçı Ermənistana qarşı bu dövlətin də Avropa İnsan Hüquqları Konvensiyasına qoşulmasını nəzərə alaraq Avropa Məhkəməsinə müraciət edə bilərlər. Bu halda Ermənistanın Avropa İnsan Hüquqları Konvensiyasını ratifikasiya etməzdən və Avropa Məhkəməsinin yurisdiksiyasını tanımazdan əvvəl baş verən, lakin bugünədək davam edən uzanan hüquq pozuntusu vardır. Beləliklə, Məhkəmənin zamana görə yurisdiksiyası baxımından işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur;
- Məhkəmənin təcrübəsində «uzanan hüquq pozuntusu»nun definisiyası dəqiq müəyyən edilməli və hansı halların Məhkəmə tərəfindən «uzanan pozuntu» kimi qəbul edilməsinin kriteriyaları müəyyən edilməlidir;
- Məhkəmənin ərazi yurisdiksiyası (ratione loci) ilə bağlı fikirləri ümumiləşdirərək qeyd etmək olar ki, Məhkəmənin təcrübəsinə əsasən «yurisdiksiya» termini iştirakçı-dövlətlərin milli ərazisi ilə məhdudlaşmır. Hakimiyyət orqanlarının fəaliyyəti nəticəsində onun ərazi hüdudlarından kənarda baş vermiş nəticələrə görə də dövlətin məsuliyyəti yarana bilər. Müvafiq olaraq, hərbi əməliyyatlar nəticəsində dövlət milli sərhədlərindən kənarda olan ərazi üzərində səmərəli nəzarəti həyata keçirmək imkanı əldə etdikdə də, onun məsuliyyəti haqqında məsələ ortaya çıxa bilər;
- Avropa Məhkəməsinin ərazi yurisdiksiyası kontekstində Azərbaycanın işğal olunmuş ərazilərində insan hüquqlarının pozulmasına görə Ermənistan

dövlətinin məsuliyyəti məsələsi meydana çıxır. Belə ki, Azərbaycanın işğal edilmiş əraziləri üzərində faktiki nəzarəti həyata keçirdiyindən həmin ərazidə insan hüquq və azadlıqlarının pozulmasına görə məhz Ermənistan dövləti məsuliyyət daşıyır. Məcburi köçkünlərin müraciətlərinə gəlincə, məsələyə Məhkəmənin ərazi yurisdiksiyası baxımından yanaşsaq, fikrimizcə qarşı tərəfin *ratione loci* ilə bağlı mümkün etirazı Məhkəmə tərəfindən rədd edilməlidir. Ermənistan işğal olunmuş Azərbaycan ərazilərində pozuntulara görə məsuliyyətdən qaçaraq Dağlıq Qarabağda «yerli hakimiyyət orqanları»nın formalaşdığını və onun «müstəqil dövlət» olduğunu əsas gətirə bilər. Lakin Məhkəmənin təcrübəsi onu deməyə əsas verir ki, Məhkəmə belə etirazları rədd edir (məsələn, Loizidu işində olduğu kimi). Belə ki, «Dağlıq Qarabağ» dövlət kimi dünya birliyi, hər hansı bir beynəlxalq təşkilat və ya dövlət tərəfindən (hətta Ermənistanın özü tərəfindən belə) tanınmamışdır. Bu gün dünya dövlətləri, universal və regional beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz tərkib hissəsi olduğu qeyd-şərtsiz qəbul edilir. Beləliklə, yuxarıda deyilənlərə əsasən qeyd etmək olar ki, Ermənistan, işğal altında olan Dağlıq Qarabağa və ətraf ərazilərə effektiv hərbi və siyasi nəzarət həyata keçirdiyindən beynəlxalq hüquq normalarına və Avropa Məhkəməsinin təcrübəsinə əsasən, Dağlıq Qarabağda idarəçiliyin qanunsuz və qondarma rejim tərəfindən həyata keçirilməsi bəhanəsi ilə məsuliyyətdən yayına bilməz. Məhkəmənin ərazi yurisdiksiyası baxımından işğal nəticəsində Konvensiya müddəalarının pozulması ilə bağlı Ermənistana qarşı işlərə baxılmasına hüquqi maneə yoxdur;

- Avropa Məhkəməsinin məsləhət rəyləri verilməsi ilə bağlı yurisdiksiyası haqqında deyilənləri yekunlaşdıraraq qeyd etmək olar ki, Avropa Məhkəməsinin məsləhət rəyləri verilməsi sahəsində fəaliyyəti canlanmalıdır və məsləhət rəyləri verilməsi ilə bağlı müraciət edə biləcək subyektlərin dairəsi genişləndirilməlidir, yəni insan hüquqlarının müdafiəsinin Amerika sistemində olduğu kimi Konvensiyanın iştirakçı-dövlətlərinin də bununla bağlı birbaşa Avropa Məhkəməsinə müraciət etmək hüququ təmin edilməlidir. Hesab edirik ki, iştirakçı-dövlətlərə belə hüququn verilməsi Avropa İnsan Hüquqları Konvensiyasının və Məhkəmənin qərarlarının milli səviyyədə implementasiyasında əhəmiyyətli rol oynayardı.

**IV.** Avropa Məhkəməsinin yurisdiksiyası və milli hüququn qarşılıqlı əlaqəsi kontekstində subsidiarlıq prinsipinin təhlilinə dair fikirləri ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar:

- Avropa Məhkəməsi milli məhkəmələrin hökm və ya qərarlarını ləğv edə bilməz. Belə ki, o, milli məhkəmələrə münasibətdə yuxarı instansiya məhkəməsi qismində çıxış etmir. Bu yanaşma «dördüncü instansiya doktrinası»na («quatrieme

instance») əsaslanır. Məhkəmə dəfələrlə öz qərarlarında qeyd etmişdir ki, milli məhkəmə qərarlarının ləğv edilməsi onun səlahiyyətində deyildir. Avropa Məhkəməsi nə qədər səmərəli və nüfuzlu mexanizm olsa da, bu Məhkəmə milli məhkəmə sistemini əvəz etmir və heç bir halda sonuncu instansiya məhkəməsi kimi çıxış etmir; eyni zamanda Avropa Məhkəməsinin qərarları dövlətlər üçün, o cümlədən konkret iş üzrə cavabdeh-dövlətin müvafiq orqanları və məhkəmə sistemi üçün hüquqi baxımdan məcburi presedent xarakterinə malik olmasa da, milli məhkəmələr «beynəlxalq müqavilə» anlayışını geniş şərh edərək Avropa Məhkəməsinin qərarlarını Avropa İnsan Hüquqları Konvensiyasının ayrılmaz tərkib hissəsi kimi qəbul etməli və hüquq tətbiqetmə praktikasında Konvensiya ilə yanaşı Avropa Məhkəməsinin maddi hüquq normalarının şərhi əks olunan qərarlarını da tətbiq etməlidirlər;

- Avropa Məhkəməsinin milli məhkəmələrə münasibətdə rolu subsidiar xarakter daşıyır. Konvensiyada təsbit olunmuş hüquq və azadlıqların müdafiəsini ilk növbədə dövlətlərin özləri təmin etməlidir. Məhkəmənin subsidiar xarakterini Konvensiyanın bir sıra maddələrindən də görmək olur (məsələn, 1-ci maddə, 35-ci maddənin 1-ci bəndi, 53-cü maddə və s.).

- Avropa Məhkəməsi dövlətlərüstü məhkəmə deyildir. O, dövlətlərə onların qanunverici, məhkəmə və digər fəaliyyətləri ilə əlaqədar konkret göstərişlər verə bilməz. Avropa Məhkəməsi, Konvensiyanın bu və ya digər maddəsinin pozulduğunu müəyyən etdiyi halda belə, dövlətdaxili qanunvericiliyə dəyişikliklər etmək, hər hansı qanunvericilik aktını qəbul etmək və ya ləğv etmək haqqında məcburi tələb irəli sürə bilməz.

**V.** Bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi şərti ilə bağlı deyilənlərə yekun olaraq qeyd etmək olar ki, hüququnun pozulduğunu iddia edən şəxs onun bərpası üçün ilk növbədə milli hüquqda müəyyən edilmiş və müraciət edilməsi mümkün olan bütün daxili hüquq müdafiə vasitələrindən istifadə etməlidir. Azərbaycanda Konvensiya anlamında daxili hüquq müdafiə vasitələrinin tükənməsi üçün əvvəlcə I instansiya məhkəməsinə, sonra apellyasiya instansiyası məhkəməsinə və nəhayət Ali Məhkəməyə müraciət edilməlidir. Avropa Məhkəməsinə müraciət etmək məqsədilə Azərbaycanda dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi üçün Ali Məhkəmənin Plenumuna əlavə kassasiya qaydasında şikayət etməyə ehtiyac yoxdur. Şəxs ekstraordinar vasitələri tükəndirməyə borclu deyildir. Bu baxımdan Ali Məhkəmənin Plenumu səmərəli müdafiə vasitəsi hesab oluna bilməz. Həmçinin, hər bir halda Konstitusiya Məhkəməsinə müraciət edilməsi də zəruri deyildir. Belə ki, Konstitusiya Məhkəməsi məhkəmə hakimiyyətini həyata keçirən orqanlardan biri olsa da,

məhkəmə sisteminə daxil deyildir. Beləliklə, əgər pozulmuş hüququn bərpası milli səviyyədə Konstitusiya Məhkəməsinin səlahiyyətləri daxilindədirsə, məsələn, hüququ pozulmuş şəxs bu pozuntunun milli qanunvericilik aktının mövcudluğu və ya ona qarşı tətbiqi ilə baş verdiyini iddia edirsə, bu halda, dövlətdaxili hüquq müdafiə mexanizmlərinin tükəndirilməsi üçün Konstitusiya Məhkəməsinə müraciət edilməlidir. Həmçinin, Avropa Məhkəməsinə müraciət etməzdən əvvəl bütün dövlətdaxili hüquq müdafiə mexanizmlərinin tükəndirilməsi üçün Ombudsmana müraciət etmək zəruri deyildir. Yəni, Məhkəmə tərəfindən Ombudsman Konvensiyanın 35-ci maddəsi baxımından tükəndirilməsi vacib olan dövlətdaxili mexanizmlər sırasına aid edilmir.

**VI.** Avropa Məhkəməsinin qərarları ilə bağlı deyilənləri ümumiləşdirərək aşağıdakıları qeyd etmək olar:

- Məhkəmənin qəti qərarları iş üzrə tərəf olan dövlətlər üçün məcburi xarakter daşıyır;
- Avropa Məhkəməsinin qərarları hüquqyaratma deyil, hüquq tətbiqetmə fəaliyyətinin nəticəsidir və buna görə də onlar yeni norma doğura bilməzlər. Buradan da belə nəticəyə gəlmək olar ki, "Avropa Məhkəməsinin presedent hüququ" ifadəsinin əvəzinə "Avropa Məhkəməsinin təcrübəsi" ifadəsinin işlədilməsi hüquqi baxımdan daha düzgündür;
- Avropa Məhkəməsinin qərarları milli məhkəmələr üçün presedent qismində çıxış etmir, onlar subsidiar və müəyyən qədər tövsiyə xarakterlidir. Bu qərarlar daha çox Məhkəmənin müasir dövrdə Konvensiya müddəalarını necə başa düşdüyünü əks etdirir;
- Konvensiyanın maddi hüquq normaları Avropa Məhkəməsinin şərh etdiyi qaydada tətbiq edilir. Yəni, milli səviyyədə hüquq tətbiqedən orqanlar Konvensiyanı Avropa Məhkəməsinin qərarlarını, şərhlərini, Məhkəmənin hüquqi mövqelərini nəzərə alaraq tətbiq etməlidirlər;
- Avropa Məhkəməsi işin mahiyyəti üzrə iki növ qərar qəbul edir: birinci növ qərarda Məhkəmə hüquq pozuntusunun bəyan edilməsi ilə kifayətlənir və bu növ qərar deklarativ xarakter daşıyır. İkinci növ qərarda Məhkəmə cavabdeh-dövlətin üzərinə zərərçəkən tərəfə ədalətli kompensasiya ödənilməsi öhdəliyini qoyur. Ədalətli kompensasiya özündə mənəvi zərəri, maddi ziyanı və məhkəmə xərclərini ehtiva edir. Bəzi hallarda fərdin hüququnun pozulması faktının Məhkəmə tərəfindən bəyan edilməsinin özü «ədalətli kompensasiya» hesab olunur;
- Məhkəmənin təcrübəsində mənəvi zərərə görə kompensasiyanın təyin edilməsi meyarları müəyyənləşdirilməlidir;
- Məhkəmənin təcrübəsindən çıxış edərək qeyd etmək olar ki, Məhkəmə

bəzi qərarlarında ədalətli kompensasiyanın *sui generis* növünü müəyyən etmişdir. Belə ki, «Tarverdiyev Azərbaycana qarşı» işi üzrə qərarında (26 iyul 2007-ci il) Məhkəmə 6-cı maddənin pozulması ilə bağlı ədalətli kompensasiya qismində dövlətin üzərinə milli məhkəmə qərarının icra edilməsi öhdəliyini qoymuşdur;

- Məhkəmənin konkret qərarını icra edərkən dövlət fərdi tədbirlərlə yanaşı, həmçinin, ümumi tədbirlər də həyata keçirməlidir. Bu, dövlətin həm qanunvericiliyini və inzibati praktikasını Konvensiyaya uyğunlaşdırmaq, həm də gələcəkdə analoji pozuntuların qarşısını almaq öhdəliyindən irəli gəlir. Bu halda qərarın bilavasitə icrası ilə yanaşı, həmçinin, onun implementasiyası məsələsi ortaya çıxır;

- Avropa Məhkəməsinin qərarlarının iş üzrə tərəf olan dövlət tərəfindən icra edilməməsi halında, belə dövlətə qarşı ciddi sanksiyalar nəzərdə tutan müddəanı özündə ehtiva edən Avropa İnsan Hüquqları Konvensiyasına əlavə Protokol qəbul edilməlidir, həmçinin, Avropa Məhkəməsinin qərarlarının iş üzrə tərəf olan dövlət tərəfindən gecikdirilmədən icra edilməsinin təmin edilməsi məqsədilə qərarların icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə əlavə səlahiyyətlər verilməli və bu məqsədlə Avropa Şurasının Nizamnaməsinə müvafiq dəyişiklik edilməlidir;

- Təcrübə göstərir ki, bir sıra hallarda iş üzrə tərəf olan dövlət ona qarşı çıxarılan qərarın icrası üçün yalnız ədalətli kompensasiya qismində Məhkəmə tərəfindən müəyyən edilmiş məbləği ödəməklə kifayətlənir, qərardan irəli gələn digər öhdəlikləri isə yerinə yetirmir və ya bunu etməyə tələsmir. Belə halların qarşısının alınması üçün Nazirlər Komitəsi iş üzrə tərəf olan dövlətin qarşısında qərardan irəli gələn bütün öhdəliklərin (həm fərdi, həm də ümumi tədbirlərin həyata keçirilməsi) konkret müddət ərzində yerinə yetirilməsi tələbi ilə çıxış etmək səlahiyyətinə malik olmalıdır;

- Məhkəmənin qərarlarının vaxtında və səmərəli icrasının təmin edilməsi məqsədilə bu prosesə Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı və milli insan hüquqları təsisatları, əsasən də ombudsman təsisatları cəlb edilməlidirlər; həmçinin Konvensiyanın 39-cu maddəsinə müvafiq olaraq işin dostcasına həlli prosedurunun səmərəli olması üçün bu prosesə vasitəçilik funksiyaları yerinə yetirən ombudsman təsisatının cəlb edilməsi məqsədəmüvafiqdir;

- Dövlətlərin Avropa Məhkəməsinin qərarlarının icrası sahəsində vəziyyətə dair hesabatı kimi təqdim edilən «xüsusi dövri icmal» proseduru tətbiq olunmalı, icmal Nazirlər Komitəsi yanında fəaliyyət göstərəcək «komitə» tərəfindən dinlənilməli, icmala dair Komitə özünün rəy və tövsiyələrini bildirməli, müvafiq dövlətə suallar ünvanlamalıdır. Həmçinin, Komitə milli insan hüquqları təsisatları və qeyri-hökumət təşkilatları tərəfindən təqdim edilən alternativ icmalları da nəzərdən keçirmək səlahiyyətinə malik olmalıdır;

- Məhkəməyə ərizə axınının qarşısını almaq üçün milli orqanlar, xüsusilə də

məhkəmələr hüquq tətbiqetmə təcrübəsində Avropa Məhkəməsinin təcrübəsini nəzərə almalı və Avropa İnsan Hüquqları Konvensiyasını tətbiq etməlidirlər. Avropa İnsan Hüquqları Konvensiyası beynəlxalq hüquqi təbiətinə görə özü icra olunan müqavilə olduğundan onun milli hüquq tətbiqedən orqanlar tərəfindən tətbiqinə heç bir maneə yoxdur;

- Avropa Məhkəməsinin qərarları bilavasitə və ya dolayısı ilə bu və ya digər dərəcədə milli hüquqa təsir edir və bunun nəticəsində dövlətdaxili səviyyədə müvafiq tədbirlər, həm qanunvericilik tədbirləri, məsələn, müvafiq qanunun qəbul edilməsi, yaxud müvafiq aktlarda dəyişikliklər edilməsi və s., həm də digər tədbirlər, məsələn, məhkəmə təcrübəsində dəyişikliklər edilməsi zəruridir.

Beləliklə, yuxarıda deyilənlərə yekun olaraq qeyd edilməlidir ki, Konvensiyanın iştirakçı-dövlətləri Avropa Məhkəməsinin təcrübəsini daim izləməli, bu təcrübəyə zidd normativ aktlar qəbul etməməli və cari qanunvericiliyə müvafiq dəyişikliklər etməlidirlər. Bu isə xüsusilə Avropa Şurasının gənc üzvü olan, artıq əleyhinə bir neçə qərar çıxarılmış Azərbaycan üçün xüsusilə əhəmiyyətlidir, həmçinin hüquqi islahatların davam etdirilməsi, insan hüquq və azadlıqlarının təminat mexanizminin səmərəliliyinin artırılması üçün zəruridir. Xüsusilə, qanun layihələrinin Avropa İnsan Hüquqları Konvensiyasına və Avropa Məhkəməsi təcrübəsində formalaşan hüquq standartlarına zidd olmaması, həmçinin keyfiyyətli hüquqi ekspertizanın keçirilməsi zəruridir. Bunun üçün isə, yəni qəbul olunacaq qanunların Avropa İnsan Hüquqları Konvensiyasına uyğunluğunun təmin edilməsi və yoxlanılması məqsədilə parlament yanında xüsusi bir qurumun (məsələn, müqayisəli qanunvericilik institutunun) yaradılması zəruridir. Hesab edirik ki, belə bir qurumun fəaliyyətinin respublikamızda qanunvericilik sistemində mövcud qüsurların aradan qaldırılmasında və hüquq sisteminin təkmilləşdirilməsində əhəmiyyətli rolu olardı.

Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının səmərəli qaydada və vaxtında icrasını, qərardan irəli gələn bütün zəruri tədbirlərin (həm ədalətli kompensasiyanın ödənilməsi, həm fərdi, həm də ümumi tədbirlərin) həyata keçirilməsinin təmin edilməsi məqsədilə «Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrası haqqında» Azərbaycan Respublikasının qanununun qəbul olunması məqsədəmüvafiq olardı. Həmin qanunda Avropa Məhkəməsinin qərarlarının icrasına bilavasitə məsul olan qurumlar müəyyən edilməlidir.

Fikrimizcə, ombudsman təsisatı Avropa Məhkəməsinin qərarlarının dövlət tərəfindən icrası prosesinə aktiv müdaxilə etməli və qərarın tam icra olunması üçün dövlətə tövsiyələr verməlidir. Məsələn, Ombudsman Avropa Məhkəməsinin qərarının icrası məqsədilə dövlətə, fərdi tədbirlərin (məsələn, Konvensiyanın müddəalarına zidd olaraq tutulmuş şəxsin azad edilməsi, ərizəçinin əfv edilməsi

və s. - yeri gəlmişkən Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin əfv məsələləri ilə bağlı Azərbaycan Respublikasının Prezidentinə müraciət etmək hüququ var), həmçinin də ümumi tədbirlərin (milli qanunvericiliyin, hüquq tətbiqetmə praktikasının təkmilləşdirilməsi, dövlətdaxili qanunvericilik aktlarının Avropa İnsan Hüquqları Konvensiyasına, Avropa Şurası hüquq standartlarına uyğunlaşdırılması, insan hüquqları ilə bağlı yeni qanunların qəbulu və s.) həyata keçirilməsi ilə bağlı tövsiyələr verə bilər. Ombudsman qanunla səlahiyyətinə aid olan bir sıra tədbirləri həyata keçirir. Fikrimizcə, bu fəaliyyətin bir hissəsi də, aidiyyəti dövlət qurumlarına müvafiq tövsiyələr verməklə Avropa Məhkəməsinin Azərbaycanla bağlı qərarlarının icrasına yönəlməlidir. Məsələn, bu sahədə fəaliyyətin daha uğurlu alınması üçün Ombudsman Azərbaycan Respublikasının Avropa İnsan Hüquqları Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi ilə əməkdaşlıq edə bilər.

Həmçinin, hesab edirik ki, bu sahədə fəaliyyətin canlandırılması, zəruri qanunvericilik tədbirlərinin həyata keçirilməsi sahəsində Azərbaycan Respublikasının Avropa Məhkəməsi yanında səlahiyyətli nümayəndəsi mühüm rol oynaya bilər. Əsasən də, Avropa Məhkəməsinin qərarlarının hüquqi nəticələrinin öyrənilməsi və Məhkəmənin təcrübəsini nəzərə alaraq qanunvericiliyin və hüquq tətbiqetmə təcrübəsinin təkmilləşdirilməsi üzrə, həmçinin Məhkəmənin çıxardığı qərarların hüquqi nəticəsini nəzərə alaraq normativ hüquqi aktların Avropa İnsan Hüquqları Konvensiyasının tələblərinə uyğunlaşdırılması və onların tətbiqi ilə bağlı Konvensiyanın tələblərinin pozulması hallarının qarşısını almaq üçün təkliflərin hazırlanmasında səlahiyyətli nümayəndənin rolu əhəmiyyətli ola bilər. Bu məqsədlə, həmçinin, səlahiyyətli nümayəndə yanında aidiyyəti dövlət qurumlarından (məsələn, Milli Məclisin aparatı, Ədliyyə Nazirliyi, İnsan Hüquqları üzrə Müvəkkilin Aparatı) ibarət tərkibdə «Qanunvericiliyin Avropa İnsan Hüquqları Konvensiyasına uyğun təkmilləşdirilməsi» üzrə xüsusi işçi qrupu və ya komissiya yaradıla bilər.

Yeri gəlmişkən, fikrimizcə səlahiyyətli nümayəndənin funksiyaları genişləndirilməli və onun ayrıca aparatı və ya katibliyi yaradılmalıdır. Bir sıra ölkələrdə bu funksiyanı (yəni, dövlətin maraqlarının Avropa Məhkəməsində müdafiəsi) ayrıca departamentlər (məsələn, Ədliyyə Nazirliyinin strukturunda) həyata keçirir. Məhkəmənin qərarlarının icrası sahəsində fəaliyyətin təkmilləşdirilməsi baxımından, bu təcrübənin nəzərə alınması faydalı olardı.

Milli qanunvericiliyin Avropa İnsan Hüquqları Konvensiyasına uyğunlaşdırılması prosesi davam etdirilməlidir və cari qanunvericilik Avropa hüquq standartları (Avropa hüquq standartları termini altında Avropa Şurası çərçivəsində qəbul olunan insan hüquqlarına dair beynəlxalq hüquqi aktlarda təsbit olunan stan-

dartlar nəzərdə tutulur) baxımından təkmilləşdirilməlidir. Azərbaycan qanunvericiliyində Avropa İnsan Hüquqları Konvensiyası ilə ziddiyyət təşkil edən normalar mövcuddur. Düzdür, Konstitusiyaya əsasən, hüquq tətbiqedən orqanlar, ilk növbədə isə məhkəmələr beynəlxalq hüquq normasının dövlətdaxili hüquq norması ilə (Konstitusiya və referendumla qəbul olunmuş aktlar istisna olmaqla) kolliziyası halında birincini üstün tutmalıdırlar, lakin buna baxmayaraq dövlət Avropa Şurası qarşısında, həmçinin, Avropa İnsan Hüquqları Konvensiyası ilə və nəhayət, ümumi beynəlxalq hüququn mühüm prinsiplərindən olan beynəlxalq öhdəliklərin vicdanla yerinə yetirilməsi prinsipinə (pacta sunt servanda) uyğun olaraq müvafiq qanunvericilik tədbirləri görməyə borcludur.

Məsələn, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin (CPM) 157.6-cı maddəsinə əsasən, «Həbsin qətimkan tədbiri qismində seçilməsi və ya seçilməsindən imtina edilməsi barədə məhkəmənin qərarından cinayət prosesinin tərəfləri apellyasiya instansiyası məhkəməsinə şikayət verə bilərlər. Apellyasiya instansiyası məhkəməsinin bu məsələyə dair qərarı qətidir». CPM-nin 453.10-cu maddəsinə müvafiq olaraq isə «Apellyasiya instansiyası məhkəməsi tərəfindən hakimin qanuniliyi və əsaslılığı artıq yoxlanılmış qərarından şikayətə və ya protestə təkrarən baxılmasına yol verilmir». Qeyd olunan maddələrin təhlilindən belə nəticə çıxarmaq olar ki, həbs qətimkan tədbirinə dair tərəflərin apellyasiya instansiyası məhkəməsinə verdiyi şikayətlə bağlı, sonuncunun qəbul etdiyi qərar qətidir və ondan daha yuxarı instansiya məhkəməsinə şikayət və ya protest verilə bilməz.

CPM-nin haqqında bəhs olunan norması Avropa İnsan Hüquqları Konvensiyası ilə ziddiyyət təşkil edir. Belə ki, Konvensiyanın 6-cı maddəsi ədalətli məhkəmə araşdırılması hüququnu özündə ehtiva edir. Bu norma eyni zamanda məhkəmə prosesi iştirakçılarının «ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi hüququ»nu nəzərdə tutur.

Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın 6-cı maddəsini şərh edərək belə nəticəyə gəlmişdir ki, «məhkəməyə səmərəli müraciət hüququ» və «ədalət mühakiməsinin əlçatan olması hüququ» bütövlükdə 6-cı maddənin qayəsini təşkil edən «ədalətli məhkəmə araşdırması hüququ»nun mühüm elementləridir. Bilavasitə 6-cı maddənin özündə nəzərdə tutulmasa da, Avropa Məhkəməsi təcrübəsinin təhlili onu deməyə əsas verir ki, 6-cı maddənin effektiv implementasiyası və bu maddədə təsbit olunan və hüququn aliliyi prinsipinin bərqərar olunmasında müstəsna rol oynayan ədalətli məhkəmə hüququnun səmərəli təmin edilməsi üçün «məhkəmənin əlçatan olması» prinsipinin təmini demokratik cəmiyyətdə mühüm önəm kəsb edir. Fikrimizcə, 6-cı maddənin ən mühüm tələblərindən biri ondan ibarətdir ki, məhkəmə araşdırılmasının iştirakçısı olan

şəxs mübahisəni həll edə biləcək bütün mümkün məhkəmə instansiyalarına müraciət etmək hüququna malik olmalıdır. Bu baxımdan kassasiya instansiyası ədalət mühakiməsinin effektiv həyata keçirilməsi sahəsində mühüm dövlətdaxili mexanizm qismində çıxış edir. Avropa Məhkəməsi də bir sıra qərarlarında qeyd etmişdir ki, cinayət proseslərində kassasiya instansiyasının rolu əvəzsizdir və bu instansiyada işə baxılması təqsirləndirilən şəxs üçün olduqca önəmlidir (məsələn, Avropa Məhkəməsinin «Delcourt», «Omar», «Guerin» işləri üzrə qərarları).

Beləliklə göründüyü kimi, şəxsin yuxarı instansiya məhkəməsinə müraciətdən məhrum edilməsi ədalətli məhkəmə araşdırılması hüququnun və xüsusilə də onun mühüm komponentini təşkil edən «məhkəmənin əlçatan olması hüququ»nun pozuntusu kimi qiymətləndirilə bilər. Odur ki, CPM-nin qeyd olunan normaları, ona münasibətdə üstün hüquqi qüvvəyə malik olan Avropa İnsan Hüquqları Konvensiyası ilə ziddiyyət təşkil edir.

Fikrimizcə, yuxarıda qeyd olunanlar milli qanunvericiliyin Avropa Şurasının hüquq standartlarına tam cavab vermədiyini göstərməklə yanaşı, onun Avropa İnsan Hüquqları Konvensiyasına uyğunlaşdırılmasının zəruri olduğunu göstərir.

Yeri gəlmişkən, Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramında Avropa Məhkəməsinin qərarlarının icra edilməsi çərçivəsində qanunvericiliyin təkmilləşdirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Ümumilikdə isə Proqramın I fəsli bütünlüklə normativ-hüquqi bazanın təkmilləşdirilməsi məsələlərinə həsr edilmişdir.

Qeyd etmək lazımdır ki, Avropa Məhkəməsinə ərizə axınının qarşısını almaq üçün, ilk növbədə səmərəli milli məhkəmə sisteminin mövcudluğu və milli qanunvericilik aktlarının Avropa Şurasının tələblərinə, Avropa İnsan Hüquqları Konvensiyasına uyğunlaşdırılması zəruridir. İnsan hüquqlarının müdafiəsini, pozulmuş hüquqların ağlabatan müddət ərzində, səmərəli şəkildə bərpasını dövlətlər özləri təmin etməlidirlər.

İnsan hüquqlarının dövlətdaxili səviyyədə müdafiəsinin effektivliyinin artırılması üçün ilk növdəbə məhkəmə sistemində islahatlar keçirmək, məhkəmələrin aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında fəaliyyətini təmin etmək zəruridir. Bu isə demokratiya yoluna Avropa Şurasının üzvü olan bir sıra «klassik» demokratik rejimli dövlətlərlə müqayisədə yeni qədəm qoymuş Azərbaycan üçün çox önəmlidir. Məhkəmə sistemində aparılan islahatlar daim inkişaf və davam etdirilməlidir. Hüquqi dövlətin formalaşdırılmasını, əsas insan hüquq və azadlıqlarının müdafiəsini təmin etmək sahəsində ən mühüm prinsip məhkəmə hakimiyyətinin müstəqilliyidir. Elə bir səmərəli hüquq müdafiə

mexanizmi, ilk növbədə isə məhkəmə sistemi formalaşmalıdır ki, insan hüquqlarının pozulduğu halda bu pozulmuş hüquqlar milli səviyyədə ağlabatan müddət ərzində və səmərəli şəkildə bərpa olunsun. Buna nail olmaq üçün, artıq qeyd etdiyimiz kimi, məhkəmə sisteminin hüququn ümumtanınmış prinsipləri əsasında fəaliyyətini təmin etmək zəruridir.

Beləliklə, insan hüquq və azadlıqlarının təmin olunmasını ilk növbədə dövlətlər özləri təmin etməli və hüququ pozulmuş hər bir şəxsin pozulmuş hüquqlarının bərpası üçün milli səviyyədə səmərəli və real dövlətdaxili hüquq müdafiə mexanizmləri olmalıdır. Bu sahədə Avropa Məhkəməsinin fəaliyyətinin əsas istiqamətlərindən biri isə Konvensiyanın iştirakçı-dövlətlərinin öz daxili hüquqi mexanizmləri vasitəsilə insan hüquqlarının müdafiəsini yüksək səviyyədə təmin etmək üçün onlara bu sahədə istiqamət vermək və yardımçı olmaqdır.

Ümumilikdə qeyd etmək olar ki, Avropa Məhkəməsinin təcrübəsi üzv-dövlətlərin qanunvericiliyinin Avropa Şurası hüquq standartlarına uyğunlaşdırılmasında əhəmiyyətli rol oynayır. Avropa Məhkəməsinin qərarları nəinki Avropa Şurası üzv-dövlətlərinin, həmçinin digər dövlətlərin də qanunvericiliyinə müəyyən təsir göstərir və bir sıra digər universal və regional beynəlxalq hüquq müdafiə mexanizmləri (xüsusilə də Amerikaarası İnsan Hüquqları Məhkəməsi) Avropa Məhkəməsinin qərarlarına istinad edir.

Beləliklə, artıq 50 ildən çox fəaliyyət göstərən Avropa İnsan Hüquqları Məhkəməsi bu illər ərzində səmərəli beynəlxalq hüquq müdafiə mexanizmi kimi özünü təsdiq etmiş və bu gün də Avropa Şurasına daxil olan 47 üzv-dövlətin 800 milyondan artıq əhalisinin pozulmuş hüquqlarının bərpasına, Avropa Şurası hüququnun inkişafına mühüm töhfələr verir.

Avropa İnsan Hüquqları Məhkəməsinin 50 ildən artıq fəaliyyətinin təhlili onu deməyə əsas verir ki, bu unikal beynəlxalq hüquq müdafiə mexanizminin potensialı hələ tükənməmişdir.

## РЕЗЮМЕ

Исследовательская работа на тему «Европейский Суд по правам человека», представленная Алиевым Зауром Гумбат оглы имеет важное значение для анализа теоретических и практических вопросов осуществления юрисдикции Европейского Суда по правам человека - первого специализированного международного судебного механизма, обеспечивающего непосредственное обращение индивидов в международный судебный орган, рассматривающего индивидуальные и межгосударственные жалобы в связи с нарушением прав и свобод человека, предусмотренных Европейской Конвенцией по правам человека и Протоколами к ней.

Актуальность исследования обусловлена потребностями развития европейского права прав человека, которое продолжает влиять и воздействовать особенно на национальное законодательство новых суверенных государств, как активно формирующих свою государственность, так и ставших членами Совета Европы.

Цель исследования заключается в комплексном изучении и анализе международно-правового статуса, а также отдельных видов юрисдикций Европейского Суда по правам человека.

Научная новизна исследования заключается в том, что впервые в юридической науке Азербайджанской Республики проведён комплексный анализ правовых основ и осуществления юрисдикции Европейского Суда по правам человека. Практическая значимость исследования в том, что материалы, выводы и положения данной работы могут быть использованы государственными органами при имплементации обязательств, взятых на себя Азербайджаном в сфере прав человека, в особенности в рамках деятельности Совета Европы, а также в случае обращения к механизмам международного контроля с целью восстановления нарушенных прав и свобод человека.

Учебное пособие состоит из предисловия, введения, трёх глав, включающих одиннадцать параграфов, заключительной части и списка литературы.

Во введении отражены актуальность исследования, его предмет, цель, методологические основы, научная новизна, теоретическое и практическое значение работы.

В первой главе «Европейский Суд по правам человека – специализированный международный судебный орган в области защиты прав человека»

рассматриваются вопросы, связанные с международно-правовым статусом Европейского Суда. В данной главе также проведён сравнительный анализ Европейского Суда по правам человека по отношению к другим международно-правовым механизмам в области международной защиты прав человека.

Во второй главе – «Юрисдикция Европейского Суда по правам человека по рассмотрению жалоб и по вынесению консультативных заключений», анализируются отдельные виды юрисдикции Европейского Суда – предметная, персональная, территориальная, юрисдикция Суда по времени, а также юрисдикция Суда по вынесению консультативных заключений. В данной главе также рассматриваются вопросы касательно соотношения юрисдикции Европейского Суда и национального права, принципа субсидиарности, исчерпания внутригосударственных правовых средств и т.п.

Третья глава называется «Механизм осуществления юрисдикции Европейского Суда по правам человека». В рамках этой главы рассматриваются такие вопросы, как обязательная сила и исполнение постановлений Европейского Суда по правам человека, пути влияния постанов- лений на национальное право, рассмотрение индивидуальных и межгосударственных дел в Европейском Суде по правам человека и т.п.

В заключительной части подводятся итоги проведённого исследования, делаются выводы, формулируются рекомендации и предложения.

## SUMMARY

The research work of Zaur Aliyev on the “European Court of Human Rights” bears a huge importance for the analysis of theoretical and practical issues of the exercise of jurisdiction of the European Court of Human Rights. The European Court of Human Rights is the first specialized international legal mechanism providing a chance of direct application of people to the international court that considers individual and interstate complaints on violation of human rights and freedoms envisaged in the European Convention on Human Rights and its Protocols.

The relevance of research is determined by the requirements of the European Human Rights Law influencing national legislation of newly independent states which are developing their statehood as well as joined the Council of Europe.

The research is aimed at a complex study and analysis of the international legal status as well as ratione materiae, ratione personae, ratione loci, ratione temporis jurisdiction of the European Court and the Court’s jurisdiction on advisory opinions.

The academic novelty of this work is that for the first time in legal science of Azerbaijan an overall analysis of legal basis and the implementation of the European Court’s jurisdiction is conducted. Moreover, from the point of practical significance, the materials, conclusions and provisions of this work may be used by state bodies during implementation of commitments undertaken by Azerbaijan in the sphere of human rights, especially within the frame of the Council of Europe activity, as well as for the restoration of violated human rights and freedoms in the case of appeal to the international control mechanisms.

The textbook consists of the introduction, three chapters with eleven paragraphs, conclusion and the list of literature.

The introduction covers the relevance of research, its subject, main goal, methodology, academic novelty, as well as theoretical and practical importance of the work in general.

The first chapter titled “The European Court of Human Rights as a specialized international judicial body in the field of the protection of human rights” deals with matters related to the international legal status of the European Court. The chapter also provides a comparative analysis of the European Court with other international legal mechanisms of international protection of human rights.

The second chapter of the textbook entitled “Contentions and advisory jurisdiction of the European Court of Human Rights” analyzes various types of the

European Court's jurisdiction, including ratione materiae, ratione personae, ratione temporis, ratione loci jurisdictions, as well as, the Court's jurisdiction on advisory opinions. This chapter also considers the issues regarding the correlation of the European Court jurisdiction and national law, principle of subsidiarity, exhaustion of state legal remedies and others.

The third chapter is named "The mechanism for exercise of jurisdiction of the European Court of Human Rights". The chapter considers such issues as binding force and execution of judgments of the European Court of Human Rights, impact of judgments to the national law, inter-state cases and individual applications and etc.

The conclusion of the work summarizes the outcomes of research, provides relevant conclusions as well as recommendations and suggestions.

# ƏLAVƏ:

## İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya

Roma, 4 noyabr 1950-ci il
3 sentyabr 1953-cü ildə qüvvəyə minmişdir

1970-ci il sentyabrın 21-də qüvvəyə minmiş 3 saylı Protokolla,
1971-ci il dekabrın 20-də qüvvəyə minmiş 5 saylı Protokolla,
1990-cı il yanvarın 1-də qüvvəyə minmiş 8 saylı Protokolla,
1998-ci il noyabrın 1-də qüvvəyə minmiş 11 saylı Protokolla,
2010-cu il iyunun 1-də qüvvəyə minmiş 14 saylı Protokolla dəyişikliklər və əlavələr edilmişdir.

Avropa Şurasının üzvü olub, bu Konvensiyanı imzalayan hökumətlər,

1948-ci il dekabrın 10-da BMT Baş Məclisi tərəfindən bəyan edilmiş İnsan Hüquqları haqqında Ümumi Bəyannaməni nəzərə alaraq;

bu Bəyannamənin məqsədinin, bəyan etdiyi hüquqların hamılıqla və səmərəli tanınmasının və həyata keçirilməsinin təmin edilməsi olduğunu nəzərə alaraq;

Avropa Şurasının məqsədinin onun üzvləri arasında daha böyük birliyə nail olmaqdan ibarət olduğunu və bu məqsədlərə nail olmağın əsas vasitələrindən birinin insan hüquqlarının və əsas azadlıqların dəstəklənməsi və gələcək reallaşdırılması olduğunu hesab edərək;

dünyada ədalətin və sülhün əsası olan və riayət edilməsi başlıca olaraq, bir tərəfdən həqiqi demokratik siyasi rejimlə və digər tərəfdən onların sadiq qaldığı insan hüquqlarını hamının anlaması və riayət etməsi ilə təmin olunan əsas azadlıqlara öz dərin sədaqətlərini təsdiq edərək;

vahid səylərlə hərəkət edən və siyasi ənənələrin, idealların, azadlığın və hüququn aliliyinin ümumi irsinə malik olan Avropa ölkələrinin hökumətləri kimi Ümumi Bəyannamədə təsbit olunmuş bəzi hüquqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda ilk addımlar atmaq əzmində olaraq,

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**
**İnsan hüquqlarına hörmət olunması öhdəliyi**

Razılığa gələn Yüksək Tərəflər onların yurisdiksiyasında olan hər kəs üçün bu Konvensiyanın I Bölməsində müəyyən olunmuş hüquq və azadlıqları təmin edirlər.

## *I Bölmə*
## *Hüquqlar və Azadlıqlar*

**Maddə 2**
**Yaşamaq hüququ**

1. Hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm cəzası nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa, həyatından məhrum edilə bilməz.

2. Həyatdan məhrumetmə, aşağıdakı məqsədlər üçün güc tətbiqində mütləq zərurətin nəticəsi olduqda, bu maddənin pozulması hesab edilmir:

(a) istənilən şəxsin hüquqa zidd zorakılıqdan qorunması üçün;

(b) qanuni həbsi həyata keçirmək və ya qanuni əsaslarla həbsdə olan şəxsin qaçmasının qarşısını almaq üçün;

(c) qanuna müvafiq olaraq iğtişaş və ya qiyamın yatırılması üçün.

**Maddə 3**
**İşgəncələrin qadağan olunması**

Heç kəs işgəncəyə, qeyri-insani və ya ləyaqəti alçaldan rəftara və ya cəzaya məruz qalmamalıdır.

**Maddə 4**
**Köləliyin və məcburi əməyin qadağan olunması**

1. Heç kəs köləlikdə və ya əsarət altında saxlanılmamalıdır.

2. Heç kəs məcburi və ya icbari əməyə cəlb olunmamalıdır.

3. Bu maddənin məqsədləri üçün «məcburi və ya icbari əmək» termini aşağıdakıları ehtiva etmir:

(a) bu Konvensiyanın 5-ci maddəsinin müddəalarına müvafiq olaraq həbsdə olan və ya belə həbsdən şərti azad edilmiş şəxsin adətən yerinə yetirməli olduğu hər hansı iş;

b) hərbi xarakterli hər hansı xidmət və ya hərbi xidmətdən əqidəyə görə imtina etmənin qanuni hesab edildiyi ölkələrdə məcburi hərbi xidmətin əvəzinə müəyyən edilmiş xidmət;

(c) fövqəladə vəziyyət və ya əhalinin həyatı və rifahı üçün təhlükə yaradan fəlakət hallarında hər hansı məcburi xidmət;

(d) adi vətəndaşlıq vəzifələrinin bir hissəsi olan hər hansı iş və ya xidmət.

**Maddə 5**

**Azadlıq və toxunulmazlıq hüququ**

1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa, azadlıqdan məhrum edilə bilməz:

(a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra şəxsin qanuni həbsə alınması;

(b) məhkəmənin qanuni çıxardığı qərarı icra etməməyə görə və ya qanunla nəzərdə tutulmuş hər hansı öhdəliyin icra olunmasını təmin etmək məqsədi ilə şəxsin qanuni tutulması və ya həbsə alınması;

(c) hüquq pozuntusunun törədilməsində əsaslı şübhə ilə bağlı şəxsin səlahiyyətli məhkəmə orqanı qarşısında durmasından irəli gələn və ya onun tərəfindən törədilən hüquq pozuntusunun, yaxud törətdikdən sonra onun gizlənməsinin qarşısını almaq üçün kifayət qədər zəruri əsaslar olduğunun hesab edildiyi hallarda şəxsin qanuni tutulması və ya həbsə alınması;

(d) yetkinlik yaşına çatmamış şəxsin tərbiyə nəzarəti üçün qanuni qərar əsasında həbsə alınması və ya onun səlahiyyətli orqana verilməsi üçün qanuni həbsə alınması;

e) yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaq üçün şəxslərin, habelə ruhi xəstələrin, alkoqolizmə və narkomaniyaya mübtəla olanların və ya səfillərin qanuni həbsə alınması;

(f) şəxsin ölkəyə qanunsuz gəlməsinin qarşısını almaq məqsədi ilə və ya barəsində deportasiya, yaxud ekstradisiya tədbirləri tətbiq olunan şəxsin qanuni tutulması və ya həbsə alınması;

2. Tutulmuş hər bir kəsə ona aydın olan dildə onun tutulmasının səbəbləri və ona qarşı irəli sürülən istənilən ittiham barədə dərhal məlumat verilir.

3. Bu maddənin I bəndinin «c» yarımbəndinə müvafiq olaraq tutulmuş və ya həbsə alınmış hər kəs dərhal hakimin və ya qanunla məhkəmə hakimiyyətini həyata keçirmək səlahiyyəti verilmiş digər vəzifəli şəxsin yanına gətirilir və ağlabatan müddət ərzində məhkəmə araşdırması və ya məhkəməyə qədər azad edilmək hüququna malikdir. Azad edilmək məhkəməyə gəlmə təminatlarının təqdim edilməsi ilə şərtləndirilə bilər.

4. Tutulma və ya həbsə alınma nəticəsində azadlıqdan məhrum edilmiş hər kəs onun həbsə alınmasının qanuniliyinə məhkəmə tərəfindən təxirə salınmadan

baxılması hüququna və əgər onun həbsi məhkəmə tərəfindən qanunsuz hesab edilibsə, azad edilmək hüququna malikdir.

5. Bu maddənin müddəalarının pozulması ilə tutulmağa və ya həbsə alınmağa məruz qalan hər kəsin iddia ilə təmin olunan kompensasiya hüququ var.

**Maddə 6**
**Ədalətli məhkəmə araşdırması hüququ**

1. Hər kəs, onun mülki hüquq və vəzifələri müəyyən edilərkən və ya ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış müstəqil və qərəzsiz məhkəmə vasitəsi ilə, ağlabatan müddətdə işinin ədalətli və açıq araşdırılması hüququna malikdir. Məhkəmə qərarı açıq elan edilir, lakin demokratik cəmiyyətdə əxlaq, ictimai qayda və ya milli təhlükəsizlik mülahizələrinə görə, həmçinin yetkinlik yaşına çatmayanların maraqları və ya tərəflərin şəxsi həyatının müdafiəsi bunu tələb etdikdə, yaxud məhkəmənin fikrincə, aşkarlığın ədalət mühakiməsinin maraqlarını poza biləcəyi xüsusi hallar zamanı ciddi zərurət olduqda mətbuat və ictimaiyyət bütün proses boyu və ya onun bir hissəsində məhkəmə iclasına buraxılmaya bilər.

2. Cinayət törətməkdə ittiham olunan hər kəs onun təqsiri qanun əsasında sübut ediləndək təqsirsiz hesab edilir.

3. Cinayət törətməkdə ittiham olunan hər kəs, ən azı aşağıdakı hüquqlara malikdir:

(a) ona qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında onun başa düşdüyü dildə dərhal və ətraflı məlumatlandırılmaq;

(b) öz müdafiəsini hazırlamaq üçün kifayət qədər vaxta və imkana malik olmaq;

(c) şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə özünü müdafiə etmək və ya müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədiyi zaman, ədalət mühakiməsinin maraqları tələb etdikdə, belə müdafiədən pulsuz istifadə etmək;

(d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlərin çağırılması və dindirilməsi hüququna malik olmaq;

(e) məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə etmək.

**Maddə 7**

**Qanunsuz cəzalandırılmamaq**

1. Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz. Habelə cinayət əməlinin törədildiyi zaman tətbiq edilməli olan cəzadan daha ağır cəza verilə bilməz.

2. Bu maddə sivil ölkələrin tanıdığı ümumi hüquq prinsiplərinə müvafiq olaraq, törədildiyi zaman cinayət hesab edilən hər hansı hərəkət və ya hərəkətsizliyə görə istənilən şəxsin mühakimə edilməsinə və ya cəzalandırılmasına mane olmur.

**Maddə 8**

**Şəxsi həyata və ailə həyatına hörmət hüququ**

1. Hər kəs öz şəxsi və ailə həyatına, evinə və yazışma sirrinə hörmət hüququna malikdir.

2. Milli təhlükəsizlik və ictimai asayiş, ölkənin iqtisadi rifah maraqları naminə, iğtişaşların və ya cinayətlərin qarşısını almaq üçün, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan hallar istisna olmaqla, bu hüququn həyata keçirilməsinə dövlət hakimiyyəti orqanları tərəfindən müdaxiləyə yol verilmir.

**Maddə 9**

**Fikir, vicdan və din azadlığı**

1. Hər kəsin fikir, vicdan və din azadlığı hüququ vardır; bu hüquqa öz dinini və ya əqidəsini dəyişmək azadlığı, öz dininə və ya əqidəsinə həm təkbaşına, həm də başqaları ilə birlikdə etiqad etmək və açıq, yaxud şəxsi qaydada ibadəti, təlimləri, dini və mərasim ayinlərini yerinə yetirmək azadlığı daxildir.

2. Öz dininə və baxışlarına etiqad etmək azadlığı yalnız ictimai asayiş maraqları naminə, ictimai qaydanı, sağlamlığı, yaxud mənəviyyatı qorumaq üçün və ya digər şəxslərin hüquq və azadlıqlarını müdafiə etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan məhdudiyyətlərə məruz qala bilər.

**Maddə 10**

**Fikri ifadə etmək azadlığı**

1. Hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz rəyində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneə olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat və ideyaları almaq

və yaymaq azadlığı daxildir. Bu maddə dövlətlərin radioyayım, televiziya və kinematoqrafiya müəssisələrinə lisenziya tələbi qoymasına mane olmur.

2. Bu azadlıqların həyata keçirilməsi milli təhlükəsizlik, ərazi bütövlüyü və ya ictimai asayiş maraqları naminə, iğtişaşın və ya cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün, digər şəxslərin nüfuzu və ya hüquqlarının müdafiəsi üçün, gizli əldə edilmiş məlumatların açıqlanmasının qarşısını almaq üçün və ya ədalət mühakiməsinin nüfuz və qərəzsizliyini təmin etmək üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olan müəyyən rəsmiyyətə, şərtlərə, məhdudiyyətlərə və ya sanksiyalara məruz qala bilər.

**Maddə 11**
**Yığıncaqlar və birləşmək azadlığı**

1. Hər kəsin dinc toplaşmaq azadlığı və öz maraqlarını müdafiə etmək üçün həmkarlar ittifaqları yaratmaq və onlara qoşulmaq hüququ da daxil olmaqla, başqaları ilə birləşmək azadlığı hüququ vardır.

2. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, iğtişaşın və cinayətin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa, heç bir məhdudiyyət qoyula bilməz. Bu maddə silahlı qüvvələr, polis və ya inzibati dövlət orqanları üzvlərinin belə hüquqlarının həyata keçirilməsinə qanuni məhdudiyyətlər qoyulmasına mane olmur.

**Maddə 12**
**Nigah hüququ**

Nigah yaşına çatmış kişilər və qadınlar bu hüququn həyata keçirilməsini tənzimləyən milli qanunvericiliyə müvafiq olaraq, nikaha daxil olmaq və ailə qurmaq hüququna malikdirlər.

**Maddə 13**
**Səmərəli hüquqi müdafiə vasitələri hüququ**

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqları pozulan hər kəs, hətta bu pozulma rəsmi fəaliyyət göstərən şəxslər tərəfindən törədildikdə belə, dövlət orqanları qarşısında səmərəli hüquqi müdafiə vasitələrinə malikdir.

**Maddə 14**

**Ayrı-seçkiliyin qadağan olunması**

Bu Konvensiyada təsbit olunmuş hüquq və azadlıqlardan istifadə cins, irq, dərinin rəngi, dil, din, siyasi və ya digər baxışlar, milli və ya sosial mənşə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər hər hansı əlamətlərinə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.

**Maddə 15**

**Fövqəladə hallar zamanı məhdudlaşdırma**

1. Müharibə və ya millətin həyatını təhdid edən digər fövqəladə hallar zamanı Razılığa gələn Yüksək Tərəflərdən hər hansı biri onun beynəlxalq hüquqa müvafiq digər öhdəliklərinə zidd olmamaq şərti ilə, yalnız vəziyyətin fövqəladəliyinin şərtləndirə biləcəyi səviyyədə bu Konvensiya üzrə öhdəliklərindən geri çəkilən tədbirlər görə bilər.

2. Bu müddəa, qanuni müharibə əməliyyatları nəticəsində ölüm halları istisna olmaqla, 2-ci maddənin və ya 3-cü maddənin müddəalarından, 4-cü maddənin 1-ci bəndinin və 7-ci maddənin müddəalarından geri çəkilməyə əsas vermir.

3. Bu geri çəkilmə hüququndan istifadə edən Razılığa gələn hər hansı Yüksək Tərəf gördüyü tədbirlər və onların səbəbləri haqqında Avropa Şurasının Baş Katibini tam məlumatlandırır. O, həmçinin belə tədbirlərin dayandırılması və Konvensiyanın müddəalarının yenidən tam həyata keçirilməyə başlanması haqqında Avropa Şurasının Baş Katibinə məlumat verir.

**Maddə 16**

**Əcnəbilərin siyasi fəaliyyətinin məhdudlaşdırılması**

10, 11 və 14-cü maddələrdə heç nə Razılığa gələn Yüksək Tərəflər üçün əcnəbilərin siyasi fəaliyyətinə məhdudiyyətlər qoyulmasına maneə hesab edilə bilməz.

**Maddə 17**

**Hüquqlardan sui-istifadənin qadağan olunması**

Bu Konvensiyada heç nə hər hansı dövlətin, qrupun və ya şəxsin burada təsbit olunan hüquq və azadlıqlarının ləğvinə yönəlmiş hər hansı fəaliyyətlə məşğul olmaq və ya hər hansı əməl törətmək və ya onları Konvensiyada nəzərdə tutulandan daha artıq məhdudlaşdırmaq hüququna malik olması kimi şərh oluna bilməz.

**Maddə 18**
**Hüquqlarla bağlı məhdudiyyətlərdən istifadənin hədləri**

Qeyd olunan hüquq və azadlıqlarla bağlı bu Konvensiyada yol verilən məhdudiyyətlər, nəzərdə tutulduğundan başqa, hər hansı digər məqsəd üçün tətbiq olunmamalıdır.

## *II Bölmə*
## *Avropa İnsan Hüquqları Məhkəməsi*

**Maddə 19**
**Məhkəmənin təsis olunması**

Razılığa gələn Yüksək Tərəflər bu Konvensiya və ona dair Protokollar ilə öz üzərlərinə götürdükləri öhdəliklərə riayət olunmasını təmin etmək məqsədi ilə Avropa İnsan Hüquqları Məhkəməsini (bundan sonra «Məhkəmə» adlanacaq) təsis edirlər. O, daimi əsaslarla fəaliyyət göstərir.

**Maddə 20**
**Hakimlərin sayı**

Məhkəmə Razılığa gələn Yüksək Tərəflərə bərabər sayda hakimlərdən ibarətdir.

**Maddə 21**
**Hakimliyə dair tələblər**

1. Hakimlər yüksək mənəvi keyfiyyətlərə malik olmalı və yüksək məhkəmə vəzifələrinə təyin olunarkən qoyulan tələblərə cavab verməli və ya tanınmış nüfuzlu hüquqşünaslar olmalıdırlar.
2. Hakimlər Məhkəmənin işində şəxsən iştirak edirlər.
3. Vəzifədə olduqları bütün müddət ərzində hakimlər onların müstəqilliyi, qərəzsizliyi ilə və ya tam iş gününün xarakterindən irəli gələn tələblərlə bir araya sığmayan heç bir fəaliyyətlə məşğul olmamalıdırlar. Bu bəndin müddəalarının tətbiqi ilə bağlı yaranan bütün məsələləri Məhkəmə həll edir.

**Maddə 22**
**Hakimlərin seçilməsi**

Razılığa gələn hər bir Yüksək Tərəf üzrə hakim Razılığa gələn Yüksək Tərəfin təqdim etdiyi üç namizəd siyahısından, Parlament Assambleyasının səs çoxluğu ilə seçilir.

**Maddə 23**

**Səlahiyyət müddəti və vəzifədən azad edilmə**

1. Hakimlər 9 il müddətinə seçilirlər. Onlar yenidən seçilə bilməzlər.

2. Hakimlərin səlahiyyət müddəti onlar 70 yaşına çatanda bitir.

3. Hakimlər əvəz olunanadək vəzifələrini yerinə yetirirlər. Bununla belə, onlar artıq başladıqları məhkəmə proseslərini sonadək davam etdirirlər.

4. Heç bir hakim digər hakimlərin üçdə iki səs çoxluğu ilə həmin hakimin tələb olunan şərtləri icra etməyi dayandırması barədə qərar qəbul edilməyincə vəzifəsindən azad edilə bilməz.

**Maddə 24**

**Katiblik və məruzəçilər**

1. Məhkəmənin, fəaliyyəti və təşkili Məhkəmə Reqlamentinə əsasən müəyyənləşdirilən katibliyi vardır.

2. İclas tək hakimdən ibarət tərkibdə olduqda, Məhkəmə sədrinin sərəncamında fəaliyyət göstərən məruzəçilər Məhkəməyə kömək edirlər. Onlar Məhkəmə katibliyinin tərkib hissəsini təşkil edirlər.

**Maddə 25**

**Məhkəmənin Plenumu**

Məhkəmənin Plenumu:

(a) öz Sədrini və Sədrin bir, yaxud iki müavinini üç il müddətinə seçir; onlar yenidən seçilə bilərlər;

(b) müəyyən müddət üçün nəzərdə tutulan Palatalar yaradır;

(c) Məhkəmə Palatasının Sədrlərini seçir; onlar yenidən seçilə bilərlər;

(d) Məhkəmə Reqlamentini təsdiq edir;

(e) Katibi və onun bir yaxud bir neçə müavinini seçir;

(f) 26-cı maddənin 2-ci bəndinə əsasən hər hansı sorğu verir.

**Maddə 26**

**Tək hakimli tərkib, Komitələr, Palatalar və Böyük Palata**

1. Məhkəmə ona təqdim edilmiş işlərə tək hakimli tərkibdə, üç hakimli Komitələrdə, yeddi hakimli Palatalarda və on yeddi hakimli Böyük Palatada baxır. Məhkəmənin Palataları müəyyən edilmiş müddət üçün komitələr təsis edir.

2. Plenar Məhkəmənin sorğusu ilə Nazirlər Komitəsi yekdil qərarla və müəyyən edilmiş müddət üçün Palatalardakı hakimlərin sayını beş nəfərə endirə bilər.

3. Tək hakimli tərkibdə hakim özünün seçildiyi Razılığa gələn Yüksək Tərəfə qarşı olan heç bir ərizəyə baxmamalıdır.

4. Orada Palatanın və Böyük Palatanın ex officio üzvü kimi, maraqlı olan Razılığa gələn Yüksək Tərəfə münasibətdə seçilmiş hakim hakimlik edir. Əgər belə bir hakim yoxdursa və ya həmin hakim iştirak edə bilmirsə, onda həmin Tərəfin əvvəlcədən təqdim etdiyi siyahıdan Məhkəmə Sədrinin seçildiyi şəxs hakim rolunda çıxış edir.

5. Böyük Palata, həmçinin Məhkəmə Sədri, Sədrin Müavinləri, Palataların Sədrləri və Məhkəmənin Reqlamentinə əsasən seçilmiş digər hakimlər daxildir. Məhkəmə işi 43-cü maddəyə əsasən Böyük Palataya göndərildikdə, Palatanın Sədri və maraqlı olan Yüksək Razılığa gələn Tərəfə münasibətdə iştirak edən hakim istisna olmaqla, Məhkəmə qərarını çıxaran Palatanın hakimlərindən heç biri Böyük Palatada iştirak etməməlidir.

**Maddə 27**
**Tək hakimlərin səlahiyyəti**

1. Tək hakim 34-cü maddəyə əsasən verilmiş ərizəni qəbul edilə bilməyən elan edə və ya icraatda olan işlərin siyahısından çıxara bilər və bu cür qərar əlavə öyrənilmədən qəbul edilə bilər.

2. Bu qərar qətidir.

3. Əgər tək hakim ərizəni qəbul edilə bilməyən elan etmirsə və ya siyahıdan çıxarmırsa, o zaman həmin hakim əlavə öyrənilmə üçün onu Komitəyə və ya Palataya göndərir.

**Maddə 28**
**Komitələrin səlahiyyəti**

1. 34-cü maddəyə müvafiq olaraq təqdim olunan ərizəyə münasibətdə Komitə yekdil səslə,

(a) əlavə öyrənmədən onu qəbul edilə bilməyən elan edə və ya Məhkəmə işlərinin siyahısından çıxara bilər; və ya

(b) onu qəbul edilə bilən elan edə bilər və eyni zamanda işin mahiyyətinə uyğun qərar çıxara bilər, bu şərtlə ki, işin Konvensiyanın və ya ona dair Protokolların təfsiri və ya tətbiqi ilə bağlı olan əsas məsələsi artıq Məhkəmənin qəti müəyyən edilmiş presedent hüququnun predmeti olsun.

2. 1-ci bənddə qeyd olunan qərardadlar və qərarlar qətidir.

3. Əgər maraqlı olan Razılığa gələn Yüksək Tərəfə münasibətdə seçilmiş hakim Komitənin üzvü deyilsə, o zaman komitə bütün aidiyyəti faktorları, o cümlədən 1(b) bəndinə əsasən prosessual normaların tətbiqinə dair həmin Tərəfin iradının olub-olmamasını nəzərə alaraq, Məhkəmə işinin istənilən mərhələsində Komitənin üzvlərindən hər hansı birinin yerinə həmin hakimi dəvət edə bilər.

**Maddə 29**
**Şikayətin qəbul olunması və mahiyyəti barədə Palataların qərarları**

1. Əgər 27-ci və ya 28-ci maddəyə əsasən hər hansı bir qərardad qəbul olunmayıbsa və ya 28-ci maddəyə əsasən heç bir qərar çıxarılmayıbsa, o zaman Palata 34-cü maddəyə uyğun olaraq təqdim edilmiş fərdi şikayətlərin qəbul edilə bilmə meyarına və mahiyyətinə görə qərar çıxarır. Qəbul edilə bilməyə dair qərardad ayrıca çıxarıla bilər.

2. Palata 33-cü maddənin müddəalarına müvafiq olaraq dövlətin verdiyi şikayətin qəbul olunması və mahiyyəti üzrə qərar çıxarır. Qəbul edilə bilməyə dair qərar, əgər müstəsna hallarda Məhkəmə başqa cür qərar verməyibsə, ayrıca çıxarılır.

**Maddə 30**
**Böyük Palatanın xeyrinə yurisdiksiyadan imtina**

Əgər Palatanın icraatında olan iş Konvensiyanın və ya ona dair Protokolların şərhi barədə ciddi məsələyə toxunursa, yaxud məsələnin həlli Məhkəmənin əvvəllər çıxardığı qərara zidd ola bilərsə, tərəflərdən heç biri buna etiraz etmədikdə, Palata öz qərarını çıxarana qədər istənilən vaxt Böyük Palatanın xeyrinə yurisdiksiyasından imtina edə bilər.

**Maddə 31**
**Böyük Palatanın səlahiyyətləri**

Böyük Palata:

(a) Palata 30-cu maddənin müddəalarına əsasən yurisdiksiyasından imtina etdikdə və ya 43-cü maddənin müddəalarına müvafiq olaraq iş ona göndərildikdə 33-cü və ya 34-cü maddələrin müddəalarına müvafiq olaraq verilmiş şikayətlər üzrə qərar çıxarır;

(b) Nazirlər Komitəsi tərəfindən 46-cı maddənin 4-cü bəndinə əsasən Məhkəməyə göndərilmiş məsələləri həll edir; və

(c) 47-ci maddənin müddəalarına müvafiq olaraq təqdim edilmiş məsləhət rəyləri çıxarmaq üçün verilmiş xahişlərə baxır.

**Maddə 32**
**Məhkəmənin səlahiyyəti**

1. Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhi və tətbiqinə dair ona verilə bilən, 33, 34, 46 və 47-ci maddələrdə nəzərdə tutulmuş bütün məsələlər Məhkəmənin səlahiyyətindədir.

2. Konkret iş üzrə Məhkəmənin səlahiyyəti ilə bağlı mübahisəni Məhkəmənin özü həll edir.

**Maddə 33**
**Dövlətlərarası işlər**

Razılığa gələn hər hansı Yüksək Tərəf Razılığa gələn digər Yüksək Tərəfin Konvensiyanın və ona dair Protokolların müddəalarını hər hansı şəkildə pozması ehtimalı ilə bağlı Məhkəməyə müraciət edə bilər.

**Maddə 34**
**Fərdi şikayətlər**

Məhkəmə istənilən fiziki şəxsdən, qeyri-hökumət təşkilatından və ya ayrı-ayrı şəxslər qrupundan, Razılığa gələn Yüksək Tərəflərdən birinin onun bu Konvensiyanın və ya ona dair Protokolların müddəaları ilə nəzərdə tutulmuş hüquqlarını pozmasının qurbanı olduğunu iddia edən şikayətlər qəbul edə bilər. Razılığa gələn Yüksək Tərəflər bu hüququn səmərəli həyata keçirilməsinə heç bir yolla mane olmamağı öhdələrinə götürürlər.

**Maddə 35**
**Qəbul edilmə şərtləri**

1. Məhkəmə yalnız beynəlxalq hüququn hamılıqla qəbul edilmiş normalarına müvafiq olaraq bütün daxili hüquq müdafiə vasitələri tükəndikdən sonra işi baxılmağa qəbul edə bilər və iş üzrə son qərarın çıxarıldığı tarixdən altı ay keçənədək işə baxa bilər.

2. Məhkəmə 34-cü maddənin müddəalarına müvafiq olaraq verilmiş aşağıdakı fərdi şikayətlərə baxmır:

(a) anonim olan; və ya

(b) mahiyyətcə Məhkəmənin artıq baxdığı məsələ ilə eyni olan, yaxud beynəlxalq araşdırmanın və ya tənzimləmənin digər prosedurunun predmeti olan və işə aid yeni faktları əks etdirməyən.

3. Məhkəmə 34-cü maddəyə əsasən təqdim edilmiş istənilən fərdi şikayəti qəbuledilməz elan edir, əgər o hesab edirsə ki:

(a) şikayət Konvensiyanın və ya ona dair Protokolların müddəalarına uyğun deyil, açıq-aşkar əsassızdır və ya fərdi müraciət hüququndan sui-istifadədir; və ya

(b) Konvensiya və ona dair Protokollarda göstərilmiş insan hüquqlarına hörmətin şikayətə mahiyyəti üzrə baxılmasını tələb etdiyi hallar istisna olmaqla, ərizəçi böyük zərərə məruz qalmayıbsa; lakin yerli məhkəmə tərəfindən lazımınca araşdırılmayan heç bir iş bu əsasla rədd edilə bilməz.

4. Məhkəmə bu maddəyə müvafiq olaraq qəbul olunmayan hesab etdiyi istənilən şikayəti rədd edir. O bunu icraatın istənilən mərhələsində edə bilər.

**Maddə 36**
**Üçüncü tərəfin iştirakı**

1. Palataların birində və ya Böyük Palatada olan bütün işlərdə vətəndaşı şikayətçi olan Razılığa gələn hər bir Yüksək Tərəfin yazılı qeydlər təqdim etmək və dinləmələrdə iştirak etmək hüququ var.

2. Ədalət mühakiməsinin lazımi qaydada həyata keçirilməsi naminə Məhkəmənin Sədri işdə tərəf olmayan istənilən Razılığa gələn Tərəfi və ya şikayətçi olmayan istənilən maraqlı şəxsi yazılı qeydlər təqdim etmək və ya dinləmələrdə iştirak etmək üçün dəvət edə bilər.

3. Avropa Şurasının İnsan Hüquqları üzrə Komissarı Palata və Böyük Palatada olan bütün məhkəmə işlərinə dair yazılı şəkildə şərhlər verə və dinləmələrdə iştirak edə bilər.

**Maddə 37**
**Şikayətlərin siyahıdan çıxarılması**

1. Əgər vəziyyət aşağıdakı nəticələrə gəlməyə əsas verirsə, icraatın istənilən mərhələsində Məhkəmə şikayəti işlərin siyahısından çıxarmaq barədə qərar qəbul edə bilər:

(a) şikayətçi daha öz ərizəsinə baxılmasına nail olmaq üçün səy göstərmirsə; və ya

(b) məsələ öz həllini tapıbsa; və ya

(c) Məhkəmənin müəyyənləşdirdiyi istənilən digər səbəbə görə, şikayətə baxışı davam etdirməyə lüzum yoxdursa.

Bununla belə, əgər bu Konvensiyanın və ona dair Protokolların müddəalarında müəyyən edilən insan hüquqlarına riayət olunması bunu tələb edirsə, Məhkəmə şikayətə baxmaqda davam edir.

2. Əgər Məhkəmə işin gedişinin buna bəraət qazandırdığını hesab edirsə, şikayətin baxılmalı işlər siyahısına bərpa edilməsi haqqında qərar qəbul edilə bilər.

**Maddə 38**
**Məhkəmə işinin araşdırılması**

Məhkəmə, məhkəmə işini maraqlı tərəflərin nümayəndələrinin iştirakı ilə araşdırır və ehtiyac olarsa, işin hallarını təhqiq edir və bu təhqiqatın səmərəli olması üçün maraqlı olan Razılığa gələn Yüksək Tərəflər bütün zəruri imkanları yaratmalıdırlar.

**Maddə 39**

**Dostcasına həlletmə**

1. Məhkəmə prosesinin istənilən mərhələsində Məhkəmə Konvensiya və ona dair Protokollarda müəyyən edilən insan hüquqlarına hörmət əsasında məsələnin dostcasına həllini təmin etmək məqsədilə maraqlı tərəflərə öz xidmətlərini təqdim edə bilər.

2. 1-ci bənddə nəzərdə tutulan prosedur məxfi olmalıdır.

3. Əgər dostcasına həlletmə mümkündürsə, Məhkəmə faktların və əldə olunmuş razılığın qısaca əks olunduğu qərardadla işi öz siyahısından çıxarır.

4. Bu qərardad dostcasına həlletmənin qərardadda müəyyən edilmiş şərtlərinin yerinə yetirilməsinə nəzarət edəcək Nazirlər Komitəsinə göndərilir.

**Maddə 40**

**Açıq məhkəmə iclasları və sənədlərdən istifadə**

1. Məhkəmə istisna hal kimi digər qərar qəbul etməzsə, onun iclasları açıq keçirilir.

2. Məhkəmə Sədri digər qərar qəbul etməzsə, saxlanılmaq üçün dəftərxanaya verilmiş sənədlər ictimaiyyət üçün açıqdır.

**Maddə 41**

**Əvəzin ədalətli ödənilməsi**

Əgər Məhkəmə Konvensiyanın və ona dair Protokolların müddəalarının pozulduğunu, lakin Razılığa gələn Yüksək Tərəfin daxili hüququnun yalnız bu pozuntunun nəticələrinin qismən aradan qaldırılmasına imkan verdiyini müəyyən edirsə, Məhkəmə zəruri halda, zərərçəkən tərəfə əvəzin ədalətli ödənilməsini təyin edir.

**Maddə 42**

**Palataların qərarları**

44-cü maddənin 2-ci bəndinin müddəalarına uyğun olaraq Palataların qərarları qətidir.

**Maddə 43**

**İşin Böyük Palataya verilməsi**

1. Palatanın qərar çıxarmasından sonrakı üç ay ərzində, iş üzrə istənilən tərəf, müstəsna hallarda, işin baxılmaq üçün Böyük Palataya verilməsi barədə ərizə verə bilər.

2. Əgər iş bu Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhi və ya tətbiqinə dair ciddi məsələ və ya ümumi xarakterli digər ciddi məsələ

qaldırsa, Böyük Palatanın beş hakimdən ibarət Komitəsi ərizəni qəbul edir.

3. Komitə ərizəni qəbul edirsə, onda Böyük Palata öz qərarını çıxarmaqla işi həll edir.

**Maddə 44**
**Qəti qərarlar**

1. Böyük Palatanın qərarı qətidir.

2. Palatanın qərarı aşağıdakı hallarda qəti olur:

(a) tərəflər işin Böyük Palataya verilməsi barədə müraciət etməyəcəklərini bəyan etdikdə; və ya

(b) əgər işin Böyük Palataya verilməsi barədə müraciət edilməyibsə, qərar çıxarılan tarixdən üç ay sonra; və ya

(c) Böyük Palatanın Komitəsi 43-cü maddənin müddəalarına müvafiq olaraq işin verilməsi haqqında müraciəti rədd etdikdə.

3. Qəti qərar dərc olunmalıdır.

**Maddə 45**
**Qərar və qətnamələrin əsaslandırılması**

1. Qərarlar, həmçinin şikayətləri qəbul edilən və ya qəbul olunmayan elan edən qətnamələr əsaslandırılmalıdır.

2. Əgər qərar bütövlükdə və ya qismən hakimlərin yekdil rəyini ifadə etmirsə, onda hər hansı hakim özünün xüsusi rəyini verə bilər.

**Maddə 46**
**Qərarların məcburi qüvvəsi və icrası**

1. Razılığa gələn Yüksək Tərəflər, Məhkəmənin onların tərəf olduqları istənilən iş üzrə qəti qərarını icra etməyi öhdələrinə götürürlər.

2. Məhkəmənin qəti qərarı onun icrasına nəzarəti həyata keçirən Nazirlər Komitəsinə göndərilir.

3. Əgər Nazirlər Komitəsi hesab edərsə ki, qəti qərarın yerinə yetirilməsinə nəzarətə qərarın şərhi ilə bağlı ortaya çıxan problemlər maneə yaradır, o zaman o, şərhlə bağlı ortaya çıxan məsələni həll etmək üçün işi Məhkəməyə göndərə bilər. Qərarın göndərilməsi üçün Komitədə iştirak etmək hüququ olan nümayəndələrin üçdə iki səs çoxluğu tələb olunur.

4. Əgər Nazirlər Komitəsi hesab edərsə ki, Razılığa gələn Yüksək Tərəf özünün tərəf olduğu məhkəmə prosesinin qəti qərarını yerinə yetirməkdən boyun qaçırır, o zaman o, həmin Tərəfə rəsmi xəbərdarlıq göndərdikdən sonra və Komitədə iştirak etmək hüququ olan nümayəndələrin üçdə iki səs çoxluğu ilə

qəbul edilmiş qərarla, 1-ci bəndə əsasən həmin Tərəfin üzərinə götürdüyü öhdəliyi yerinə yetirib-yetirməməsi məsələsini aydınlaşdırmaq üçün işi Məhkəməyə göndərə bilər.

5. Əgər Məhkəmə 1-ci bəndin pozulduğunu aşkar edərsə, onda müəyyən ölçülərin götürülməsi üçün işi Nazirlər Komitəsinə göndərir. Əgər Məhkəmə 1-ci bəndin pozulmadığını aşkar edərsə, onda o, iş üzrə təhqiqatın başa çatdırılması üçün onu Nazirlər Komitəsinə göndərir.

**Maddə 47**
**Məsləhət rəyləri**

1. Məhkəmə Nazirlər Komitəsinin sorğusu ilə Konvensiyanın və ona dair Protokolların müddəalarının şərhinə dair hüquqi məsələlər üzrə məsləhət rəyləri verə bilər.

2. Belə rəylər nə Konvensiyanın I Bölməsi və ona dair Protokollarda müəyyən edilən hüquq və azadlıqların məzmun və həcminə dair hər hansı məsələyə, nə də Məhkəmənin və ya Nazirlər Komitəsinin Konvensiyada nəzərdə tutulan hər hansı müraciətə baxarkən toxunmalı olduğu digər məsələlərə aid olmalıdır.

3. Məhkəmənin məsləhət rəyini almaq barədə Nazirlər Komitəsinin qərarı Komitənin iştirak etmək hüququ olan nümayəndələrinin səs çoxluğu ilə qəbul edilir.

**Maddə 48**
**Məsləhət rəyləri barədə Məhkəmənin səlahiyyəti**

Məsləhət rəyi vermək haqqında Nazirlər Komitəsi tərəfindən edilən sorğunun Məhkəmənin səlahiyyətinə aid olub-olmamasını, 47-ci maddədə müəyyən edildiyi kimi, Məhkəmə özü həll edir.

**Maddə 49**
**Məsləhət rəylərinin əsaslandırılması**

1. Məhkəmənin məsləhət rəyləri əsaslandırılmalıdır.

2. Əgər məsləhət rəyi ümumilikdə və ya qismən hakimlərin yekdil rəyini əks etdirmirsə, onda hər hansı hakim özünün xüsusi rəyini vermək hüququna malikdir.

3. Məhkəmənin məsləhət rəyləri Nazirlər Komitəsinə göndərilir.

**Maddə 50**

**Məhkəmənin saxlanılması xərcləri**

Məhkəmənin saxlanılması xərclərini Avropa Şurası ödəyir.

**Maddə 51**

**Hakimlərin imtiyaz və immunitetləri**

Hakimlər öz vəzifələrini yerinə yetirərkən Avropa Şurası Nizamnaməsinin 40-cı maddəsində və onun əsasında bağlanmış sazişlərdə nəzərdə tutulan imtiyaz və immunitetlərə malikdirlər.

***III Bölmə***

***Sair Müddəalar***

**Maddə 52**

**Baş Katibin sorğuları**

Avropa Şurası Baş Katibinin sorğusu əsasında Razılığa gələn hər bir Yüksək Tərəf öz daxili hüququnun bu Konvensiyanın hər hansı müddəasının səmərəli tətbiqini necə təmin edəcəyi ilə bağlı izahat təqdim edir.

**Maddə 53**

**Təsbit olunmuş insan hüquqları ilə bağlı təminatlar**

Bu Konvensiyada heç nə Razılığa gələn hər hansı Yüksək Tərəfin qanunvericiliyi və ya onun iştirak etdiyi hər hansı digər sazişlə təmin edilə bilən insan hüquqlarından və əsas azadlıqlardan hər hansını məhdudlaşdırmaq və ya ondan kənara çıxmaq kimi şərh oluna bilməz.

**Maddə 54**

**Nazirlər Komitəsinin səlahiyyətləri**

Bu Konvensiyada heç nə Avropa Şurası Nizamnaməsinin Nazirlər Komitəsinə verdiyi səlahiyyətlərə xələl gətirmir.

**Maddə 55**

**Mübahisələrin digər vasitələrlə tənzimlənməsindən imtina**

Razılığa gələn Yüksək Tərəflər, bu barədə xüsusi saziş imzalanması halları istisna olmaqla, bu Konvensiyanın müddəalarının şərhi və ya tətbiqi ilə bağlı mübahisələri petisiya yolu ilə baxılmağa verərkən, onlar arasında qüvvədə olan müqavilələrə, konvensiyalara və ya bəyannamələrə müraciət etməyəcəklərinə və mübahisələrin tənzimlənməsi bu Konvensiyada nəzərdə tutulan vasitələrindən başqa, digər vasitələrdən istifadə etməməyə razılıq verirlər.

**Maddə 56**

**Ərazi tətbiqi**

1. Hər hansı dövlət imzalanma, yaxud ratifikasiya zamanı və ya sonra istənilən vaxt Avropa Şurası Baş Katibinə ünvanlanmış bildiriş vasitəsi ilə bu maddənin 4-cü bəndi nəzərə alınmaqla, beynəlxalq əlaqələrinə görə həmin dövlətin məsuliyyət daşıdığı bütün ərazilərə, yaxud onlardan hər hansı birinə şamil ediləcəyini bəyan edə bilər.

2. Konvensiya bildirişdə adı çəkilən əraziyə və ya ərazilərə Avropa Şurası Baş Katibinin bildirişi almasının otuzuncu gündən şamil edilir.

3. Bu Konvensiyanın müddəaları belə ərazilərdə yerli şəraitin lazımi qaydada nəzərə alınması ilə tətbiq edilir.

4. Bu maddənin 1-ci bəndinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə ərazinin adından Konvensiyanın 34-cü maddəsinə müvafiq olaraq, Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 57**

**Qeyd-şərtlər**

1. İstənilən dövlət bu Konvensiyanı imzalayarkən və ya təsdiqnaməni saxlanmağa verərkən Konvensiyanın hər hansı konkret müddəası ilə bağlı, o dövrdə, onun ərazisində qüvvədə olan bu və ya digər qanunun həmin müddəaya uyğun olmaması ilə əlaqədar qeyd-şərt verə bilər. Bu maddəyə müvafiq olaraq, ümumi xarakterli qeyd-şərtlərə yol verilmir.

2. Bu maddəyə uyğun olaraq edilmiş istənilən qeyd-şərtdə müvafiq qanunun qısa şərhi verilməlidir.

**Maddə 58**

**Denonsasiya**

1. Razılığa gələn Yüksək Tərəf, yalnız bu Konvensiyanın tərəfi olduğu tarixdən beş il keçdikdən sonra və bu barədə Avropa Şurasının Baş Katibinə bildiriş göndərdikdən altı ay sonra bu Konvensiyanı denonsasiya edə bilər; Baş Katib Razılığa gələn digər Yüksək Tərəfləri bu barədə məlumatlandıracaq.

2. Denonsasiya Razılığa gələn müvafiq Yüksək Tərəfi denonsasiyanın qüvvəyə minəcəyi tarixədək törədə biləcəyi və bu Konvensiya üzrə onun öhdəliklərini poza biləcək hər hansı əməlinə münasibətdə belə öhdəliklərindən azad etmir.

3. Avropa Şurasının üzvlüyündən çıxan Razılığa gələn hər hansı Yüksək Tərəf eyni şərtlərlə bu Konvensiyanın da Tərəfi olmur.

4. Konvensiya 56-cı maddənin müddəalarına əsasən, onun şamil olunmasının bəyan edildiyi istənilən əraziyə münasibətdə əvvəlki bəndlərin müddəalarına müvafiq olaraq denonsasiya edilə bilər.

**Maddə 59**
**İmzalama və ratifikasiya**

1. Bu Konvensiya Avropa Şurasının üzvü olan dövlətlər tərəfindən imzalanmaq üçün açıqdır. O, ratifikasiya olunmalıdır. Təsdiqnamələr saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir.

2. Avropa İttifaqı bu Konvensiyaya qoşula bilər.

3. Bu Konvensiya on təsdiqnamə saxlanmağa verildikdən sonra qüvvəyə minir.

4. Konvensiya onu sonradan ratifikasiya edən dövlətlər üçün onların öz təsdiqnamələrin saxlanmağa verildikləri tarixdən qüvvəyə minir.

5. Avropa Şurasının Baş Katibi Konvensiyanın qüvvəyə minməsi, onu ratifikasiya etmiş Razılığa gələn Yüksək Tərəflərin adları və sonralar alına biləcək təsdiqnamələrin saxlanılmağa verilməsi haqqında Avropa Şurasının üzvü olan bütün dövlətləri xəbərdar edir.

1950-ci il noyabrın 4-də Romada hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır və Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş surətləri Konvensiyanı imzalamış bütün dövlətlərə göndərəcəkdir.

## İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair

## Protokol

**Paris, 20 mart 1952-ci il**
(Protokol qeyri-rəsmi olaraq 1 saylı Protokol da adlandırılır)

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalayan hökumətlər, 1950-ci il noyabrın 4-də Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra «Konvensiya» adlanacaq) I bölməsinə artıq daxil edilənlərdən başqa, bəzi hüquq və azadlıqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda tədbirlər görmək əzmində olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**
**Mülkiyyətin müdafiəsi**

Hər bir fiziki və hüquqi şəxs öz mülkiyyətindən maneəsiz istifadə hüququna malikdir. Heç kəs, cəmiyyətin maraqları naminə qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, öz mülkiyyətindən məhrum edilə bilməz.

Yuxarıdakı müddəalar dövlətin ümumi maraqlara müvafiq olaraq, mülkiyyətdən istifadəyə nəzarəti həyata keçirmək üçün, yaxud vergilərin və ya digər rüsum və ya cərimələrin ödənilməsini təmin etmək üçün zəruri hesab etdiyi qanunları yerinə yetirmək hüququnu məhdudlaşdırmır.

**Maddə 2**
**Təhsil hüququ**

Heç bir şəxsin təhsil hüququndan imtina edilə bilməz. Dövlət təhsil və tədris sahəsində öz üzərinə götürdüyü funksiyaları yerinə yetirərkən, valideynlərin öz dini və fəlsəfi baxışlarına müvafiq olan təhsil və tədrisi təmin etmək hüququna hörmət edir.

**Maddə 3**
**Azad seçki hüququ**

Razılığa gələn Yüksək Tərəflər qanunverici hakimiyyət orqanını seçərkən xalqın öz iradəsini sərbəst ifadə edə biləcək şəraitdə, ağlabatan dövriliklə gizli səsvermə yolu ilə azad seçkilər keçirməyi öhdələrinə götürürlər.

**Maddə 4**

**Ərazi tətbiqi**

Razılığa gələn hər hansı Yüksək Tərəf imzalanma, yaxud ratifikasiya zamanı və ya sonradan istənilən vaxt Avropa Şurasının Baş Katibinə, beynəlxalq əlaqələrinə görə məsuliyyət daşıdığı, bəyanatda adı çəkilən ərazilərə bu Protokolun müddəalarının şamil ediləcəyi ilə bağlı öhdəliklərinin çərçivəsini təsdiq edən bəyanat göndərə bilər.

Əvvəlki bəndin müddəalarına müvafiq olaraq bəyanat göndərmiş Razılığa gələn hər hansı Yüksək Tərəf zaman keçdikcə istənilən əvvəlki bəyanatın şərtlərinin dəyişilməsi və ya hər hansı əraziyə münasibətdə bu Protokolun müddəalarının tətbiqinin dayandırılması haqqında yeni bəyanat göndərə bilər.

Bu maddənin müddəalarına müvafiq olaraq verilmiş bəyanat Konvensiyanın 56-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq verilmiş bəyanat hesab edilir.

**Maddə 5**

**Konvensiyaya bağlılıq**

Razılığa gələn Yüksək Tərəflər bu Protokolun 1, 2, 3 və 4-cü maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq surətdə tətbiq olunur.

**Maddə 6**

**İmzalanma və ratifikasiya**

Bu Protokol Konvensiyanı imzalamış Avropa Şurasının üzvləri tərəfindən imzalanmaq üçün açıqdır; o, Konvensiyanın ratifikasiyası ilə eyni zamanda və ya bundan sonra ratifikasiya olunmalıdır. Protokol on təsdiqnamə saxlanılmağa verildikdən sonra qüvvəyə minir. Sonradan ratifikasiya edən hər bir dövlət üçün Protokol onların öz təsdiqnamələrini saxlanılmağa verdikləri tarixdən qüvvəyə minir.

Təsdiqnamələr saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir, o, Protokolu ratifikasiya etmiş dövlətlər haqqında Avropa Şurasının üzvü olan bütün dövlətləri xəbərdar edir.

1952-ci il martın 20-də Parisdə, hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Baş Katib təsdiq olunmuş surətləri bu Protokolu imzalamış hər bir hökumətə göndərəcəkdir.

# İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair

## 4 saylı Protokol

**Konvensiyaya və ona dair Birinci Protokola artıq daxil edilənlərdən başqa, bəzi hüquq və azadlıqların təmin olunması haqqında**

**Strasburq, 16 sentyabr 1963-cü il**

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalayan hökumətlər,

1950-ci il noyabrın 4-də Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra «Konvensiya» adlanacaq) I bölməsinə və 1952-ci il martın 20-də Parisdə imzalanmış Konvensiyaya dair Birinci Protokolun 1, 2 və 3-cü maddələrinə artıq daxil edilənlərdən başqa, bəzi hüquq və azadlıqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda tədbirlər görmək əzmində olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**
**Borca görə azadlıqdan məhrum etmənin qadağan olunması**

Heç kəs yalnız hər hansı bir müqavilə öhdəliyini ödəmək iqtidarında olmadığına görə azadlıqdan məhrum edilə bilməz.

**Maddə 2**
**Hərəkət etmək azadlığı**

1. Qanuni əsaslarla hər hansı dövlətin ərazisində olan hər kəsin həmin ərazidə sərbəst hərəkət etmək və özünə yaşayış yeri seçmək hüququ vardır.
2. Hər kəs öz ölkəsi də daxil olmaqla, hər hansı ölkəni tərk etməkdə azaddır.
3. Bu hüquqların həyata keçirilməsinə milli təhlükəsizlik və ictimai asayiş maraqları naminə, ictimai qaydanı qorumaq üçün, cinayətlərin qarşısını almaq üçün, sağlamlığın və mənəviyyatın qorunması üçün və ya digər şəxslərin hüquq və azadlıqlarının müdafiəsi üçün qanunla nəzərdə tutulmuş və demokratik cəmiyyətdə zəruri olanlardan başqa heç bir məhdudiyyət qoyula bilməz.
4. Birinci bənddə təsbit edilmiş hüquqlar müəyyən ərazilərdə qanuna müvafiq olaraq tətbiq edilən və demokratik cəmiyyətdə ictimai maraqlara əsaslandırılan məhdudiyyətlərə məruz qala bilər.

**Maddə 3**
**Vətəndaşların məcburi çıxarılmasının qadağan olunması**

1. Heç kəs vətəndaşı olduğu dövlətin ərazisindən fərdi və ya kollektiv tədbirlər yolu ilə çıxarıla bilməz.

2. Heç kəs vətəndaşı olduğu dövlətin ərazisinə daxil olmaq hüququndan məhrum edilə bilməz.

**Maddə 4**
**Əcnəbilərin kollektiv çıxarılmasının qarşısının alınması**

Əcnəbilərin kollektiv çıxarılması qadağandır.

**Maddə 5**
**Ərazi tətbiqi**

1. Razılığa gələn hər hansı Yüksək Tərəf bu Protokolun imzalanması, yaxud ratifikasiyası zamanı və ya sonradan istənilən vaxt – Avropa Şurasının Baş Katibinə bu Protokolun müddəalarının, beynəlxalq əlaqələrinə görə məsuliyyət daşıdığı, orada adı çəkilən ərazilərə şamil ediləcəyi ilə bağlı öhdəliklərinin çərçivəsini təsdiq edən bəyanat göndərə bilər.

2. Əvvəlki bəndin müddəalarına müvafiq olaraq bəyanat göndərmiş Razılığa gələn hər hansı Yüksək Tərəf zaman keçdikdə istənilən əvvəlki bəyanatın şərtlərinin dəyişilməsi və ya hər hansı əraziyə münasibətdə bu Protokolun müddəalarının tətbiqinin dayandırılması haqqında yeni bəyanat göndərə bilər.

3. Bu maddənin müddəalarına müvafiq olaraq verilmiş bəyanat Konvensiyanın 56-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq verilmiş bəyanat hesab edilir.

4. Bu Protokolun ratifikasiyası və ya hər hansı dövlətin onu qəbul etməsi əsasında onun tətbiq olunduğu hər hansı dövlətin ərazisi və bu maddənin müddəalarına müvafiq olaraq, həmin dövlətin bəyanatı əsasında bu Protokolun tətbiq olunduğu hər bir ərazi 2-ci və 3-cü maddələrdə dövlətin ərazisinə istinad məqsədi ilə, ayrı-ayrı ərazilər hesab edilir.

5. Bu maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə əraziyə münasibətdə Konvensiyanın 34-cü maddəsində nəzərdə tutulduğu kimi, bu Protokolun 1-ci, 2-ci, 3-cü və 4-cü maddələrinin və ya hər hansı birinə riayət olunması ilə bağlı Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 6**

**Konvensiya ilə müqayisə**

Razılığa gələn Yüksək Tərəflər bu Protokolun 1-ci, 2-ci, 3-cü, 4-cü və 5-ci maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq olunur.

**Maddə 7**

**İmzalanma və ratifikasiya**

1. Bu Protokol Konvensiyanı imzalamış Avropa Şurası üzvləri tərəfindən imzalanmaq üçün açıqdır; o, Konvensiyanın ratifikasiyası ilə eyni zamanda və ya bundan sonra ratifikasiya olunmalıdır. Protokol beş təsdiqnamə saxlanılmağa verildikdən sonra qüvvəyə minir. Sonradan ratifikasiya edən hər bir dövlət üçün Protokol onun öz təsdiqnaməsini saxlanılmağa verdiyi tarixdən qüvvəyə minir.

2. Təsdiqnamələr saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir, o, Protokolu ratifikasiya etmiş dövlətlər haqqında Avropa Şurasının üzvü olan bütün dövlətləri xəbərdar edir.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

1963-cü il sentyabrın 16-da Strasburqda, hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır. Həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş surətləri hər bir imzalayan dövlətə göndərəcəkdir.

**İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair**

**6 saylı Protokol**

**Ölüm cəzasının ləğvinə dair**

**Strasburq, 28 aprel 1983-cü il**

Avropa Şurasının üzvü olub, 1950-ci il noyabrın 4-də Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra «Konvensiya» adlanacaq) bu Protokolunu imzalayan dövlətlər,

Avropa Şurasının ayrı-ayrı üzv dövlətlərində baş vermiş təkamülün ölüm cəzasının ləğv olunması xeyrinə ümumi tendensiyanı ifadə etdiyini nəzərə alaraq, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**
**Ölüm cəzasının ləğvi**
Ölüm cəzası ləğv olunur. Heç kəs ölüm cəzasına məhkum edilə və ya edam oluna bilməz.

**Maddə 2**
**Müharibə zamanı ölüm cəzası**
Dövlət müharibə dövründə və ya qaçılmaz müharibə təhdidi zamanı törədilmiş əməllərə görə öz qanunvericiliyində ölüm cəzasını nəzərdə tuta bilər; bu cür cəza yalnız qanunla müəyyən olunmuş hallarda və qanunun müddəalarına müvafiq olaraq tətbiq edilə bilər. Dövlət həmin qanunun müvafiq müddəaları haqqında Avropa Şurasının Baş Katibinə məlumat verir.

**Maddə 3**
**Öhdəliklərin yerinə yetirilməsindən geri çəkilmənin qadağan olunması**
Konvensiyanın 15-ci maddəsinə əsasən, bu Protokolun müddəalarından geri çəkilmək olmaz.

**Maddə 4**
**Qeyd-şərtlərin qadağan olunması**
Konvensiyanın 57-ci maddəsinə əsasən, bu Protokolun müddəaları ilə bağlı qeyd-şərt edilə bilməz.

**Maddə 5**
**Ərazi tətbiqi**

1. Hər bir dövlət imzalama zamanı və ya öz təsdiqnaməsini, yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədini saxlanılmağa verərkən bu Protokolun tətbiq ediləcəyi ərazini, yaxud əraziləri göstərə bilər.

2. Hər bir dövlət sonradan istənilən vaxt Avropa Şurası Baş Katibinin adına ünvanlanmış bəyanatla, bu Protokolu bəyanatda göstərilən hər hansı digər əraziyə şamil edə bilər. Bu əraziyə münasibətdə Protokol Baş Katibin belə bəyanatı aldığı tarixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bənd əsasında verilmiş və belə bəyanatda göstərilmiş hər hansı əraziyə dair istənilən bəyanat Baş Katibin adına ünvanlanmış bildiriş vasitəsi ilə geri götürülə bilər. Geri götürülmə Baş Katib tərəfindən belə bildirişin alındığı tarixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

**Maddə 6**
**Konvensiyaya bağlılıq**

İştirakçı dövlətlər bu Protokolun 1-5-ci maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq edilir.

**Maddə 7**
**İmzalanma və ratifikasiya**

Bu Protokol Avropa Şurasının üzvü olub, Konvensiyanı imzalamış dövlətlərin imzalaması üçün açıqdır. O, ratifikasiya olunmalı, qəbul edilməli və ya bəyənilməlidir. Avropa Şurasının üzvü olan dövlət Konvensiyanı eyni zamanda və ya əvvəlcədən ratifikasiya etmədən bu Protokolu ratifikasiya edə, qəbul edə və ya bəyənə bilməz. Təsdiqnamələr, yaxud qəbul və ya bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir.

**Maddə 8**
**Qüvvəyə minmə**

1. Bu Protokol Avropa Şurasının üzvü olan beş dövlətin 7-ci maddənin müddəalarına müvafiq olaraq, Protokol üzrə öhdəlikləri öz üzərlərinə götürməyə razılıqlarını bildirdikləri tarixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

2. Protokol üzrə öhdəlikləri sonradan öz üzərinə götürməyə razılığını bildirmiş hər hansı üzv dövlət üçün bu Protokol onun öz təsdiqnaməsini, yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədlərini saxlanılmağa verdiyi tarixdən sonrakı ayın birinci günü qüvvəyə minir.

**Maddə 9**

**Depozitarinin funksiyaları**

Avropa Şurasının Baş Katibi Avropa Şurasının üzv dövlətlərini aşağıdakılar barədə xəbərdar edir:

a) hər hansı imzalanma;

b) təsdiqnamənin, yaxud qəbul və ya bəyənmə haqqında sənədin saxlanılmağa verilməsi;

c) 5-ci və 8-ci maddələrə müvafiq olaraq, bu Protokolun qüvvəyə minmə tarixi;

d) bu Protokola dair digər hərəkət, bildiriş və ya xəbərdarlıq.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

1983-cü il aprelin 28-də Strasburqda, hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş surətləri Avropa Şurasının üzvü olan hər bir dövlətə göndərəcəkdir.

## İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair

## 7 saylı Protokol

**Strasburq, 22 noyabr 1984-cü il**

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalayan dövlətlər,

1950-ci il noyabrın 4-də Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyanın (bundan sonra «Konvensiya» adlanacaq) tətbiqi vasitəsi ilə bəzi hüquq və azadlıqların kollektiv həyata keçirilməsinin təmin edilməsi yolunda gələcək addımlar atmaq əzmində olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

### Maddə 1
### Əcnəbilərin çıxarılmasına dair prosedur təminatlar

1. Qanuni əsaslarla dövlətin ərazisində yaşayan əcnəbi, qanuna müvafiq qəbul edilmiş qərarların icrası istisna olmaqla, oradan çıxarıla bilməz və onun aşağıdakı imkanları olmalıdır:

a) özünün çıxarılmasına qarşı arqumentlər təqdim etmək;

b) öz işinə yenidən baxılmasını tələb etmək və;

c) bu məqsədlərə görə səlahiyyətli orqan qarşısında və ya belə orqanın təyin etdiyi şəxs, yaxud şəxslər qarşısında təmsil olunmaq.

2. Çıxarılma ictimai qaydanın maraqları üçün zəruri olduqda və ya milli təhlükəsizlik mülahizələri ilə şərtləndirildikdə, əcnəbi bu maddənin 1-ci bəndinin a, b və c yarımbəndlərində sadalanan hüquqlarına əməl edilməmişdən əvvəl çıxarıla bilər.

### Maddə 2
### Cinayət işlərinə dair hökmlərdən ikinci instansiyaya şikayət vermə hüququ

1. Cinayət törətməyə görə məhkəmə tərəfindən məhkum edilmiş hər kəsin, barəsində çıxarılmış hökmə və ya təyin olunmuş cəzaya yuxarı məhkəmə instansiyasında yenidən baxılması hüququ vardır. Bu hüququn həyata keçirilməsi və onun həyata keçirilə biləcəyi əsaslar qanunla tənzimlənir.

2. Qanunla xırda xətalar hesab olunan hüquqpozmalarla bağlı və ya müvafiq şəxs artıq birinci instansiyada yuxarı məhkəmə tərəfindən məhkum edilibsə və ya

onun bəraəti məsələsinə yenidən baxılma nəticəsində təqsirli hesab edilib və məhkum edilibsə, bu hüquqdan istisnaya yol verilir.

**Maddə 3**
**Məhkəmə səhvinə görə kompensasiya**

Şəxs cinayət əməli törətməyə görə qəti hökmlə məhkum edildikdə və sonradan onun haqqında çıxarılmış hökm ləğv edildikdə, yaxud o, yeni və ya təzədən ortaya çıxmış halların inandırıcı surətdə məhkəmə səhvinə yol verildiyini sübuta yetirməsi əsasında əfv edildikdə, belə məhkumetmə nəticəsində cəzaya məruz qalmış şəxs, əvvəllər məlum olmayan faktın vaxtında açılmaması onun tam və ya qismən günahı üzündən baş verməyibsə, müvafiq dövlətin qanununa və ya mövcud təcrübəsinə uyğun olaraq kompensasiya alır.

**Maddə 4**
**İki dəfə məhkum edilməmək və ya cəzalandırılmamaq hüququ**

1. Heç kəs hər hansı dövlətin qanunlarına və ya cinayət-prosessual normalarına müvafiq olaraq, artıq bəraət aldığı və ya məhkum edildiyi cinayətlərə görə həmin dövlətin yurisdiksiyası çərçivəsində cinayət qaydasında təkrar məhkum edilə və ya cəzalandırıla bilməz.

2. Bundan əvvəlki bəndin müddəaları, əgər yeni və ya təzədən ortaya çıxmış hallar barəsində məlumatlar varsa və ya əgər əvvəlki araşdırma zamanı işin nəticəsinə təsir göstərən əsaslı pozuntulara yol verilibsə, müvafiq dövlətin qanunlarına və cinayət-prosessual normalarına uyğun olaraq, işə təkrar baxılmasına mane olmur.

3. Konvensiyanın 15-ci maddəsinin müddəalarına müvafiq olaraq, bu maddənin müddəalarından kənara çıxmağa yol verilmir.

**Maddə 5**
**Ər-arvadın hüquq bərabərliyi**

Ər-arvad nikaha daxil olmaq, nikahda olmaq və boşanma ilə bağlı məsələlərdə öz aralarında və uşaqları ilə münasibətlərdə bərabər hüquqlara malikdirlər və bərabər mülki hüquqi cavabdehlik daşıyırlar. Bu maddə uşaqların maraqlarına riayət olunması üçün zəruri tədbirlər görməkdə dövlətlərə mane olmur.

**Maddə 6**
**Ərazi tətbiqi**

1. Hər hansı dövlət imzalama zamanı və ya özünün təsdiqnaməsini, yaxud qəbul və ya bəyənmə haqqında sənədini saxlanılmağa verərkən bu Protokolun tətbiq ediləcəyi ərazini və yaxud əraziləri və bu Protokolun müddəalarının şamil ediləcəyi belə ərazi və ya ərazilərlə bağlı öhdəliklərinin çərçivəsini göstərə bilər.

2. Hər bir dövlət sonradan istənilən vaxt Avropa Şurası Baş Katibinin adına ünvanlanmış bəyanatla, bu Protokolu bəyanatda göstərilən hər hansı digər əraziyə şamil edə bilər. Bu əraziyə münasibətdə Protokol Baş Katibin belə bəyanatı aldığı tarixdən iki ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bənd əsasında verilmiş və orada göstərilən hər hansı əraziyə aid olan istənilən bəyanat Avropa Şurasının Baş Katibinə ünvanlanmış bildiriş vasitəsi ilə geri götürülə, yaxud dəyişdirilə bilər. Geri götürülmə və ya dəyişiklik Baş Katib tərəfindən belə bildirişin alındığı tarixdən iki ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

4. Bu maddənin müddəalarına müvafiq olaraq verilmiş bəyanat Konvensiyanın 56-cı maddəsinin 1-ci bəndinə müvafiq olaraq verilmiş bəyanat hesab edilir.

5. Bu Protokolun hər hansı dövlətin onu ratifikasiya etməsi, qəbul etməsi və ya bəyənməsi əsasında tətbiq olunduğu həmin dövlətin ərazisi və bu maddənin müddəalarına müvafiq olaraq, həmin dövlətin bəyanatı əsasında bu Protokolun tətbiq olunduğu hər bir ərazi 1 -ci maddədə dövlətin ərazisinə istinad məqsədi ilə, ayrı-ayrı ərazilər hesab edilə bilər.

6. Bu maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatda göstərilmiş bir və ya bir neçə əraziyə münasibətdə Konvensiyanın 34-cü maddəsində nəzərdə tutulduğu kimi, bu Protokolun 1, 2, 3, 4 və 5-ci maddələri ilə bağlı Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 7**
**Konvensiyaya bağlılıq**

İştirakçı dövlətlər bu Protokolun 1-6-cı maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq olunur.

**Maddə 8**
**İmzalanma və ratifikasiya**

Bu Protokol Avropa Şurasının üzvü olub, Konvensiyanı imzalamış

dövlətlərin imzalaması üçün açıqdır. O, ratifikasiya olunmalı, qəbul edilməli və ya bəyənilməlidir. Avropa Şurasının üzvü olan dövlət Konvensiyanı əvvəlcədən və ya eyni zamanda ratifikasiya etmədən bu Protokolu ratifikasiya edə, qəbul edə və ya bəyənə bilməz. Təsdiqnamələr, qəbul etmə və ya bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir.

**Maddə 9**
**Qüvvəyə minmə**

1. Bu Protokol Avropa Şurasının üzvü olan yeddi dövlətin 8-ci maddənin müddəalarına müvafiq olaraq, Protokolun onlar üçün məcburiliyinə öz razılıqlarını bildirdikləri tarixdən iki ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

2. Protokolun, onun üçün məcburiliyinə sonradan öz razılığını bildirmiş hər hansı üzv dövlət üçün o, həmin dövlətin təsdiqnaməsinin, yaxud qəbul etmə və ya bəyənmə haqqında sənədlərinin saxlanılmağa verildiyi tarixdən iki ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

**Maddə 10**
**Depozitarinin funksiyaları**

Avropa Şurasının Baş Katibi Avropa Şurasının üzvü olan hər bir dövləti:

a) hər bir imzalanma;

b) hər bir təsdiqnamənin, yaxud qəbul etmə və ya bəyənmə haqqında sənədin saxlanılmağa verilməsi;

c) 6-cı və 9-cu maddələrə müvafiq olaraq, bu Protokolun qüvvəyə minmə tarixi;

d) bu Protokola aidiyyəti olan hər bir digər akt, bildiriş və ya bəyanat barədə xəbərdar edir.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

1984-cü il noyabrın 22-də Strasburqda, hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş surətləri Avropa Şurasının üzvü olan hər bir dövlətə göndərəcəkdir.

## İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair

## 12 saylı Protokol

**Roma, 4 noyabr 2000-ci il**

Bu Protokolu imzalamış Avropa Şurasının üzv Dövlətləri, bütün insanların qanun qarşısında bərabərliyi və qanun tərəfindən bərabər müdafiə hüququna malik olması barədə əsas prinsipi nəzərə alaraq;

4 noyabr 1950-ci ildə Romada imzalanmış İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında Konvensiya (sonradan Konvensiya adlanacaq) əsasında ayrı-seçkiliyin ümumi qadağan olunmasının kollektiv həyata keçirilməsi yolu ilə bütün insanların bərabərliyini təmin etmək üçün gələcək addımlar atmaqda qətiyyət göstərərək;

ayrı-seçkiliyin olmaması prinsipinin tam və səmərəli bərabərliyi təmin etmək üçün tədbirlər görülməsində, belə tədbirlərin obyektiv və ağlabatan əsaslandırılmasının mövcud olduğu şərtlərlə iştirakçı dövlətə mane olmadığını təsdiq edərək, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**
**Ayrı-seçkiliyin ümumi qadağan olunması**

1. Qanunla təsbit olunmuş hər hansı hüquqdan istifadə cins, irq, rəng, dil, din, siyasi və digər baxışlar, milli və ya sosial mənşəə, milli azlıqlara mənsubiyyət, əmlak vəziyyəti, doğum və ya digər şərtlərə görə ayrı-seçkilik olmadan təmin olunmalıdır.

2. Heç kəs bu maddənin 1-ci bəndində qeyd olunmuş əlamətlərə görə dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı ayrı-seçkiliyə məruz qala bilməz.

**Maddə 2**
**Ərazi tətbiqi**

1. Hər hansı Dövlət imzalama zamanı və ya özünün ratifikasiya, qəbul və təsdiq etmə sənədini saxlanmaya verərkən bu Protokolun tətbiq ediləcəyi ərazini və yaxud əraziləri göstərə bilər.

2. Hər bir dövlət sonradan istənilən vaxt Avropa Şurası Baş Katibinin adına ünvanlanmış bəyanatla, bu Protokolu bəyanatda göstərilən hər hansı digər əraziyə şamil edə bilər. Bu əraziyə münasibətdə Protokol Baş Katibin belə bəyanatı aldığı

tarixdən sonrakı üç ayın bitməsinin davamınca gələn növbəti ayın birinci günündən etibarən qüvvəyə minir.

3. Əvvəlki iki bənd əsasında verilmiş istənilən bəyanat, belə bəyanatda göstərilmiş hər hansı əraziyə münasibətdə Baş Katibə ünvanlanmış bildiriş vasitəsilə geri götürülə bilər. Geri götürülmə və ya dəyişiklik Baş Katib tərəfindən belə bildirişin alındığı tarixdən sonrakı üç ayın bitməsinin davamınca gələn növbəti ayın birinci günündən etibarən qüvvəyə minir.

4. Bu maddənin müddəalarına müvafiq olaraq verilmiş bəyanat Konvensiyanın 56-cı maddənin 1-ci bəndinə müvafiq olaraq verilmiş bəyanat kimi nəzərdən keçirilir.

5. Bu maddənin 1-ci və 2-ci bəndlərinə müvafiq olaraq bəyanat vermiş hər hansı dövlət sonradan istənilən vaxt həmin bəyanatın aid olduğu bir və ya bir neçə ərazinin adından Konvensiyanın 34-cü maddəsində nəzərdə tutulduğu kimi, bu Protokolun 1-ci maddəsi ilə bağlı Məhkəmənin fiziki şəxslərdən, qeyri-hökumət təşkilatlarından və ya fərdlər qrupundan şikayətlər qəbul etmək səlahiyyətini tanıdığını bəyan edə bilər.

**Maddə 3. Konvensiyaya bağlılıq**

İştirakçı Dövlətlər bu Protokolun 1-ci və 2-ci maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri kimi nəzərdən keçirirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq olunur.

**Maddə 4. İmzalama və ratifikasiya**

Bu Protokol Konvensiyanı imzalamış Avropa Şurasının üzv Dövlətlərinin imzalaması üçün açıqdır. O, ratifikasiya, qəbul və ya təsdiq edilməlidir. Avropa Şurasının üzv dövlətləri Konvensiyanı əvvəlcədən və ya eyni zamanda ratifikasiya etmədən bu Protokolu ratifikasiya, qəbul və ya təsdiq edə bilməz. Ratifikasiya, qəbul və ya təsdiq etmə sənədləri Avropa Şurasının Baş Katibinə saxlanmaya verilir.

**Maddə 5**
**Qüvvəyə minmə**

1. Bu Protokol Avropa Şurasının on üzv dövləti 4-cü maddənin müddəalarına müvafiq olaraq, Protokolun onlar üçün məcburiliyinə öz razılıqlarını bildirdikləri tarixdən sonrakı üç ay müddət bitəndən sonra gələn ayın birinci günü qüvvəyə minir.

2. Bu Protokolun, onun üçün məcburiliyinə sonradan öz razılığını bildirmiş hər hansı üzv dövlət üçün o, ratifikasiya, qəbul və ya təsdiq etmə sənədlərini sax-

lanmaya verildiyi tarixdən sonrakı üç ay müddət bitəndən sonra gələn ayın birinci günü qüvvəyə minir.

**Maddə 6**
**Depozitarinin funksiyaları**

Avropa Şurası Baş Katibi Şuranın üzv Dövlətlərini aşağıdakılar barədə xəbərdar edir:

a) hər hansı imzalama;

b) hər bir ratifikasiya, qəbul və ya təsdiq etmə sənədini saxlanmaya verməsi;

c) 2-ci və 5-ci maddələrə müvafiq olaraq, bu protokolun hər hansı qüvvəyə minməsinin tarixi;

d) bu Protokola dair digər akt, bildiriş və ya xəbərdarlıq.

Buna şahidlik edərək, lazımi qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

2000-ci il noyabrın 4-də Roma şəhərində, hər iki mətni bərabər autentik olmaqla, ingilis və fransız dillərində, Avropa Şurasının arxivində saxlanacaq bir nüsxədə icra olunmuşdur. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş nüsxələri Avropa Şurasının hər bir üzv Dövlətinə göndəriləcəkdir.

**İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiyaya dair**

**13 saylı Protokol**

**(bu Protokol bütün hallarda ölüm cəzasının ləğvinə aiddir)**

**Vilnüs, 3 may 2002-ci il**

Avropa Şurasının üzvü olub, bu Protokolu imzalayan dövlətlər, hər kəsin yaşamaq hüququnun demokratik cəmiyyətdə əsas dəyər olduğuna və bu hüququn müdafiəsi üçün və bütün insanların şəxsiyyətinə xas olan ləyaqətin tam qəbul edilməsi üçün ölüm cəzasının ləğvinin vacib olduğuna əmin olaraq;

1950-ci il noyabrın 4-də Romada imzalanmış İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Konvensiya (bundan sonra «Konvensiya» adlanacaq) vasitəsilə təmin edilən yaşamaq hüququnun müdafiəsini gücləndirmək arzusunda olaraq;

ölüm cəzasının ləğvinə aid olan, 1983-cü il aprelin 28-də Strasburqda imzalanmış Konvensiyaya dair 6 saylı Protokolun müharibə və ya labüd müharibə təhlükəsi zamanı ölüm cəzasını aradan qaldırmadığını nəzərə alaraq;

bütün hallarda ölüm cəzasını ləğv etmək üçün son addımı atmaq əzmində olaraq, aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**
**Ölüm cəzasının ləğvi**

Ölüm cəzası ləğv olunur. Heç kəs belə cəzaya məhkum edilə və ya edam oluna bilməz.

**Maddə 2**
**Öhdəliklərdən geri çəkilmənin qadağan olunması**

Konvensiyanın 15-ci maddəsinə əsasən, bu Protokolun müddəaları ilə bağlı öhdəliklərdən geri çəkilməyə yol verilmir.

**Maddə 3**
**Qeyd-şərtlərin qadağan olunması**

Konvensiyanın 57-ci maddəsinə əsasən, bu Protokolun müddəaları ilə bağlı qeyd-şərt edilə bilməz.

**Maddə 4**

**Ərazilərə tətbiq**

1. Hər hansı dövlət imzalanma zamanı və ya özünün ratifikasiya, qəbul və təsdiq etmə sənədini saxlanmaya verərkən bu Protokolun tətbiq ediləcəyi ərazini və yaxud əraziləri göstərə bilər.

2. Hər bir dövlət sonradan istənilən vaxt Avropa Şurası Baş Katibinin adına ünvanlanmış bəyanatla, bu Protokolu bəyanatda göstərilən hər hansı digər əraziyə şamil edə bilər. Bu əraziyə münasibətdə Protokol Baş Katibin belə bəyanatı aldığı tarixdən üç ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

3. Əvvəlki iki bənd əsasında verilmiş istənilən bəyanat, belə bəyanatda göstərilmiş hər hansı əraziyə münasibətdə Baş Katibə ünvanlanmış bildiriş vasitəsilə geri götürülə, yaxud dəyişdirilə bilər. Geri götürülmə və ya dəyişiklik Baş Katib tərəfindən belə bildirişin alındığı tarixdən üç ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

**Maddə 5**
**Konvensiyaya bağlılıq**

İştirakçı dövlətlər bu Protokolun 1-4-cü maddələrinin müddəalarını Konvensiyanın əlavə maddələri hesab edirlər və Konvensiyanın bütün müddəaları müvafiq olaraq tətbiq olunur.

**Maddə 6**
**İmzalanma və ratifikasiya**

Bu Protokol Konvensiyanı imzalamış Avropa Şurasının üzv dövlətlərinin

imzalaması üçün açıqdır. O, ratifikasiya olunmalı, qəbul edilməli və ya bəyənilməlidir. Avropa Şurasının üzv dövlətləri Konvensiyanı əvvəlcədən və ya eyni zamanda ratifikasiya etmədən bu Protokolu ratifikasiya edə, qəbul edə və ya bəyənə bilməz. Təsdiqnamələr, qəbul etmə və ya bəyənmə haqqında sənədlər saxlanılmaq üçün Avropa Şurasının Baş Katibinə verilir.

**Maddə 7**
**Qüvvəyə minmə**

1. Bu Protokol Avropa Şurasının üzvü olan on dövlətin 6-cı maddənin müddəalarına müvafiq olaraq, Protokolun onlar üçün məcburiliyinə öz razılıqlarını bildirdikləri tarixdən üç ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

2. Protokolun, onun üçün məcburiliyinə sonradan öz razılığını bildirmiş hər hansı üzv dövlət üçün o, həmin dövlətin təsdiqnaməsinin, yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədlərin saxlanılmaya verildiyi tarixdən üç ay keçdikdən sonra gələn ayın birinci günü qüvvəyə minir.

**Maddə 8**
**Depozitarinin funksiyaları**

Avropa Şurası Baş Katibi Avropa Şurasının üzvü olan hər bir dövləti:

a) hər bir imzalanma;

b) hər bir təsdiqnamənin, yaxud qəbuletmə və ya bəyənmə haqqında sənədin saxlanılmaya verməsi;

c) 4-cü və 7-ci maddələrə müvafiq olaraq, bu Protokolun qüvvəyə minmə tarixi;

d) bu Protokola aidiyyəti olan hər bir digər akt, bildiriş və ya bəyanat barədə xəbərdar edir.

Bunun təsdiqi olaraq, lazımi qaydada vəkil edilmiş aşağıda imza edənlər bu Protokolu imzaladılar.

3 may 2002-ci ildə Vilnüsdə, hər iki mətni eyni qüvvəyə malik olmaqla, ingilis və fransız dillərində, bir nüsxədə imzalanmışdır; həmin nüsxə Avropa Şurasının arxivində saxlanılır. Avropa Şurasının Baş Katibi təsdiq olunmuş nüsxələri Avropa Şurasının üzvü olan hər bir dövlətə göndərəcəkdir.

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİNİN AZƏRBAYCANLA BAĞLI QƏRARLARININ (DEKABR 2011-ci İLƏDƏK)

## SİYAHISI

1. Fəhmin Hacıyev *(Hajiyev)* Azərbaycana qarşı (16 noyabr 2006-cı il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
2. Sərdar Məmmədov *(Mammadov)* (Cəlaloğlu) *(Jalaloglu)* Azərbaycana qarşı (11 yanvar 2007-ci il), Konvensiyanın 3-cü və 13-cü maddələrinin pozuntusu;
3. Nabat Ramazanova və başqaları *(Ramazanova and others)* Azərbaycana qarşı (01 fevral 2007-ci il), Konvensiyanın 11-ci maddəsinin pozuntusu;
4. Bəhrəm Tarverdiyev *(Tarverdiyev)* Azərbaycana qarşı (26 iyul 2007-ci il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
5. Valentina Akimova *(Akimova)* Azərbaycana qarşı (27 sentyabr 2007-ci il), Konvensiyanın 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
6. Şeyda Nəsibova *(Nasibova)* Azərbaycana qarşı (18 oktyabr 2007-ci il), Konvensiyanın 11-ci maddəsinin pozuntusu;
7. Lətifə Əfəndiyeva *(Efendiyeva)* Azərbaycana qarşı (25 oktyabr 2007-ci il), Konvensiyanın 6-cı maddəsinin və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
8. Ələkrəm Hümmətov *(Hummatov)* Azərbaycana qarşı (29 noyabr 2007-ci il), Konvensiyanın 3-cü maddəsi, 3-cü maddə ilə birgə götürülməklə 13-cü maddəsi və 6-cı maddəsinin pozuntusu;
9. Elçin Abbasov *(Abbasov)* Azərbaycana qarşı (17 yanvar 2008-ci il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
10. İsmayıl İsmayılov *(Ismayilov)* Azərbaycana qarşı (17 yanvar 2008-ci il), Konvensiyanın 11-ci maddəsinin pozuntusu;
11. Nataliya Rəhimova *(Rahimova)* Azərbaycana qarşı (17 yanvar 2008-ci il), Konvensiyanın 6-cı və 13-cü maddələrinin pozuntusu;
12. Vaqif Hacıbəyli *(Hajibeyli)* Azərbaycana qarşı (10 iyul 2008-ci il), Konvensiyanın 6-cı maddəsi və 4 saylı Protokolunun 2-ci maddəsinin pozuntusu;
13. Leyli Rəhmanova *(Rahmanova)* Azərbaycana qarşı (10 iyul 2008-ci il), Konvensiyanın 6-cı maddəsinin və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
14. Akimova *(Akimova)* Azərbaycana qarşı (09 oktyabr 2008-ci il), barışıq sazişi və kompensasiya ilə bağlı;
15. Əfəndiyeva *(Efendiyeva)* Azərbaycana qarşı (11 dekabr 2008-ci il), barışıq

sazişi və kompensasiya ilə bağlı;
16. Rövşən Mahmudov və Yaşar Ağazadə *(Mahmudov and Agazade)* Azərbaycana qarşı (18 dekabr 2008-ci il), Konvensiyanın 10-cu maddəsinin pozuntusu;
17. İntiqam Əliyev və başqaları *(Aliyev and others)* Azərbaycana qarşı (18 dekabr 2008-ci il), Konvensiyanın 11-ci maddəsinin pozuntusu;
18. Mahirə Muradova *(Muradova)* Azərbaycana qarşı (02 aprel 2009-cu il), Konvensiyanın 3-cü maddəsinin pozuntusu;
19. Rahib Maksimov *(Maksimov)* Azərbaycana qarşı (08 oktyabr 2009-cu il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
20. Təbiəti Mühafizə Cəmiyyəti və Sabir İsrafilov *(Tebieti Muhafize Cemiyyeti and Israfilov)* Azərbaycana qarşı (08 oktyabr 2009-cu il), Konvensiyanın 11-ci maddəsinin pozuntusu;
21. Yadigar Mirzəyev *(Mirzayev)* Azərbaycana qarşı (3 dekabr 2009-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
22. Nail Hümbətov *(Humbatov)* Azərbaycana qarşı (3 dekabr 2009-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
23. Mirəziz Seyidzadə *(Seyidzade)* Azərbaycana qarşı (03 dekabr 2009-cu il), Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin pozuntusu;
24. Mikayıl Məmmədov *(Mikayil Mammadov)* Azərbaycana qarşı (17 dekabr 2009-cu il), Konvensiyanın 2-ci maddəsinin pozuntusu;
25. Cəfər Cəfərov *(Jafarov)* Azərbaycana qarşı (11 fevral 2010-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
26. Namət Əliyev *(Namat Aliyev)* Azərbaycana qarşı (8 aprel 2010-cu il), Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin pozuntusu;
27. Eynulla Fətullayev *(Fatullayev)* Azərbaycana qarşı (22 aprel 2010-cu il), Konvensiyanın 10-cu maddəsi və 6-cı maddəsinin 1-ci və 2-ci bəndlərinin pozuntusu;
28. Gülməmmədova *(Gulmammadova)* Azərbaycana qarşı (22 aprel 2010-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
29. Həsənov *(Hasanov)* Azərbaycana qarşı (22 aprel 2010-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
30. Şaiq Qarayev *(Garayev)* Azərbaycana qarşı (10 iyun 2010-cu il), Konvensiyanın 5 və 13-cü maddələrinin pozuntusu;
31. Hacıyeva və başqaları *(Hajiyeva and others)* Azərbaycana qarşı (08 iyul 2010-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
32. İsgəndərov və başqaları *(Isgandarov and others)* Azərbaycana qarşı (08 iyul

2010-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;

33. Cəfərli və başqaları *(Jafarli and others)* Azərbaycana qarşı (29 iyul 2010-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
34. Flora Kərimova *(Kerimova)* Azərbaycana qarşı (30 sentyabr 2010-cu il), Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin pozuntusu;
35. Səfərova *(Safarova)* Azərbaycana qarşı (14 oktyabr 2010-cu il), Konvensiyanın 6-cı maddəsi və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
36. Salayev *(Salayev)* Azərbaycana qarşı (09 noyabr 2010-cu il), Konvensiyanın 5-ci maddəsinin pozuntusu;
37. Fərhad Əliyev *(Farhad Aliyev)* Azərbaycana qarşı (09 noyabr 2010-cu il), Konvensiyanın 5-ci və 6-cı maddələrinin pozuntusu;
38. Faber Firması və Cəfərov *(Faber Firm and Jafarov)* Azərbaycana qarşı (25 noyabr 2010-cu il), Konvensiyanın 6-cı maddəsinin və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
39. İsmayılova *(Ismayilova)* Azərbaycana qarşı (09 dekabr 2010-cu il), Konvensiyanın 6-cı maddəsinin və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
40. Muradverdiyev *(Muradverdiyev)* Azərbaycana qarşı (09 dekabr 2010-cu il), Konvensiyanın 5-ci və 6-cı maddələrinin pozuntusu;
41. Axundov (*Akhundov*) Azərbaycana qarşı (03 fevral 2011-ci il), Konvensiyanın 6-cı maddəsinin və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu;
42. Pirəli Orucov (*Pirali Orujov*) Azərbaycana qarşı (03 fevral 2011-ci il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
43. Hüseyn və başqaları (*Huseyn and others*) Azərbaycana qarşı (26 iyul 2011-ci il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
44. Orucov (*Orujov*) Azərbaycana qarşı (26 iyul 2011-ci il), Konvensiyanın 1 saylı Protokolunun 3-cü maddəsinin pozuntusu;
45. Məmməd Məmmədov (*Mammad Mammadov*) Azərbaycana qarşı (11 oktyabr 2011-ci il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
46. Natiq Mirzəyev (*Natig Mirzayev*) Azərbaycana qarşı (22 noyabr 2011-ci il), Konvensiyanın 6-cı maddəsinin pozuntusu;
47. Rafiq Əliyev (Rafig Aliyev) Azərbaycana qarşı (6 dekabr 2011-ci il), Konvensiyanın 5-ci maddəsinin və 1 saylı Protokolunun 1-ci maddəsinin pozuntusu.

## ƏDƏBİYYAT SİYAHISI:


1. Avropa İnsan Hüquqları Məhkəməsi. I kitab. 2, 3, 5, 6-cı maddələrlə bağlı seçilmiş qərarlar. Bakı. «Çaşıoğlu» nəşriyyatı, 2004, 772 s.
2. Avropa İnsan Hüquqları Məhkəməsi. II kitab. Protokol 1, maddə 1 və 8, 9, 10, 11, 50-ci maddələrlə bağlı seçilmiş qərarlar. Bakı. «Çaşıoğlu» nəşriyyatı, 2004, 596 s.
3. Avropa İnsan Hüquqları Məhkəməsinin seçilmiş qərarları. I cild. Bakı, 2006, 352 s.
4. Avropa İnsan Hüquqları Məhkəməsinin seçilmiş qərarları. II cild. Bakı, 2006, 344 s.
5. Avropa İnsan Hüquqları Məhkəməsinin Azərbaycanla bağlı qərarları. Bakı, GİSO şirkəti, 2007, 354 s.
6. Avropa İnsan Hüquqları Məhkəməsi. Seçilmiş qərarlar toplusu. I cild. Bakı, «Abşeron-Nəşr» MMC, 2008, 732 s.
7. Avropa İnsan Hüquqları Məhkəməsi. Seçilmiş qərarlar toplusu. II cild. Bakı, «Abşeron-Nəşr» MMC, 2008, 672 s.
8. Avropa İnsan Hüquqları Məhkəməsi. Seçilmiş qərarlar toplusu. III cild. Bakı, «Abşeron-Nəşr» MMC, 2008, 736 s.
9. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi qərarlarının toplusu. «Hüquq ədəbiyyatı» nəşriyyatı, Bakı, 2008, 936 s.
10. Ələsgərov F.M. Azərbaycan Respublikasının Konstitusiyası və insan hüquqları. İnsan hüquqları. Bülleten 1, B., 1998, s. 29-31
11. Əliyev Ə.İ. Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin statusunun beynəlxalq-hüquqi tənzimlənməsi: nəzəriyyə və praktika. Bakı. Şirvannəşr, 2007, 600 s.
12. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, Bakı Universiteti nəşriyyatı, 2007, 484 s.
13. Əliyev Ş.İ. İnsan hüquqları sistemində sosial hüquqlar (nəzəri və praktiki məsələlər). Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2008, 368 s.
14. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası. Azərbaycan Milli Elmlər Akademiyasının elmi məqalələr məcmuəsi, 2002, 31-ci buraxılış, s. 307-309
15. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsinə müraciət edilməsi qaydası. Qanun (ictimai-siyasi, elmi hüquq jurnalı), 2003, № 06 (110), s. 30-33
16. Əliyev Z.H. Avropa İnsan Hüquqları Məhkəməsinin yurisdiksiyası: subsidiarlıq prinsipi və bütün dövlətdaxili hüquq müdafiə vasitələrinin tükənməsi. Azərbaycan Respublikasında dövlət və hüquq quruculuğunun aktual problem-

ləri (elmi məqalələr məcmuəsi), 02/2009, s. 351-358
17. Əliyeva L.H. İnsan hüquqlarının müdafiəsinin beynəlxalq universal mexanizmləri. «Heydər Əliyev və Azərbaycan Respublikasının beynəlxalq əməkdaşlıq siyasətinin əsas inkişaf tendensiyaları» mövzusunda 06-07 may 2010-cu il tarixdə keçirilmiş elmi-praktik konfransın materialları. Bakı, 2010, s. 109-112
18. Hüseynov L.H. İnsan hüquqları sahəsində beynəlxalq müqavilələrin Azərbaycan Respublikasında implementasiyası məsələləri. İnsan hüquqları. Bülleten 1, B., 1998, s. 32-38.
19. Hüseynov L.H. Beynəlxalq hüquq. Dərslik. Bakı, «Hüquq ədəbiyyatı» nəşriyyatı, 2000, 408 s.
20. Hüseynov L.H. İnsan hüquqlarının beynəlxalq müdafiəsi. Dərs vəsaiti. Bakı, «Azərbaycan Beynəlxalq Universiteti» nəşriyyatı, 2008, 160 s.
21. İbayev V.Ə. İşgəncəsiz cəmiyyətə doğru. Bakı, «Elm», 2005, 488 s.
22. İbayev V.Ə. Avropa Məhkəməsi presedentləri: mülkiyyət hüququ. Bakı, «Elm», 2007, 250 s.
23. İbayev V.Ə., Hüseynov A.Q. Avropa Məhkəməsi presedentləri: sərbəst toplaşmaq və birləşmək azadlığı. Bakı, «Elm», 2007, 224 s.
24. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Bülleteni. Bakı Hüquq Mərkəzi. 6/2008
25. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Bülleteni. Bakı Hüquq Mərkəzi. 7/2008
26. İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin Bülleteni. Bakı Hüquq Mərkəzi. 1/2009
27. Məmmədov R., İsmayılova Ə., Hacıyev C. Qanunun aliliyi və insan hüquqlarının müdafiəsi mexanizmləri. Bakı, Azərnəşr, 2009, 416 s.
28. Rəcəbli H., İbayev V. Avropa Şurası. Bakı, 1999, 116 s.
29. Səfixanlı A., Əliyev Z. Azərbaycan Respublikasının iştirakçısı olduğu beynəlxalq konvensiyaların milli qanunvericilikdə təsbiti. E.Süleymanovanın ümumi redaktəsi ilə. Bakı, Qanun, 2003, 58 s.
30. Səfixanlı A. İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasında insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan Respublikasının qanunvericilik sistemində təsbiti. Bakı, Azərnəşr, 2003, 128 s.
31. Süleymanova E. Azərbaycan Respublikasında Ombudsman təsisatı və insan hüquqlarının inkişafı. Elmi-praktiki konfransın materialları. Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2007, s.13-28
32. Süleymanova E.T., Əliyev Z.H. Avropa İnsan Hüquqları Konvensiyasında

təsbit olunmuş insan hüquq və azadlıqları ilə bağlı müddəaların Azərbaycan təcrübəsində təminatında Ombudsmanın rolu. Beynəlxalq hüquq və inteqrasiya problemləri (elmi-analitik və praktiki jurnal), 2007, № 2 (10), s. 3-22
33. Süleymanova E. BMT-nin İnsan Hüquqları Şurası və Azərbaycan: Universal Dövri İcmal mexanizmi. Ombudsmanların VII Bakı Beynəlxalq konfransının materialları. Bakı, «Oğuz Eli», 2009, s. 179-184
34. Gölcüklü F., Gözübüyük Ş. Avrupa insan hakları sözleşmesi və uyğulaması. Ankara, 1998
35. Reisoğlu S. Uluslararası boyutlarıyla insan hakları. İstanbul, 2001, 326 s.
36. Абашидзе А.Х., Алисиевич Е.С. Право Совета Европы. Конвенция о защите прав человека и основных свобод. М.: Международные отношения, 2007, 304с.
37. Азаров А.Я. Права человека. Новое знание. М., Общество «Знание» России, 1995, 255 с.
38. Алиев З.Г. Институт Омбудсмана в Азербайджанской Республике. Московский журнал международного права, 2005, № 4 (60), с. 120-130
39. Алиев З.Г. Совет Европы, права человека и Азербайджан. Российский ежегодник международного права, 2005. Санкт-Петербург, 2006. с. 278-285
40. Алиев З.Г. Юрисдикция Европейского суда по правам человека и национальное право. Российский ежегодник международного права, 2006. Санкт-Петербург, 2007, с. 230-237
41. Алиев З.Г. Европейский Суд по правам человека как специализированный международный судебный орган. Евразийский юридический журнал, №4 (6), Москва, 2008, с. 9-12
42. Алиев З.Г. Совету Европы-60 лет! Европейскому Суду-50 лет! Российский ежегодник международного права, 2009. Санкт-Петербург, 2010, с. 244-249
43. Афанасьев С.Ф. Конвенция о защите прав человека и основных свобод и российское гражданское судопроизводство. М.: Издательство «Юрлитинформ», 2008, 416 с.
44. Бессарабов В.Г. Европейский Суд по правам человека. М.: Издательство «Юрлитинформ», 2003, 248 с.
45. Бойцова В.В. Служба защиты прав человека и гражданина. Мировой опыт. М., Издательство БЕК, 1996, 408 с.
46. Большой юридический словарь. Под ред. А.Я.Сухарева, В.Е.Крутских. 2-е изд., перераб и доп. М., ИНФРА, 2000, 704 с.
47. Бордунов В.Д. Гражданин против государства в Европейском Суде по

правам человека. М.: Изд-во ОМЕГА-Л, 2005, 125 с.
48. Бутрос - Гали Б. ООН и права человека. М., Права человека. 1995, 176 с.
49. Бущенко А.П. Практика Европейского Суда по правам человека. М.: Спарк, 2001, 215 с.
50. Валеев Р.М. Теоретические проблемы международного контроля. Казань, 1999, 128 с.
51. Валеев Р.М. Контроль в современном международном праве. Казань, Издательство «Центр инновационных технологий», 2001, 300 с.
52. Венская конвенция о праве международных договоров. Комментарий. М., Юрид. лит., 1997, 336 с.
53. Глотов С.А., Петренко Е.Г. Права человека и их защита в Европейском суде. Краснодар, 2000, 142 с.
54. Глухарева Л.И. Права человека в современном мире: Социально-философские основы и государственно-правовое регулирование. М., Юристь, 2003, 304 с.
55. Головистикова А.Н., Грудцына Л.Ю. Права человека. Учебник. М., Эксмо, 2006, 448 с.
56. Гомиен Д. Путеводитель по Европейской конвенции о правах человека. Страсбург, Совет Европы, 2000, 147 с.
57. Гомьен Д., Харрис Д., Зваак Л. Европейская конвенция о правах человека и Европейская социальная хартия: право и практика. М., Издательство МНИМП, 1998, 600 с.
58. Горшкова С.А. Стандарты Совета Европы по правам человека и российское законодательство. Монография. М.: НИМП, 2001, 352 с.
59. Гусева А.Д., Яскевич Я.С. Права человека. Учебное пособие. Минск, 2002.
60. Гусейнов Л.Г. Международные обязательства государств в области прав человека. Баку, Издательство «Hüquq ədəbiyyatı», 1998, 188 с.
61. Гусейнов Л.Г. Международная ответственность государств за нарушения прав человека. Монография. К., Институт государства и права НАН Украины, 2000, 316 с.
62. Гусейнов Т.И. Региональные органы контроля в области защиты прав и свобод человека. Международное право, Баку, 2000, № 3-4, с. 55-63
63. Гусейнова С.Э. Имплементация решений Европейского суда по правам человека в национальных правовых системах. Баку, 2006, издательство «ОСКАР», 212 с.

64. Даниленко Г.М. Международная защита прав человека. Вводный курс.

Учебное пособие. М., Юристь, 2000, 256 с.
65. Дженис М., Кэй Р., Брэдли Э. Европейское право в области прав человека. (Практика и комментарии). Пер. с англ. М., «Права человека», 1997, 640 с.
66. Зимненко Б.Л. Согласование норм внутригосударственного и международного права в правовой системе России. Московский журнал международного права, 2000, № 4, с. 94-103
67. Зимненко Б.Л. Нормы международного права в правовой системе Российской Федерации. Международное публичное и частное право, 2003, №3 (12)
68. Европейское право. Право Европейского Союза и правовое обеспечение защиты прав человека. Учебник для вузов. Рук. авт. колл. и отв. ред. д.ю.н., проф. Л.М.Энтин. М.: НОРМА, 2005, 960 с.
69. Европейский Суд по правам человека. Избранные решения. в 2 т. Т. 1. Председатель редакционной коллегии В.А.Туманов . М., Норма, 2001, 856 с.
70. Европейский Суд по правам человека. Избранные решения. в 2 т. Т. 2. Председатель редакционной коллегии В.А.Туманов . М., Норма, 2001, 808 с.
71. Европейский Суд по правам человека. Избранные постановления 1999-2001 гг. и комментарии / Под ред. Ю.Ю. Берестнева и А.О. Ковтуна. М., издательство «Юридическая литература», 2002, 624 с.
72. Европейский Суд по правам человека. Первые решения по жалобам из России (сборник документов). М., «АЛЗНИ», 2004, 152 с.
73. Европейский Суд по правам человека и Российская Федерация. Постановления и решения, вынесенные до 1 марта 2004 года/отв.ред. Ю.Ю. Берестнев. М.: Норма, 2005, 960 с.
74. Европейская Конвенция о защите прав человека и основных свобод и дополнительные протоколы. С научным комментарием. Составители и авторы научного комментария В.А.Карташкин и И.А.Ледях. М.: Издательство Норма, 1996, 80 с.
75. Защита прав человека и борьба с преступностью. Документы Совета Европы. Сост. Москалькова Т.Н. и др. М.: Издательство «Спарк», 1998, 388 с.
76. Иваненко В.А., Иваненко В.С. Социальные права человека и социальные обязанности государства: международные и конституционные правовые аспекты. СПб., Изд-во «Юридический центр Пресс», 2003, 404 с.
77. Карташкин В.А. Международная защита прав человека. М., 1976, 224 с.

78. Карташкин В.А. Права человека в международном и внутригосударственном праве. М., Институт государства и права РАН, 1995, 132 с.
79. Карташкин В.А. Как подать жалобу в Европейский Суд по правам человека. Комментарий к правилам обращения в Суд. М.: Норма, 2000, 108 с.
80. Карташкин В.А. Права человека: международная защита в условиях глобализации. М.: Норма, 2009, 288 с.
81. Керимов Д.А. Методология права: предмет, функции, проблемы философии права. М., СГА, 2003, 521 с.
82. Комментарий к Конвенции о защите прав человека и основных свобод и практике ее применения. Под общ. ред. В.А.Туманова и Л.М.Энтина-М., Норма, 2002, 336 с.
83. Кононенко В.П. Обычно-правовая природа прецедентного характера решений Европейского Суда по правам человека. Харьков, «Право», 2008, 506 с.
84. Конституционные права и свободы человека и гражданина в Российской Федерации. Учебник для вузов. Под ред. О.И. Тиунова. М., Норма, 2005, 608 с.
85. Конституции зарубежных государств. Учебное пособие. М., Издательство БЕК, 1996, 432 с.
86. Конституции зарубежных государств. Учебное пособие. Сост. В.В.Маклаков. 4-е изд., перераб. и доп. М., Волтерс Клувер, 2003, 624 с.
87. Курдюков Д.Г. Индивидуальная жалоба в контексте Европейской конвенции о защите права человека и основных свобод 1950 г. Воронеж, Воронежский государственный университет, 2001, 192 с.
88. Лукашук И.И. Конституция России и международное право. Российский ежегодник международного права, 1995. Санкт-Петербург, «Россия-Нева», 1996, с. 167-179.
89. Лукашук И.И. Международное право. Общая часть. Учебник. М., БЕК, 1997, 371 с.
90. Лукашук И.И. Международное право. Особенная часть. Учебник. М., БЕК, 1997, 410 с.
91. Лукашук И.И. Конституции государств и международное право. М., Спарк, 1998, 124 с.
92. Лукашук И.И. Глобализация, государство, право, XXI век. М., Спарк, 2000, 279 с.
93. Лукашук И.И. Право международной ответственности. М., Волтерс Клувер, 2004, 432 с.
94. Международные акты о правах человека. Сборник документов. Сост.

В.А.Карташкин, Е.А.Лукашева. 2-е изд., доп. М., Норма, 2002, 944с.
95. Международная и внутригосударственная защита прав человека. Учебное пособие для вузов. Отв. ред. Р.М.Валеев, Р.Г.Вагизов. Казань, Казанский Государственный Университет, 2007, 674 с.
96. Международное гуманитарное право. Под ред. А.Я. Капустина. М.: Высшее образование, Юрайт-Издат, 2009, 587 с.
97. Международное право. Учебник для вузов. Отв. ред. Г.В.Игнатенко, О.И.Тиунов. 4-е изд., перераб. и доп. М., Норма, 2006, 720 с.
98. Международное право. Учебник. Отв. ред. Ю.М.Колосов, Э.С.Кривчикова. М., Международные отношения, 2000, 720 с.
99. Международное право. Учебник для вузов. Под ред. А.А.Ковалева, С.В.Черниченко. М., Изд-во Омега-Л, 2006, 832 с.
100. Международное право в документах. Учебное пособие. 3-е изд., перераб. и доп. Сост. Н.Т.Блатова, Г.М.Мелков. М., 2002, 824 с.
101. Международное право в схемах и таблицах. Учебное пособие. Сост. В.П.Панов и др., М., 1997, 95 с.
102. Международное публичное право. Сборник документов. Том 1, М., БЕК, 1996, 570 с; Том 2. М., БЕК, 1996, 539 с.
103. Международное публичное право. Учебник. 3-е изд., перераб. и доп. Отв. ред. К.А. Бекяшев. М., изд-во Проспект, 2004, 928 с.
104. Международное публичное право. Сборник документов. В 2 ч. ч. I. Сост. К.А. Бекяшева, Д.К. Бекяшев. М., ТК Велби, Изд-во Проспект, 2006, 1408 с.; ч. II . М., ТК Велби, Изд-во Проспект, 2006, 2844 с.
105. Микеле Де Сальвиа. Прецеденты Европейского Суда по правам человека. Руководящие принципы судебной практики, относящейся к Европейской конвенции о защите прав человека и основных свобод. Судебная практика с 1960 по 2002 г. СПб., Издательство «Юридический центр Пресс», 2004, 1072 с.
106. Микеле де Сальвиа. Европейская Конвенция по правам человека. СПб.: Издательство Р.Асланова «Юридический центр Пресс», 2004, 267 с.
107. Мингазов Л.Х. Эффективность норм международного права. Теоретические проблемы. Казань, Издательство Казанского Университета, 1999, 376 с.
108. Мовчан А.П. Права человека и международные отношения. М., Наука, 1982, 143 с.
109. Мутагиров Д. З. Права и свободы человека: теория и практика. Учеб. пособие. М., Университетская книга, Логос, 2006, 544 с.
110. Мюллерсон Р.А. Соотношение международного и национального права,

М., Международные отношения, 1982, 136 с.
111. Мюллерсон Р.А. Права человека: идеи, нормы, реальность. М., Юридическая литература, 1991, 160 с.
112. Мюллерсон Р.А. Соотношение и взаимодействие международного публичного, международного частного и национального права. Теоретико-методологическое исследование. Автореф. дис. на соиск. учен. степ. докт. юрид. наук. М., 1985, 37 с.
113. Нурмухаметова Э.Ф. Полномочия универсальных и региональных органов в области прав человека. Оренбург, Ди Мур, 2000, 115 с.
114. Нурумов Д.И. Особенности формирования в международном праве норм защиты прав человека. «Международное право – International law». 2002, №5, с. 138-152.
115. Обращение в Европейский Суд по правам человека/под общ. ред. Ф.Лича. М.: МОО ПЦ «Мемориал», 2006, 528 с.
116. ООН в XXI веке. Доклад Генерального секретаря ООН К.Аннана. Генеральная Ассамблея ООН. A/54/2001.
117. Общая теория государства и права. Академический курс в 3-х томах. Изд. 2-е, перераб. и доп. Отв. ред. М.Н.Марченко. Том 1. М., ИКД «Зерцало-М», 2001, 528 с.; Том 2. М., ИКД «Зерцало-М», 2002, 528 с.; Том 3. М., ИКД «Зерцало-М», 2002, 528 с.
118. Общая теория прав человека. Под ред. Е.А.Лукашева. М., Норма, 1996, 520 с.
119. Осминин Б.И. Принятие и реализация государствами международных договорных обязательств. Монография. М., Волтерс Клувер, 2006, 408 с.
120. Права человека и вооруженные конфликты. Учебник для высших военных учебных заведений. Отв. ред. В.А.Карташкин. М., Издательство НОРМА (Издательская группа НОРМА-ИНФРА·М), 2001, 384 с.
121. Права человека: итоги века, тендеции, перспективы. Под общ. ред. Е.А.Лукашевой. М., Издательство НОРМА, 2002, 448 с.
122. Права человека. Учебник. Отв. ред. Е.А.Лукашева. М., НОРМА, 2003, 573 с.
123. Права человека в международном и внутригосударственном праве. Учебник для вузов. Отв. ред. Р.М.Валеев. Ка-зань, Казанский государственный университет имени В.И.Ульянова-Ленина, 2004, 300 с.
124. Права человека и процессы глобализации современного мира. Отв. ред. Е.А.Лукашева. М., Норма, 2005, 464 с.
125. Права человека в России и правозащитная деятельность государства.

Сборник материалов Всероссийской научно-практической конференции, 12 мая 2003 г. Под ред. В.Н.Лопатина. СПб., Изд-во «Юридический центр Пресс», 2003, 400 с.
126. Путеводитель по прецедентной практике Европейского Суда по правам человека за 2003 год. Науч. ред.-сост. Берестнев Ю.Ю., Виноградов М.В.; пер. с англ. Власихин В.А. М.: «Новая юстиция», 2005, 520 с.
127. Рожкова М.А., Афанасьев Д.В. Новые правила обращения в Европейский Суд по правам человека. Текст регламента, новеллы, комментарии. М.: «Статут», 2004, 256 с.
128. Саидов А.Х. Общепризнанные права человека. Учебное пособие. М., МЗ ПРЕСС, 2002, 267 с.
129. Саидов А.Х. Международное право прав человека. Учебное пособие. М., Академический правовой университет, 2002, 197 с.
130. Самович Ю.В. Право на судебную защиту индивида в Европейском Суде по правам человека. Казань, Казанский государственный университет им. В.И. Ульянова-Ленина, 2005, 180 с.
131. Самович Ю.В. Международная судебная защита прав человека. Казань, Казанский государственный университет им. В.И. Ульянова-Ленина, 2006, 318 с.
132. Сафаров Н.А. Экстрадиция в международном уголовном праве: проблемы теории и практики. М., Волтерс Клувер, 2005, 416 с.
133. Сонькин Н.Б. Адвокат в Европейском суде по правам человека. М.: Издательство «Юрлитинформ», 2004, 288 с.
134. Теория государства и права. Курс лекций. 2-е изд., перераб. и доп. Под ред. Н.И. Матузова и А.В. Малько. 2-е изд., перераб. и доп., М., Юристъ, 2001, 776 с.
135. Тиунов О.И. Международное гуманитарное право. Учебник для вузов, М., Норма, 2000, 328 с.
136. Топорнин Б.Н. Европейское право. Учебник. М., Юристь, 1999, 456 с.
137. Тузмухамедов Б.Р. Международное право в конституционной юрисдикции. М.: Юристъ, 2006, 463 с.
138. Туманов В.А. Европейский суд по правам человека: очерк организации и деятельности. М., Норма, 2001, 304 с.
139. Туманова Л.В., Владимирова И.А. Защита семейных прав в Европейском Суде по правам человека. М.: Издательский Дом «Городец», 2007, 208 с.
140. Тункин Г.И. Теория международного права. Под общей ред. Л.Н.Шестакова. М., Издательство «Зерцало», 2000, 416 с.

141. Ушаков Н.А. Проблемы теории международного права. М., Наука, 1988, 191 с.
142. Хаммарберг Т. Права человека в Европе: незавершенная миссия. Точка зрения Комиссара по правам человека Совета Европы. Council of Europe, March 2007, с. 115
143. Хартия Европейского Союза об основных правах. Комментарий. Под ред. С.Ю.Кашкина. М., Юриспруденция, 2001, 208 с.
144. Хлобустов О.М., Рыкунов В.И., Павленко С.З., Подуфалов В.Д. Права человека и интересы национальной безопасности. М., Московская школа прав человека, 1999, 181 с.
145. Черниченко С.В. Теория международного права. В 2-х томах. Том 1: Современные теоретические проблемы. М., Издательство «НИМП», 1999, 336 с; Том 2: Старые и новые теоретические проблемы. М., Издательство «НИМП», 1999, 531 с.
146. Шибаева Е.А. Специализированные учреждения ООН. М., 1966.
147. Экштайн К. Основные права и свободы. По российской Конституции и Европейской Конвенции. М., НОТА БЕНЕ, 2004, 496 с.
148. Энтин М.Л. Политико-правовые последствия вступления России в Совет Европы. Московский журнал международного права, 1996, № 3, с. 97-111.
149. Энтин М. Международные гарантии прав человека: опыт Совета Европы. М., МНИМП, 1997, 296 с.
150. Эрделевский А.М. Обращение в Европейский Суд. М.: Юристъ, 1999, 158 с.
151. Юридическая энциклопедия. Отв.ред. Б.Н. Топорнин. М., Юристь, 2001, 1272 с.
152. Юридический энциклопедический словарь. Румянцев О.Г., Додонов В.Н. М., ИНФРА - М, 1996, 384 с.
153. An Introduction to the International Protection of Human Rights. A Textbook (Ed. by R. Hanski and M. Suksi). Turku, 1997, 380 p.
154. Basic facts about the United Nations. United Nations, New York, 2004, 359 p.
155. Beddard R. Human Rights and Europe (3rd ed.). L., 1993, 408 p.
156. Berg L. Bringing Cases before the European Commission and Court of Human Rights. Turku, 1997, 161 p.
157. Bloed A., Leicht L., Nowak M., Rosas A. Monitoring Human Rights in Europe: comparing international procedures and mechanisms. Dordrecht-Boston-London, 1993, 348 p.
158. Buergenthal T. The American and European Convention on Human Rights:

Similarities and Difference. The American University Law Review, 1980, vol. 30, p. 155-188.
159. Buergenthal T., Shelton D. Protecting Human Rights in the Americas. Fourth revised edition, Strasbourg, 1995, 512 p.
160. Buergenthal T. The Normative and Institutional Evolution of International Human Rights. Human Rights Quarterly, 1997, vol. 19, p. 703-723.
161. Clare Ovey and Robin White. The European Convention on Human Rights. Oxford University Press, 2002. 506 p.
162. Davidson S. The Inter-American Human Rights System. Dartmouth: Aldershot-Broofield, USA-Singapore-Sydney, 1997, 412 p.
163. Guide to International Human Rights Practice. Second edition (Ed. by H. Hannum). Philadelphia, 1992, p. 308.
164. Haesler T. The Exhaustion of Local Remedies in the Case Law of International Courts and Tribunals. Leiden, 1968, 164 p.
165. Harris D.J. The European Social Charter. University Press of Virginia: 1984, 228 p.
166. Harris D.J., O'Boyle M., Warbrick C. Law of the European Convention on Human Rights. London-Dublin-Edinburgh. 1995, 753 p.
167. Heffernan L. A Comparative View of Individual Petition Procedures under the European Convention on Human Rights and the International Convention on Civil and Political Rights. Human Rights Quarterly, 1997, vol. 19, p. 78-112.
168. Human Rights and Good Governance. Building Bridges. Edited by Hans-Otto Sano and Gudmundur Alfredson with the collaboration of robin Clapp. Martinus Nijhoff Publishers. The Hague/London/New York, 2002, 261 p.
169. Klerk Y.S. Supervision of the Execution of the Judgments of the European Court of Human Rights: The Committee of Ministers' Role under Article 54 of the European Convention on Human Rights. Netherlands International Law Review, 1998, vol. 45, No. 1, p. 65-86.
170. Krisch N. The Establishment of an African Court on Human and Peoples' Rights. Zeitschrift fur auslandisches offentliches Recht und Volkerrecht, 1998, Band 58/3, p. 713-732.
171. Leach Ph. Taking a Case before the European Court of Human Rights. L., 2001, 393 p.
172. Macdonald R. St. J., Matscher F., Petzold H. (eds.). The European System for the Protection of Human Rights. Dordrecht-Boston-London, 1993, 940 p.
173. McGoldrick D. The Human Rights Committee: Its Role in the Development of the International Covenant on Civil and Political Rights. Oxford, 1994,

474 p.
174. Monitoring Human Rights in Europe: Comparing International Procedures and Mechanisms. The International Helsinki Federation for Human Rights (Ed. by A. Bloed), Dordrecht-Boston-London, 1993, 338 p.
175. Montgomery J. Human Rights and Human Dignity. Dallas, 1986.
176. Mower A.G. Regional Human Rights: A Comparative Study of the West-European and Inter-American Systems. New York, 1991. 196 p.
177. Nowak M. Introduction to the International Human Rights Regime. Martinus Nijhoff Publishers. Leiden/Boston, 2003, 365 p.
178. Nowak M. U.N. Covenant on Civil and Political Rights. CCPR Commentary. N.P. Engel, Publisher, 2005, 1277 p.
179. Robertson A. Human Rights in the World: An Introduction to the Study of the International Protection of Human Rights. Manchester, 1989, 422 p.
180. Schwelb E. The Actio Popularis and International Law. Israel Yearbook on Human Rights, 1972, vol. 2, p. 46-56.
181. Shelton D. Remedies in International Human Rights Law. Oxford, 2000, 388 p.
182. Thomas Pogge. Fredom from Poverty as a Human Right. Oxford university press, 2007, 406 p.
183. Tomkins A. The Committee of Ministers: Its Roles under the European Convention on Human Rights. European Human Rights Law Review, 1995, p. 49-62.
184. Trindade A.A.C. Co-existence and Co-ordination of Mechanisms of International Protection of Human Rights (at Global and Regional Levels), Collective Courses of the Hague Academy of International Law, 1987, vol. 202, No. 2, p. 9-435.
185. Vasak V. The Council of Europe //The International Dimensions of Human Rights, 1982. vol. 2
186. Zwart T. The Admissibility of Human Rights Petitions: The Case Law of the European Commission of Human Rights and the Human Rights Committee. Dordrecht-Boston-London, 1994, 246 p.
187. Marguenaud J. - P. La Cour europeenne des droits de l’Homme. Paris, 1997
188. Pettiti. - E., Decaux E., Imbert P. - H. La Convention europeenne des droits de l’Homme. Paris, 1995

**ƏLİYEV ZAUR HÜMBƏT oğlu**

# AVROPA İNSAN HÜQUQLARI MƏHKƏMƏSİ

***Dərs vəsaiti***

***(Azərbaycan dilində)***

**АЛИЕВ ЗАУР ГУМБАТ оглы**

# ЕВРОПЕЙСКИЙ СУД ПО ПРАВАМ ЧЕЛОВЕКА

***Учебное пособие***

***(на Азербайджанском языке)***

**ALIYEV ZAUR HUMBAT**

# EUROPEAN COURT OF HUMAN RIGHTS

***Textbook***

***(in Azerbaijani language)***

Yığılmağa verilmişdir: 05.04.2012
Çapa imzalanmışdır: 23.04.2012
Formatı: 70X100 1/16
Həcmi: 14,5 ç.v.
Tirajı:1000
Sifariş:10

Kitab "AZSEA" MMC-də çap edilmişdir.



DEUTSCHE STIFTUNG FÜR INTERNATIONALE RECHTLICHE ZUSAMMENARBEIT E.V.

ALMANİYA BEYNƏLXALQ HÜQUQ ƏMƏKDAŞLIĞI FONDU

giz

BMZ

Federal Ministry
for Economic Cooperation
and Development

AHİM

AZƏRBAYCAN HÜQUQ İSLAHATLARI MƏRKƏZİ
AZERBAIJAN LAW REFORM CENTRE